# NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNİN LÜĞƏTİ

ƏBÜLFƏZ QULİYEV
NURAY ƏLİYEVA

# NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNİN LÜĞƏTİ

*AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 21 aprel 2017-ci il tarixli 05/15 nömrəli (pr.№5) qərarı ilə çapa məsləhət görülmüşdür.*


**Əbülfəz Quliyev**
**Nuray Əliyeva**



Naxçıvan-2017

**Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi**
**İncəsənət, Dil və Ədəbiyyat İnstitutu**

Elmi redaktor: **İbrahim BAYRAMOV**
*filologiya üzrə elmlər doktoru, professor*

Rəyçi: **Rəşad ZÜLFÜQAROV**
*filologiya üzrə fəlsəfə doktoru*

***Əbülfəz Aman oğlu Quliyev, Nuray Yadigar qızı Əliyeva. Naxçıvan dialekt və şivələrinin lüğəti.*** *Naxçıvan, "Əcəmi" nəşriyyatı, 2017, 296 səh.*

*Kitabda Naxçıvanın ayrı-ayrı rayon və kəndlərində işlədilən dialekt sözlər toplanmış, onların mənası dəqiqləşdirilmiş, işlənmə məqamları aydınlaşdırılımışdır. Toplanan bu sözlər dilimizin tarixini, xalqımızın çox-çox qədimlərə gedib çıxan keçmişini, həyatını, məişətini özündə əks etdirir. Belə sözləri dialekt və şivələrdən seçmək, onların semantikasını müəyyənləşdirmək dilimizin keçmişinə də işıq tutur, dil tariximizi öyrənmək üçün mühüm faktlar verir. Kitab mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutlmuşdur.*

***Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.***
***Qrant № EİF-KETPL-2-2015-1(25)-56/55/5***

4700000000
053-2017

© "Əcəmi" 2017

# ÖN SÖZ

Naxçıvan Muxtar Respublikası Azərbaycanın ən qədim bölgələrindən biridir. O, Araz çayının sol qolu olan Naxçıvan çayının sahilində yerləşir. Ərazisinin təxminən 70 %-i dəniz səviyyəsindən 1000 m yüksəklikdədir. Regionun zəngin təbiəti və əlverişli coğrafi mövqeyi qədim zamanlardan insanların burada məskən salmaları üçün şərait yaratmışdır. Ərazidən tapılan maddi-mədəniyyət nümunələri və arxeoloji abidələr bu yaşayış məskəninin 500-300 min illik bir tarixə malik olduğunu göstərməkdədir.

Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Cənubi Qafqazın ən cənub rayonlarından olub, Kiçik Qafqazın cənub-qərb hissəsində yerləşir. Ərazisi simal və şimal-şərqdən Ermənistan, cənub və cənub-qərbdən İran İslam Respublikası və Türkiyə ilə həmsərhəddir. Ümumi sahəsi 5,5 min $km^2$, əhalisi 435 min nəfərdir.

Naxçıvan dialekt və şivələri Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisini əhatə etməklə Azərbaycan dili dialekt və şivələrinin cənub qrupunu özündə birləşdirir. Leksikonu olduqca zəngin olan bu qrupda ədəbi dildə işlənməyən bir çox söz və ifadələrlə rastlaşırıq. Göstərilən ayrı-ayrı şivələrdə bu ifadələr elə fonetik variantda işlədilir ki, eyni bir əşya, yaxud məfhum başqa-başqa sözlərlə ifadə olunur. Bu zəngin dialekt leksikası birdən-birə yaranmamış, Azərbaycan dilinin uzun sürən tarixi inkişafı nəticəsində meydana gəlmişdir. Azərbaycan dilinin, o cümlədən dialekt və şivələrimizin lüğət tərkibinin əsası türk mənşəli sözlərdən ibarətdir.

Dilin lüğət tərkibinin zənginləşməsində dialekt leksikasının da böyük rolu vardır. Dilin tarixi inkişafı nəticəsində dia-

lektizmlərin bir qismi özünün məhəlli xüsusiyyətlərini itirərək ədəbi dilin leksikasına daxil olur. Bu baxımdan dialekt və şivələrin leksikasının öyrənilməsinin çox böyük əhəmiyyəti var. Elmin, texnikanın inkişafı və bu inkişaf prosesində yaranan çoxsaylı terminlər dildə qarşılığı olmadığı üçün məcburən başqa dillərə müraciət edilir. Lakin dialekt və şivələrin müxtəlif sahələrə aid zəngin lüğət materialı dilimizə gələn yeni məfhumların adlarının xalq dili əsasında yaradılmasına imkan verir.

Ümumiyyətlə, qədim sözlər və sözlərin qədim mənaları ədəbi dilə nisbətən xalqın məişəti ilə əlaqədar leksikada, dialekt və şivələrimizdə, folklor nümunələrinin dilində daha çox mühafizə olunur. Bu nümunələr xalqın həyatında baş verən dəyişiklikləri özündə tamamilə əks etdirir. Naxçıvan dialektinin lüğət tərkibində elə sözlərə rast gəlirik ki, onlar vaxtilə Azərbaycanın qədim yazılı abidələrində işlənmiş, daha sonra ədəbi dilimiz üçün arxaikləşmiş, lakin dialektin leksikasında mühafizə olunmuşdur. Bu isə həmin leksik vahidin həm qədimliyini, həm də tarixən Azərbaycan dilinə mənsub olduğunu göstərir. Bu gün dialekt və şivələrdə işlənən hər hansı sözün qədim yazılı abidələrimizdə işlənməsi onu göstərir ki, həmin leksik vahid abidənin yarandığı dövrün dialekt və şivələri üçün də işlək olmuşdur.

Məlumdur ki, dialekt faktları dilin tarixinin canlı nümunələridir. Eyni zamanda milli ədəbi dilimizin formalaşmasında yerli dialekt və şivələrin öz rolu vardır. Ona görə də Azərbaycan dilinin dialekt və şivələri hələ XIX əsrdə elm adamlarının diqqətini cəlb etmiş, görkəmli Azərbaycan alimi Mirzə Kazımbəy ilk dəfə 1839-cu ildə Kazan şəhərində nəşr olunmuş "Türk-tatar dillərinin ümumi qrammatikası" əsərində Azərbaycan dilinin dialekt və şivələrindən də bəhs etmiş, burada Quba

və Dərbənd dialektlərindən bəzi nümunələr vermişdir. Azərbaycan dilinin dialekt və şivələrinin tədqiqinə həsr olunmuş ayrıca tədqiqat əsərini isə N.Aşmarin 1926-ci ildə nəşr etdirmişdir. Belə ki, onun "Nuxa şəhəri türk şivələrinin ümumi icmalı" adlı əsəri dialektoloji tədqiqatların tarixində ilk monoqrafik əsər sayılır. Aşmarinin ümumi rəhbərliyi altında yerlərə göndərilən proqram və təlimat əsasında 1930-cu ilə qədər Naxçıvan bölgəsi də daxil olmaqla Azərbaycanın müxtəlif dialekt və şivələrinə aid 60 minə yaxın leksik vahid toplanmışdır. Toplanan materiallar əsasında "Azərbaycan türk xalq şivələri lüğəti" adlı əsərin birinci cildi (A hərfi) və ikinci cildi (B hərfi) 1930-cu ildə nəşr olundu. XX əsrin 30-cu illərində ilk elmi dialektoloji tədqiqat aparan İdris Zaman oğlu Həsənovun fəaliyyəti də diqqəti cəlb edir. Amma o 1937-ci il repressiyasına qurban getdiyi üçün bu iş yarımçıq qalmışdır. Azərbaycan elminə böyük zərbə vuran 37-ci il hadisələrindən sonra bu sahədə bir müddət sakitlik olmuş, elmi tədqiqat aparılmamış, nəhayət, 1943-cü ildə akademik M.Şirəliyev "Bakı dialekti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyasının təşkil olunması və ondan az sonra Dil və Ədəbiyyat İnstitutunun yaradılması dialektologiya sahəsində elmi tədqiqatların canlanmasına səbəb olmuşdur.

Bu elmi araşdırmalar fonunda 50-ci illərdə Azərbaycan Respublikasının dialektoloji baxımdan zəngin bölgələrindən biri olan Naxçıvan Muxtar Respublikasının dialekt və şivələri də elm adamlarının diqqətini çəkmişdir. 1950-55-ci illərdə əsasən akademiyanın dilçi alimləri tərəfindən ekspedisiya yolu ilə bölgənin dialekt və şivələrinə aid külli miqdarda dil materialı toplanmışdır. Təfsilata varsaq 1950-ci ildə B.M.İbrahimov, K.T.Ramazanov, T.B.Həmzəyev, A.Bayramov, A.Ə.Aslanov

və E.M.Əlibəyzadə Ordubad rayonunun Aza, Bist, Biləv, Vələver, Vənənd, Dəstə, Dırnıs, Əylis, Kələki, Kotam, Gənzə, Nüsnüs, Sabirdizə, Tivi və yenə həmin ildə B.M.İbrahimov, K.T.Ramazanov, T.B.Həmzəyev, H.A.Bayramov, A.Ə.Aslanov və E.M.Əlibəyzadə Culfa rayonunun Bəyəhməd, Bənəniyar, Qazançı, Qızılca, Əbrəqunus, Ərəfsə, Ərəzin, Kırna, Saltaq, Ləkətağ, Milax, Noraşen (Göydərə), Teyvaz, Xanağa (Xanəgah), Camaldın, Yaycı şivələrini, 1951-ci ildə K.T.Ramazanov, T.B.Həmzəyev Noraşen (Şərur) rayonunun Alışar, Axura, Qarabağlar, Qıvraq, Dəmirçi, Dizə, Yengicə, İbadulla, Kürçülü, Maxta, Püsyan, Sədərək, Xanlıqlar, Çərçiboğan, Yaycı şivələrini, 1953-cü ildə R.Ə.Rüstəmov, B.M.İbrahimov, K.T.Ramazanov, T.B.Həmzəyev və R.Ə.Süleymanov Şahbuz rayonunun Aşağı Qışlaq, Badamlı, Biçənək, Əzizbəyov, Keçili, Kolanı, Kənd Şahbuz, Külüs, Kükü, Mahmudoba, Məzrə, Nurs, Remeşin, Sələsüz, Tırkeş, Şada şivələrini, 1954-cü ildə R.Ə.Rüstəmov, B.M.İbrahimov, K.T.Ramazanov, T.B.Həmzəyev Naxçıvan rayonunun (Babək) Qaraçuq, Qoşadizə, Didivar, Nehrəm, Cəhri, Çeşməbasar, Sirab, Şəkərabad, Naxçıvan (şəhər) şivələrini öyrənmişlər. 1955-ci ildə prof. M.Ş.Şirəliyevin, R.Ə.Rüstəmov, B.M.İbrahimov, K.T.Ramazanov, M.İ.İslamovun iştirakı ilə yekunlaşdırıcı ekspedisiya Naxçıvan Muxtar Respublikasında çalışmışdır.

Dialektoloji tədqiqatlardan aydın olur ki, Azərbaycan, o cümlədən Naxçıvan dialekt və şivələri uzun müddət üç istiqamətdə öyrənilmişdir:

1. Azərbaycan, həmçinin Naxçıvan dialekt və şivələrinin monoqrafik tədqiqidir ki, bu sahədəki işlər prof. M.Şirəliyev, R.Rüstəmov və K.Ramazanov tərəfindən tərtib olunmuş və 1956-cı ildə çapdan çıxmış “Azərbaycan dili dialekt və şivələrinin

monoqrafik tədqiqinə aid proqram” əsasında aparılmışdır.

2. Azərbaycan və Naxçıvan MR dialekt və şivələrinin dilçilik coğrafiyası əsasında öyrənilməsidir ki, bu sahədəki işlər M.Şirəliyev və R.Rüstəmov tərəfindən tərtib olunan və 1958-ci ildə çapdan çıxmış “Azərbaycan dilinin dialektoloji atlasının tərtibi üçün toplanmış materialların proqramı” əsasında aparılmışdır.

3. Azərbaycan, o cümlədən Naxçıvan MR dialekt və şivələrinin lüğətinin tərtib olunmasıdır ki, bu istiqamətdə də xeyli işlər görülmüşdür.

Bu tədqiqat işlərini quran elm adamları təkcə 5 ildə Naxçıvan dialekt və şivələrinə aid material toplamaqla kifayətlənməmiş, bu tədqiqatın nəticələri ayrı-ayrı elmi məqalələrdə öz əksini tapmışdır. Dialekt materialları ümumiləşdirilib kitab halına salınanadək dialektoloqlarımızın bu istiqamətdə çap etdirdikləri məqalələrin bəzilərini nəzərdən keçirək: prof. M.Şirəliyevin “Naxçıvan dialekti (ümumi qeydlər)”, “Şahbuz şivələrinin fonetikası”, T.B.Həmzəyev “Ordubad rayonu dialektinin fonetik xüsusiyyətləri”, “Ordubad dialektinin leksikası haqqında qeydlər”, “Ordubad dialektinin morfologiyasına aid bəzi qeydlər”, K.T.Ramazanovun “Noraşen rayonu şivələrinin bəzi xarakterik morfoloji xüsusiyyətləri haqqında”, R.Ə.Süleymanovun “Ordubad və Culfa rayon şivələrinin leksik xüsusiyyətləri”, R.Rüstəmovun “Şahbuz şivələrinin sintaksisi”, A.Həsənovun “Ordubad dialektinin bəzi xarakterik leksik və morfoloji xüsusiyyətləri” və s.

Həmin dövrdə yuxarıda göstərilən elmi məqalələrin nəşri Naxçıvan dialekt və şivələrinin geniş tədqiqi istiqamətində atılan əməli addımlar idi. Məhz bu araşdırmaların ümumi yekunu olaraq 1962-ci ildə M.Şirəliyevin redaktorluğu ilə “Naxçıvan MSSR-in

dialekt və şivələri" adlı elmi monoqrafiya işıq üzü gördü. Həmin monoqrafiyada Naxçıvan qrupuna daxil olan dialekt və şivələrin fonetik, leksik, qrammatik xüsusiyyətlərinə dair elmi araşdırmalar öz əksini tapmışdır. Müqayisəli-tarixi üsuldan istifadə edilərək yazılan bu monoqrafiya Azərbaycan dialektologiyasının tarixində yeni bir mərhələ təşkil edir. Bir çox materiallar qohum dillərin faktları, türk dillərinə aid qədim yazılı mənbələr, Azərbaycan klassik ədəbiyyatının materialları ilə müqayisə edilmişdir. Onu da qeyd etmək lazımdır ki, əsər kollektiv əməyin nəticəsi olaraq meydana çıxmışdır. Belə ki, əsərin ayrı-ayrı hissələri prof. M.Şirəliyev (fonetika), K.T.Ramazanov (morfologiya), R.Ə.Rüstəmov (sintaksis və Şahbuz şivələrinin mətnləri), B.M.İbrahimov (leksika, A-K hərfləri, mətnlər), A.H.Vəliyev (leksika, L-Ş hərfləri, terminlər) tərəfindən işlənib hazırlanmışdır.

Sonrakı dövrlərdə də Naxçıvan dialekt və şivələrinin tədqiqi ilə bir sıra alimlər məşğul olmuş, bu mövzuda nonoqrafiya və namizədlik dissertasiyası yazmışlar. Bunlardan T.Həmzəyev, Ə.Quliyev, K.İmanquliyeva, M.Zeynalov, M.Əhmədovun xidmətini xüsusilə qeyd etmək lazımdır. Belə ki, T.Həmzəyev Ordubad dialektini, Ə.Quliyev Şahbuz şivələrini, M.Zeynalov dialekt və şivələrimizin məişət leksikasını, K.İmanquliyeva Şərur rayon şivələrini, M.Əhmədov Naxçıvan bölgəsinin dialekt leksikasını tədqiq etmişlər.

Ümummilli liderimiz Heydər Əliyevin 7 avqust 2002-ci ildə imzaladığı Sərəncamla AMEA-nın Naxçıvan Bölməsi təşkil olunmuşdur. Naxçıvan regionunun maddi və mənəvi sərvətlərini daha effektli şəkildə öyrənmək bölmənin 6 elmi-tədqiqat müəssisəsi qarşısında bir vəzifə olaraq qoyulmuşdur. Bu elmi-tədqiqat institutlarından biri də İncəsənət, Dil və Ədəbiyyat İnstitutudur. 7 şöbəsi olan bu institutun Dilçilik şöbəsinin plan

işinin mövzusu Naxçıvan dialekt və şivələrini əsaslı surətdə yenidən elmi şəkildə tədqiq etməkdən ibarətdir. Keçən müddət ərzində 4 elmi işçisi olan şöbənin əməkdaşları vaxtaşırı əraziyə elmi ekspedisiyalar təşkil etmiş, müəyyən miqdarda dialekt materialı toplamış, bu materialları kameral şəkildə öyrənmişlər. Bu tədqiqatların nəticələri məqalə şəklində təqdim edilməklə yanaşı, eyni zamanda "Naxçıvan dialekt və şivələri" adlı türkcə monoqrafiya (Nahçıvan ağzı) şöbənin əməkdaşı müxbir üzv Əbülfəz Quliyev tərəfindən Ankaradakı Türk Dil Qurumu nəşriyyatında iri həcmdə nəşr edilmişdir. Əbülfəz Quliyev Türkiyədə eyni zamanda "Nahçıvan ağızlarının söz varlığı" kitabını da nəşr etdirmişdir. Şöbənin əməkdaşı Nuray Əliyeva elmi-tədqiqatlarını başa çatdıraraq 2010-cu ildə "Azərbaycan dilinin Şahbuz şivələri" mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. Onun eyni zamanda "Azərbaycan dilinin Şahbuz şivələri" və rus dilində "Naxçıvan şivələrinin frazeologiyası" adlı monoqrafiyaları da nəşr olunmuşdur. Şöbənin digər əməkdaşı Rəşad Zülfüqarov Ordubad və Culfa rayonlarının dialekt və şivə xüsusiyyətlərinin tədqiqini başa çatdıraraq, 2015-ci ildə fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir. Şöbə əməkdaşı Əbülfəz Quliyev Nəsimi adına Dilçilik İnstitunun əməkdaşları ilə birlikdə "Naxçıvan dialekt və şivələrinin atlası" kitabını nəşr etmişlər.

Bu gün oxuculara təqdim olunan bu əsər də aparılan geniş tədqiqatların nəticəsi olaraq ərsəyə gəlmişdir. Burada Naxçıvanın ayrı-ayrı rayon və kəndlərində işlədilən üç mindən artıq dialekt sözü toplanmış, onların mənası dəqiqləşdirilmiş, işlənmə məqamları aydınlaşdırılımışdır. Toplanan bu sözlər dilimizin tarixini, xalqımızın çox-çox qədimlərə gedib çıxan

keçmişini, həyatını, məişətini özündə əks etdirir. Tarixən dilimizdə mövcud olmuş bir çox vahidlər sonrakı uzun inkişaf dövründə dildən çıxmış, arxaikləşərək dilin passiv lüğət fonduna keçmişdir. Bəzi vahidlər isə tamamilə unudulmuşdur. Belə sözləri dialekt və şivələrdən seçmək, onların semantikasını müəyyənləşdirmək dilimizin keçmişinə də işıq tutur, dil tariximizi öyrənmək üçün mühüm faktlar verir.

Azərbaycan ərazisində artıq erkən orta əsrlərdə ümumxalq türk dilinin mövcud olması göstərir ki, bu dil qədim, yerli türk etnoslarının dilləri əsasında yaranmışdır. Ona görə də Azərbaycan dilində, onun dialekt və şivələrində, digər türk dillərində, qədim formalarını qoruyub saxlamış çoxlu leksik vahidlər mövcuddur ki, bunların geniş tədqiqi dilimizin yazıyaqədərki vəziyyətinin öyrənilməsinə mühüm faktlar verə bilər.

Dialekt və şivələrimiz xalq, millət üçün onu ən yaxşı, hərtərəfli xarakterizə edən dəyərlər sistemidir. Öz xüsusiyyətini tədricən itirməsi onların məhz bu gün ciddi tədqiqata cəlb olunmasını aktuallaşdırır. Çünki şivələrlə ədəbi dil arasındakı həm fonetik, həm leksik, həm də qrammatik fərqlərin get-gedə azalması onların öyrənilməsində çətinlik yaradır. Məhz bu baxımdan Naxçıvan dialektinin leksikasının da öyrənilməsi, burada hələ də öz varlığını qoruyub saxlayan, xalqın yaddaşında yaşayan dialektizmlərin toplanması dilçiliyimizin qarşısında duran mühüm və aktual məsələlərdən biri idi. Əminik ki, bu əsər gələcəkdə bu sahədə aparılacaq tədqiqatlara da işıq tutacaq, onlar üçün qiymətli bir mənbə, mayak rolunu oynayacaqdır.

**Əbülfəz QULİYEV,**
*AMEA-nın müxbir üzvü*
**Nuray ƏLİYEVA,**
*filologiya üzrə fəlsəfə doktoru*

## LÜĞƏTİN QURULUŞU VƏ TƏRTİB ÜSULU

1. Lüğətdə baş sözlər əlifba sırası ilə verilir.
2. Baş sözdən sonra onun işləndiyi rayonun və ya kəndin adı mötərizə içərisində verilir; məs.:
   **Ağurux** (Keçili, Kükü) - ...
   **Becid** (Naxçıvan, Ordubad) - ...
3. Əgər söz bir neçə rayonda və ya kənddə işlənirsə, onların adı da əlifba sırası ilə verilir; məs.:
   **Qapan-qapış** (Bulqan, Naxçıvan, Nəzərabad) - ...
   **Şeramat** (Dəstə, Vənənd) - ...
   **Vəğəm** (Boyəhməd, Kırna) - ...

4. Lüğətdə çoxmənalı sözlər bir-birindən ərəb rəqəmləri ilə ayrılır və onların arasında nöqtəli vergül qoyulur; məs.:

**Bordax** (Babək, Culfa, Kəngərli, Şahbuz, Şərur) – 1. heyvanı kökəltmək üçün tövlədə ayrılmış xüsusi yer; 2. kökəldilmiş, bəslənmiş heyvan.

**Qolçax** (Şahbuz) – 1. arı sancmasın deyə qola geyilən dəridən tikilmiş geyim; 2. çörəyi təndirə yaparkən, taxıl biçərkən qola dolanan parça.

5. Omonim sözlər ayrılıqda baş söz kimi verilir və onlardan sonra Rum rəqəmləri qoyulur; məs.:

**Çət** I ...– qoz. -...

**Çət** II ... – taxıl yuyulub təmizlənərkən çıxan zibil. –...

**Xəşə** I ...– qəzildən toxunan enli və böyük çuval. –...

**Xəşə** II ...- yoncayabənzər yabanı bitki. -...

6. Hər bir baş sözə aid misal-cümlə verilir.

# FONETİK TRANSKRİPSİYA

Lüğətdə ədəbi dildə olmayan, Naxçıvan dialekt və şivələrində qarşılaşdığımız aşağıdakı hərf və işarələrdən istifadə olunmuşdur:

x' – dilortası sürtünən kar səsdir. Hərfin üstündə qoyulan işarə (') isə səsin yumşaq tələffüz olunduğunu bildirir.

: - hərfin sağ tərəfində iki nöqtə qoyulur və saitin uzun tələffüz olunduğunu göstərir; məs.: sə:rdən, damı:n, so:ra, kişi:n.

˜: saitin həm burunda, həm də uzun tələffüz olunduğunu göstərir; məs.: qabıã:, oğlã:, nəvã:.

# MATERİAL TOPLANMIŞ YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN SİYAHISI

## NAXÇIVAN ŞƏHƏRİ

| | | | |
|---|---|---|---|
| -Naxçıvan | -Qaraçuq | -Qaraxanbəyli | -Tumbul |
| -Əliabad | | | |

## BABƏK PAYONU

| | | | |
|---|---|---|---|
| -Babək | -Güznüt | -Naxışnərgiz | -Vayxır |
| -Araz | -Hacıvar | -Nəhəcir | -Yarımca |
| -Aşağı Buzqov | -Kərimbəyli | -Nehrəm | -Yuxarı Buzqov |
| -Cəhri | -Kültəpə | -Nəzərabad | -Yuxarı Uzunoba |
| -Çeşməbasar | -Qahab | -Payız | -Zeynəddin |
| -Didivar | -Qoşadizə | -Sirab | |
| -Gərməçataq | -Məmmədrza Dizə | -Şəkərabad | |
| -Göynük | -Məzrə | -Şıxmahmud | |

## CULFA RAYONU

| | | | |
|---|---|---|---|
| -Culfa | -Əlincə | -Xanəgah | -Saltaq |
| -Bənəniyar | -Ərəfsə | -Kırna | -Şurud |
| -Camaldın | -Ərəzin | -Qazançı | -Teyvaz |
| -Dizə | -Göydərə | -Ləkətağ | -Yaycı |
| -Əbrəqunus | -Gülüstan | -Milax | |

## KƏNGƏRLİ RAYONU

| | | | |
|---|---|---|---|
| -Qıvraq | -Xıncab | -Qarabağlar | -Yeni Kərki |
| -Böyükdüz | -Xok | -Şahtaxtı | -Yurdçu |
| -Çalxanqala | -Qabıllı | | |

## ORDUBAD RAYONU

| | | | | |
|---|---|---|---|---|
| -Ordubad | -Bist | -Gilançay | -Nüsnüs | -Unus |
| -Aşağı Əndəmic | -Çənnəb | -Xanağa | -Parağa | -Üstüpü |
| -Aşağı Əylis | -Dəstə | -Xurs | -Parağaçay | -Vələver |
| -Aza | -Dırnıs | -Kələki | -Sabirkənd | -Vənənd |
| -Azadkənd | -Düylün | -Qoşadizə | -Şəhriyar | -Yuxarı Əndəmic |
| -Biləv | -Gənzə | -Nəsirvaz | -Tivi | -Yuxarı Əylis |

## SƏDƏRƏK RAYONU

| | | | |
|---|---|---|---|
| -Heydərabad | -Kərki* | -Qaraağac | -Sədərək |

## ŞAHBUZ RAYONU

| | | | |
|---|---|---|---|
| -Şahbuz | -Daylaqlı | -Kükü | -Sələsüz |
| -Ağbulaq | -Gömür | -Külüs | -Şada |
| -Aşağı Qışlaq | -Güney Qışlaq | -Qızıl Qışlaq | -Şahbuzkənd |
| -Ayrınc | -Keçili | -Mahmudoba | -Türkeş |
| -Badamlı | -Kolanı | -Nursu | -Yuxarı Qışlaq |
| -Biçənək | | | |

*Kərki kəndi 15 yanvar 1990-cı ildə erməni silahlı birləşmələri tərəfindən işğal olunduğu üçün həmin kəndin əhalisi başqa kəndlərdə məskunlaşmışdır.

## ŞƏRUR RAYONU

| | | | |
|---|---|---|---|
| -Şərur | -Dərəkənd | -Kürçülü | -Siyaqut |
| -Axaməd | -Dərvişlər | -Kürkənd | -Şəhriyar |
| -Axura | -Dizə | -Qarahəsənli | -Tənənəm |
| -Alışar | -Düdəngə | -Qarxun | -Tumaslı |
| -Arbatan | -Ələkli | -Qışlaqabbas | -Vərməziyar |
| -Aşağı Aralıq | -Ərəbyengicə | -Qorçulu | -Yengicə |
| -Aşağı Daşarx | -Gümüşlü | -Mahmudkənd | -Yeni Havuş |
| -Aşağı Yaycı | -Havuş | -Maxta | -Yuxarı Aralıq |
| -Cəlilkənd | -Həmzəli | -Məmmədsabir | -Yuxarı Daşarx |
| -Çəmənli | -Xanlıqlar | -Muğancıq Mehrab | -Yuxarı Yaycı |
| -Çərçiboğan | -Xələc | -Muğanlı | -Zeyvə |
| -Çomaxtur | -İbadulla | -Oğlanqala | |
| -Danyeri | -Kərimbəyli | -Püsyan | |
| -Dəmirçi | -Kosacan | -Sərxanlı | |

## Aa

**ABA (**Ordubad**) –** ata. –Abamnan qəbəx-qəbağa oturmuşdux, bidə gördıx girdi içəri.

**ABANBAR** (Naxçıvan) – su anbarı. –Vayxırda təzə abanbar tikiplər.

**ABASBƏYİ** (əksər şivələrdə) – armud növü.

**ABDAL** (Qızıl Qışlaq, Şahbuzkənd) – bilikli. –Çox abdal adamdı o, elə-belə söz deməz.

**ABEŞİK** (Dəmirçi, Gümüşlü, Şahbulaq) – meşəbəyi. –Abeşik meşəni qoruyan adamdı.

**ABQORA** (Cəhri) – yetişməmiş üzüm-qora suyu. –Abqora üzüm suyudu.

**ABRA** (Ordubad, Şahbuz) – qabın çəkisi. –Balı tox'məmişdən qabax qabın abrasın tutmasan halallığ olmaz.

**ABTALIB ƏRİYİ** (Keçili, Kolanı) – ağ rəngli şirin ərik. –Abtalıb əriyinin mirəbbəsi şüşə kimin olur.

**ABUGƏRDƏN** (Culfa, Şahbuz, Şərur) – təndirdən kökələri çıxartmaq, su götürmək üçün istifadə olunur.

**ABU ŞƏHƏR** (Sədərək, Şərur) – alma növü.

**ACICA** (Çeşməbasar) - təzətər, yazda təzə göyərən yem otları.

**ACIXAMRA**(əksərşivələrdə)//**ACİTMƏ**(Şərur) – xəmir mayası. –Acıxamra eliyəndə xəmir tez gəlir.

**ACIQICI** (Ordubad) – yabanı bitki.

**ACI PENCƏR** (Kələki)//**ACITƏRƏ** (Babək, Culfa) – vəzəri. –Bizdə acı pencər diyərıx, Naxçıvanda qodem deyillər.

**ACITMAX** (Danyeri) – hirsləndirmək. –İti acıtsan, qəyidip səni qapar.

**ACITMALI** (Keçili, Külüs, Nursu, Şahbuzkənd) - maya vurulmuş xəmirdən yapılan böyük həcmli çörək. –Acıtmalını mayalı xəmirnən eliyərix', həm də adi çörəx'dən yekə olur.

**ACRA** (Naxçıvan) – xəmir mayası. –Acra xəmiri acıdır, ona görə heylə deyillər, maya da, droj da diyən var.

**AÇMAX** (əksər şivələrdə) – yaymaq. –Mən lavaşın kündəsin qəşəx' tuturam, əmə yaxcı açammıram.

**ADDAX-BUDDAX//ADDA-BUDDA** (əksər şivələrdə) – seyrək. –Eymizin yanı boş yerdi, addax-buddax ağaşdar var.

**ADDAMA** (Cəhri) – su olan yerlərdən keçmək üçün keçid. –Addamadan ki keşdin elə birinci döngüyə dönərsən, ordadı əvləri.

Addama sözü Zəngibasar şivələrində də eyni mənada qeydə alınmışdır (7, s.32).

**AD ELƏMƏX'** (Aşağı Qışlaq, Badamlı, Biçənək, Kolanı, Kükü) - qız evinin razılığını almaq və qıza kiçik hədiyyə vermək. -Ad eləməyə ya bir yaylıx, ya bir üzüx' aparıllar.

**AGƏL** (Naxçıvan) – baba. –Mən dədəmin dədəsinə agəl deyirəm.

**AĞANƏNƏ** (Ordubad) – nənə, atanın anası. –

Ağanənəm öyrətmişdi çörəyi belə aşmağı mənə.

**AĞBAŞDI** (Aşağı Yaycı, Düdəngə, Oğlanqala, Yuxarı Yaycı) – aşpaz. –İndi ta özümüz pişirmirix' toylarda, yasdarda xorəyi, ağbaşdı eliyir.

**AĞCA** (Naxçıvan) - ərik növü.

**AĞCAMAYA** (Vayxır) – ağappaq, totuq, kök uşaq. – Elə qəşəx' ağcamaya qızı var ki, Mamedin.

**AĞCİYAR//AĞÖVGƏ** (Culfa, Ordubad) – qorxaq.– Ağciyar adamdı, ona eytibar eləməx' olmaz.

**AĞDƏN** (Culfa) – dənli bitkilər. –Bı il ağdən əx'mişix' orda pütün.

**AĞIL** (Şahbuz) – isti vaxtı naxır saxlanan yer. –Üsdü açığ olur ağılın, amancax qıraxları örtülü, hava isdi olanda naxırı ora qatarığ elə.

Ağıl Azərbaycan dilinin Balakən, Biləsuvar, Cəbrayıl, Zəngilan şivələrində və Şəki dialektində də eyni mənada işlənir (1, s.4).

**AĞILDANQURREY** (Kolanı, Qazançı, Qızıl Qışlaq, Naxçıvan) – yüngül. –Sən ona fikir verme, ağıldanqurreydi o, özün müdara eliyəmmir.

**AĞIZ-AĞIZA GƏLMƏX'** (bütün şivələrdə) – mübahisə etmək. –Ziboşnan ağız-ağıza gəlsən boşdu çıxarsan.

**AĞIZBƏHƏM ELƏMƏX'** (Çeşməbasar) – ağzını yoxlamaq, nə deyəcəyini bilmək. –Yetirən kimin bir Aşığ Hüseyini ağızbəhəm elədi görsün nə var, nə yox.

**AĞIZDANPƏRTOV** (Naxçıvan) – ağzına nə gəldi

danışan, danışığını bilməyən. –O, birəz elə ağızdanpərtovdu, nə gəldi deyir.

**AĞIZƏMMƏZ** (Babək, Naxçıvan) – hər yeməyi bəyənməyən, könülsüz yeyən. –Çox ağızəmməz uşaxdı ha, nə pişirsən yemir.

**AĞLOVÇA** (Böyükdüz, Düdəngə, Hacıvar, Teyvaz, Tumbul) – tava. –Ağlovça tavıya diyərix', o biri irayonnarda sapılca da deyillər ona.

**AĞNAĞAZ** (Böyükdüz, Yengicə) - ehtiyac üçün dəyirmanda növbədənkənar üyüdülən azacıq taxıl. - Dəyirmanda azca ağnağaz elə, evdə uşaxlar aj qalmasın.

**AĞNAĞ** (əksər şivələrdə) - çala, çuxur, xəndək. – Araba:n təkəri ağnağa tüşdü.

**AĞNAMAX** I (Babək, Naxçıvan) – yerində çox qurcalanmaq, oturduğu yeri dağıtmaq. –Nə ağnıyırsan, ay bala, bir sakit dur görəx'.

**AĞNAMAX** II (bütün şivələrdə) - uçub tökülmək, axıb gəlmək. -Əvvəllər o dağ birəz aralıydı kətdən, soram ağnıyıp gəlib kəndə tərəf.

**AĞ NAZLI** (Culfa, Ordubad, Şahbuz) – şaftalı növü.

**AĞÖDDƏX'** (Kəngərli, Şərur) – qorxaq. –O:n kimin çətinə tüşəndə qaçan adamnara bizdə ağöddəx' də:llər.

**AĞURUX** (Keçili, Kükü, Sirab) – köçəri maldarların yaylağa və ya qışlağa köçərkən apardıqları ev avadanlıqları. – Ağuruxumuzu qabaxcan göndərərix'.

**AĞUZ** (əksər şivələrdə) – doğmuş heyvanın ilk üç

gündə sağılan südü. –Heyvan təzə doğanda olur ağuz, çox xeyirridi, içə bilsən.

Bu söz ağız variantında Ağdam, Qax, Zaqatala, Zərdab şivələrində də işlənir (1, s.5).

**AĞÜRƏX'** (Ərəfsə, Kolanı, Qazançı) – qorxaq. –Heylə ağürəx' adamnan iş tutsan axırda peşman olassan.

**AĞYAL** (Şahbuz) – yalı ağ tüklü at.

**AĞZIİSDİ** (Naxçıvan) – qorxmaz. –Hələ bərkə-boşa tüşmüyüb axı, ağzıisdidi.

**AXBUR** (Anaqut, Düylün, Gənzə)//**ƏXBUR** (Badamlı) – bulaq. –Axburun başında yeyilən kababın öz ləzzəti var.

**AXDARMA** (Babək, Kəngərli, Şahbuz) – motalda hazırlanan pendir. –Axdarmanı nənəm qəşəx' eliyərdi, dadınnan doymağ olmazdı.

**AXI** (Dəstə, Kotam, Vələver) – kirvə. –Axı tutduğumuz adam uşəğə pay tutar gətirər.

**AXSAN** (Aşağı Yaycı) – soğan, su, duz, sarıçiçək və yağla bişirilən yemək.

**AXTUX** (Naxçıvan) – qəm, kədər. –O bir gün görmüyüp, günü axtux çəx'məynən keçip.

**AQUŞQA** (Nəzərabad) – pəncərə. –Lənpəni qoymuşam aquşqa:n içinə ki, işıx geşsə yandırax.

**AL** (Kürçülü) – hiylə. –Yeri get Durnanı bir al dilnən götgə.

**ALA** (Babək, Kəngərli, Sədərək, Şahbuz) – sahə

suvarılan zaman arada qalan suvarılmamış kiçik yer. –Suvaranda ala saxlamağ olmaz, gərəx' aldırasan onnarı.

**ALABAŞINA-KÜLBAŞINA** (əksər şivələrdə) – başdansovdu. –Qavırma:n gərəx' başının üsdündə durasan, alabaşına-külbaşına eləsən qalmaz, kifsiyər.

**ALACƏNGƏNƏFƏS** (Şahbuz) – təngnəfəs. –Elə alacəngənəfəs gəlmişdi kin, az qalırdı barğı çatdasın.

**ALA ÇOLPAV** (Aza, Nürgüt) – fevralın iyirmisindən martın iyirmisinə qədər olan dövr. Buna xalq arasında boz ay da deyilir. –Ala çolpavın ta qorxusu yoxdu.

**ALAHİ** (Diyadin, Xanlıqlar, Pusyan) – başqa, özgə. –Biz kənt savetinnən çox irazıyıx, belə alahi adamdı e.

**ALAXANA-BALAXANA** (Şahbuz) – hər şəraiti olan ev. –Sən gə:p bir o:n alaxana-balaxanasın görəsən.

**ALAXKAN** (Culfa, Şahbuz) – həm ot-alaq təmizləmək, həm də xəmir kəsmək üçün işlədilən alət. –Ot-ələfi təmmizdiyərix' onnan, arvatdar da xəmirə işdədəllər.

**ALAQUŞ** (Şərur) – sözgəzdirən. –Zəhləm gedər mənim alaquş adamnan.

**ALANA** (Ordubad) – meyvə qurusunun içərisinə qoz və şəkər tozu qatılıb doldurulmaqla hazırlanan şirniyyat. –Alananı güşdüdən eliyərix', armutdan elyərix'.

**ALANAYI** (Ordubad) – şaftalı növü.

**ALAPAÇA AT** (Şahbuz) – budunun arasında ağ tükü olan at.

**ALARI** (Aşağı Qışlaq, Biçənək, Kolanı) – ağ xalları olan, bədəncə böyük, lakin az məhsul verən bal arısı. -Alarının balı az olur, amancax daddı olur.

**ALAT** (Xurs, Nəsirvaz, Üstüpü) – qapı və ya pəncərə çərçivəsi. –Gəldim qəpi:n alatına bəxmağa görüm qəşəx' bərkitmisan?

**ALAVSIN-BİLAVSIN** (Şahbuz) – heç nədən iyrənməyən, fərqinə varmayan. –Gör nətər pişirmişdi kin, Səhnə kimin alavsın-bilavsın arvat da əlin uztmadı.

**ALAY-QOLAY** (Kəngərli, Sədərək, Şahbuz) – bir işi necə gəldi, başdansovdu görmək. –Alay-qolay elədi atdı üsdümə.

**ALÇAX KÖNÜL** (Ordubad) – sadə qəlbli, mehriban. –Nəqqədə desən alçaxkönüllü adamdı.

**ALDƏRƏ** (Sədərək) – üzüm növü.

**ALDƏYİŞİX'** – (Babək, Naxçıvan, Şərur) – səhv, dəyişik. –Ay bala, başmaxlarıvı niyə aldəyişix' geymisən?

**ALDIRMAX** (Aşağı Qışlaq, Daylaqlı, Yuxarı Qışlaq) - suvarma zamanı su tutmayan, suvarılmamış sahəni suvarmaq.

**ALEYSUN** (Alışar, Çərçiboğan, Qarxun) - görməmiş. –Var-dəvləti soradan qazanıb görməmişdix' eliyən adama aleysun diyərix'.

**ALXIM** (Baş Dizə, Dırnıs) – xırda çay və kanallardakı suyun göllənməsi, göllənib axması. –Qər əridix'cən su alxımlanıp gələcax.

**ALIBALLATMAX** (əksər şivələrdə) – söz verib yerinə

yetirməmək. –Bir adam nəsə alıp əvəzində dediyini eləmiyəndə diyərix' ki, alıballatmaxdı niyə?

**ALIMIN VERMƏX'** (Naxçıvan) – cavabın vermək, yerində oturtmaq, danlamaq. -Gördüm çox danışır, alımın verdim, getdi.

**ALIŞQA//ALIŞQAN** (Qarxun, Yaycı) – kibrit. – Alışqannan papruz yandırarıx, ləmpə yandırarıx.

Alışqan Yevlax şivələrində də kibrit mənasında işlənir (3, s.22).

**ALİ** (Babək, Naxçıvan)//**ALU** (Şərur) – gavalı. – Həyətdərində yaxşı ali olur qonşumun.

**ALMAXARA** (Naxçıvan) – albuxara. –Almaxaranın da cürbəcür növləri var da.

**ALTDIX** (Ağbulaq, Ayrınc, Qızıl Qışlaq) – corabın altı. –Corabımın altdığı cırılıp, gərəx' verəm nənəm yamasın.

**AMANCAX** (Daylaqlı, Külüs) - amma və ancax <ancaq> bağlayıcılarının birləşməsindən əmələ gəlib qarşılaşdırma mənası bildirən bağlayıcı. -Neçə kərəm kağız yazdım, amancax cavab almadım.

**AMANAT** (Şahbuz) – qonaq. –Onda da əymizə girən-çıxan çoxuydu, amanatın biri-gəlip, biri gedirdi.

**AMANABƏND** (Naxçıvan, Şərur) – zəif, yaxşı bərkidilməmiş. –Amanabənd durupdu, dəysən töküləcəx'.

Bu söz davamsız, möhkəm olmayan mənasında Bakı dialektində də var (3, s.23).

**ANABÜLBÜL** (əksər şivələrdə) – paltarsız, əyni nazik.

–Gələm baxam ki, nə, yazıx uşax anabülbül durup yağışın altda.

**ANAGİR** (Daylaqlı, Şahbuzkənd) – anasız arıların öyrəşməsi üçün arı pətəyinin içində ana arı salınan xüsusi balaca qəfəs.

**ANA ŞAN** (Şahbuz) – bir ildən çox qalan şan. –Ana şan birəz tüd irəx'də olur.

**ANDIR** (Babək, Kəngərli, Sədərək) – sahibi olmayan əşya. –Gəl bı andırıvı bırdan götür, neçə gündü qalıb ortalarda.

**ANDIZ** (əksər şivələrdə) – xalq təbabətində işlənən dərman bitkisi.

**ANĞARMAQ** (Şərur) – anlamaq. –Anğarammadım, ay bala, bi də döndər görüm nə deyirsən?

**ANITMAX** (Şahbuz) – nəyi isə üstüörtülü demək, andırmaq. –Anıtdım da. Qoy görəx' başa tüşəcəx'?

**ANQƏRİB** (Qarabağlar) – qəfildən. –Anqərib elə çığırdı ki, hammı çönüp baxırdı ona.

Bu söz Cəlilabad və Salyan şivələrində də müşahidə edilir (3, s.24).

**ANQUT//ANQURD** (Şahbuz, Şərur) – arıq, zəif. –Anqutu çıxıb, heş tanıyammadım görəndə.

**ANNAX** (Xanəgah, Qazançı) - qanacaq, mərifət. -Bu uşaq çox annaxlıdı.

**ANNI-QAŞ QƏÇİSİ** (Naxçıvan) – qadınların qaş almaq üçün istifadə etdiyi qayçı. –A qız annı-qaş qəçisin gətgə görüm bıra.

**ARA** (Şahbuzkənd) – gah (bağlayıcı). -Qonşumuzdu, ara kişidən, ara da mənnən gileylənir.

**ARAÇAR** (Aza, Nüsnüs, Vənənd) – balaca rəndə. –Bı nəxişdərin hammsını araçarnan abam özü eliyip.

**ARAFA** (Şahbuz, Şərur) – köhnə illə təzə ilin arası. –İlaxırdan sora bayrama qədər olan vaxd arafadı.

**ARAKƏSMƏ** (Şahbuz) – quzu saxlamaq üçün ağılın bir tərəfində taxta ilə kəsilib ayrılmış yer, ağac çəpər. –Quzuların yerinə arakəsmə vırmışıx.

**ARA QAZAN** (Babək, Kəngərli, Sədərək) – nə böyük, nə də kiçik, orta ölçülü qazan. –Yekə qazanı qonax-zad gələndə işdədərix'. Özümüzə həmməşə ara qazanda pişirərix' xorəyi.

**ARANBASAR** (Çənnəb) – aran, düzənlik yer. –Aranbasar yerrərində çeşməni külügnən çıxarallar.

**ARANNAMAX** (Keçili, Külüs) – utanmaq, xəcalət çəkmək. –Mən bı sifətsizin yerinə arannadım, bı:n heş eyninə də dəyil.

**ARAŞQIN** (Türkeş) – baş geyimi, parçadan toxunan, bəzən üzü rəngli sapla işlənən, bəzən isə sadə tikilən və isti vaxtlarda başa qoyulan geyim. –Araşqını qoyurux başımıza.

**ARAZ** (Babək, Kəngərli, Şahbuz) – alça növü.

**ARĞALI//AV** (Babək, Culfa, Ordubad) – vəhşi qoç. (M.Kaşğarlının "Divani-lüğət-it-türk" əsərində bu söz arsalık-həm dişi, həm də erkəkliyi olan heyvan mənasında işlənib).

**ARĞACI QƏZİL** (Şahbuz) – nəsli-kökü olmayan. –

Belə arğacı qəzil adamnan başarmax çətindi.

**ARI** (əksər şivələrdə) – təmiz. –Aydan arıyam, sudan duruyam.

Ağdam, Füzuli, Qazax, Şəmkir, Tovuz və Qubada da arı//ari saf, təmiz mənasında işlənir (3, s.26).

**ARIĞƏNİZƏ** (Biləv, Tivi) – arıq. –Bir arığənizə qızıydı bı indi gör nə günə qəlipdi.

**ARILIX** (Şahbuz) – arı səbətlərinin qoyulduğu yer. –Səbətdəri yığdığımız yerə deyirix' arılıx.

**ARXAŞ** (Babək, Sədərək, Şahbuz) – mal-qaranın açıq havada saxlandığı yer. –Yay olanda gətirib arxaca qatırıx heyvannarı.

**ARRANMAX** (Keçili, Külüs) – utanmaq, xəcalət çəkmək. –Adamın məhlim bir arranmağı olmaz kin?

**ARSALIX-BURSALIXDA** (Şahbuz) – arada. –Əv tökür güya, arsalıx-bursalıxda da xorəx' yeyir.

**ARTIB-AĞARMAX** (Babək, Culfa, Naxçıvan) – 1. nə isə əldə etmək, var-dövlətini çoxaltmaq; 2. kökəlmək. –Qurtdu adam artıb-ağarmaz ki.

**ARTIM** (Naxçıvan) – artmaq, çoxalmaq (daha çox düyü haqqında işlədilir). –Bı düyünün heş artımı yoxdu, birəz artıx süzməx' lazımdı.

**ARTIRMA** (əksər şivələrdə) – evin qabağından evi böyütmək üçün əlavə tikilən yer. –Bı binaların otaxları xırda olduğuna gora hammımız artırma eləmişdix'.

**ARVANA** (Biçənək) – dişi dəvə növü. –Arvana

dəvənin dişisidi.

**AS** (Daylaqlı, Keçili, Külüs, Nursu) – səs. –Asın kəsilsin bıralardan.

**ASMA** (Badamlı, Biçənək) – dəsmal asılan yer. –A bala, qaç o asmadan dəsmalı gətgə.

**ASMALI** (Boyəhməd, Kırna, Nəhəcir) – piti. –Bozbaş da deyirix', asmalı da deyirix', qoyun ətiynən noxutdu-zaddı pişirərix'.

**ASMALIX** (Biçənək, Kolanı) – qaşıq yığmaq üçün ipdən toxunmuş torba. –Asmalığı asarıx tifardan içinə qaşıx yığarıx.

**ASTAMAT** (Unus) – tütün növü. –Astamat yaxşi çəkməli tütündü.

**AŞ** (Sələsüz) – gön aşılamaq üçün arpa unundan hazırlanan xüsusi maddə.

**AŞDAMAX** (Sələsüz) – dərini təmizləmək üçün aşa qoymaq. –Gönü qoyurux aşa kin, təmizdənsin.

**AŞIRTMAX** (əksər şivələrdə) – həll etmək. –İşivi aşırtmaxdan yana gərəx' neçə nəfərə ağız açasan da.

**AŞŞABAŞ** (Culfa, Kəngərli, Şahbuz) – toyda oynayanların əlinə verilən pul. –Aşşabaş vermək qaydadı da. Kim isdəsə verər.

**ATA-BABA GÜNÜ** (əksər şivələrdə) – hər hansı bir yerdə adamın çox olması. –Qrantının başında ata-baba günü olurdu əvvəllər.

**ATALAMAX** (Dırnıs) – yumaq. –Əkin vaxdı biz əvvəlcən yeri suynan atalayırıx.

**ATAMA** (Gömür) – döşəmənin altından atılan tir. – Atamanı atıp sora polu vırarıx.

**ATDAMAX** (Naxçıvan) – təmizləmək. –Maşı, mığəşəri atdamamış pişirmərix' biz.

**ATDIX** (Diyadin, Şərur) – qırılmış, parçalanmış buğda dənəsi.

**ATDÖŞÜ** (Şada, Türkeş) – tələm-tələsik. –Elə atdöşü gəldilər getdilər heş bilmədim.

**ATICI** (Kəngərli, Şahbuz, Şərur) – keçə toxuyan. – Qəşəx' atıcıydı onun bibisi. Elə gözəl keçə toxuyurdu ki. İmdi də qoyuplar muzeyə o:n toxuduğu keçəni.

**ATILAMA** (Ağbulaq, Badamlı, Kolanı, Türkeş) – suda çalınmış qatıq. –Qatığı suynan qarışdırırıx olur atılama.

**ATIN HƏYBƏSİ** (Sələsüz) – yəhərə keçirilən ikigözlü heybə.

**ATMA** (Şahbuz, Ordubad) – ev tikərkən damın üstunə qoyulan tir. -Qutarıplar deməy olar, atmaları atırdılar o gün mən gedəndə.

Kürdəmir şivələrində də atma eyni mənada işlənir.

**ATUDAN** (Havuş, Mahmudkənd, Maxta, Oğlanqala, Zeyvə) – acgöz. –Bı Səməd elə atudan adamdı ki, dünyaları yesə doymaz.

**ATÜSDÜ** (əksər şivələrdə) – tələsik. –Gördüm diyəsən bizə də gələcəx'lər başdadım tez atüsdü bir şey hazırramağa.

**AV** (Hacıvar, Nehrəm) – dağ qoçu. –Nehrəm dağlarında iki av vırdım.

**AVADANNIX** (Naxçıvan) **–** abadlıq. –Bı seldən so:ra əv-eşix'də avadannıx qalmadı ta.

**AVARAGOR** (Culfa, Naxçıvan)//**AVARAKAR** (Ordubad) – işsiz, boş-bekar. –Nə vaxda qədər belə avaragor gəzəssən? Bir işin qurpunnan tut da.

**AVARTDAXLANMAX** (Güney Qışlaq, Qızıl Qışlaq) –sünbülləmək.

**AVAZIMAX** (Naxçıvan) – rəngi qaçmaq. –Ya:nnan yel ötməmiş bi də baxırsan ki, irəngi avazıdı.

Bu söz Təbriz və Zəngilan şivələrində alazımaq variantında işlənir (3, s.21).

**AVDIX** (əksər şivələrdə) – qatığa su, göyərti, xiyar qatıb, içinə çörək doğrayıb yeyilən yemək. -Geşmişdə avdığı seyinnən bir yiyərdix' bir oturuma. Ən çox da yayda, isdidə yeyilir.

**AVƏRDƏ//AVARDA** (Naxçıvan, Şahbuz) – açıq. –Girdim, baxdım kin, qap-baca avərdə, evdə də heş kim yoxdu.

**AVIRT** (əksər şivələrdə) – yanaq. –Maşallah ona noolup avırtdarınnan qan damır.

Bu söz türk dilində avurt, türkmən, özbək dillərində ovurt, xakas dilində ort, yakut dilində omurt formasında işlənir (7, s.292).

**AVIRTDAX** (Babək, Kəngərli,  Sədərək) – kök adam. –Avırtdax kök adama diyərix'.

**AYAX** (Naxçıvan) – uzaq, kənar. –Nafcığan mərkəzdən ayaxdı.

**AYAMA** (əksər şivələrdə) – ləqəb. –Ayamasız adam çox az olurdu əvvəllər.

**AYAMDA-SAYAMDA** (Naxçıvan) – hərdənbir, ayda-ildə bir dəfə. –Heç olmuya bir ayamda-sayamda bizi yada salginən.

**AYANAT** (Culfa, Şərur) – kömək. –Hökmət ma: ayanat eliyir.

**AYIN-ŞAYIN** (Babək, Naxçıvan, Şahbuz) – durduğu yerdə. –Ayın-şayın otduğumuz yerdə birdən halı qarışdı.

Bu sözə Meğri şivələrində də eyni mənada rast gəlirik (3, s.30).

**AYQAX** (Naxçıvan) – təlxək. –İndi də sünnətdərdə ayqax gətirmək mod tüşüp.

**AYNIMAX** (Kəngərli, Naxçıvan, Sədərək, Şərur) – bekarlamaq, işi bitmək. –Qoy bir başım aynısın gələciyəm sizə.

**AYRANAŞI** (əksər şivələrdə) – qatıqdan hazırlanan soyuq yemək. –Yayın xorəyi ayranaşıdı da, eliyəsən sərin-sərin yiyəsən.

**AYTAZ** (Payız) – gecə dükan gözətçisi.

**AZQINTI** (Babək, Naxçıvan) - əsli-kökü bilinməyən. –Bı azqıntını hardan tapıb gətimisən axı aləmi vırdı bir-birinə.

**AZMAN//ƏZMAN** I (Babək, Şahbuz, Şərur) – dördillik axta qoç.

**AZMAN** II (Biləv, Bist) – böyük, nəhəng. –Azman bir adamıydı, hammımız qorxardıx onnan.

Azman birinci mənada Zəngilan şivələrində, ikinci mənada isə Bakı dialektində mövcuddur (3, s.32).

## Bb

**BAB** (əksər şivələrdə) – tay, bərabər. –O mə:m babım dəyil.

**BABALIN YUMAX** (əksər şivələrdə) – böhtan atmaq. –Mən babal yumaxdan qorxuram, yalannan bir söz də:mmənəm.

**BABATDAŞMAX** (Babək, Naxçıvan, Şahbuz, Şərur) – yaxşılaşmaq, sagalmağa başlamaq. –İndi birəz babatdaşıp şükür.

**BAD** (əksər şivələrdə) – təndirin hissəsi. –Baddarı yaxşı hazırramasan təndir yaxcı çıxmaz.

Bərdə və Basarkeçər şivələrində də bad sözü eyni mənada qeydə alınmışdır (3, s.33).

**BADAR** (Naxçıvan) – nazik, uzun, suvarılmayan yer.

**BADBUDU** (Şərur) - qızardılmış qarğıdalı dənələri.

**BADKEŞ** (Şahbuz) – xəstədən qan almaq üçün buynuzdan hazırlanan alət.

**BADRİC** (Ordubad)//**BADİRİNC** (Naxçıvan) – bitki adı. –Badric şəfalı otdu, çox şeyə xeyiri var.

**BAFA** I (Biçənək, Güney Qışlaq, Qızıl Qışlaq) – bir oraq ağzı qədərində biçilən taxıl.

**BAFA** II (Naxçıvan, Şahbuz) – vəfa. –Əvladın bafası yoxdu, ay bala.

**BAĞA** (Sədərək, Şahbuz) – atın ayağında əmələ gələn şiş. –Atın əyağında şiş çıxır, ona deyirix' bağa.

**BAĞARA** (Biləv, Tivi) – sap sarılmış çarx. – Dünənnərim tükannan üç dənə bağara tel aldım.

**BAĞAYARPAĞI** (əksər şivələrdə) – yabanı bitki. – Bağayarpağı irinniyən yara:n üsdünə qoyurux.

**BAĞIRÖFGƏ** (Badamlı) – heyvanın bağırsağını, ciyərini birlikdə bişirmək, içalat qovurması. –Bağıröfgə bizim uşaxlar yemir diyə az-az pişirərəm.

**BAĞLAMA** I (Culfa) – yastıq. –Bağlama bizdərdə balınca diyəllər.

**BAĞLAMA** II (Şahbuz) – bordaqda saxlanıb kökəldilmiş heyvan. –Bir bağlama qoç göndərmişdi gəlinin qurban payına.

**BAĞLAŞMA** (Culfa) – şeirlə deyişmə. –Bağlaşmada əvvəllər aşıxlar deyişirdi, indiki meyxana diyənnər kimin.

**BAĞRIQARA** (Vayxır) – göyərçin fəsiləsindən bir quş.

**BAĞRIN TEYLƏTMƏK** (Böyükdüz, Xıncab, Qarabağlar, Şahtaxtı) - bağrını yarmaq, ürəyini partlatmaq. – Oqqədəm diyəssən, axırda bının bağrın teylədəssən.

**BALAX** (Ordubad) – 6-7 aylıq camış balası. –Balax camışın balasıdı.

Azərbaycan dilinin Ağdam, İsmayıllı, Lənkəran, Tovuz şivələrində də balağ variantında eyni mənada işlənir (3, s.37).

**BALAXANA** (Nehrəm) – mətbəx. -Özdərinə təzə balaxana tikiplər əvin yanınnan.

Balaxana Azərbaycan dilinin Kürdəmir, Sabirabad,

Cənubi Azərbaycan şivələrində evin üstünə əlavə tikilən balkonlu otaq mənasında qeydə alınmışdır (1, s.30).

**BALAVQİ** (Düdəngə, Havuş) – köməkçi.

**BALBAS** (Nəsirvaz, Tivi) – iri gövdəli, quyruqlu qoyun cinsi. –Balbas qavırmalığa qəşəx' olur.

**BALDIRQAN** (Şahbuz) – yabanı bitki. –Baldırqanın elə gözəl turşusu olur ki.

**BALIN ŞƏHDİ** (Biçənək) – balın qatı hissəsi.

**BALTALAMAX** (Naxçıvan) – iri-iri, səliqəsiz doğramaq. –Dovğa:n pencərin gərəx' narın çırtasan, baltalasan pinti olar.

**BAMBILI** (Culfa, Naxçıvan, Ordubad, Şərur) – yüngül adam. –Özün aparammıyan yüngül adama bizdə bambılı diyəllər.

**BANALAMAX** (Üstüpü) – hazırlamaq. –Sən bı sahat çörəx' banala, mən də gələcağam.

**BANBAN** (Ordubad) – baramanın bir növü. –Banbannarı ayrı bir yerə yığ.

**BARATA** (Badamlı, Nursu, Türkeş) – palçıq layı. –Baratadan kərpic kəsillər.

**BARDAX** (əksər şivələrdə) – su qabı. –A bala, qaç bulaxdan bir bardax sərin si gətgə.

**BARDAN** (Naxçıvan) – iri kisə. –Yunu qırxıb yığmışıx yekə bardannara.

**BARXANA** (əksər şivələrdə) – ev şeyləri, yorğan-

döşək. –Barxananı yığarıx bir qıraxdan səlqəynən durar.

**BARMAXCIL//BARMAXÇILIX** (Nursu) – 1. iş zamanı barmaqları qorumaq üçün dəridən hazırlanmış əşya; 2. qaşsız nişan üzüyü. –Barmaxcıl ən çox başmax düzəldəndə, çöldə işdiyəndə taxıllar kin, barmaxlar yara olmasın.

**BARRAMAX** (Naxçıvan) - xəstəlik nəticəsində və yeni doğulmuş uşaqlarda ağızda əmələ gələn ərp. –Təzə doğulannarda olur gö:rsən ağzı barrıyır, onda sodaynan silirik.

**BASARATI BAĞLANMAX** (əksər şivələrdə) – bəxti gətirməmək, əl-qolu açılmamaq. –Elə bil ki, yazığ uşağın basaratı bağlanıp, heş bir işi düz gətirmir.

**BASDIX** (Ordubad) – un və doşabdan hazırlanan içərisinə qoz vurulan çərəz. –Basdıx da sucux kimindi, sucux nəzix' olur, basdıx birəz onnan yoğun olur.

**BASDIRMA** (Yengicə) – kabab üçün axşamdan sirkə və soğana basdırılmış ət. –Gecədən basdırma eliyirix' ki, unda kabap illap daddı olur.

**BASĞI** (Yengicə) – yastıq. –Basğıdan başım tüşüp gecə, ölürəm boynumun ağrısınnan.

**BASMAX** (Bənəniyar, Ərəfsə, Milax, Naxçıvan, Teyvaz) – hücum etmək. –Bı itdərin qabağın almasax inan gecəyənən basıp sürünü boğallar.

**BASMƏMMƏDİ** (Naxçıvan) – başdansovdu, tələm-tələsik. –Vaxdında basməmmədi eliyiplər ona gora da indi quzuluyup tökülür.

Bu söz eyni mənada Bakı, Cəbrayıl, Qazax, Sabirabad, Salyan, Şəmkirdə də işlənir (1, s.36).

**BAŞARIŞIX** (Naxçıvan) – bacarıq. –Mə:m həylə işdərdə səndiyən başarışığım yoxdu.

**BAŞDANSƏQQƏT** (Anaqut, Badamlı, Dırnıs, Düylün, Sələsüz) – yüngül. –Əşşi onnan bir şey çıxmaz, başdansəqqətin biridi o.

**BAŞDIX** (əksər şivələrdə) – oğlan evinin qız evinə verəcəyi hədiyyə və toy xərci. –Əvvəllərdən oğlan əvi qızın qahım-qardaşına pal-paltar alardı, qızın toyunun xərcini-ətini, çörəyini verərdi, amancax indi pul verillər.

**BAŞƏYAX** (Culfa, Şahbuz, Şərur) – xaş, kəlləpaça. –Başəyağı tezdən durup yeməx' lazımdı.

**BAŞIBAĞLICA** (Ordubad) – kərtənkələ. –Kərtənkəliyə bizdə bəzi adamnər başıbağlıca deyir.

**BAŞI BOŞ AT** (Şahbuz) – istənilən zaman saxlamaq mümkün olmayan at. –Onnan yola çıxmağ olmaz, başı boş atdı.

**BAŞINA HEYDƏR** (Xəlilli, Nəzərabad, Şıxmahmud) – özbaşına adam haqqında deyilir. –Başına Heydərdi hara gəldi gedər.

**BAŞQOV** (Babək, Kəngərli, Şahbuz) - əkin sahəsinin baş tərəfində qazılmış arx. -Başqovdan gəlir bı arxların hammısına su.

**BAŞŞAQ** (Nursu) – biçin zamanı yerə tökülən sünbül. –Piçin qutarıp, gəlin başşağa gedəx'.

**BAŞYOLDAŞI** (Şahbuz) – həyat yoldaşı. –Bizdə kişi arvadına, arvat da ərinə başyoldaşım deyir.

**BAVAR ELƏMƏX'** (Sirab) – davam gətirmək,

dözmək. –Mənim çəx'dix'lərimə sən heş bir gün də bavar eliyəmməzdin.

Dilimizin Qarakilsə və Füzuli şivələrində də bu vahidə həmin mənada rast gəlirik (1, s.36).

**BAYA ÇIXARTMAX** (Şahbuz) – hər hansi bir işi görə bilməmək. –Guya gəldi bizi baya çıxartdı.

**BAYANŞİRƏ** (Sədərək) – üzüm növü. –İyulda, avqusda yetişir bayanşirə üzüm.

**BAYDIRMAX** (Naxçıvan) – bir şeyin qədrini bilməmək nəticəsində onun əldən getməsi, itirmək. –Güya verdim sürəsən maşını rahat olasan, sən də həmən dəyqə baydırdın.

**BAYRAMÇALIX** (əksər şivələrdə) – Novruz bayramında insanların bir-birini görməyə, bayramını təbrik etməyə gedəndə apardıqları pay. –Uşaxlara bayramçalıx pay-pürüş almışam, gələrsən ge:p görərix'.

**BAZAROĞLU** (Naxçıvan) – avara, tərbiyəsiz. –Bazaroğlunnan nə qanacax gözdüyürsən sən.

**BAZBURUTDU** (Babək, Naxçıvan) – görkəmli, boy-buxunlu. –Gəlimli, yekəpər adama bazburutdu diyərix'.

**BAZI** I (Bist, Ələhi, Xurs, Nəsirvaz) - xışın kötüyünü boyunduruqla birləşdirən ağac hissə.

**BAZI** II (Ordubad) – ləklər arasındakı köndələn torpaq mərz.

**BAZZAS** (Biləv, Dırnıs, Tivi) – qənim, düşmən. –Qurdun bazzası beymədərandı. Uşəxlərda qurd olanda

dəmliyip verərıx.

**BEÇƏRƏ** (Baş Dizə, Behrud, Məzrə, Üstupü) – kal armud. –Beçərə qarın ağrısı:n dərmənidi.

**BECA** (Cəhri) – nahaq, boş yerə. –Beca yerə əlləşmə, düzələn iş dəyil.

**BECİD** (Naxçıvan, Ordubad) – tələsik, yeyin, tez-tez. –Birəz becid gəlin görəx'.

**BEDAMAR** (Aşağı Uzunoba, Yuxarı Uzunoba) – qeyrətsiz, qorxaq. –Bedamar adamdı, ona baş qoşma.

**BEDANA TUT** (Nüsnüs) – balaca tut. –Qəşşəx' şipşirindi, əmma bedana tutdu, xırda olur.

**BEDDAM OLMAX** (Naxçıvan) – biabır olmaq, adı pisə çıxmaq. –Şərxata adamnan uzax dursan yaxşıdı, adıvı beddam eliyər.

**BEKARA** (Qazançı) – yararsız, pis. –Bekara şeydi, heç onnan vaxd itirməyə dəyməz.

**BEKAR-BEHDİN** (Naxçıvan) – heç bir iş görməyən, boş-boş gəzən. –Yasin elə ömrü boyu bekar-behdin gəzib da.

**BEKDANƏ** (Nüsnüs) – heyva toxumu. –Boğazım yaman ağrıyır, bekdanə suyu içəcağam.

**BELÇƏ** (əksər şivələrdə) – təndirdən kül çıxaran alət. –Belçəynən təndirin külün təmmizdiyərix'.

**BEMƏNSİL** (Naxçıvan) – işə yaramayan. –Həylə-həylə uşağı bemənsil eliyip qoyup ora.

**BEŞÜYÜR** (əksər şivələrdə) – avara, fərasətsiz. –Ağıllı

oğul neynir dədə malın, beşüyür oğul neynir dədə malın.

**BEYBUT** (Şahbuz) – qılınc. –Taleh bını görüp beybutunu qoydu böyürünə, gözdədi görsün nə deyir.

**BEYMƏZDƏMƏX'** (Ağbulaq) – danlamaq, öyüd-nəsihət vermək. –Gəlsin bir yaxşıca beyməzdiyəciyəm özünə gələcəx'.

**BEYŞÖLƏT** (Ordubad) – çirkin, yaraşıqsız. –Beyşölətin biridi onu kim alacax.

**BEYTAŞ** (Sirab) – sahibsiz. –O qədəm beytaş yerrər varıydı ki, indi hökmət paylıyıp cəməhət əkir.

**BEYTİN YER** (Biçənək) - əkilməyən, istifadə olunmayan yer. –Neçə ildi əl dəymir bıralara beytin yerdi.

**BEYVAX** (Babək, Kəngərli, Naxçıvan, Şahbuz) – gec. –Beyvaxdı ta durun gedəx' geciyə qalmıyax.

**BƏDOY//BƏDƏV** (Şahbuz) – yaxşı bəslənmiş qaçağan, yaxşı yerişli və güclü erkək at. –Bir bədoy at lazımdı oralara qalxmaxdan yana.

**BƏDSUYUM** (Culfa, Naxçıvan, Şahbuz, Şərur) – pis gözlə baxan. –Bı Səmaya elə bədsuyumdu kin, suyumun salladı ta qutardı.

**BƏGGAH** (Ordubad) – paltarın bağ keçirilən yeri. –Bəggah şalvarda, yupqada kəməri keçirtdiyimiz yerdi.

**BƏĞDATI** (Çənnəb, Gilançay, Ordubad, Unus) – ağac və ya qamışdan tikilən ev. -Orda indi bəğdatı əvlər düzəldiplər gələn qonəxlər qalır.

**BƏHRƏ** (Culfa, Şahbuz) – keçmişdə məhsulun onda biri həcmində alınan vergi.

**BƏHRƏDAR** (Şahbuz) – bəhrəni yığan adam.

**BƏXİCİ** (Ordubad) – falçı. –Əvvəllərdən bəxicilix' eliyirdi, əmə indi yox.

**BƏLGƏ** (əksər şivələrdə) – nişandan əvvəl oğlan evinin qız evinə apardığı üzük və ya əşyalar. –Nişannan əvvəl qıza bəlgə aparrıx.

**BƏLİM** (Culfa, Şahbuz) – döyülmüş taxılın küləşi. –Bəlimi verərix' mal-heyvana.

**BƏLLƏ** (Badamlı, Keçili, Kükü, Külüs) – xırda qulaqlı qoyun. –Bir günnəri sürüdən bəllə yoxa çıxdı.

**BƏLLƏBAN** (Naxçıvan) - uşaqları qorxutmaq üçün işlədilən varlıq, damdabaca. –Unda çıqqılıydı, qorxudanda deyidim kin, bəlləban, gə bını apar.

**BƏNARAH** (Kotam) – ev divarlarının üzərinə düzülən sonuncu çıxıntılı daşlar. –İsgəndər, gə gedax bizim damın bənərahların düzəldax.

**BƏNDAL** (Şahbuz) – nallamağa qoymayan at. –Bədhəfsələ atdı da, ona gora da qoymur nallıyasan.

**BƏNDƏM** (Biçənək) - dərz bağlamaq üçün kökündən çıxarılmış sünbüldən və ya yumşaq otdan düzəldilən qurşaq. –Bəndəmnən bağ bağlıyarıx.

**BƏNDƏMLƏMAX** (Ordubad) – taxılı bəndəm ilə bağlamaq. –Yığannan sora taxılı gərəx' bəndəmlıyasan.

**BƏNƏMİYƏ** (Ordubad, Şahbuz) – bazar ertəsi. – Birimci günə bənəmiyə diyərdilər əvvəllər.

**BƏRƏ** (Keçili, Külüs, Şahbuzkənd) – sürüdəki qoyunları saymaq üçün düzəldilmiş xüsusi yer.

**BƏRƏMUM** (Babək, Kəngərli, Şahbuz) – arı pətəyində qalan mum töküntüsü. –Bərəmum çox xeyirri şeydi.

**BƏRK** (əksər şivələrdə) – xəsis. –Mə:m bı qonşum çox bərk adamdı.

**BƏRKİX' YER** (Kolanı) – şumlanması çətin olan yer, bərk yer. –Bərkix' yerdi ona görə əx'məmişix'.

**BƏRNİ** (Ordubad) – kiçik saxsı qab, dolça. –Nənəm həməşə bal saxlıyardı bərnidə.

**BƏRZƏBƏND** (Pəzməri) – igid adam. –Bir bərzəbənd adam lazımdı bı işi görməğa.

**BƏSDƏMƏ** (Nehrəm) – kökəltmə, xüsusi bəslənmiş qoyun, at. –Bəsdəmə minməx'dən ötrün xama bağlamax lazımdı.

**BƏTDƏMƏX'** I (Babək, Kəngərli, Naxçıvan) – bir şeyi zorla vermək. –İsdəmirdim heç, zornan bətdədi uşağı mənə.

**BƏTDƏMƏX'** II (Naxçıvan) – yalandan, yüngülcə tikmək. –Bətdədim düyməvi hələlix' dursun, gələndə verərsən bərkidərəm.

**BƏYAXLARI** (əksər şivələrdə) – bir az bundan əvvəl. –Bəyaxları gedən də sə:n qahımındı?

**BƏY DÜRMƏYİ** (Ordubad, Şahbuz) – bəy tabağına qoyulan yemək. –Bəyin tabağına qızın anası cürbəcür yeməli şeylər qoyar, o da olar bəy dürməyi.

**BƏYƏT** (Vənənd) – on dərz. –Biz on dərzə bir bəyət deyirıx.

**BƏYSUMAT** (Babək, Naxçıvan)//**BƏSMAT** (Culfa, Kəngərli, Şahbuz) – zavodda bişən çörək. –Bəsmat hökmət çörəyidi, əvdə pişirmirix' onu.

**BƏYYALLISI** (Ordubad) – bəyin də iştirakı ilə oynanan yallı. –Toyun əxirində cavənnər bəynən bir yerdə oynıyəllər bəyyallısını.

**BƏZZAT** (Babək, Culfa) – pis, bəd xasiyyətli, qəddar adam. –Bəzzat adamdı, yola getməx' olmur.

**BIDIXANA** (bütün şivələrdə) – budur. –Baxdıx ki, bıdıxana sallana-sallana gəlir.

**BI DÖNƏ** (Keçili) – bu dəfə. –Bildir allatdı məni, əmə bı dönə qoymaram kəf gələ mã:.

**BI HEYNİDƏ//BI HİNDƏ** (Naxçıvan, Nəzərabad, Şıxmahmud) – bu zaman. –Bı heynidə qızın adamnarı tökülüşdü üsdümüzə.

**BIQAL** (Şərur) – bu tərəf. –Çəkil bıqala qoy səni də görsünnər.

**BILACAĞ** (Şahbuz) – cəhrəni işlətmək üçün əllə tutulan hissəsi. –Bılacağ elə bilgilnən kin, cəhrənin qılpıdı.

**BILIĞ//BILIX** (əksər şivələrdə) – inəyin yeni doğulmuş balası. -Hər heyvanın balası:n öz adı var da. İnəyin

də illap təzə doğduğuna bılıx diyərix'.

**BIRIN-TIRIN ELƏMƏX'** (Naxçıvan) – qaş-qabaq tökmək, üz verməmək. –Nə vaxdı gö:rəm da, mã: bırın-tırın eliyir.

**BIZAV//BİZAV** (əksər şivələrdə) - inəyin bir yaşadək balası. –Bılıxdan bir yaşaına qədən bızav deyirix'.

**BİCƏYNƏ//BİCƏX'** (Ordubad, Şahbuz, Şərur) – vaxtından əvvəl doğulan qaramal.

**BİÇƏNƏX'** (Şahbuz) – biçilmək üçün saxlanılan yer, otlaq. –Biçənəx' o yerə də:llər kin, çiməni çoxdu, yaxcı yerdi, otu piçilir.

**BİÇƏR** (Şərur) – dərzi. –Ver biçərə, qoy düzəltsin ətəyi:n əyrisin.

**BİDAMAR** (əksər şivələrdə) – qeyrətsiz, qorxaq. –Çox bidamar adamdı ee.

**BİDAR//BEDAR** (Naxçıvan) – yuxusuz. –Bı gecə gözümə yuxu getmiyip, oqqədə fikirrəşmişəm, bidar oldum.

**BİLAN** (Naxçıvan) – küçə. –Ora dədə-babadan Söyütdü bilan deyirdilər.

**BİLƏNDƏR** (Ordubad, Şahbuz) – hər şeydən xəbərdar adam. –Sən bını İrza kişidən soruş, biləndər adamdı o.

**BİLƏRZİX'** (Culfa) – qaşsız üzük. –Əslində bilərzix' qolbaxdı, amma bizdə üzüyə diyəllər.

**BİLOY//BİLƏV** (Qazançı, Qorçulu, Ləkətağ, Milax, Şahbulaq, Şərur, Tivi) – kəsici alətləri itiləyən əşya. –Biləv

axdarıram ki, itiliyəm pıçağı.

**BİNƏ** (əksər şivələrdə) – yaylaqda qoyun saxlamaq üçün tikili.

**BİNÖVRƏ (**Gənzə**)** – him. –Binövrə əvın himinə deyərıx.

**BİR BURUM** (əksər şivələrdə) – bir az, bir qədər. – Gilanar mirəbbəsin bir burum qəynət qoy yerə.

**BİRBÜKÜM** (Şahbuz) – bir dəstə. –Təzə pişəndə birbüküm də lavaşdan göndərrix' qonşulara kin, qoxsu gedip.

**BİRƏTİ** (Culfa, Ordubad) - tamam, bütünlüklə, birdəfəlik. –Nə götürəssən birəti götür, ta bi də gəlmə.

**BİRƏZ** (əksər şivələrdə) – bir az. –Birəz gözdəsən indi işivi aşırtmışdın.

**BİRHAVIRDAN** (Şərur) – bir azdan sonra. – Birhavırdan baxdıx ki, bıdı təpəsiüsdə gəlir.

**BİSDƏ** (Ordubad) – bir kiloqram ağırlığında çəki vahidi. –Bisdə bir kiloya diyərix', çəki daşıdı.

**BİST** (Saltaq) – dəyirmanın üst daşını hərəkətə gətirən dəmir ox. –Bist də:rman daşı:n oxudu.

**BİSTAN OLMAX** (Culfa)//**BİSDƏN OLMAX** (Ordubad) – yetişib tağdan düşmək. –Məhsul bistan olup, gedip yığan yoxdu onu.

**BİŞ-DÜŞ DAMI** (Ordubad) – mətbəx. –Oranı eliyəcayıx biş-düş damı axırda.

**BİŞİRT ELƏMƏX'** (Kolanı, Şada) – becərmək. –

Yaxcı bişirt eləsən yaxcı da məhsul yığassan.

**BİTDƏ-BİTDƏ** (Biləv) - bircə-bircə, dəqiqliklə. –Gərəx' oturup bir ədam bınnarı bitdə-bitdə seçə.

**BİTMƏX'** (Payız) – balın bir müddət qaldıqdan sonra duru haldan bir az qatı hala keçib bərkiməsi. –Əsl bal gərəx' birəzdən bitsin.

**BOĞANAX** (əksər şivələrdə) – bürkü. –Boğanaxdan nəfəs almax olmur.

**BOĞAZALTI** (bütün şivələrdə) – qızıldan qayrılmış qadın zinəti. –Boğazaltını köhnə arvatdar taxardı.

**BOĞAZDIX** (Culfa, Ordubad, Şərur) – qıf. –Boğazdığı qoyup süd süzərix', yağ süzərix' onnan.

**BOĞMA İSDƏKAN** (Sirab) – armudu stəkan. –Mə:m babam bı isdəkannarda çay işməz. O:nku gərəx' boğma isdəkan ola.

**BOĞMALAMMAX** (Naxçıvan, Sədərək, Şahbuz) – yemək. –Ver boğmalansın dursun getsin, gözüm görməsin onu.

**BOĞURTDAX** (əksər şivələrdə) – sünbülləmə.

**BOLU** (Babək, Şahbuz, Şərur) – yabanı bikti.

**BOLLAMAX** (Aza, Tivi) – bol su buraxmaq. –Baxır da, elə vaxdı var ki, bollasan əx'diğın zay olar.

**BOMBU** (Ordubad) – zavodda bişirilən çörək çeşidi. –Bombu ağ unnan pişəndə yaxcı olur.

**BORANI** (Naxçıvan) – badımcan, kartof, pomidorla hazırlanan tərəvəz yeməyi. –Boranını yayda qara yetişəndə

pişirərix', qışa da bağlıyıp saxlıyarıx.

**BORAZANNAMAX** (Naxçıvan) – yersiz danışmaq. – Elə borazannıyır ha, hələ bir düzəmməlli söz demiyip.

**BORDAX** (Babək, Culfa, Kəngərli, Şahbuz, Şərur) – 1. heyvanı kökəltmək üçün tövlədə ayrılmış xüsusi yer; 2. kökəldilmiş, bəslənmiş heyvan. –Bir yaxcı bordax qoçum var, apar qavırma elə.

**BOYAQOTU** (Ordubad, Şahbuz) – yabanı bitki.

**BOYGÖRÜNCƏYİ** (Biçənək)//**BOYGÖRÜMÜ** (Kolanı, Kükü, Yuxarı Qışlaq) – gəlini görmək istəyən yaxın qohumların gəlinə bağışladığı hədiyyə. –Geşmişdə gəlini görməx' üçün boygörümü verirdilər. İndi ta gəlin elə hammının yanında olur.

Ağdam, Bərdə, Şuşa şivələrində də boygörüncəyi eyni mənada işlənir (1, s.59).

**BOYLAMAX** (Culfa, Ordubad) – görmək. –Onnar da isdədilər boyluyalar.

**BOYLUM** (Kəngərli, Ordubad, Şahbuz, Şərur)//**BOYL** (Babək, Çeşməbasar) – deməli, beləliklə (modal söz). –Onnan sora, boylum, başdadı mənə inanmağa.

Bu söz bir çox dialekt və şivələrimizdə boyl//boylum//boyul variantlarında işlənməkdədir (1, s.59).

**BOYMADƏRƏN** (əksər şivələrdə)//**BEYMƏDƏRAN** (Ordubad) – yabanı bitki.

**BOZARMAX** (Babək, Naxçıvan, Şərur) – kobud cavab vermək, hirslənmək. –Elə bozardı ki, kişi:n üsdünə qaldım məhətdəl.

**BOZ AY** (Naxçıvan) – mart ayı. –Boz aydı da mart, bilməx' olmur. Bir gün həylə olur, bir gün belə.

**BOZDAMAC** (Sədərək, Şahbuz, Şərur) – sac üstündə bişirilən çörək. –Bozdamacı sajda pişiririx'.

**BOZPÖRT** (əksər şivələrdə) - ət yeməyi. –Təzə kəsdiyimiz ətdən çölə gedəndə qəşşəx' bozpört qoyarıx ocaxda.

**BOZVER** (Heydərabad, Qarxun, Siyaqut, Türkeş) – boz təhər qoyun.

**BOZVIRMASI** (Milax) – qoyun xəstəliyi adı. –Qoyunu bozvırması tutmuşdu.

**BÖKƏN** (Badamlı, Cəhri, Xəlilli, Keçili, Külüs, Nəzərabad) – çörək növü. –Bökən yağlı çörəx'di, təndirdə də pişirərix', tuxofqada da.

**BÖLƏ** (Biçənək, Külüs, Sələsüz, Şada) – qulağı çox da uzun olmayan qoyun.

**BÖŞK ELƏMƏK** (Şahbuz) – yalan danışmaq. –Sə:n dilivə heş düz söz gəlmir, ancax böşk eləməyi bilirsən.

**BÖYÜX'CƏLƏMMƏX'** (Culfa, Şahbuz, Şərur) – lovğalanmaq, böyük-böyük danışmaq. –Sözə gələndə böyüx'cələnirsən, işə gələndə əlinnən bir iş gəlmir.

**BUĞUTİKANI** (Babək, Kəngərli) – yabanı bitki.

**BULAMA** (əksər şivələrdə) – südə təzə doğmuş heyvanın ağız südü əlavə olunaraq qarışdırıla-qarışdırıla bişirilən yemək. –Bulama həməşə olmur ki, heyvannar doğannan-doğana pişiririx' onu.

**BULAMAC//BULAMAŞ** (Ağbulaq, Aşağı Aralıq, Gömür, Güney Qışlaq) – xəmir mayası.

**BULANDIRIX** (Xanlıqlar, Tənənəm) – çirkli, bulanıq. –Sel gələndə suyumuz bulandırıx olur, işməy olmur.

**BURAĞAC** (Çərçiboğan, Qorçulu, Şərur) – yükün üstündən çəkilən kəndiri tarımlamaq üçün ilişdirib burulan ağac və ya dəmir parçası. –Ay uşax, odunnar töküldü, burağacnan mokgəm elə.

**BURAXMAQ** (Nəzərabad) – boşamaq. –Əzizin oğlu o:n qızını neçə illərdi buraxıb.

**BURCUTMAX** I (Babək, Naxçıvan) – forslana-forslana yerimək. –Mən də dalınca yavaş-yavaş gedirdim, hersdəndi mənə ki, nə burcudursan, tez ol.

**BURCUTMAX** II (əksər şivələrdə) – fikrini dəyişdirmək, fikrindən dönmək. –Çətinə tüşən kimin tez burcutdu bax!

**BURĞU** (Culfa) – lampanın işığını artırıb-azaldan hissə. –Burğusu xarab olup ləmpənin, xodun artırmaq olmur.

Burğu Tovuz şivələrində də eyni mənada işlənir (1, s.64).

**BURMANC** (Cəhri, Göynuk, Ləkətağ, Nəhəcir, Vayxır) – çimdik. –Gördüm ta susmur bir burmanc gotürdüm böyürünnən.

**BURUM** (əksər şivələrdə) - dəfə, bir neçə dəqiqəlik müddət. –Gül mirəbbəsi tez pişir. Bir-iki burum qəynətsən bəsdi.

**BURUNTAX** (Kəngərli, Şahbuz) – qızğın heyvanı sakitləşdirmək üçün onun burnuna vurulan ip.

**BUŞQAX** (bütün şivələrdə) – künc. –Heç lazımı da dəyir, atıp qalıp bir buşqaxda.

**BUŞQU** (Naxçıvan, Ordubad) – mişar. –Taxdanı buşquynan kəsərix'. Buşqu birəz xırda mişardı.

**BÜX'DƏRMƏX'** (Şahbuz) – toxuculuqda bir neçə qat ipi bir yerdə əyirmək.

**BÜRƏTDƏMMƏX'** (Babək, Naxçıvan, Şahbuz, Şərur) – soyuqdan qorunmaq üçün bir şeyə bürünmək, çox qalın geyinmək. –Bizdə qışda elə soyuğ olur ki, burətdəmməsən eşiyə çıxammarsan.

**BÜRMƏLƏMƏX'** (əksər şivələrdə) – səliqəsiz bükmək. –Paltarrarı bürməliyip ora-bıra basma, gətgə qatdıyax.

## Cc

**CAB** (Düdəngə, Zeyvə) – dağın zirvəsi. –Qar əriyib indi azca cablarda qalıp.

**CABALLIX** (Naxçıvan) – çəkillik. –Caballıxdan ipəx'qurdunnan yana yarpax yığdıx.

**CACIX** (əksər şivələrdə) – yabanı bitki. –Cacığı qavırıb üsdünə yumurta vırırıq.

**CADA** (Nehrəm) – qırlı, asfaltlı yol. –Kəndə gələn cada:n elə düz üsdündədi kanal.

**CADAR-CADAR** (əksər şivələrdə) – çat-çat. –Soyuxdan yer cadar-cadar olmuşdu.

**CADI//CAD** (Böyükdüz, Xıncab) – çörək çeşidi. -Cadını darı ununnan eləyərix'.

-Caddı cavandı,
Qonax qavandı.
Gəlin boğandı,
Allah amandı.

**CAĞ** I (Babək, Culfa, Şahbuz) – toxumaq üçün mil. –Cağ dəmirdən olanda anam diyərdi ki, onnan toxuma. Dəmir bir-birinə dəyəndə ajdığ olar.

Cağ sözü mil mənasında Ağdərə, Laçın, Zəngilan şivələrində də işlənir (1, s.69).

**CAĞ** II (Şahbuz) – arabanın yanlarına vurulan ağac.

**CAĞ** III (Naxçıvan) – yaxşı, əla. –Şükür allaha bı dəyqə hər işimiz cağdı.

**CAĞARLAMMAX** (Nürgüt)//**CAĞAYLAMMAX** –

cadar-cadar olmaq. –Soyux vıran kimi əllərim cağaylanır.

**CAĞILDATMAX** (Naxçıvan) – suyu birdən çox tökmək. –Dedim suyun az tox', götürdü hammısın birdən cağıldatdı içinə.

**CAĞLI** (Sədərək, Şahbuz) – ciyər, noxud və quyryq yağı ilə bişirilən yemək. –Cağlını quyruğnana pişirəndə illap daddı olur.

**CAHAR-CAHAR** (Culfa, Ordubad) – böyük çillənin qurtarıb kiçik çillənin başladığı dövr. Bu dövr dord gün böyük çillənin axırından, dörd gün də kiçik çillənin əvvəlindən olmaqla səkkiz gün olur və xalq arasında qışın ən təhlükəli, söyuq dövrü hesab olunur.

**CALXAX** (Ərəzin) – calaq, peyvənd. –Şələli calxax meyvədi da.

**CAM** (Naxçıvan) – mis kasa. –Bına yeddihaçar camı deyillər.

**CAMAX** (Naxçıvan, Nehrəm, Sirab) – daha çox durğun suda əmələ gələn yaşıl rəngli mamır. –Flakın için oqqədə təmizdəməməsən, camax bağlıyıp.

**CAMIŞƏRİYİ** (Aşağı Qışlaq, Kolanı) – iri, yumru ərik növü. –Bı tingə camışəriyidi. Qəşəx' yekə olur diyə əx'mişəm.

**CAMLAMAX** (Aşağı Əylis, Aza, Gənzə) – ovsunlamaq. –Elə camlıyıp ki, gədanı elə bil həmən adam dəyil.

**CAMTAYİ** (Şahbuzkənd) – çanta. –Onda sumka yoxuydu kin, məx'dəbə anam parçadan camtayi tikərdi

aparardıx.

**CANASİNƏR** (Naxçıvan) – ürəyincə. –Oturup bir canasinər danışammadıx ki.

**CANBAKƏLLƏ//CANTÖVRÜ** (Dəstə) – təcili, tez. – Elə ancax ki, canbakəllə özünü yetirdı.

**CANBƏSƏR** (əksər şivələrdə) – ölümcül. –Yazığı basıp canbəsər eləmişdilər.

**CANCANI** (Yengicə) – qardaş arvadı. –Qardaşımın arvadına cancanı deyirəm.

**CAN KÖYNƏYİ** (əksər şivələrdə) – balaca uşaqlara öndən arxaya geyindirilən qabağı bütün, arxası açıq köynək. – Təzə doğulana can köynəyi geyindirərix'.

**CANNIX** (Aşağı Qışlaq, Kükü) – içərisinə yun qoyub sarınmış qolsuz paltar. –Cannığıvı geyin üsdən donarsan.

**CANTÖVRÜ** (Biləv) – tələsik. –Nətər də cantövrü gəldi-getdi axı.

**CAR** I (Naxçıvan) – çat. –Təzə tifar birəzdən hələ car atır da.

**CAR** II (Nüsnüs) – qurudulmuş bataqlığın yerində qazılmış arx. –Kəndin cəməhəti böyün carda işdədi.

**CARCAR** (bütün şivələrdə) – taxıl döymək üçün dəmir dişli, dəstəli kötük. –Carcarın dişdəri iti olur.

**CAVQANNAMAX** (Naxçıvan) – bir yerdə dura bilməmək. –Nə cavqannıyırsan gə otu görəx'.

**CECİM** (Tivi) – tut çırparkən yerə sərilən parça. –

Cecimi tut əltına, qoy yerə tokülüp məyıf olməsın.

**CEHR** (Bist)//**CEHRƏ** (Camaldın) – çəltik döyərkən qoşqu malının bir-birinə bağlanması.

**CEY** (Nursu) – tayfa. –Onnar demi seyiddərinin ceyinnədilər.

**CEYDAX** (əksər şivələrdə) – uzun adam. –Bir ceydax oğlandı, indi gələcəx' görəsssən.

**CƏCƏX'** I (Axura) – qarğıdalının gövdəsi. –Cəcəyi tökürüx' malqaranın qabağına.

**CƏCƏX'** II (Naxçıvan) – alma, armud və başqa meyvələrin kötüyü. –Alma: yeyip, cəcəyin də tulluyup bıra.

**CƏFDƏ** (əksər şivələrdə) – qapını bağlamaq üçün dəmir halqalardan ibarət zəncir. –Gələndə qapı:n cəfdəsin vır.

**CƏGO:** (Bist, Şərur) – arabanın qabağına qoşulmuş at, mal.

**CƏĞ** (Vənənd) – mala. –Onnar xərmən döyüf savırır, ambara verir, cəğ vırır.

**CƏHƏ** (Çərçiboğan) – heyvanın doğandan sonra iki gün ərzində verdiyi süd. –Cəhəni bizav yesə, bir həfdə dolanar.

**CƏHƏNG DAŞI** (Naxçıvan, Şahbuz) – qapı və pəncərələrin kənarlarını hörmək üçün istifadə olunan daş.

**CƏHƏNNƏMOTU** (Sədərək) – vəzəri. –Cəhənnəmotu pencərdi, yayda olur.

**CƏHLƏMƏX'** (Naxçıvan) – çəkilmiş əti əllə yaxşı-yaxşı qarışdırmaq. –Küfdənin ətin qəşəx' cəhləməsən açılar.

**CƏHT** (Camaldın) – görə, üçün. –Sənə cəht deyirdim ki, yanı gedip bidə gəlmiyəsən.

**CƏLƏ** (Dəmirçi) – 1. at quyruğunun tükündən qayrılmış tələ; 2. boğaz xəstəliyi. –Cələni qurmuşam ki, sığırçın tutam.

**CƏMƏ** (Ordubad) – yaba ilə bir dəfə götürülən ot topası. –Uşaxlar cəmələri bir-biri:n üsdünə yığdı.
Cəbrayıl, İmişli şivələrində də cəmə eyni mənada qeydə alınmışdır (1, s.73).

**CƏMİCÜMLƏTANI** (əksər şivələrdə)//**CƏMİCÜMƏ** (Babək) – hamısı, cəmi. –Əlimizdə cəmicümlətanı beş-altı heyvan qalmışdı, onnarı da noxoşdux apardı.

**CƏMRƏ** (Şərur) – istilik. –Bizdə Novruzdan əvvəl torpax zad oyanır ha, onda deyillər ki, cəmrə, yanı isdilix' torpağa tüşdü.

**CƏNCƏL** (əksər şivələrdə) – qarma-qarışıqlıq. –Özün çəkildin durdun qıraxda məni saldın cəncələ.

**CƏ:NƏ** (Nursu) – cəmdək, heyvan ölüsü. –Gəldix' kin, boğup, cə:nərin düzüb bınnan-ona.

**CƏNG** (Nehrəm) **–** pas. –Baxımsızdıxdan pütün cəng basmışdı dəmir yerrərini.

**CƏNGOLMA** (Şahbuz) – arılarda olan xəstəlik.

**CƏRCİ** (Tivi) – damın pərdilərinin üstünə qalanan xırda ağaclar, çırpı. –Cərciləri atıp sora dəmirrərin vırırıx.

**CƏRİ** (Aza) – igid, qoçaq, cəsarətli. –Cox cəri üşəxdi heş nədən qorxusu-hürküsü yoxdi.

**CƏRİK** (Naxçıvan) – yun adyal.

**CƏRGOV** (Camaldın) – dörd öküz qoşulan cüt.

**CƏVCƏ//CƏVCİ//CƏHƏNG** (Naxçıvan) – ağızın kənarları. –Hava soyuyan kimi cəvcələri başdıyır çatdamağa.

**CƏVƏRƏ** I (Culfa) - metalı yonmaq, təmizləmək üçün üzəri diş-diş olan polad alət, yeyə. -Cəvərəynən bir şeyin zadın üsdün hamarrıyarıx.

**CƏVƏRƏ** II (Tivi) – xırda səbət. –Bəğdan meyvəni cəvərəyə yığıp gətirərıx əvə.

**CƏVİZ** (əksər şivələrdə) – qoz. –Bizdərdə heş kim qoz deməz, cəviz diyərix'.

Azərbaycan dilinin bir çox şivələrində cəviz sözünə rast gəlinir (1, s.74).

**CƏYƏN** (Naxçıvan) – bərk. –Ət elə bil cəyən kimindi.

**CƏYƏN PALAN** (Şahbuz) – içərisinə ot qoyulub tikilən palan.

**CIBIRIX** (Şahbuz) – yabanı bitki. –Cıbırıx çöldə olur.

**CIBIRIĞI CIXMAX** I (Naxçıvan) – yanmaq. -Qəynər su tökülmüşdü cıbırığı çıxmışdı.

**CIBRIĞI ÇIXMAX** II (Dəstə) – qabığı düşmək. –Avqusda zadda ta başdıyəcax cəvizin cıbrığı çıxməğa.

**CIĞARA** (əksər şivələrdə) – nazik kağıza bükülmüş tütün. –Kişi cığarası ağzında bir xeylax fikirrəşdi.

**CIĞATAY** (Babək, Nehrəm) – qovurmanın suyu. –Qa:rmalığ eliyəndə çağır gələx' bir yaxcı cığatay yiyəx'.

**CIĞCIĞA//CİYCİYƏ** I (Culfa, Şərur) – bəzək üçün taxılan qızıllar. –Cığcığaların da taxıb üsdünə gləmişdi.

**CIĞCIĞA** II (Bulqan, Naxçıvan, Tumbul) – gəlinin başına və cavan adamın cənazəsi üzərinə tökülən qızılı kağız. –Bir adama qarqış tökəndə diyərix' cığcığaların tokülsün.

**CIĞLA** (Cəhri) – tənbəki. –Axşama kimin cığlanı doldurur, xorruyur.

**CIQQILI//CINQILI//CIQQIŞ** (Naxçıvan, Şərur) – balaca, kiçik. –Bizim cıqqılı-cıqqılı uşaxlarımız bırda oxuyur.

**CILFIR** (Şərur) - yersiz danışan. -Cılfır adam həmməşə boş danışar.

**CILXA** (Babək, Şahbuz, Şərur) - xalis. -Cılxa sümüx' yığmışdı, bir qram də ət yoxuydu.

**CILIQQA** (Xəlilli, Naxçıvan) – jilet. –Uşağa bir qəşəx' cılıqqa toxumuşam.

**CILIZ** (Ordubad) – arıq. –Ay qız, ta bı giyəvi: az təriflə, görmüşəm dayna, bir cılızın biridi.

**CINQIR** (bütün şivələrdə) – səs. –Qorxudan bir adamın cınqırı çıxmadı.

**CIR** (əksər şivələrdə) – yabanı. –Bı armut cır armutdu.

**CIRASIN** (Kələki) – zirək. –Bı kişi cırasın adamdı.

**CIRHACIR//CIRRAMA** (Babək, Şahbuz, Şərur) – çox isti. –Yayın bı cırhacırında çölə getməx' olar?

**CIRNAT** (Nəsirvaz) – ağacın qurumuş budaqları. –Payizdə cırnatdari təmizdəməx' lazımdı.

**CIRTQOZ//CIRDAQOZ** (Hacıvar, Naxçıvan, Şəkərabad) – tez özündən çıxan. –O dəyqə əsəbləşən, tez qızışan adama diyərix' cırtqoz.

**CIS** (Şahbuz) – yaxşı, seçmə, çox məhsuldar. –Arıçılar hammısı çalışır cıs arı saxlasın kin,  məhsulu bol olsun.

**CIYNAX** (Ordubad) – caynaq, dırnaq. –Cıynaxların batırıb uşağın ətinə.

**CIZ** (Şahbuz) - şumlama zamanı kotanın açdığı şırım.

**CIZBIZ** (əksər şivələrdə) – kartofla ciyərin qovrulması ilə hazırlanan yemək. –Toydan qabaxkı gün cızbız verəllər bizdərdə.

**CIZDIX** (əksər şivələrdə) – heyvanın quyruğu əridiləndən sonra qalan hissəsi. –Quyruğu əridip yağın süzərix', cızdığın da saxlıyarıx yumurta salarıx onnan.

**CIZDIXLI** (Dəmirçi) – cızıqlı, cizgili. –Bi dənə də cızdıxlı köynəy alıp qoymuşdu üsdünə, gəlmişdi.

**CİBƏLƏX'** I (Naxçıvan) – balaca, kiçik (daha çox uşaqlar və balacaboy adamlar haqqında deyilir). –Bı cibələyə bax sən allah, mənə dütdülü gəlir.

**CİBƏLƏX'** II (Şahbuz) – çoxbilmiş. –Güya kin öz aləmində cibələx'lix' eliyir.

**CİCİ** (Üstüpü) – nənə. –Məni elə xırdalıxdan cicim saxlıyıp.

**CİDAV** (Şahbuz) – yəhərin sürtməsi nəticəsində atın belində əmələ gələn yara. –Atın belində cidav var qəşəx' qaçammır.

**CİQOLU** (Naxçıvan) – düdəmə, səfeh, avara. –Ciqolu olup kimə neynədi ki güya.

**CİL** (Kükü, Naxçıvan) – rişə, ağacın əmici telləri. –Qoy bir üş-dört gün qalsın suda cil atsın, sora əkərsən.

**CİLAVDAR** (Şahbuzkənd) – gəlin aparan zaman atın başını çəkən, cilovu tutan oğlan. –Cilavdara gərəx' xələt verəsən.

**CİLİF** (Ordubad) – divarın, qapının altından keçən su yolu. –Cilifi təmmizdəmax lazımdı ki, su yığılıp qalmasın.

**CİLOV** I (əksər şivələrdə) – qoşqu ləvazimatının ağızlığa (gəmə) bənd edilmiş uzun hissəsi. –Atın cilovun tutdu, Aşığ Hüseyn tullanıp mindi ata.

**CİLOV** II//**QABAX ÖKÜZDƏRİ** (Şahbuz) – kotana qoşulan öküzlərin qabaqdan birinci cütü. –Cilov ən qabaxdakı öküzdərdi.

**CİLOV** III (Kəngərli, Sədərək) – dəfə. –Neçə cilov çağırmışam niyə hay vermirsən?

**CİMCİMƏ** (əksər şivələrdə) – yabanı bitki.

**CİNCİLİM** (Ordubad, Şahbuz, Şərur) – yabanı bitki.

**CİNKƏRƏSİ QOYUN** (Külüs, Şahbuzkənd) – qulaqsız qoyun.

**CİNNƏNDİRMƏX'** (əksər şivələrdə) - əsəbiləşdirmək, hirsləndirmək. –Otduğu yerdə adamı gör nətər cinnəndirir.

**CİNNİ CƏFƏR QOŞUNU** (Naxçıvan, Tumbul) – oğul-uşaq, dəstə. –Nə Cinni Cəfər qoşunu kimin tökülüp

gəlmisiz üsdümə.

**CİPPOLİK** (Naxçıvan) – uşaqların qoyunun yununa qurğuşun yapışdıraraq ayaqları ilə vuraraq oynatdıqları əşya. Kim cippoliki ayağında vura-vura çox saxlasa o udmuş sayılırdı. –Əvvəllər oğlan uşaxlarını əvə yığmax olmazdı, pütün günü həyətdə cippolik oynuyardı.

**CİRƏ//CÜRƏ** (Naxçıvan) – az-az, qısa-qısa, qənaətlə. –Əvı yıxılmış əpbəyi də cirəynən verir adama.

**CİVAR** (Maxta) – söyüdə oxşayan ağac. –Civardan səbət toxunar.

**CİVƏR** (Aşağı Daşarx, Xələc) – nəcib. –Ərişdəni balta-balta doğrama, birəz civər elə.

**CİYƏV** (Çərçiboğan) – kürəkən. –Ciyəvimin maşını var onnan ge:p gəlirix'.

**CİYƏRRİ** (Camaldın) – cəsur, igid. –Onnar bizim kimin ciyərri dəyillər da gəlsinnər qəbağa.

**CİYİLLİK** (Naxçıvan) – kol-kosluq. –A bala, gə o ciyillix'dən çıx eşiyə görüm.

**COMALAX** (Şahbuzkənd) – qazma, yeraltı tikinti. –Cəməhət o vaxdı comalaxda gizdədib bitəhər cannarın k'utarmışdılar.

**CORTAN//CORTDAN** (Babək, Kəngərli, Şahbuz) – qurutun yaş vaxtı, süzülmüş bərk süzmə qatıq. –Qatığı süzüb ayranın atırığ o yana, qalmışına cortan deyirix'.

Bu vahid cortan variantında Borçalı, Goranboy, Tovuz, Zəngilan şivələrində də işlənir (1, s.81).

**COŞ VERMƏK** (Daylaqlı) – cuşa gəlmək. –Vallah bı bir coş vermişdi kin, gəl görəsən.

**CU** (Vələver) – kötüyün üstü.

**CULFA//CULFAÇI** (Daylaqlı, Türkeş) – yundan parça toxuyan, toxucu. –Lap əvvəllər parça-zad olmuyanda arvatdar özü toxuyurdu, ona deyirdilər culfaçı.

**CULİK** (Naxçıvan) – fırıldaqçı. –Mə:m bı nəvəm yekələndə culik olacax vallah.

**CUMCULUX//CUMCUMA** (Naxçıvan, Şahbuz) – tamam yaş olmaq. –Güya mənə iş gördü, özün eliyip cumculux qoyub ora.

Cəbrayıl şivələrində də bu sözə eyni mənada rast gəlirik (1, s.83).

**CUMMAX** (əksər şivələrdə) – hücüm çəkmək, irəli atılmaq. –Hara cumursan üsdümə bir dayan görəx'.

**CUVAR//CUVAN** (əksər şivələrdə) – suya nəzarət edən adam. –Cuvar bıraları suluyan adamdı.

**CÜCƏGÖZÜ** (Şahbuz) – xalçaya salınan naxış adı. Cücəgözü adlı dağ çiçəyinin xalçada təsviri.

**CÜCÜ** (əksər şivələrdə) – hər cür həşərat. –Yayda bırda cücü-mücü çox olur.

**CÜLÜ//CULU** (Naxçıvan, Ordubad) – çöçələ barmaq. –Culu barmağımı pıçax kəsdi.

**CÜNCÜLÜ BARMAX** (Tivi) – çöçələ barmaq. –Nətər basmarradısa cüncülü barməğim çıxdi.

**CÜRCÜNƏX'** (Şahbuzkənd) – keçədən geyim.

**CÜRDƏX'** (əksər şivələrdə) – dar ağızlı kiçik saxsı səhəng. –Cürdəx'də su göndərdim ki, yazıxdı isdidə işsin.

**CÜTQOV** (Ordubad) – bir yerdə olan dörd ulduzun adı. –Dört ulduz bir yerdə olur ki, biz ona cütqov deyirıx.

## Çç

**ÇAĞALAGÜL** (Püsyan) – reyhan. –Bir kərdi də çağalagül əx'mişəm.

**ÇAĞLAMAX** (Maxta) – pambığın alağını vurmaq. – Çox işin qutarmışıx pambığın, çağlamax qalır.

**ÇAHATI** (Şahbuz) – tezyetişən qoz növü. –Çahatı hammısınnan tez yetişər.

**ÇAXÇAX** (Oğlanqala) – bağda quşları qovmaq üçün şıqqıltı salan, bir-birinə bağlanmış taxta parçaları, quşqovan.

**ÇAXÇUR** (Cəhri) – qadın şalvarı. –Çaxçur belə gen şalvarıydı, arvatdar geyinirdi.

**ÇAQQALA** (əksər şivələrdə) – kal ərik. -Əriyin kal vaxdına diyərix' çaqqala, turş olur, əmə yeyilir o da.

Çaqqala sözü eyni mənada Qarakilsə, Zəngilan şivələrində də var (1, s.88).

**ÇAQQI** (Biləv, Dırnıs) – çib bıçağı. –Çaqqıdan-zaddan gətgə maşınnən bı qərpizi doğruyəx.

**ÇALASƏR** (Naxçıvan, Ordubad) – mətbəxdə su saxlamaq üçün quyuya oxşar yer. –Çalasərin suyuni təzələ.

**ÇALASI** I (əksər şivələrdə) – qatıq mayası. –Qaş bibinnən çalası al gəti, qatıx çalıram.

**ÇALASI** II (Şahbuz) – sözgəzdirən, aravuran adam. – Ona bizim kətdə Çalası Aybəniz diyəllər.

**ÇALAY** (Gənzə) – azacıq böyümüş yemiş. –Çalay qırma ki, həyifdi, qoy qalsın yekəlsin.

**ÇALDIRMAX** (Culfa, Kəngərli, Şahbuz) – suvarma zamanı sahəyə azacıq su buraxmaq. –Birimci dəhə su verəndə əkinə çaldırmax lazımdı, çox su verməx' olmaz.

**ÇALXAR** (Cəhri) – nehrə. –Nənəm çalxarda eliyərdi həmməşə yağı.

**ÇALI** (Babək, Kəngərli) – kol. –Onnarın kəvşənnərin pütün çalı basıp.

**ÇALQAX** (Camaldın) – arıq. –Bir çalqax inəyi var, isdiyir bətdiyə bizə.

**ÇALQU//ÇALĞI** (Nursu) – çubuqdan bağlanmış iri süpürgə. –Çalqu həyət süpürgəsidi da, eşix'-bacanı süpürərix'. –Durdum ki, qar həyəti basıp, bitəhərnən çalquynan təmizdəmişəm.

Bu söz Dərbənddə dəryaz mənasında qeydə alınmışdır (3, s.88).

**ÇAMAX** (Badamlı) – iri gözlü xəlbir. –Havlanın umacın çamaxdan keçirdirix' əvvəlcə.

**ÇAMIR** (Nursu) – bataqlıq. –Ora:n dört-bir tərəfi çamırdı, hardan keçəssən?

**ÇAMLAMAX** (Kotam) – ovsunlamax, sehrləmək, cadu etmək. –Elə bilginən uşəği camliyiplər.

**ÇANAX** (Şərur) – ölçü vahidi. –Taxılı-zadı çanaxnan ölçərix'.

Ağdam, Gədəbəy, Gəncə, Xanlar, Şəki, Zəngilan dialekt və şivələrində də bu söz həmin mənada işlənir (3, s.89).

**ÇAPACAX** (Şahbuz) – dəhrənin bir növü. –Çapacağı

qəssaplar işdədəllər, cəmdəyi onnan şaqqalıyıllar.

**ÇAPBA İSDƏKAN** (Babək) – qalın, iri stəkan. –Mən çıqqılı isdəkanda içəmmirəm, mə:mki gərəx' çapba isdəkan ola.

**ÇAPIT** (Şərur) - əski, köhnə parça. –Çapıtdan zaddan ver bıraları silim.

**ÇARQAT//ÇARŞOV//ÇARŞAB** (Nehrəm) – çadra. – Bizim kətdə arvatdar çarqat örtər.

**ÇARVADAR** (Şahbuz) – mal-qara alveri eləyən adam. –O vaxdarı Teyyub kişi çarvadarrığ eliyirdi.

**ÇAŞIR** (əksər şivələrdə) - yabanı bitki. –Çaşırı dağlardan yığırıx, onnan qəşəx' turşu qoyurux.

**ÇAŞNI** (Cəhri) – xarlanmış doşab. –Çaşnıynan mən tərəx' pişirərəm.

**ÇATAQ//ÇATMA** (Kükü) – nehrəni asmaq üçün dayaq. –Çataxdan nehrəni asarıx.

**ÇATAXLIX** (Şıxmahmud) – onurğanın ən aşağı ucunda yerləşən sümük. –Yeriyəndə elə bil çataxlığıma ox batır.

**ÇAYAN** (Naxçıvan) - əqrəb. –Uşağı çöldə çayan çaldı.

**ÇAYLAX** (əksər şivələrdə) – dağdan axan yağış suyunun və ərimiş qarın keçdiyi dərə. –Çaylaxdan geşməx' lazımdı ora getməx'dən yana.

**ÇEÇİMƏX'** (Naxçıvan) – yeməyin nəfəs borusuna atılması ilə tutan öskürək. –Birdən çeçidi, qorxdum, elə bildim boğuldu.

**ÇE:İL//CİL** (Şahbuz) - sucaq yer. –Bıralar çe:il yerrərdi məhsulu yaxcı olur.

**ÇELE** (Boyəhməd, Əlincə, Teyvaz) – pişik balası. –Bizdə pişiyin balasına çele diyəllər, bəzi yerrərdə də mavrı deyillər.

**ÇELVARI** (Şahbuz) – dəyirmanda kömbə bişirmək üçün balaca təndir.

**ÇERTAYI//ÇER** (Naxçıvan) – çəpgöz. –Uşax çertayıydı, neçə illərdi doxdurrardadılar.

**ÇEŞ** (Aza) – torpağın xışla yumşaldılmış hissəsi. –Əkini həmməşə çeş torpağa əkəllər.

**ÇEŞİD** (Güney Qışlaq, Kükü) – içərisində balı süzülmüş şan olan çərçivə. –Balını süzənnən sora olur çeşid.

**ÇEŞMƏ** (Ordubad) – evin üstünə qoyulan tirlər arasındakı məsafə.

**ÇƏÇİX'** (əksər şivələrdə) – qızıldan boğaza taxılan zinət əşyası. –Nənəmin də varıydı çəçiyi, verdi xalama.

**ÇƏFƏR//KƏFƏR** (Çərçiboğan) – su süzmək üçün daş. –İndiki suları çəfər lazımdı ki, süzüp sohra içəsən.

**ÇƏHLİM** (Vənənd) - iz, ləpir. -Malların çəhlimin tapdım.

**ÇƏHMƏ** (Babək, Naxçıvan, Şərur) – düyünün mərciməklə, bəzən də əriştə ilə birlikdə süzülməsi ilə hazırlanan yemək. –Çəhməni qavırmaynan pişirəndə illap daddı olur.

Bu söz çəkmə variantında Gəncə və İrəvan şivələrində

də var (3, s.93).

**ÇƏKƏCƏX'** I (Şada) – təndirin ağzına qoyulan taxta qapaq. –Çəkəcəyi çəx' təndirin ağzına, pişix'-zad tüşər içinə.

**ÇƏKƏCƏX'** II (əksər şivələrdə) – toyuğun döşündə olan haça sümük.

**ÇƏKƏCƏX'** III (Şahbuz) – yer hanasının hissələrindən birinin adı.

**ÇƏKƏRƏX'** (Nehrəm) – az. –Sən birəz çəkərəx' danışsaydın belə olmuyacıydı.

**ÇƏKMƏDUZ//ÇƏHMƏDUZ** (Bist, Çərçiboğan, Şərur) – çəkməçi. –Əyaqqabılarımı göndərmişəm çəhməduza tix'sin.

**ÇƏL** (Nüsnüs) – meynənin qolları. –Çəl mevın qollarıdı.

**ÇƏLXEY** (Didivar, Nəzərabad) – araqarışdıran, səs-küy salan. –Onnan başarmağ olar, elə çəlxeydi ki o.

**ÇƏM** (Ləkətağ) – yol, üsul. –Hər işin gərəx' çəmini tapasan ki, öhdəsinnən gələ biləsən.

**ÇƏMÇİ** (Naxçıvan) - alaqdərən. -O çəmçini mə: ver, alağ eliyirəm.

**ÇƏMXƏM ELƏMƏX'** (əksər şivələrdə) – razılaşmamaq, naz etmək, işi yoxuşa sürmək. –Əvvəlcə bir çəmxəm elədi, əmə sora yola gəldi.

**ÇƏNƏ-BOĞAZ** (Naxçıvan) – danışmaq, yola gətirməyə çalışmaq. –Xeylax çənə-boğazdan sora birtəhər irazı

saldım.

**ÇƏNG** (Çənnəb) - lobya bitkisinin ağaca sarılan nazik hissəsi. -Lobyanın atdığı çəng nəzix' tel kimin olur.

**ÇƏPƏR** (Biçənək, Kolanı) – sürünü çöldə saxlamaq üçün yanları çör-çöpdən hörülmüş tikili. –Dağda olanda sürünü elə çəpərə qatarıx.

**ÇƏPƏRƏ//ÇIĞ** (Babək, Şahbuz) - üstündə lavaş sulamaq üçün söyüd ağacından hörülmüş alət. Üstünə parça çəkilir, içərisinə ot, parça doldurulur, arxasında isə əl yeri qoyulur. Onunla eyni zamanda təndirə çörək də yapılır.

**ÇƏPİC//ÇƏPİŞ** (Babək, Culfa, Şərur) – keçinin altı aydan bir yaşa qədər olan balası. –Bir yaxcı çəpicim var saxlamışam oğlum gələndə kəsəcəm.

**ÇƏPİX'** I (Naxçıvan) – cəld. –Elə çəpix' qızdı ki, əlinnən inni-cinni qutarmaz.

**ÇƏPİX'** II (Babək, Naxçıvan, Şərur) – alqış, alqışlamaq, əl çalmaq. –Cəməhət tudular bını çəpiyə, bı da ürəx'ləndi, başdadı danışmağa.

**ÇƏRƏKƏ** (Unus) - təsbeh. -Çərəkə qocada da olar, cavannarda da.

**ÇƏRƏNÇİ** (əksər şivələrdə) – çox danışan. –Çərənçi çox danışan adama deyirix'.

**ÇƏRƏNNƏMƏX'** (əksər şivələrdə) – boş-boş, uzun danışmaq. –O qədə çərənnədi ki, başımız şişdi.

**ÇƏRƏZ** (Biləv) - bağbanın koması. -Bağban çərəzdə yatıb.

**ÇƏRKOV** (Babək, Kəngərli, Sədərək, Şahbuz) – dörd okuz qoşulan xış və ya kotan (ikiboyun cüt). –Çərkov cütnən gərəx' hodax da ola.

**ÇƏRMƏKİ** (Şahbuz) – gönü döymək üçün işlədilən alət.

**ÇƏRRƏTMƏX'** (Naxçıvan) – boğaza yığmaq, bezdirmək. –Bı uşağın beyvecliyi çərrəti da məni.

**ÇƏRRİMƏX'** (Milax) – atın xəstələnməsi.

**ÇƏRŞOV//ÇARŞOV//ÇARŞAB** (Naxçıvan) – çadra. –Nənəm həməşə çərşov örtərdi başına.

**ÇƏT** I (Boyəhməd, Dizə, Gal, Qazançı, Nursu) – qoz. –Bizdə cəviz də diyəllər, çət də diyəllər.

**ÇƏT** II (Nursu) – taxıl yuyulub təmizlənərkən çıxan zibil. –Çətdi, buğdadı bınnan qavırqa olmaz.

Zəngibasar şivələrində də bu vahidə eyni mənada rast gəlirik (3, s.98).

**ÇƏTDANQUŞ** (Ordubad) – yabanı ot. –Bir şələ çətdanquş topla.

**ÇƏTƏN** I (əksər şivələrdə) – xeyli. –Arvad xeylağı bir çətən uşağnan qalıb ortalarda tək.

**ÇƏTƏN** II (Alışar, Bist) – saman daşımaq üçün arabanın yanına qoyulan qarğı toxuma.

**ÇƏTƏN** III (Naxçıvan) - çöldə quzuları saxlamaq üçün qarğı ilə hörülmüş yer. -Quzuları qat çətənə.

**ÇƏTƏNƏ** (Şahbuz) – cəviz növü. –Həyətdərində yaxşı

çətənə cəviz var onnarın.

**ÇIX** (Saltaq) - təndirə çörək yapmaq üçün söyüd çubuqlarından toxunmuş alət. -Şiv yığmışam, çıx toxuyacam.

**ÇIXACAX** (Behrud, Naxçıvan, Nəsirvaz) – hadisə, bir hərəkətin pis bir hadisə ilə nəticələnməsi. –Çıxacağı varıydı, o da mənim başımda çatdadı.

**ÇIXDAŞ** (Naxçıvan, Şahbuz, Şərur) – yararsız. –Sən bı qabların hammısın çıxdaş elədin ki.

**ÇIXIŞ//BİTİŞ** (əksər şivələrdə) – toxumun ilk cücərtisi. –Çıxışı görəndə nətər səvinirdix' ta diyəmmərəm.

**ÇIQQILI** (Naxçıvan) – xırda, kiçik. –Bi çıqqılı üz verən kimi başdıyır sırtılmağa.

**ÇIQQIŞ** (Nəsirvaz) - xırda odun. -Biz xırda oduna çıqqış deyərix.

**ÇILPAXLIX** (Oğlanqala) – paltar. –Səhər gedəcəm şəhərə, uşağa çılpaxlığ almağa.

**ÇINTIRQƏYİŞ** (Naxçıvan) – arıq, cəld, dözümlü adam. –Sən Əlanın çıntırqəyişdiyinə baxma ki, bı əv-eşiyi hammısını özü təx' tikip.

**ÇINTIR** (Bulqan, Qaraçuq, Naxçıvan) - ətin yeyilməyən, lazımsız hissəsi. –Çıntırrarın da yığ göndərəx' İramazanın itinə.

**ÇIPBA** (Tivi) – çörək növü. –Qəbaxlar cəməhət çıpba yapardı təndidə.

**ÇIPITMAX** (Naxçıvan) - oğurlamaq. –Göz-gözə vırıp

tez çıpıtdı, heş kim başa tüşmədi.

**ÇIRA** (Qarabağlar) – lampa, çıraq. –Çıra:n işığında dərs oxuyurdux o vaxlar.

**ÇIRAXBA** (Kükü) – çıraq qoyulan yer. –Ləmpə yandıran vaxdı onu qoyduğumuz yerə diyərdix' çıraxba.

**ÇIRĞAB** (Sədərək) – qızıl əşyalar saxlanan qab. –Əvvəllər anamın çırğabı doluydu, ta yavaş-yavaş boşalıp.

**ÇIRIXDIRMAX** (Naxçıvan) - karıxdırmaq, çaşdırmaq. -Niyə çırıxdırırsan, qoymursan sözümü deyim.

**ÇIRPACAX//ÇIRPANAX** (Culfa, Ordubad, Şərur) – yun çubuğu. –Çırpacax söyüd ağacınnan yaxcı olur.

**ÇIRPAN** (Şahbuz) – yun çubuğu. –Gə get bağdan bir qəşəx' şiv qır gəti çırpan eliyəcəm.

**ÇIRPANAX** (Aşağı Buzqov, Dizə, Gal, Xurs, Yuxarı Buzqov) – ağacdan meyvə salmaq üçün çubuq. –O yuxarda qalannarı da çırpanağnan vır tüşsun.

**ÇIRTMAQ** (əksər şivələrdə) – balaca-balaca doğramaq. –Do:ğanın pencərin çırtmışam hazırdı.

**ÇITMIX** (Qarabağlar, Naxçıvan) – çırtıq. –Çıtmıx çalan kimin başdıyır oynamağa.

**ÇİÇƏ** (Ağbulaq, Dəmirçi, Gal, Şurud) - əmi arvadı. –Biz çiçəmizi anamızdan ayırmırdıx o vaxdı.

**ÇİÇƏX' BALI** (Daylaqlı, Sələsüz) – meyvə ağaclarının çiçəklərindən hazırlanan bal. –Çiçəx' balını meyvə ağaşdarınnan çəkir arı.

**ÇİÇƏX' SUYU** (Babək, Culfa, Şahbuz) – taxıla verilən ikinci su. –İkinci dəfə suvardığımız çiçəx' suyudu.

**ÇİGİRTGƏ** (Əlahi) - kitrə, ağac yapışqanı. -Mənə ağacdan çigirtgə qopar ver.

**ÇİLƏMƏX'** (Babək, Culfa, Naxçıvan, Şahbuz) – su çıxmayan yerləri bel ilə su çiləyərək suvarmaq. –Bırda su yoxdu diyən biz də məjbur lapatqaynan çiliyərix'.

**ÇİLLƏ** (əksər şivələrdə) – qışın müəyyən bir dövrü. İki çillə var. Böyük çillə qış başlayandan 40 gün, kiçik çillə böyük çillədən sonra 20 gün. –Çətini böyüx' çillədi. Onda bırda çox soyuğ olur, o çıxdısa ta qorxusu yoxdu.

**ÇİLOVQANNIX** (Babək, Culfa) - hər yerdə işıq yandırmaq, çıraqbanlıq. –Həmən günnəri kətdə bir çilovqannıx olur ki.

**ÇİM** I (Çeşməbasar) - tamam, tamamilə. –Elə dannamışdım ki, çim tərin içindəydi.

**ÇİM** II (Babək, Naxçıvan) - axan suyun qabağına qoyulan, ot kökləri ilə bərkimiş torpağın bir bel ağzı ilə götürülən hissəsi. -Bəndə çim bas.

**ÇİMÇƏŞMƏX'** (Ərəfsə, Qaraqala) – ürpəşmək. –Limon görəndə ətim çimçəşir.

**ÇİMDİX'** (əksər şivələrdə) – iki barmağın ucu tutan qədər. –A bala, o xorəyə bir çimdix' duz at.

**ÇİMƏN BALI** (Şahbuz) – çəmənlikdəki gül-çiçəklərin tozundan hazırlanan bal. –Çimən balı ən qəşəyidi.

**ÇİN** I (Şahbuz) – xalça toxumaq üçün əyrilib boyanmış ip.

**ÇİN** II (Şərur) – paltarın büzməsi. –İrəhmətdix' nənəm həməşə çinni tuman geyərdi.

**ÇİNÇAVAT** (Naxçıvan) – təmizkar. –Elə çinçavat arvadıydı ki, qoymazdı yerə bir çöp tüşə.

**ÇİNƏDANI DAR** (Naxçıvan) – hövsələsiz, səbirsiz adam. –Bir döz axıracan gör nə deyir, adam bir belə çinədanı dar olmaz ki.

**ÇİNİ** (Babək, Şahbuz) – emal olunmuş. –Südü çini seyində saxlıyıram, onda yaxcı qalır.

**ÇİNNƏMƏX'** (əksər şivələrdə) – qatlamaq, səliqə ilə, dəstə ilə yığmaq. –Çörəyi suladım, gə çinnə, gedəx' oturax çörəyə. –Vaxdında pulları çinniyip yığıb altına, indi ta nə veycinə.

**ÇİNNİ** (Diyadin) - büzməli. –Çinni tuman hələ indi də var.

**ÇİRİŞ** (Culfa, Ordubad, Şahbuz, Şərur) – yabanı bitki. –Çirişin turşusun da qoyarıx.

Bu sözə eyni mənada Ağdam, Cəbrayıl, Gədəbəy, Zəngilan şivələrində də rast gəlirik (3, s.103).

**ÇİSƏLƏMƏK** (Naxçıvan) – narın-narın yağmaq. –Hava bir aşmadı böyün, elə səhərdən çisəliyir.

**ÇİSGİN** (Bist, Naxçıvan, Şərur) – narın yağış. –Pütün günü çisgin yağıp.

**ÇİŞ** (Aşağı Qışlaq) – balı süzülmüş şan.

**Çİ:TDİ** (Tənənəm) – pambıq. -Mən çi:tdi yığmaxda əmimgilə köməy elyirəm.

**ÇİTƏMƏX'** (Xok, Şahtaxtı) – tikmək. –Uşax köynəyi ilişdirip cırmışdı, çitəmişəm.

**ÇİY BAL** (Qarababa, Nursu) – tam hazır olmayan bal, xam bal. –Çiy bal yanı kal, yetişməmiş bal.

**ÇOBANKİBRİTİ** (Şahbuz, Şərur) – yabanı bitki.

**ÇOBAN YARMASI** (Nursu) – yazda yağan dolu. –Çoban yarması ən çox yazda yağar.

**ÇOD** (Qazançı) - bərk, möhkəm. -Çod daş yaxcıdı.

**ÇODAR** (Babək) – qoyun alverçisi. –Çodarrığ eliyirdi o vaxdı, qoyun alıp-satırdı.

**ÇORTAĞI** (Badamlı, Türkeş) – narahat yerişli at.

**ÇÖÇƏ** (əksər şivələrdə) – kökə. –Bayram çöçəsi:n içinə bəziləri cəviz vırır, bəziləri əmə maş da vırır.

**ÇÖKÜR** (Qızıl Qışlaq) – biçilmiş taxılın və ya otun torpaqda qalan hissəsi, kötüyü.

**ÇÖL KƏVƏRİ** (əksər şivələrdə) – yabanı bitki.

**ÇÖLMƏX'//ÇÖLMƏ** (əksər şivələrdə) – piti bişirmək üçün gil qab. -Çölməx'də pişən pitinin dadı başqa olur.

Bu söz çölməx'//çölmə//çölməy fonetik variantlarında Gədəbəy, Göyçay, Lənkəran, Masallı şivələrində qeydə alınmışdır (1, s.110).

**ÇÖMBƏLMƏK** (Babək, Naxçıvan, Sədərək) – dizlərini qatlayıb oturmaq. –Pütün günü çömbəlir difarın dibində.

**ÇÖPÇÜ** (Naxçıvan) – burun püləyən (Xalq arasında belə bir inam var ki, balaca uşaqlar bir az narahatçılıq edəndə

burnunda çöp qalıb. Yəni yediklərinin qırıntıları uşağın burnunda qalıb. O zaman onu çöpçüyə aparıb burnun pülətdirərlər. Bu işlə məşğul olan adama da çöpçü deyirlər). – Uşağı axşam çöpçüyə aparıb gətirənnən sora gecə elə irahat yatıp ki.

**ÇÖPDÜX'** (Badamlı, Qarababa) – yun darayarkən yerə tökülən keyfiyyətsiz, xırda yun. -Çöpdüx' yunun artığıdı, onu qatmarıx yorqan-döşəyin içinə.

**ÇÖRƏX' ÜSDÜ** (Axura, Ləkətağ, Türkeş) – toy çörəyi bişirilən zaman gələn adamların gətirdiyi hədiyyə, şirniyyat və ya pul. –Bınnan əzəl cəməhət yığışıp neçə gün qabaxdan toy çörəyi yapırdı, biz də çörəx' üsdü aparırdıx.

**ÇÖRƏZNƏYİ ÇIXMAX** (Naxçıvan) – açılıb tökülmək. –Oqqədə götürüb qoyub ki, çörəznəyi çıxıb yükün.

**ÇÖSKÜ** (Kükü) – köçün müvəqqəti düşdüyü yer. – Dağa gedəndə yolda dayandığımız yerə deyirdix' çöskü.

**ÇÖZDƏMƏX'** (Sələsüz) - açmaq, uzatmaq. -Bağırsağı çözdüyəllər, ipi çözdüyəllər.

**ÇUBUX** (Babək, Culfa, Naxçıvan) – müştük. -Kişi divarın dibində oturub çubuğunu tüstülədirdi.

**ÇUL DÜŞMƏX'** (Naxçıvan) - yorulub əldən düşmək, taqətdən düşmək. -O qədər işdəmişdim ki, axşam çul düşmüşdüm.

**ÇÜLÖSÜZƏN** (Babək, Sədərək) – aşsüzən. – Çülösüzənnən pilov süzərix'.

## Dd

**DAACAX GƏLMƏX'** (Şahbuz) – təəccüblü görünmək. –Bının nəyi sa: daacax gəlir ki.

**DABALAX** (Naxçıvan) - kələk, fırıldaq. -Mən yekəx'də kişiyə dabalax gə:rsən.

**DABANA** (Kükü) – qapının astanaya keçən yeri. –Ə, bir yavaş da qapını dabanadan çıxartdın axı.

**DABANBASMA** (Aşağı Uzunoba) – tələsik, sürətlə.-Dabanbasma özünü yetirdi.

**DABANÇƏKƏN** (Tumbul) – ayaqqabını geymək üçün işlədilən ləvazimat. –Dabançəkən rajoka deyirix'.

**DADANMAX** (Naxçıvan) – öyrənmək, alışmaq. –Kəndə tülkü dadanıp, gündə gəlip toyux-cücələri aparır.

**DADAŞ** (Ordubad) – böyük qardaş. –İrəhmıttiy dadaşım elə hey Başköydəki qahımlarımızdan danışıb ağlıyardı.

**DADIXMAX** (Aza, Düylün, Naxçıvan) – xarab olmaq, pis dad vermək, dadı dəyişmək. –Pəniri öz şərovunda saxlamasan dadıxar.

**DAĞAL** (Ordubad) – gözə düşən çöp. –Obaşdannan gözümə dağal tüşüp çıxardəmmirəm.

**DAĞALAX** (Naxçıvan) –quru, bərk. –Çörəx' qalıp isdolun üsdə dağalağa çönüp.

**DAĞAVAR** (Şahbuz) – dağlıq. –Bizim yerrər dağavardı da, ona gora sərin olur.

Bu söz təmiz dağ havası olan yer mənasında Ağbaba şivələrində də işlənir (6, s.70).

**DAĞDAĞAN** (əksər şivələrdə) – nəzərdən qoruduğuna inanılan bitki. –Dağdağanı gözmıncığı kimin taxarıx uşağın qoluna ki, göz dəyməsin.

**DAĞ ELƏMƏX'** (Yaycı) - əvvəlcədən həll eləmək, işi yoluna qoymaq. -Get böyüyün yanına, bı məsələni dağ elə sora.

**DAĞ SU** (əksər şivələrdə) – qaynadılmış su. –Uşaxlar xırda olanda dağ su veririx' işməyə, çiy su köpdürər.

**DAXIL TÜŞMƏX'** (əksər şivələrdə) – yalvarmaq. – Gedip daxıl düşəcəm məçiddə, bəlkə Allahın mənə yazığı gələ.

**DAINTDAMAX** (Ordubad) – pusquda durub öyrənmək, ovun yerini tanıyıb bilmək.

**DAM** (Nüsnüs) – tavan. –Beləcə gözün tikip dama bəxirdi.

**DALAX** (Şahbuz) – məhsul bol olanda arıların əsas şanlardan əlavə düzəltdikləri kiçik şan.

**DALDA** (əksər şivələrdə) – gizlin yer, görünməyən yer. –Aşıx Hüseyin daldada durup gözdədi görsün bı işin axırı noolacax.

**DALEY** (Unus) – boşqab. –Bir daley götür gedax xorəx' qoyum sənə.

**DAMA BASMAX** (əksər şivələrdə) – həbs etmək. - Dünənnərim ikisin də dama basıblar.

**DAMAX** (Keçili, Sələsüz) – yemi gec vermək

nəticəsində atın damağının şişməsi. –Vaxdında yemləməsən atı damax olar.

**DAMAZDIX** (Babək, Şərur) – qatıq mayası.

**DAMDABACA** (əksər şivələrdə) – uşaqları qorxutmaq üçün xəyali varlıq. -Damdabaca gə:r, tez gir yerivə yatginən.

**DAMDAŞ** (Naxçıvan) – ev-eşik. -Bir damdaş saldırıb ki, iki göz isdiyir tamaşa eliyə.

**DANABAŞ** (Cəhri, Vayxır) – ağılsız, küt. -Onnan adam çıxmaz, danabaşın biridir.

**DANABIRNI//DANADİŞİ** (Babək, Culfa, Naxçıvan) – yerin altında bitkilərin kökünü yeyən ziyanverici. -Danabırnı pamidora çox zərəl verir.

**DANA TUT** (Nüsnüs) – iri tut. –Uşəxlar gələcax dana tutu çıpbağa.

**DAN-DAN DEMƏX'** (Ordubad) – meydan oxumax. –Çəkilip yerinə otuməxdan hələm dan-dan dey bizə.

**DANQA** (Babək, Naxçıvan, Ordubad, Şərur, Şahbuz) – kobud. –Danqa Mamed diyəllər ona, ağzının pərsəngi yoxdu ki, nə gəldi deyir.

**DANQAZDIĞ** (Tivi) – dikbaşlıq, lovğalıq. –Danqazdığ hələ heş kimə xeyir vermiyip ki, qalmısan sən.

Bu söz Masallı, Salyan şivələrində də işlənir (1, s.122).

**DARABA** (Şahbuz) – məhəccər. –Darabadan yapışmasam çıxammanam ki mən.

**DARABAX** (Kotam) - taxıl saxlamaq üçün böyük

yeşik.

**DARABİZON** (Biləv, Bist) - qalın sarı çuval. - Darabizonda yun var.

**DARAXDİŞİ** (əksər şivələrdə) – daraq dişi kimi çıxmış cücərtilər. –Qəşəx' cücərmiyip bı il buğda, daraxdişidi.

**DARAXLAMAX** (Naxçıvan) - iki əlini eninə açaraq qapını kəsmək, yolu tutmaq. -Gecə vaxdı qapını daraxlamazlar, pis olar.

**DARAX YELƏN** (Şahbuz) – xalçaya salınan naxış adı.

**DARALMAX** (Nəhəcir) – xəsislik etmək. -Əhməd pul xəşdəməyə daralır.

**DARAMITDI** (Naxçıvan) – qənaətcil. -Çox daramıtdı adamdı.

**DARANQLET** (Naxçıvan) – köhnə. –Qədəcər maşın qalıb orda nə yapışmısan bı daranqletin yaxasınnan.

**DARAYI** (Kükü) – alma növü. –Həyətə təzə əx'diyim darayı almadı.

**DARBINMAX** (Naxçıvan) – səbri çatmamaq, sıxılmaq, tələsmək. –Bı uşax da gəlib çıxmıyıb, darbınıram.

**DARDÜDÜX'** (Babək, Naxçıvan) – çox dar paltar. – İndikilər dardüdüx' paltarrarı keçirdillər əyinnərinə, tüşüllər yola.

**DARI** (Ordubad) – çörək çeşidi.

**DARISQAL** (Tumbul) – dar. –Bəsdigilin əvi çox darısqaldı.

**DARKEŞ** (Qazançı, Milax) – dar. –Məhləmiz darkeşdi, maşın-zad geşmir ordan.

**DARQURSAX** (Qaraçuq, Naxçıvan) – hövsələsiz, səbirsiz. –İrənənin darqursaxlığı qoymadı ki, biz bı işi axıra çatdırax.

**DARMƏCAL** (Cəhri, Didivar, Vayxır) – az vaxt. –Bı darməcalda nə vacipdi ki, uşağı da götürüb gedəsən.

**DAR VAXDI** (Gümüşlü) – axşam, hava qaralan vaxt. –Dar vaxdı uşağı qoymazdar eşiyə təx' çıxa, qorxar.

**DAŞDAMAX** (Vənənd) - taxılı toz-torpaqdan təmizləmək. –Başa: dönüm, gə bu buğdani daşleyib qurtarax.

**DAŞDAMMAX** (Naxçıvan) – dalbadal, hamının birdən getməsi. –Dolanışıx dərdinnən hamısı daşdanıp getdilər ursetə.

**DAŞGİR** (Külüs) – döyülmüş taxılı təmizləyən kiçik gözlü xəlbir. –Hələ işimiz qutarmadı ki, daşgirdən də keçirdəciyix'.

Basarkeçər, Qarakilsə, Qazax şivələrində də bu söz qeydə alınmışdır (1, s.125).

**DAŞIXÇI** (Naxçıvan) – heç bir təmənnası olmadan özünə aid olmayan işləri görən, başqasının yükünü daşıyan. –Neçə illərdi mən bınnara daşıxçıyam.

**DAŞIRQAMA** (Ordubad, Şahbuz, Şərur) – mal-qaranın dırnaqlarının yeyilməsi.

**DAŞQA** (Babək, Naxçıvan, Şərur) – ortada bir təkəri olan, iki əllə yapışıb sürülən araba. –O vax çətin günnəriydi, hammımız İrannan daşqaynan mal daşıyıp satırdıx.

**DAŞSALDI** (Naxçıvan) – keçmişdə öz səsini qutuya daş ataraq verməklə keçirilən səsvermə.

**DAVAR** (Babək, Şahbuz, Şərur) – qoyun, keçi. – Davarı gətirib ötürüp, özü harasa gedip.

**DAV GƏLMƏX'** (Ordubad, Şərur) – qalib gəlmək, üstələmək, zor gəlmək. –Gör nətərdi ki, bı ma: dav gəlir.

**DAVŞANI** (Gömür) – atın üç ayaqla yeriməsi.

**DAY** (Şahbuz) – atın iki yaşdan iki yaş yarıma qədər olan erkək balası. –Bir yaxcı ceydax day gətirmişdi.

**DAYANACAQ** (Şahbuz) – əl ağacı, əsa. -Əvvəllər özü gəzirdi, əməancax indi dayanacağnan gəzir.

**DAYANDOLDURUM** (Sədərək) - sümbə ilə doldurulan ov tüfəngi. -Dədəmin bir köhnə dayandoldurumu vardı.

**DAYCANI** (əksər şivələrdə) – dayının arvadı. – Daycanım çağırmışdı, getmişdim onnara.

**DAYÇA//DAYLAX** (Kəngərli, Şahbuz) – atın bir yaş yarım, iki yaşında erkək balası. –Dayça at balasıdı.

**DEMİ** (əksər şivələrdə)//**DEMAT** (Aza, Ərəfsə) – su çıxmayan, suvarılmayan yer. –Bıralar dədə-babadan demi yerrərdi.

**DEYİX'Lİ** (Sələsüz) – oğlan və qız kiçik yaşlarında olarkən iki ailə arasında gələcəkdə evlənmələri arzu olunan şəxslər. -Deyix'lilix' yaxcı şey dəyil, yekələnnən sohra ya oğlan qızı bəyəmmir, ya da qız oğlanı.

**DEYİNÇİLİK** (Keçili) – dalınca danışmaq, şikayətlənmək. -Deyinçilix' eləməx' lazım dəyir ki, sözün varıydı üzünə diyərdin.

**DƏBRƏ** (Şərur) – ot bağlaması. –Otu yığıp dəbrə eliyirix', saxlıyırıq qışa.

**DƏC** I (Naxçıvan) - əl vurulmamış, bütün. –Nətər qoymuşdum heyləcə dəc də dururdu, əlin də vırmamışdı.

**DƏC** II (Badamlı, Biçənək) – biçilməmiş zəmi.

**DƏC** III (Şahbuz) – bir yerə toplanmış taxıla nişan vurmaq üçün xüsusi əşya. –Yığannan sohra dəcnən işarə qoyurux kin, heş kim əl vurmasın.

**DƏFDƏNDARAX** (Babək, Culfa, Naxçıvan) – dəsgah. –Gənə nə dəfdəndarax aşdın ki, dur yığış.

**DƏHDİLİM** (Babək, Naxçıvan)//**DƏHDÜLÜ** (Şabhuz) – özünü apara bilməyən, ağıldanyüngül. –Güya ağsaqqaldı, əmə dəhdilimin biridi.

**DƏHDİR** (Kırna) - onaçılan tapança. -Belində bir dəhdiri də vardı.

**DƏHMƏRRƏMƏX'** (Badamlı, Şada) - atı hərəkətə keçirmək üçün qırmanclamaq. -Atı dəhmərrədim, tez kəndə yetişdim.

**DƏHNƏ** (Şahbuz) – çaydan arxa su buraxılan yer, mənbə. –Dəhnədən ötürürüx' bıralara suyu.

**DƏHNƏÇİLOV** (Bənəniyar, Bist, Saltaq, Nəsirvaz) – yüyən. –Dəhnəçilov atın yüyənidi.

**DƏJDƏMƏX'** (Babək, Naxçıvan) – yığıb bir kənara qoymaq. –Əsgər kişi pulunu dəjdiyip yığıp altına, üsdündə də ilan yatıp ha, heş kim dəyəmməz.

**DƏLƏMƏ** (Ordubad, Şahbuz, Şərur) – yeni-yeni mayalanmağa başlayan pendir. –Hələ əmələ gəlmiyip ki pənir, dələmədi.

**DƏLİ DOLMA//KOR DOLMA** (əksər şivələrdə) - ətsiz dolma. –Dəli dolmanı ən çox yayda pencər bol olan vaxdı pişirərix'. –Kor dolmanın içinə ət vırmırıx, bolhabol pencər, mığəşər, düyü vırırıx.

**DƏMBƏLƏMDÜZ** (Qaraçuq) – dümdüz. –Elə dəmbələmdüz düzəltmişdi ki, ağzım açıx qaldı.

**DƏMÇİ** (Şahbuzkənd) – toyda çalğıçıya dəm tutan. –Dəmçi hələm gəlip çıxmıyıp, onu gözdüyür hamı.

**DƏMDƏKİ** I (Şərur) – hərdəmxəyal. –Mə:m bı xırda oğlum dəmdəkidi, bir dediyi bir dediyini tutmur.

**DƏMDƏKİ** II (Oğlanqala) – hər sözə qulp qoyan, fırıldaqçı, yelbeyin, səfeh. –Dəmdəki olup kimə neyniyəcəx' ki, özünə zərəldi da.

**DƏMŞƏLAX** (Kələki) – yunğul adam. –Dəmşəlax gədadı, zəhləm gedir.

Ağcabədi, Mingəçevir, Şamaxı, Ucar şivələrində də bu söz eyni mənada işlənir (1, s.132).

**DƏNAB//DƏNOV** (əksər şivələrdə) – taxıla axırıncı dəfə verilən su. –Dənov dən suyudu da, yanı axırıncı dəhə dəni şişirtməx'dən yana veririx'.

**DƏNDƏNƏ** (Şahbuz) – divar hörərkən hörgü daşlarını nizamlamaq üçün istifadə olunan nazik kiçik daş. –Dəndənə qoyurux ki, daşdar əyri-müyrü olmasın.

**DƏNDƏNƏ QOYMAX** (Biçənək) – qızışdırmaq. –Bına bir dəndənə qoydum ki, getdi, görəx' noolacax.

**DƏNƏVƏR** (Ləkətağ, Siyaqut) – dənər-dənər, dən-dən. -Yağ yaxşıydı, dənəvər dənəvər.

**DƏNGİL-DÜNGÜL** (əksər şivələrdə) – seyrək, az-az. –Tağlarda dəngil-düngül qarpız qalmışdı.

**DƏRBEÇƏ** (Naxçıvan) – həyətin əlavə kiçik qapısı. –Bınnan əzələ hammının dərbeçəsi varıydı da.

**DƏRBƏ DİRRİX'** (Babək, Culfa, Naxçıvan) – özü üçün bir gün ağlamaq, çalışmaq. -Ağıllı adamdı vallah, özü üçün dərbə dirrix' eliyir.

**DƏRBƏNMƏX'** (Qazançı) - hərəkətə keçmək, yola düşmək. -Dərbən, denə gözdüyürəm, tez gəlsin.

**DƏRDƏCƏR** (əksər şivələrdə) – xəstə, fikir çəkməkdən xəstə olan adam. –Oğlu gedənnən yazıx arvat dərdəcər olup.

**DƏSDANA** (Külüs, Naxçıvan) – zavod çörəyi. –Kət yerində dəstana olmaz, bırda əsas lavaşdı.

**DƏSDAR** (Daylaqlı) - əl dəyirmanı. –Dəsdarda yarma-zad çəkirix'.

Bu söz dəsdər variantında Çəmbərək şivələrində də işlənir (1, s.135).

**DƏSDƏXAN** (Naxçıvan) - süfrə. –Elə hammı təzəcə

yığışmışdı dəsdəxanın başına ki, hay tüşdü.

**DƏŞDİVAN** (Nəsirvaz) – bağa nəzarət edən adam. – Dəşdivan axdarırıx, biz bırda olmuyəndə bəğa bəxmağa.

**DƏŞNƏ** (Ordubad) – balaca xəncər. –Məndə də bir dəşnə var, qədimdən qəlmadı.

**DƏVƏDİŞİ** (Böyükdüz) – toxumluq buğda.

**DƏVƏQARNI TİKANI** (Göydərə, Kırna) - tikanın bir növü. -Dəvəqarnını qışda qoyun az qalır gözünə soxa.

**DƏVİX'MƏX'** (Cəhri, Naxçıvan) – təəccüblənmək, mat qalmaq. –Fürzə xala elə elədi ki, hammı dəvix'mişdi, heş kim söz tapbadı deməyə.

Bu söz dö:kmək variantında Cəbrayıl, Gəncə, Qazax, Qarakilsə, Qax şivələrində eyni mənada qeydə alınmışdır (1, s.152).

**DƏYƏ** (Badamlı) - qargı, qamışdan düzəldilmiş koma, qazma. -Gəldim birəz dəyədə dincimi aldım.

**DƏYİRDƏX'** (Qaraçuq) – meyvənin toxumu, tum. – Dəyirdəyin atsan oralara bi də baxassan ki, gövərib.

**DƏYİŞƏX'** (Naxçıvan) - əlavə paltar. -Dəyişəx'lərimi də gətirmişəm, bırda çox qalacıyam.

**DƏYMƏX'** (əksər şivələrdə) – yetişmək. –Şəfdəli dəyipdi.

**DIĞLATMAX** (Naxçıvan) – insanı xəstəliyə, sıxıntıya salıb öldürmək. –Qaynatamı allahdan aşağı bı qəynim dığlatdı ha.

**DIITDAMAX** (Gömür) – yağışın, küləyin kəsməsi, ara verməsi. –Hələ ki hava dııtdıyıp gə bı odunnarı at balqunun altına.

**DIQQILI//DINQILI** (Ordubad) – bir az, azca. –Bi dıqqılı əvdən uyana lumu ağaşdarıdı.

Bu söz Füzuli, Kürdəmir, Qazax, Mingəçevir, Zəngilan şivələrində də eyni mənada işlənir (1, s.138).

**DILQIR** (Babək, Naxçıvan) – pis vəziyyətdə olan, köhnə. –Dılqır bir maşınnan yana məni biyabır elədi.

**DIMIX** (Şahbuz) - quyruqlu qoyun. -Bir dımıx gətirmişdi, bəyənmədi.

**DINITDAMAX** (Camaldın) – gözlərini zilləyib baxmaq. –Elə dınıtdadı ki, özümü itirdim, bilmədim neyniyəm.

**DINQITDAMAX** (Teyvaz) – gözlərini bir nöqtəyə zilləmək. -Gör necə də gözdərin dınqıtdayıp şovul-şovul baxır.

**DINQITMAX** (Babək, Naxçıvan) – oturub qalmaq, getməmək, yanını kəsdirib durmaq. –Nə dınqıtmısan böyürümdə, bir dur o yana görəx'.

**DIRREY** (Naxçıvan) – uzun boylu adam. –Bir dırrey kişiydi, səni soruşurdu.

**DIYDIX//DAYDAX** (Xıncab, Xok, Qıvraq, Püsyan, Şıxmahmud) – yüngül. –Dıydıxlıx eləmə görəx', yekə kişisən.

**DIZIXMAX** (Keçili, Külüs) – qorxmaq. -Bir ağsaqqal görəndə hamısı dızıxıflar.

**DIZQAX** (Biçənək, Xanlıqlar, Kırna) – qorxaq. –Bizim müdür çox dızqax adamdı, kölgəsinnən də qorxur.

**DIZMAN//DİZMAN** (Şahbuz) – altıillik axta qoç. –Bir dızman qoçu var çoban Səfdərin.

**DIZMARI** (Culfa, Ordubad) – iri giləli üzüm. – Dızmarı üzüm şirin olur.

**DİBƏX'** (Şahbuzkənd) – içi ovulmuş çay daşı. – Dibəx'də ən çox duz döyərix'.

**DİBİR//DÜBÜR** (Babək, Ordubad, Şahbuz, Şərur) – ikillik buruq təkə.

Bu sözə dıbır variantında dilimizin bir çox dialekt və şivələrində rast gəlirik (1, s.137).

**DİDİNTİ** (Nursu) – yun təmizləyərkən didilib tökülən qırıntılar. –Didinti ta xarab yundu da.

**DİƏKMİR** (Çənnəb) – nadinc, şuluqçu. –Nənən diyərdi həmməşə, ilk uşəxlar diəkmir oley.

**DİQQƏ GƏTİRMƏX'** (Naxçıvan) – boğaza yığmaq. – Bı Səməd kişi ta məni diqqə gətdi ha.

**DİLAB** (Kükü) – divarın içərisində şkafı əvəz edən yer. Naxçıvanda köhnə evlərdə divarlar həddindən artıq qalın olurdu. Buna möhrə divar deyilirdi, yəni torpaqdan hörülmüş divar. Bu divarların demək olar ki, hamısında divar şkafı olardı. Divarın içərisində olan bu şkaflardan həm mətbəx şkafı kimi-qab-qacaq yığmaq üçün istifadə edirdilər, həm də paltar və digər əşyaları yığırdılar. –İndi ta dilab qalmıyıf kin, hammının əvində işqab var da.

**DİLBAŞ** (Düdəngə, Külüs) – mal-qaranın dilində əmələ gələn yara. –Dilbaş da bir cürə heyvan xəsdəliyidi, ağızda olur.

**DİLXOŞDUĞ ELƏMƏX'** (Babək, Culfa, Şahbuz) – zarafat etmək, söz olsun deyə danışmaq. –Boş-bekar qalıp, pütün günü onnan-bınnan dilxoşduğ eliyir.

**DİMDİX'LƏMƏX'** (əksər şivələrdə) - iştahasız yemək. -Onun yeməyi yoxdu, yalannan dimdix'liyir.

**DİNDİRİB-DİŞƏTMƏX'** (Naxçıvan) – danışdırmaq, maraqlanmaq. –Neçə sahatdı oturmuşam heş dindirip dişədən yoxdu məni.

**DİNGƏ** (Unus) – başlıq, qadınların başlarına qoyduqları bəzək.

Gəncə, Qazax, Şamaxı şivələrində də bu sözə həmin mənada rast gəlirik. Bəzi şivələrdə bu söz çələng mənasında da işlənir (1, s.144).

**DİNGƏDAMAX** (Nəhəcir) – özündənrazı. -Çox dingədamax adamdı.

**DİNGƏLƏNXOŞ** (Biləv) – uşaq oyunu. -Onnan uşax vaxdı birsən nə qədə dingələnxoş oynamışıx.

**DİOV** (Şahbuz) – bir cüt (iki) öküz qoşulmuş xış və ya kotan. –Diovu elə adam özü eliyir, ta ikimci adam lazım dəyir.

**DİRƏX'** (Naxçıvan, Şərur) – ev tikərkən damın üstünə qoyulan tir. –Dirəx'ləri atmışıx bircə qalıp şiferi vırmax.

**DİRƏNMƏX'//DİRƏŞMƏX'** (Gülşənabad, Naxçıvan) – təkid etmək. -Deyirəm böyün olmaz, elə mənnən dirəşillər.

**DİRİNGİ** (Türkeş) – hava adı. -Bir diringi çalsalar bəlkə sümüyümə tüşə oynuyam.

**DİSAR** (Şahbuz) – qoz növü.

**DİŞDƏMƏ ÇAY** (əksər şivələrdə) – ağıza qənd qoyulub içilən çay. –Mən şirin çay içəmmirəm cavannıxdan, gərəx' dişdəmə olsun mə:mki.

**DİTDİLİ** (Şahbuzkənd) – ağcaqanad. –Ditdili dişdəmişdi, indi də yara olub yeri.

**DİZDƏYAĞI** (əksər şivələrdə) – gəlin evə gətiriləndə ona verilən hədiyyə. –Gəlini bəy otağına gətirəndə də:llər ki, gəlin otumur, dizdəyağı isdiyir, qaynənə, qaynətə ona hədiyə verəllər, bına dizdəyağı də:rix'.

**DOĞANAX** I (Kəngərli) – bir-birinə bənd etmək üçün örkənin, sicimin ucuna bağlanan ağacdan haça qarmaq, örkən halqası.

**DOĞANAX** II (Kəngərli, Şərur) – aşılanmış dərini yumşaltmaq üçün haçaşəkilli dəmirdən alət. –Doğanağı gön işinə baxannar işdədər bizdə.

**DOLAX GƏLMƏX'** (Xok, Şahtaxtı) – aldatmaq. -Ölmürsən, mən yekəx'də kişiyə dolax gə:rsən.

**DOLAMA** (əksər şivələrdə) - dırnaq altının iltihabı, irinləməsi. -Barmağıma dolama çıxıb, səhərəteyin zokkultusundan gözümü yummamışam.

**DOLAMBAŞ** (Cəhri) - əyri-üyrü. -Dolambaş yollarınan gedib Qannı gölə çıxdıx.

**DOLANIŞIX** (əksər şivələrdə) – keçim. -Əvvəllərə ağlın getməsin, ta dolanışıx yoxdu.

**DOLBƏND** (Naxçıvan) – xəstənin kürəyinə qoyulan küpənin altında olan içinə torpaq doldurulmuş fitil. -Qoyma

dolbənd çox alışsın, od salarsan.

**DOMBA** (əksər şivələrdə) – çıxıq, qabarıq, şiş. – Domba gözdəriynən gör nətər baxır e cəməhətə.

**DOMBALAQ AŞMAQ** (Naxçıvan) – dığırlanmaq, başı üstə aşmaq. –Dombalağ aşanda getdi dəydi peçə, peç aşdı əv eşiyi bərbad elədi.

**DOMUŞMAX** (Ərəfsə, Kükü) - büzüşüb oturmaq. - Domuşub oturmuşdu, heş xoşuma gəlmədi.

**DONBALAN** (Xok) – göbələk növü. –Donbalan şəkərin ən güjdü dərmanıdı.

**DONQA//DONQAR** (əksər şivələrdə) – beldə çıxıntı, dik yer. -O qədə işlədiblər ki belinin donqarı çıxıb.

**DONQAZ YER//DANQAZ YER** (Şərur) – suvarmaq mümkün olmayan dik yer.

**DONQİLİ** (Zeynəddin) – saxta. –İndi o vaxkı vax dəyil ki, bazar-tükan doludu donqili şeynən.

**DONUXMAX** (Keçili, Külüs) – deməyə söz tapmamaq, danışa bilməmək. –Niyə donuxurdun ki, ca:bın verərdin da.

**DORBA** (Nüsnüs) – camışın iki illik balası.

**DOUZDUX** (Şahbuz) – dəyirmanın suda qalan hissəsi. –Az qa:r özün soxsun də:rma:n douzduğuna.

**DOVRAN** (Saltaq) – toyda yığılan pul. –Dovran yığmax dədə-baba adətimizdi da.

**DOYDAX** (Xəlilli, Şıxmahmud) - dimdik durmaq. -Nə

doydax-doydax durmusan, otursana.

**DÖLCƏX'** (Şahbuz) – mal-qaranın döl götürməsi üçün düzəldilmiş yer.

**DÖLLƏNMƏX'** (Keçili, Külüs) – arılarda döl salmaq, mayalanmaq. –Yazda arıların döllənməx' vaxdıdı.

**DÖNƏX'** (Qaraçuq) - döngə. -Bı dönəx'dən soruş gör, əvləri bı dönəx'də olmalıdı.

**DÖRDƏM** (Daylaqlı) – atın əl-ayaqlarını ata-ata qaçması. –Dördəm də atın bir cür qaçışıdı.

**DÖŞBAĞI** (Naxçıvan, Şahbuz) – atın döşündən keçirilən yəhər bağı.

Bu söz Şamaxı və Şuşa şivələrində də eyni mənada işlənir (1, s.153).

**DÖYƏNƏX' YER** (Kəngərli, Şahbuz) – mal-qaranın tapdadığı yer. –O qədə mal-heyvan tapdıyıp ki, döyənəx' olup.

**DÖYƏŞDƏMƏX'** (Aşağı Uzunoba, Vayxır) - tapdalamaq, çırpmaq, döymək. –Gəbəni çırpacağınan döyəşdəyin tozu təmizdənsin.

**DUMULMAX** (Ərəfsə, Qahab) – küsmək. –Neçə vaxdı dumulupdu, biləmmirəm niyə.

**DUZDAX** (Biçənək, Sələsüz) – mal-qaraya duz verilən yer. –Duzdaxda duz daşı olar, onun üsdünə tökərix' duzu.

**DUZDAŞI** (Keçili, Külüs) – mal-qaraya üstündə duz səpilən daş. –Heyvan duza gedəndə tökərix' onun üsdünə.

**DUVAX** I (Aşağı Buzqov, Dizə, Xoşkeşin, Kürçülü) –

təndirin üst tərəfi. –Təndirin üsdünə düzülən daşdara duvax deyirix'.

**DUVAX** II//**DUAX** (Şahbuz) – üstündə xəmirdən çörək və un məmulatları hazırlanan dairəvi taxta alət. –Duvağı gəti qoy ortuya başdıyım çöçənin için doldurmağa.

**DUVAX** III (Unus) – çölməyin ağzına qoyulan palçıqdan hazırlanmış qapaq. –Gəti duvağı qoy ağzını xapa, unda tez bişəcax.

**DUVAX** IV//**DUVAXQAPPA** (əksər şivələrdə) - gəlin gedən qızın üzünü örtən tül örtük. -Gəlin gərdəyə gedənin sabahısı onun duvağını götürüllər, qapıllar.

-Zülf töküb üzə dilbər
Çıxıbdır düzə dilbər
Duvax salın üzünə
Gəlməsin gözə dilbər.

**DÜBƏRDİN DAĞILSIN** (Kültəpə, Zeynəddin) - evin yıxılsın. –Ə, bir qulağ as da, dübərdin dağılmasın nətər adamsan ə sən.

**DÜBƏX'** (Culfa, Ordubad, Sədərək, Şərur) – həvəngdəstə. –Dübəx'də dömüşəm napnarın olup.

**DÜBÜR** (Naxçıvan) - keçinin bir növü. -Bir dübür qavırmışıx, bı il bəsimizdi.

**DÜDÜX'** (Naxçıvan) – axmaq. –Dedim, ə düdüx', mən sənə neynəmişəm ki.

**DÜMBƏX'** I (Cəhri, Gülşənabad) - nağara, qaval. - Axşama kimi dumbəx' çalır.

**DÜMBƏX'** II (bütün şivələrdə) – qarın. –Tahir dümbəyin doydurmasa işdiyəmmiyəcəx'.

**DÜMBƏLƏNDÜZ** (Biçənək, Keçili, Naxçıvan) – dümdüz. –Dümbələndüz gedəndə elə düz yoluvuzun üsdünə çıxacax.

**DÜMƏLƏNMƏX'** (Cəhri, Didivar, Nəzərabad) – eşələnmək, baş girləmək. –Bizim bı usdalar hər gün gəlip dümələnir, əmə hələ ortada heş nə yoxdu.

**DÜRMƏX'** (əksər şivələrdə) – içərisinə nəsə qoyulub bükülmüş çörək və ya lavaş. –Acanda nənəm bir dürməx' düzəldirdi elə küçədə yeyirdix'.

Azərbaycan dilinin bir çox dialekt və şivələrində bu sözə rast gəlmək olur (1, s.159).

**DÜRMƏX'LƏMƏX'** (əksər şivələrdə) - çörəyin içərisinə nəsə qoyub bükmək. –Çörəyi elə bütün dürməx'lədi.

**DÜRRƏX'** (Qaraçuq) – zəif, arıq. –Püləsəm canı çıxar e, dürrəx'di.

**DÜRYƏ** (Unus) – baş örtüyü. –Düryəsin başinə atan qəşmişdi eşiyə.

**DÜŞGÜNNƏMƏX'** (Nəzərabad) – zəifləmək, arıqlamaq. -Axır vaxdar gözümə birtəhər dəyirsən, nolub niyə belə düşgünnəmisən.

**DÜŞÜX'** I (Naxçıvan) – səliqəsiz adam. -Düşüx' adam yanı tökülüp-gedən adam.

**DÜŞÜX'** II (Şahbuz) – qabığı bərkiməmiş yumurtlanan yumurta. –Bı toyuğun yumurtdaları niyəsə düşüx' olur axır

vaxdı.

**DÜŞÜX'** III (Naxçıvan) – vaxtı tamamlanmamış salınan uşaq. –Neçə dəhə dalbadal düşüyü olup.

**DÜTDÜLÜ GƏLMƏX'** (Qahab, Payız) - kələk gəlmək, aldatmaq. –Ə, ma: dütdülü gəlmə, düzünü danış.

**DÜVƏLƏX'//DÜƏLƏX'** (Cəhri, Naxçıvan) - əyri-üyrü xiyar. –İsdədim birəz banka bağlıyam, baxdım ki xiyarın düvələx'ləri qalıp.

**DÜYÜLMƏX'** (Hacıvar, Zeynəddin) - bir tərəfə getməyə başlamaq, əkilmək. -Genə hara düyülürsən, nə fırıldağın var.

**DÜZDƏMƏX'** (Babək, Culfa) – dağıtmaq, xarab etmək. -Biz əvdə olmuyanda qonşunun heyvanı düşüp həyətə kərdi-küləni heşdad elyib düzdüyübdü.

**DÜZƏLİŞMƏX'** (Naxçıvan) – razılaşmaq, yola getmək. -Əvvəllər yola getmirdilər, indi düzəlişiplər.

**DÜZƏMMƏLİ** (əksər şivələrdə) – düz, dürüst, olduğu kimi. –Bir düzəmməli adam tapbadıx ki, soruşax görəx' nolup.

## Ee

**EDƏLƏŞMƏX'** (Vayxır) - icəşmək, mübahisə etmək. -Sə:rdən-axşama qədər bir-biriynən edələşillər.

**EKİZTAYI//ƏKİZTAYI** (Hacıvar, Kırna, Yaycı) - ekizlərdən biri. –Mə:m ekiztayım çıqqılı vaxdı ölüp.

**EHMAL** (Naxçıvan) – yavaş. –Birəz ehmal danışın, uşax yatıp.

**EHMALCA** (Babək, Naxçıvan, Şahbuz, Şərur) – yavaşca. –Ehmalca yaxınnaşdım, baxdım kin, quşdar dən dənniyir.

**ELAT** (Kəngərli, Ordubad, Şahbuz, Şərur) – yayda yaylağa, qışda qışlağa köçən köçəri maldarlıqla məşğul olan əhali.

**EMALÇI** (Milax) – ağartı məhsulu hazırlayan adam. –Emalçı süd, qatıx, şor düzəldən adama deyirix'.

**ER** (əksər şivələrdə) – tez, səhər tezdən. –Nolub, ay bala, erdən kədirmisən qapını?

**ERKƏC** (Babək, Culfa, Şahbuz) – sürünün qabağında gedən yaşlı keçi. –Erkəci sür qabağa, sürü:n qabağın çəx'sin.
Ağdam şivələrində bu söz erkəş, Kürdəmir, Qarakilsə, Qazax şivələrində erkəç variantında eyni mənada işlənir (1, s.162).

**ERKƏK** (Camaldın) – bir yaşı tamam olmuş toğlu. –Qəşəx' erkək ətinnən kabap çəx'mişdi, yedix'.

**EŞİX'** (əksər şivələrdə) - həyət, çöl. -Ay uşax, o dananı itələ sal eşiyə.

**EŞMƏ** (Culfa, Şahbuz) - tütünü qəzet arasına tökərək onu eşib siqaret kimi düzəltmək və çəmək. -Bir eşmə yandır, həfsələmizə tüstü verəx'.

**EŞŞƏX'** I (Naxçıvan, Ordubad) – bir neçə adamın otura biləcəyi taxdadan və ya dəmirdən hazırlanmış arxasız oturacaq. –Eşşəyi qoyurux divarın dibinə, yayda-yazda oturarıx üsdündə.

**EŞŞƏX'** II (əksər şivələrdə) – ustaların yüksək yerdə işləyəndə istifadə etdikləri taxtadan hazırlanmış qurğu. –Usda küsüp, eşşəyi-zadı da qalıp bırda çıxıp gedip.

**EYDİRMƏX'//EVDİRMƏX'** (Əlincə, Xoşkeşin) - inəyi sağmazdan əvvəl əmcəklərinə süd gəlsin deyə iki barmaqla sıxmaq. -Əvvəlcə inəyi eydirdi sora başdadı sağmağa.

**EYMƏ** (Ordubad, Şahbuz, Şərur) – tükü təmizlənmiş qoyun və ya keçi dərisindən hazırlanır və içərisində pendir, şor, yağ saxlanılır.

**EYN** (Daylaqlı, Kırna, Naxçıvan, Sələsüz, Tumbul) – vec. –Heç eyninə də dəyil ki, bı boyda söz ma: deyilir axı.

**EYNİMƏX'** (Naxçıvan) – böyüyüb artmaq. –Bı uşax heç eynimir axı.

**EYZƏN** (Culfa, Ordubad, Şərur) – xalis. –Mənim bı çıqqılı nəvəm eyzən dədasına oxşıyır.

**EVNƏ** (Naxçıvan)//**ƏVNƏ** (Ordubad, Şərur) – dəfə. – Gündə bir evnə gəlir dədəsinin çörəyin-zadın verir gedir.

# Əə

**ƏBƏJDAD** (Naxçıvan) - əcdad. –Onnarın əbəjdadın tanıyıram mən, mənə öyrətmə.

**ƏBƏNĞƏŞ** (Ordubad) – namussuz, həyasız, biqeyrət. –Arvadın bıraxıb gedipdi, əbənğəş diyərıx ona.

**ƏBLƏH** (Dizə) – ağılsız. -Əbləh oğlu əbləh, sürünü neynəmisən, cavap ver.

**ƏBRƏ** (Keçili, Kükü, Külüs) – beş-altı günlük aypara şəklində və balı çox ətirli olan şan.

**ƏBRƏQUNUS** (Culfa) – heyva növü.

**ƏBRƏŞ** I (Babək) – gilas növü.

**ƏBRƏŞ** II (Ağbulaq) - xalça, parça və s. məmulatlarda əmələ gələn rəng pozğunluğu.

**ƏCAZ** (Babək, Naxçıvan) – 1. eybəcər, 2. hər şeyi bəyənməyən, hər yeməyi yeməyən adam. –Cox əcaz uşaxdı, heş nəyi yemir.

**ƏCƏRRİ** (Şada, Türkeş) – geyilmiş, amma çox da köhnə olmayan paltar. -Əcərridi hələ uşaxlar geyinə bilər.

**ƏCİR** (Çeşməbasar, Naxçıvan, Şəkərabad)- əziyyət. – Mənim qaynənəm nasiliydi, ölənəcən mənə əcir verdi.

**ƏCRAN** (Ordubad) - evin damının üst kənarı. -Əv damının əcranlarını düzəltdim.

**ƏDƏLİ-DƏDƏLİ** (Naxçıvan) – hər şeyi yerli-yerində, əməlli-başlı. –Qızı qaçırtdı, amma ədəli-dədəli toy elədilər.

**ƏFSƏMƏX'** (əksər şivələrdə) – dənli bitkiləri

təmizləmək. –Buğdanı əfsəmişəm hazırdı, qalır qavırmax.

**ƏGƏLLƏN** (Qaraqala, Payız) - barı, heç olmasa. - Getmişdin çölə işdəməyə əgəllən bir çöp qıraydın qoyaydıx ocağa.

**ƏHƏDİNİ ÜZMƏX'** (Naxçıvan, Sirab, Şıxmahmud) – haldan salmaq, yormaq, döymək. –Çıqqılı nəvəm gecələr gözünü yummur, anasının əhədini üzüp ta.

**ƏHLƏT DAŞI** (əksər şivələrdə) - qəbirdə ölünün başının söykəndiyi daş. -Başı əhlət daşına dəysin onnan sora ağıllanar.

**ƏİNKİ** (Ordubad) – 1. qədim, keçmiş; 2. o tərəfki. – Əinki həyətdərdə cəməhət ilan görmüşdülar.

**ƏKBƏRƏ** (Badamlı, Kükü) – su arxı. –Yanında əkbərə var, orda yarpız çox olur.

**ƏKƏ-BÜKƏ** (Babək, Naxçıvan, Şahbuz) – özünü yaşından böyük aparan, çoxbilmiş. –Elə əkə-bükə uşaxdı ki, elə bil arvatdı.

**ƏKƏNƏCƏX'** (Gömür, Kolanı, Türkeş) - əkin üçün yararlı, həmişə əkilən yer. –Bizim yerrər dağdı, əkənəcəyimiz azdı.

**ƏKƏŞDƏMMƏX'** (Culfa, Şərur) – özünü böyük gostərməyə çalışmaq. –Elə də əkəşdənir ki, elə bil dünyanı görüp gəlip.

**ƏKİŞDİRMƏX'** (əksər şivələrdə) – oğurlamaq, gizlincə götürmək. –Əkişdirmişəm bacımın yaylığını, hələ xəbəri yoxdu.

**ƏQRƏMƏN//ƏGRƏMƏN** (Aza, Tivi) – tumanın ətəyində olan haşiyə.

**ƏL** (Düdəngə) – tərəf. -Dediyim tükan bazarın girəcəyində sağ əldədi.

**ƏLALLAHI** (Babək, Culfa, Naxçıvan, Şahbuz) – çox səs-küy edən, vəhşi, heç nəyin yerini bilməyən. –Hərəktdərini bilmiyən adama əlallahı deyillər bizdərdə.

**ƏLBƏHƏM//ƏLBƏHƏL** (Kükü, Naxçıvan) – o saat, o dəqiqə. –Qaşdı əlbəhəm nə demişdim yığdı isdolun üsdünə.

**ƏLCƏX'** (Cəhri, Didivar, Naxçıvan) – qapının dəstəyi. –Əlimi atdım əlcəx' qopdu qaldı əlimdə.

**ƏL DAMI** (Babək, Naxçıvan) – həyətdə az işlənən əşyaların və qış azuqəsinin yığıldığı balaca otaq. – Qavırmamızı, turşumuzu yığarıx əl damına.

**ƏLƏSÖYÜN** (Şahbuz)//**ƏLÖVSƏ//ƏLÖ:SÜN** (Kəngərli, Sədərək, Şərur) – acgözlüklə. –Ələsöyün suyu çəx'di başına.

**ƏLƏŞƏN-KÜLƏŞƏN//ƏRƏŞƏN-KÜRƏŞƏN** (Naxçıvan) - boş, mənasız, ordan-burdan. -O qədə ələşənnən-küləşənnən danışdı ki, bezdim.

**ƏLƏYƏZ//ƏLƏYİZ** (əksər şivələrdə) – yabanı bitki. – Ələyəzi ərişdə aşına vırırıx.

Bu söz Çəmbərək, Qarakilsə şivələrində eyni mənada ələ:z variantında işlənir (3, s.158).

**ƏLƏYƏZ YELİ** (Biləv, Çənnəb, Tivi, Tumaslı) – yazda əsən və hansı tərəfə əsdiyi dəqiq bilinməyən isti külək.

Buna vədə yeli də deyilir. Adı çəkilən şivələrdə sözü, fikri, əqidəsi bilinməyən adam mənasında işlənir. –Bu İmranın ələyəz yeli kimin hayana tərəf oldığı bilimmir.

**ƏLKÜT** (Culfa, Şahbuz) - əlindən iş gəlməyən, bacarıqsız. –Mənim yoldaşım əlküt kişidi.

**ƏLQAP** (Naxçıvan) – tez, cəld. –Əlqap durdu ayağa, hər şeyi o dəyqə hazırradı.

**ƏLQICIĞI** (Nehrəm) – qol gücü. –Camahatı əlqıcığına saxlıyıb, yoxsa hammı nayrazıdı, heş kim onu isdəmir.

**ƏLLƏM-QƏLLƏM** (Naxçıvan) – fırıldaq, düz olmayan. –Mə:m əlləm-qəlləm işinən aram yoxdu.

**ƏLLİM-AYAXLIM** (Naxçıvan, Zeynəddin) – tamamilə, bütün. -Qoymuşdum bıra, necə oldu, əllim-ayxlım yoxa çıxdı ha.

**ƏLÖPBƏ** (əksər şivələrdə) – toyun üçüncü günü bəylə gəlinin qız evinə qonaq gəlməsi. –Əlöpbüyə gedəndə dədəm ma: pay almışdı bı gəbəni.

**ƏMBƏRÇƏ** (Ərəzin) – lent, saç bağı. -O vaxdar əmbərcə deyərdilər.

**ƏMDƏRMƏX' (**Babək, Naxçıvan**) –** hamısın birdən əyib tökmək. –Bəyəmmədi xörəyi, qabı əyip əmdərdi hammısın yerə.

**ƏMƏKÖMƏCİ//ƏMƏNKÖMƏCİ** (əksər şivələrdə) - yabanı bitki. -Əməköməci həm də dərmandı.

**ƏMƏLİ AZMAX** (Naxçıvan) – özünü yaxşı aparmamaq. –Süleyman bı işə keçənnən sora təmmiz əməli azıpdı.

**ƏMƏLİSALEH** (Babək, Naxçıvan, Ordubad, Şərur) – yaxşı adam, işləri həmişə yaxşı gedən. –Əməlisaleh adamın işini allah özü yox yerdən düzəldər.

**ƏMLİX'** (Biçənək, Kırna, Maxta) – anasının yanında bəslənilən 3-4 aylıq quzu. –Hələ əmlix'di, bını anasınnan ayırmağ olmaz.

- Əzizim bahar barı
Şirindir bahar barı
Kəsmə əmlix' quzunu
Qoy gəlsin bahar, barı.

**ƏMMƏ** (əksər şivələrdə)//**ƏMDOSTU** (Şahbuz) - əminin yoldaşı, əmcanı. –Anam qalxozda işdiyirmiş da pütün günü, bizi elə əmməmiz yekəldip.

**ƏNAYIN** (Naxçıvan) – qəribə, əcaib. –Harda ənayın işdər var gələr bizim başımıza.

**ƏNBİR** (Culfa) – küpədən bal çıxarmaq üçün dəmir qaşıq. –Balı ənbirnən çıxardırıx küpədən.

**ƏNDƏMİC** (Ordubad) – heyva növü.

**ƏNDİRYAN** (əksər şivələrdə) – armud növü. –Əndiryan qəşəx' iri, sulu armutdu.

**ƏNGƏNƏX'** (Cəhri) – gildən hazırlanmış ləyənə oxşar iri qab. –İrəhmətdix' nənəm həmməşə xəmiri əngənəx'də eliyərdi.

**ƏNİX'//ƏNİX'LƏMƏX'** (Naxçıvan) – itin balası. -Kəntdən bir ənix' tutub gətirdim, bağladım qapıya.

**ƏNKƏCUVA** (əksər şivələrdə) – cütün hissəsi.

**ƏPBƏX'** (əksər şivələrdə) – çörək. –Əppəyimiz, suyumuz var, bü günümüzə şükür.

**ƏPBƏX' DAŞI** (Qaraçuq) – yuxa yayan.

**ƏPRİMƏX'** (Naxçıvan) - çox köhnəlmək, qocalmaq. -Ölüb ölsün də səysən yaşlı əprimiş arvatdı.

**ƏRDƏMSİZ** (Naxçıvan, Nehrəm) – tənbəl, həvəssiz. – Gör nəqqədən ərdəmsizdi ki, bırdan keçir, əlin atıp qablarını götürmür.

Bu söz İmişli şivələrində eyni fonetik variantda zəif, gücsüz, bacarıqsız mənasında qeydə alınmışdır (3, s.163).

**ƏRDOV** (Payız, Vayxır) – yeməyin suyunun yağsız yeri. –Ərdov xorəyin suyunun yağsızıdı.

**ƏRDOVƏ** (Cəhri) - mifik varlıq, gecələr gəzən ruh. -Ərdövə iynədən qorxur, iynə batırsan qaçar.

**ƏRƏMİX'** (Bulqan, Qaraçuq) – övladı olmayan qadın. -Bir ərəmix' arvadı varıdı, boşadı.

**ƏRƏZƏN** (əksər şivələrdə) – vaxtı ötürülmüş, vaxtından gec əkilmiş. –Bı illərim ərəzən əx'dix', ona gora da belə az məhsul oldu.

**ƏRGƏN** (Şahbuz) – evlənmə yaşı çatan gənc oğlan. – Səlimin oğlu tay yekəlip ərgən oğlan olup.

**ƏRGƏNNİX'** (Badamlı) – qardaşlar ayrılarkən evli qardaşların subay qardaşa verdikləri əlavə pay. –Əvli qardaşdar ərgən qardaşa əvlənməx'dən yana öz paylarınnan ona mal, pul verəllər, də:llər bı da sə:n ərgənniyin.

**ƏROV** (Naxçıvan) – içərisində paltar yuyulan su, çirkli

su. –O qəddə ərovu axıdıp ağaşdarın dibinə, hammısı quruyur.

Ərov sözü Qarakilsə şivələrində də eyni mənada işlənir (3, s.165).

**ƏRSİYƏ GƏLMƏX'** (Babək, Naxçıvan) – hazır olmaq, yetişmək, əmələ gəlmək. –Xorəx' ərsiyə gələnə qədər mən on dəhə gedip-gələrəm.

**ƏSGƏRİ** (Sədərək) – üzüm növü.

**ƏŞƏD OTU** (Şahbuz) – yabanı bitki.

**ƏTCƏBALA** (əksər şivələrdə) - yumurtadan yenicə çıxmış quş balası. -Ətcəbala cücələr təzə yumurtadan çıxmışdı.

**ƏTDAŞI** (əksər şivələrdə) – üzərində ət döyülən yastı daş. –Ətdaşını ət döyənnən sora duzdamax lazımdı.

**ƏTƏNƏ** (Babək, Culfa, Şərur) – inək və qoyunlarda doğum zamanı balanı bürüyən və sonra yrtılıb düşən ət pərdəsi. -Gözdə inəx' ətənəsini salanda yeməsin.

**ƏVƏDƏYƏ DÜŞMƏX'** (Aşağı Yaycı, Yuxarı Yaycı) - heyvanın arxası üstə yıxılması, boğulması, boğulmaq üzrə olması.

**ƏVƏLİX'** (Babək, Naxçıvan, Şahbuz, Şərur) – yabanı bitki. –Anam qavırır əvəliyi, üsdünə də yumurta vırır yeyirix'.

**ƏVƏLİYİP-GƏVƏLƏMƏX'** (Naxçıvan) – sözü dolandırmaq, dəqiq bir söz deməmək. –Çox əvəliyip-gəvələdi heş nə annamadım.

**ƏYAĞAŞDI//ƏYƏĞAŞDI** (Şahbuz) – yeni nişan qoyulmuş oğlanı qız evinin qonaq çağırması. –Əyağaşdıya çağırmasan oğlan gəlməz kin, qaynətəsigilə.

**ƏYAĞI SURÇAX** (Badamlı, Sələsüz) – şorgöz. – Əyağı surçax adamıydı, ona gora heş kim qız-gəlini ona eytibar eləmirdi.

**ƏYAXLI//AYAXLI** (Babək, Şahbuz) – üstündə xəmir yaymaq üçün torpaqdan hazırlanmış əşya.

**ƏYAXLIX** (Şahbuz) – arı pətəyinin yeşiyinin torpağa dəyib çürüməməsi üçün altından paralel vurulan iki taxta.

**ƏYDİ//ƏYQİ** (Şahbuz) – taxtadan düzəldilən qaşıq və ya çömçənin içini oyub çıxaran alət. –Taxda çömçənin için usda əydiynən çıxardır.

**ƏYƏ** (Əlıhi, Nəsirvaz) – 1. xitab; 2. dəmir alət; 3. yiyə, sahib, ruh. -Bı atın əyəsi ölüp. –Bı əvın bir əyəsi var da. Əyə mifik məna bildirir. Bu anlayış Sibir türklərində çox geniş yayılmışdır.

**ƏYƏN-BƏYƏN** (Heydərabad, Xok) – o tərəf-bu tərəf. -Əyən-bəyənə baxdığıvı işdəsəydin indi qutarmışdı.

**ƏYƏRBAZ** (Naxçıvan) – hər şeyə lağ edən, kinayə ilə yanaşan. –Biri hər şeyə güləndə, lağ eliyəndə deyirix' əyərbazdı.

**ƏY GƏLMƏX'** (Sələsüz, Türkeş) – aldatmaq. –Öz aləmində səki Pürzə ma: əy gəlir.

**ƏYİRDƏX**' (Nəsirvaz) – süd, yumurta, un və yağla yoğrulub yağda qızardılmış kövrək qoğal. –Əyirdəyin xəmirin südnən eliyirix'.

Bu söz əyirdəx'//əydəx' variantlarında bir çox şivələrimizdə işlənməkdədir (3 s.168).

**ƏYLƏ** (Cəhri) – saxla. –A bala, bir əylə görüm nə deyirsən?

**ƏYLƏMƏK** (Dizə) – saxlamaq, yavaşıtmaq. –Əylədin məni vaxdında gedəmmədim.

**ƏYLİS** (Ordubad) – gilənar növü.

**ƏZMƏ-BÜZMƏ** (Şərur) – yabanı bitki.

**ƏZZAVARA** (Naxçıvan) – bacarıqsız. -Məsdəlinin oğlu əlsiz-ayaxsız, əzzavaranın biridi.

## Ff

**FAQQILIX** (Vənənd) - hiyləgərlik, biclik. -Ay qız, özüvü niyə faqqılığa qoyursan.

Bu söz Qazax şivələrində də eyni semantik yükü daşıyır (3, s.169).

**FALA** (əksər şivələrdə) – kürt yatan toyuğun altına qoyulan yumurta. –Güya fala qoymuşdum, dimdix'liyip kor qalmış.

**FATMA NƏNƏNİN QURŞAĞI//HANASI** (Culfa, Şahbuz, Ordubad) – göy qurşağı, qövsi–qüzeh. -Fatma nənə hana uzadır.

**FƏHMSİZ** (Naxçıvan) – düşüncəsiz. –Fəhmsiz dayaz fikirrəşən adamdı.

**FƏLFƏLLƏMƏX'** (Babək, Naxçıvan) – qocalıb əldən düşmək. –Babam fəlfəlliyip ta əvvəlki kişi dəyil.

**FƏLLAX** (Sədərək) – ayıq. –İmdiki zəmanədə birəz fəllax olmax lazımdı.

**FƏRİX'** (Babək, Ordubad) – iki illik toyuq, fərə. –Fərix' cücədən yekədi, toyuxdan da xırda.

**FƏRMƏŞ** (Cəhri) – yorğan-döşək yığılan yer, məfrəş.

**FƏRŞ** I (Ordubad) – döşəmə. –Köhnə evlərdə belə pol yoxuydu ki, fərş elə torpaxdan olardı.

**FƏRŞ** II (Məzrə) – palaz. –Bizdə həməşə fərşin altınnan da anam bir parçadan-zaddan açardı yerə.

Fərş sözü bu mənasında Ağdam, Bərdə şivələrində də işlənir (3, s.171).

**FƏRŞ** III (Qarabağlar) – dərinlik. –Fərşdə su bol olanda quyularımız da dolur.

**FƏTİR** (Culfa, Kəngərli) – çörək çeşidi. –Fətirə duz vırmırıx.

**FILXA** (Badamlı, Biçənək) – xalis, təmiz. –Ara yol xarapdı, ordan gələndə olursan fılxa palçıx.

**FINCIX** (Şahbuz) – qısaboy, gödək. -Alçaxboy adama bizdə fıncıx deyillər.

**FINCILIXLAMAX** (Şahbuz) – qaçmaq. –Elə fıncılıxladım ki ha, heç izim də qalmadı.

**FINDIXCA** (əksər şivələrdə) – barmaqların uclarına yumru şəkildə qoyulan xına. –Nənəmin barmağınnan fındıxcası əskix' olmazdı.

**FIR** (Diyadin, Qıvraq) – şiş. –Boğazında fır varıydı, ge:p onu kəsdirməyə Bakıya.

**FIRIX** (Böyükdüz, Şahtaxtı) – pis. –Bizim kət savetinin işi diyəsən fırıxdı.

**FIRI QALXMAX** (Babək, Naxçıvan, Şahbuz) - əsəbiləşmək. –Bir adam birdən möggəm hesdənəndə deyirix', fırı qalxdı.

**FIRTIQ** (Naxçıvan, Türkeş, Vayxır) – burundan axan selik. –Sə:n yadıva gəlməz, onda hələm sən bırnı fırtıxlı bir uşağıydın.

**FIS ÇIXMAQ** (Alışar) – boş çıxmaq. –Qara kişi gopçu:n biridi, dedix'lərinin də hammısı fıs çıxdı.

**FISTIRINQA** (Gərməçataq) - axmaq, yaramaz. -Sən nə fıstırınqa adamıymışsan.

**FİLİTDƏMƏX'** (Babək) – bir nəfəri digərinin üstünə salmaq, qızışdırmaq. –Filitdiyip salmısan üsdümə, mən də başa salmmadım ki, salammadım.

Salyan şivələrində də bu sözə eyni mənada rast gəlirik (3, s.172).

**FİNG** (Nehrəm) – pencəyin qolunun ağzı. –Qəsdumun fingi sürtülməx'dən ta gedip.

**FİRƏNGİ** (Siyaqut) – kibrit. -Firəngi də deyirik, alışqan da, kibrit də.

**FLEYZATOR** (Qaraçuq) – tozsoran. –İndi arvatdarın işi hasatdaşıp, fleyzatornan təmmizdiyir evi.

**FO:RU** (Biçənək) – tez, həmin dəqiqə. –Ağzımnan söz çıxmamış fo:ru cütdədi qoydu qabağıma.

**FRAMOK** (Dırnıs) – pəncərənin yuxarı hissəsi. –Çıxıp framokdan düzəltmax lazımdı pərdiləri.

**FUQAN** (Şahbuz) – böyuk rəndə. –Fuqanı dülgərrər işdədər.

Bu söz Çəmbərək şivələrində də eyni mənada işlənir (3, s.173).

## Gg

**GAHGİR** (Naxçıvan) - tərs. -Nə gahgir öküz kimi yeriyirsən.

**GAL** (Culfa) – bacarıqsız, başısoyuq, işə soyuq münasibətlə yanaşan. –Nə gəlir başına gallığınnan gəlir da.

**GALA** (Dəmirçi) – al (gəl və al sözlərinin birləşməsindən əmələ gəlib). –Gala apar ver soxsun gözünə.

**GAVAHIN** (Şahbuz, Şərur) – kotanın və xışın torpağı qazan iti ucu.

**GAVAX** (Əylis, Kələki) - xışın ucunu əymək üçün alət. -Hər əkin vaxdı biz xışdarın ucunu gavaxnan əyirix'.

**GAY** (Çalxanqala, Xıncab, Naxçıvan) – key, maymaq, qanmaz. –Gədə elə bil gaydı, sözü başa tüşmür.

**GECƏÇIRAĞI** (Kırna) – gecələr parıldayan balaca böcək, ataş böcəyi. –Gecəçırağı qarannıxda parıldıyır.

**GEDƏRGİ** (Aşağı Qışlaq) – müvəqqəti, başqa yerə gedəcək olan. –Biz onsuz da gedərgiyix', a bala, gərəx' qalannar fikirrəşə.

**GEŞSİN** (Nehrəm) – gec. –Geşsin getsən gərəx' nobat tutasan.

**GEYMƏ** (Tivi) – qısa palto. -Təzə geyməmi ilişdirdim simə, cırıldı.

Borçalı, Cəbrayıl, Göyçay, Qazax şivələrində bu söz eyni mənada işlənir (1, s.191).

**GƏBƏ** (Babək, Kəngərli, Şahbuz, Şərur) – xalça. –Bir

qəşəx' əl gəbəsi varımdı, açacam kəllə otağa.

**GƏC** (Aza) - əhəng daşı. -Gəc daşdı, onu torpağın altınnan çıxardıllar, pişirillər.

**GƏDİX'** (Culfa, Ordubad) – aşırım. –Bizim gədix'ləri nabələd adam keçəmməz.

**GƏLBƏRİ** (Kotam) - xışda, kotanda boyunduruqla qolu birləşdirən zəncir və ya kəndir. -Kotan sürəndə gəlbərini qırıblar.

**GƏLDİGEDƏR** (Əlähi, Nəsirvaz) – şadara. -Gəldigedəri aparıplar torpağ ələsinnər.

**GƏLƏNBEÇÇƏ** (Naxçıvan) - gələn kimi. -Qalxoz sədri gələnbeççə iclas başdadı.

**GƏLİNARTDAMAZ** (Ordubad)//**GƏLİNBOĞAN** (Gərməçataq, Gümüşlü, Şahbuz) – gövşəyən heyvanlarda mədəcik.

**GƏLİNATDANDI** (Sələsüz, Şada) – vağzalı. –Gəlinatdandını gəlini dədəsi əvinnən çıxardanda çalıllar.

**GƏLİNBARMAĞI** (Sədərək) – üzüm növü.

**GƏLLƏDAR** (Nehrəm) – mal-qara saxlayan adam, maldar. –İrəhmətdix' babam gəllədar olup.

**GƏM** I (Şərur) – yüyənin atın ağzına keçirilən hissəsi.

**GƏM** II (Badamlı, Sələsüz) – xırmanda taxıl döymək üçün istifadə edilən alət. –Küləşi gəmnən döyürüx'.

Borçalı, Çəmbərək, Gəncə, Qazax şivələrində də gəm eyni mənada qeydə alınmışdır (1, s.193).

**GƏMİRÇƏX'** (Şahbuz) – atın burnunda əmələ gələn xəstəlik. –Gəmirçəx' xəsdəlix'di, atda olar.

**GƏNDOV** (Dırnıs) - kanalizasiyaya axan çirkli su. - Həsənin ayağı gəndova düşdü.

**GƏNƏ** (əksər şivələrdə) - yenə. -Mal-qaranız gənə yaylaxda qaldı.

**GƏRMƏŞOV//ƏPPƏKLİ** (əksər şivələrdə) – yabanı bitki.

**GƏVƏN//GƏYAN** (Ordubad) - yabanı bitki adı. - Gəvən yağınnan dərman hazırranır.

Bu söz Ağbaba şivələrində də eyni mənada işlənir (6, s.97).

**GƏVƏZ//GƏVƏZƏ** (Qaraçuq) – çoxdanışan. – Gəvəzəlix' eliyəndə heş kim adama qulağ asmır ki.

**GƏVRƏX'//GƏRVƏX'** (Ordubad, Şərur, Şahbuz) – kövrək, yumşaq. –Qəşəx' gəvrəx' çorəx'di, gə dürməx'lə.

**GƏVŞƏMƏX'** (əksər şivələrdə) – heyvanlarda çeynəmək. İnsanlara aid ediləndə isə mənfi mənada işlənir. – Qız uşağı niyə saqqızı salıb ağzına gəvşiyir?

**GƏZƏNƏ** (Ordubad) – gicitkan. –Qışdarıva gəzənəynən döy, gör nətər ağrısın götürəcax.

**GƏZƏRGİ//GƏZƏRTİ** (Babək) – gəzəyən. –Fatma ta gəzərti öyrənip, onu saxlamağ olmaz.

**GƏZYAZMA** (Şahbuz, Şərur) – buğayagəlmə vaxtını ötürən düyə.

**GIAŞMAX** (Şahbuz) – məsləhətləşmək. –Yığışıb gıaşax görəx' nətər həll eliyəciyix'.

**GİLİF** (Babək, Naxçıvan) – su axmaq üçün divarın altından keçən kiçik arx. –Gilif tutulup, həyət dolup suynan.

**GİR** (Kəngərli, Sədərək) – güc, qüvvə. –Yeməsən bədənin o dəyqə girdən tüşər.

**GİRƏLƏMƏX'//GİRRƏMƏX'** (Babək, Naxçıvan, Şahbuz) – bir şeyi əldə etmək üçün başını qatmaq, fikrini yayındırmaq, fürsət gözləmək. –Girələdi-girələdi axırı o yeri mənnən aldı.

**GİRƏVƏ** (əksər şivələrdə) – fürsət. –Girəvə güdürəm da, firsət tüşən kimin İrbəbəyə deyəcəm.

**GİRGƏNƏ** (Biçənək) – zəif ana arıların verdiyi az arıdan ibarət arı ailəsi. –Girgənə beçəni yığırıx ayrı yeşiyə.

**GİRRİ** (Naxçıvan) – 1. güclü, qüvvətli, 2. böyük. –Bir yaxcı girri qarpız seç gəti kəsəx'.

**GİVİŞ** (Biçənək) – yemişan. -Pətəx' daşda giviş ağacı çoxdu.

**GİYƏV//GƏ:V** (Culfa, Şahbuz) – kürəkən. –Giyəvımın maşını var, gətırdı bizi qoydu.

Giyəv sözü Zəngilan şivələrində də kürəkən mənasında işlənir (1, s.201).

**GORGOBUT** (Babək, Naxçıvan) – kobud. –İşqabı elə gorgobut düzəltmişdi, heş xoşuma gəlmədi.

**GÖDƏN** (Xok, Şahtaxtı) – qarın. –Gödənin doldurannan sonra kefi kökəldi.

**GÖLƏŞ** (Ordubad, Şərur) – göl. -Buralar dərya olub, göləş olub.

**GÖLÜX'** (Sələsüz) – evcik. -Gölüx'də özümüz yatırıx.

**GÖRK** (Şahbuz) - nümunə, görünüş. –Cəməhətə görk olsun diyə həylə yalannan işdiyir.

**GÖTÜRÜM** I (əksər şivələrdə) - başa düşən, görüb götürmək qabilyyəti olan. –Elə götürümlü uşaxdı, nə desən yadında qalır.

**GÖTÜRÜM** II (əksər şivələrdə) – yeriyə bilməyən, oturaq xəstə. –Noxoşduyannan sora qışdarı tutuldu, indi götürüm qalıp.

**GÖVƏNNİK** (Nehrəm) – çəmənlik. –Malı ötür gövənniyə orda otdasın da.

**GÖY** (Şahbuz) – xəsis. –Mənaf kişi elə göydü ha, malı çıxsa canı çıxar.

**GÖYCƏ** (əksər şivələrdə) – alçaya bənzər meyvə. –Naxcuvanın göycəsi məx'şurdu.

**GÖY DAŞ** (Biçənək, Bist, Dəmirçi) – kəsici alətləri itiləyən daş. –Dəmir əşyaları itiləməx' üçündü göy daş.

**GÖYƏRƏMTİLİX'** (Nehrəm) – yaşıllıq. –Bir göyərəmtilix' yer tapax oturax.

**GÖY HANASI** (əksər şivələrdə) – xalça, palaz toxumaq üçün yerə perpendikulyar düzəldilən hana. –Göy hanasının yan ağaşdarın bərkitməx' lazımdı yerə.

**GÖZDƏX'** (Biçənək) – aşırım. –Gözdəx'dən o yanda

bizim xərməndi.

**GÖZƏMƏX'** (Nürgüt, Yaycı) – tikmək. –Torba:n ağzın gözədim ki, tökülməsin, göndərdim getdi.

**GÖZÜQIPIX** (Naxçıvan) – qorxaq, hər şeydən çəkinən. –Döyməx'dən uşağı gözüqıpıx eliyip.

**GÜCÜ** (Şahbuz) – xalça, palaz toxumaq üçün hazırlanan davamlı ip. –Gücü hanada olur.

**GÜCÜLLƏMƏX'** (Aza, Biləv) - artmaq, çoxalmaq. -Xanım çox işdiyib, axırı noxsannarı gücüllüyüb.

**GÜDARA** (Vənənd) - tənək çubuğu. -Mən bağımızda güdara basdırdım.

**GÜDÜL//GUDUL** I (Cəhri, Ərəzin, Gömür, Keçili, Nəzərabad) – şikəst. –Qışdarı maharbədə güdül olmuşdu əmimin o vaxdı.

**GÜDÜL** II (Şahbuz) – küpə. –Əvı iramont eliyəndə həyətdən bir güdül tapbışdıx.

**GÜLAB** (Babək, Kəngərli, Şərur) - əkinə verilən ikinci su. –Gülabın da öz vaxdı var.

**GÜLABCAN** (Biləv, Nəsirvaz) – gülabdan, gülab tökmək üçün qab. –Yasda, məylisdə gülabcana gülab töküp paylərıx.

**GÜLABI** (Heydərabad, Sədərək) – üzüm növü.

**GÜLBACI** (Hacıvar, Naxçıvan)//**GUBA** (Qarabağlar) – qardaş arvadı. –Gubam qonax çağırıb bizi.

**GÜLBƏSƏR** (əksər şivələrdə) – xiyar. –Bı il

gülbəsərin hammısın çor vırdı isdidən.

**GÜLƏCƏ** (Ordubad) - keçmişdə qadınların evdə geydikləri qolsuz kofta. -Güləcəni keçmişdə çox geyərdilər.

**GÜLƏBZAY** (Üstüpü) - mürəbbə qabı. -Güləbzay saxsıdan olar, şüşədən olar.

**GÜLQƏND** (Cəhri) – qızılgülün ləçəklərini şəkər tozu ilə susuz qarışdırıb hazırlanan şirniyyat. –Gülü pesoxnan qarışıdırıb yığıram bankalara, olur gülqənd.

**GÜLMIX** (əksər şivələrdə) – balaca mıx. –Şüşəni gülmıxnan vırmax lazımdı kin, görsənməsin.

**GÜLÜL** (Nüsnüs) – dolu şəklində yağan yağış. –Gələndə yolda düşdıx gülülə.

**GÜLÜSOR** (Məzrə) – ağbuğda.

**GÜM** (Naxçıvan) – böyük mis səhəng, su qabı. –Qədimdə işdədirdilər gümü.

Bu söz gü:m variantında Mingəçevir, Oğuz şivələrində də işlənir (1, s. 208).

**GÜMANAŞƏK** (Babək, Naxçıvan) – təxmini. –Qardaşımın təzə tix'diyi otağı görməmişəm, elə gümanaşək deyirəm.

**GÜNAR** (Şahbuz) – ipək qurdu tərəfindən yarpağı yeyilmiş budaq. –Günarı da qurt yiyənnən sora atarıx təndirə-zada.

**GÜNDİRRİX'** (Babək, Culfa, Naxçıvan) – yaxşı yaşayış, dolanacaq. -O qudam mə:m bı yazıx qızıma gündirrix' vermiyip ki.

**GÜNƏVƏR** (əksər şivələrdə) – gün düşən yer. –Bizim həyət günəvərdi, ona görə bırda pencər tez eyniyir.

**GÜNNÜX'** (Nursu, Sirab) - şapkanın qabaq hissəsi, çətir. -Sənin şapqavın günnüyü qısadı.

**GÜNSÜMƏX'** (Daylaqlı, Kırna) – gün vurmaq. – Düzüplər unu eşiyə, günün altda qalıp günsüyüp.

**GÜPƏMƏK//GUPAMAQ** (Naxçıvan) – vurmaq, döyəcləmək. –Bının kürəyinə oqqədər gupuyup ki, yazığın halı yoxdu dərbəşə.

**GÜRŞAD** (Şahbuz) – şiddətli yaşan yağış. –Gürşad başdadısa sel gəlməmiş əl çəx'məz.

**GÜŞDÜ** (Ordubad) – şaftalı. –Kəndimizin hər cür meyvəsi-güşdüsünnən tut heyvasına qədər məx'şurdu.

**GÜVARA** (Milax) – yaxşı nəticə verən, uğurlu. – Güvara axırı yaxcı olanda deyillər.

**GÜYÜM** (Bulqan, Tumbul) - mis səhəng. -Güyüm çox su tutur.

**GÜZDƏX'** I (Nüsnüs) – qırxılmış quzu.

**GÜZDƏX'** II (Bulqan) – yazda, payızda göyərən ot. – Güzdəx' yaz yoncasıdı. -Güzdəx' heyvanı kökəldir, yaxcı otdu.

Bu söz eyni mənada Daşkəsən, Füzuli, Gədəbəy, Zəngilan şivələrində də işlənir (1, s.209).

**GÜZDÜX'** (Şahbuz) – payız səpini. -Güzdüx' buğdanın indi vaxdıdı.

**GÜZƏM** I (Gömür, Naxçıvan) – payızda qırxılan yun.

–Güzəmi payızda qırxallar.

Güzəm bu mənasında bir çox dialekt və şivələrimizdə işlənir (1, s.210).

**GÜZƏM** II (Aza) – quzunun birinci qırxımı. –Güzəm saçax olmur, una görə unnan döşəx' salarıx.

## Hh

**HACILEYLAX** (Sələsüz, Türkeş) – ucaboy, uzun adam. –Boyu cox uca olanda deyirix', elə bil hacıleylaxdı.

**HAÇABAŞ** (Sədərək) – üzüm növü.

**HAÇA-PAÇA OLMAX** (əksər şivələrdə) – aralanmaq. -Ağacı ildırım vırmışdı, haça- paça olmuşdu.

**HADAĞADAN ÇIXMA** (Şəkərabad) - cızığından çıxma, həddini aşma. -Qorxudan uşağın gözdəri hadağadan çıxdı.

**HADIX** (Şahbuz) – mamaça, doğuş zamanı uşağı tutan qadın.

**HAXLAMAX** (Bənəniyar) – çatmaq, yetişmək. –Yetmişi haxlıyıp indi boylum yadına düşüp ki, əv-eşiyi var.

**HAX-NAHAX** (Naxçıvan) – nahaq yerə, oldu-olmadı. –Hax-nahax dirəşdi ki, qoymuşdum kəflətini bıra.

**HAKUŞQA** (əksər şivələrdə) – toyda, xına gecəsində oğlan və qız tərəfinin daha çox deyişmə şəkildə dedikləri şeir. –Gecə Gülanın qızının xınasında bir hakuşqa getdix' ki.

**HAQQIBEMUZ** (Naxçıvan) – zəhmətinin əvəzini görməyən, əli boşda qalan. –Nə qədə əziyətin çəx'dix', axırı da oldux haqqıbemuz.

**HAQQINA** (Şahbuz) – üç illik dişi qaramal.

**HALQARƏZƏ** (Tivi) – cəftə. –Halqarəzəni suya çəkip içirtməx' lazımdı qorxan adama.

**HALOUŞ** (Naxçıvan) – istilik, hərarət. –Yol gəlmişəm,

yanıram, qoy halouşum keşsin nağıl eliyəcəm.

**HAMAŞ** (Bist, Dırnıs) – şərik. –Gə hamaş olax.

**HAMBAL** (Qaraçuq) – evin tavanının ortasına qoyulan uzun ağac. -Evin barısı qutarıp, hamballar da qoyulup.

Bu söz eyni mənada Balakən, Goranboy şivələrində də işlənir (1, s.213).

**HAMPA** (Şahbuz) – qoyun sürüsü.

**HANNAN-HANA** (Naxçıvan) – gec. –Bir xeylax çağıranna sora hannan-hana ca:p verdi.

**HAPI DURMAX** (Biçənək) – köməklik etmək. –Bir hapı duranı olmadı bı uşağın, qaldı ortalarda.

**HARAMI** (Şahbuz) – başqa pətəklərə hücum edib onlardan bal oğurlayan oğru arı. –Haramı özü bal yığmaz, ordan-bırdan oğurruyar.

**HAŞANNAMAX** (Yaycı) - yerə sərmək. -Güləşi haşanna, qoy qurusun, döyəx'.

**HAVAR TƏPBƏX'** (Külüs, Naxçıvan) – səs salmaq, qışqırmaq. –Gördü suyu aşmışam, elə havar təpdi kin, gəl görəsən.

**HAVXIRMAX** (Ərəzin, Heydərabad) – soyuqda əlləri nəfəslə isitmək. –Odu bax qoca kişidi, sizdən yana bı soyuxda havxıra-havxıra qaravul durup.

**HAVIR** (Məzrə, Naxçıvan) – inad. –Havırınnan götdü nə var çırpdı yerə.

**HAVIRNAN** (Şahbuz) – növbə ilə. –Axırı doxdur

hesdəndi kin, havırnan gəlin mən bilim kimə baxıram da.

**HAVLA** (Sirab) – araqçın. –İrəhmətdix' Yusup bir dınqılı kişiydi, başına da ilmüdam havla qoyardı.

**HAVLAMAX** (Nursu, Yaycı) – şişmək, irinləmək. – Havlıyan yaraya bağayarpağı qoyanda tez keçir.

**HAY-HAY** (Culfa) – qovurma və doşabla bişirilən yemək.

**HAZARPEŞƏ** (Gənzə) – stəkan yığılan qutu, yeşik. – Hazarpeşəni qoymişəm badvala.

Bu söz Bərdə, Çəmbərək, Gədəbəy, İmişli, Kəlbəcər, Zəngilan şivələrində də işlənir (1, s.215).

**HEL** (əksər şivələrdə) - qadınların boyunlarına bağladıqları dairə formasında qızıl boyunbağı. –Nənəmnən üç düzüm heli qaldı mã:.

**HELBƏKİ** (Vənənd) - körpü altından keçən su yolu. - Qoy su helbəkidən kessin, sora gəl əvə.

**HELLAŞ** (Ordubad)//**HALLAŞ** (Badamlı, Nursu) – keçə hazırlayan. –Hellaş keçə düzəldəndi.

**HELLƏMƏX'** (əksər şivələrdə) – yuvarlatmaq, itələmək. –Meşoğu bitəhər hellədim saldım dama.

**HER** (Ordubad) – bostanda kiçik su arxı. –Qavın, qarpızı xəlis hernən suvarmışam.

**HERAĞAC//HERAĞAŞ** (Babək, Şahbuz) – yazın son ayında çıxmış sayca çox arıdan ibarət yeni arı ailəsi, beçə.

**HERAN** (Nursu, Yuxarı Qışlaq) – şum zamanı kotanın

açdığı şırım.

**HERAVAT** (Dırnıs) – yekə, uca. –Heravatdığına baxma, canı nəxoşdu.

**HERƏBAŞ** (Nursu, Türkeş) - faraş, vaxtından əvvəl. - Biz bı il səvzini herəbaş əx'mişdix'.

**HERİX' ŞUM** (Şahbuz) – payız şumu. -Herix' şumu eliyip yaza hazır qoymax lazımdı.

**HEŞAN** (Babək, Şahbuz, Şərur) – döymək üçün xırmanda açılıb sərilmiş taxıl dərzləri. -Heşan dağıtmayın, hava dolur, yağacax.

Heşan Cəbrayıl şivələrində də eyni mənada işlənir (1, s.217).

**HEŞANNAMAX** (Camaldın) - döymək məqsədilə dərzləri xırmana səpələmək.

**HEŞPŞEY** (Naxçıvan) – heç nə. –Heşpşey gətirmə, elə özün gə bəsdi.

**HEYBƏT** (əksər şivələrdə) - qorxu, dəhşət. -Yük o qədər ağır idi ki, heybətdən sancılandım.

**HEYN** (Babək, Culfa) - an, dəm, vaxt. -Elə bı heyndə o gəlib çıxdı.

**HEYVAQAYLA** (Ərəfsə) - heyva, cəviz və ətdən bişirilmiş xörək. –Heyvaqayla heyvadan pişirillər, xorəx'di.

**HƏBƏÇƏ** (Aşağı Yaycı, Gümüşlü, Qıvraq) – mamaça. –Elə Pəri xala devri-qədimnən bizim kəndin həbəçəsidi.

**HƏCƏT//HACAT** (Şərur) – alət. –Hacatıvı gətgə gör

bizim nasos gənə işdəmir axı.

**HƏFCOŞ** (Naxçıvan, Şahbuz) – qarışıq. –Hammısın qatdı bir-birinə həfcoş elədi qoydu ora.

**HƏFDƏBECAR** (Xəlilli, Naxçıvan, Şıxmahmud) – tez hazır olması üçün balaca-balaca doğranan və əsas turşudan əvvəl qoyulan turşu. –Həfdəbecarı sentyabrdan qoyarıx ki, pamidor-zad savışana gəlsin.

**HƏFDÜM ELƏMƏX'//HƏFDIMƏ SALMAX** (Babək, Kəngərli, Naxçıvan, Sədərək) – alıb verməmək, bir şeyi pulsuz əldə etmək. –İlim on iki ay onnar unu salallar həfdımə.

**HƏKİMXANA** (Düdəngə) - xəstəxana. -İrayona gedəndə həkimxanaya getməliyəm.

**HƏLBƏT** (Babək, Şahbuz, Şərur) – yəqin ki. –Həlbət dədən bir şey bilir ki, heylə deyir.

**HƏL-HƏLBƏT** (əksər şivələrdə) – mütləq. –O:n da həl-həlbət bir gün işi düşəcəx' bizə.

**HƏLLƏHÜŞ//HƏLƏHÜŞ** (Axaməd, Maxta) – fırıldaqçı. -Həlləhüş adamın nə hörməti olacax ki.

Goranboy, Gədəbəy, Qazax şivələrində də bu vahidə eyni mənada rast gəlirik (3, s.200).

**HƏLLƏM-QƏLLƏM** (Naxçıvan) – fırıldaq, yalan. –Bı Qasım əmi dinc adam dəyir, min dənə həlləm-qəlləm işi var.

**HƏLMƏHƏL//HƏLBƏHƏL** (Naxçıvan, Ordubad, Şahbuz) – çox bişmiş. –Maşı gərəx' həlbəhəl pişirəsən ki, luğaplana.

**HƏLSƏ** (Bulqan, Naxçıvan, Tumbul) - ət ilə yarmanın

bir yerdə həddindən artıq bişirilməsi ilə hazırlanan yemək. – Həlsəni əmməm tez-tez pişirir.

**HƏMƏRSÜN** (Boyəhməd, Milax)//**HƏMƏSUR** (Camaldın) – itburnu. –Həmərsün təziqi qaldırır.

Bu söz həmərsin//həmərsun//həməsil fonetik variantlarında bir çox dialekt və şivələrimizdə qeydə alınmışdır (1, s.219).

**HƏMƏYİR** (Şahbuz) – özgəsinin hesabına yaşayan, özünü işə verməyən. –Onun kimi ortada yeyip qıraxda gəzənnərə həməyir deyirix'.

**HƏMXANA** (Naxçıvan, Uzunoba, Vayxır) – kirayənişin. –Neçə illər Məşəxanımın damında həmxana qaldılar.

**HƏMİL** (Nehrəm) – sakit, yumşaq. -Həylə demə, bı çox həmil adamdı.

**HƏMLİ** (Naxçıvan) – hamilə. –Gəlin də yazıx həmlidi, dərbəşəmmir.

**HƏNDƏS-MƏNDƏS** (Şərur) – fırıldaq. –Mə:m həndəs-məndəs işdərnən işim olmaz.

**HƏNDƏVAR** (Dırnıs)//**HƏNDƏVƏR** (Naxçıvan) - ətraf. –Kəndin cavannarı elə eliyiplər ki, indi kəndin həndəvərinnən də keçəmmir.

**HƏNƏX'** (Kəngərli) – zarafat. –O qəddə hənəx'ləşdilər, axırı davı tüşdü.

**HƏNƏQIRNA** (Naxçıvan) – üzüm növü. – Hənəqırnanın gilələri iri olur, özü də dənəli üzümdü.

**HƏRBƏ–QADAĞA GƏLMƏX'** (əksər şivələrdə) -

hədələmək, qorxutmaq. -Sən mənə hərbə-qadağa gəlmə, mən belə şeylərdən qorxmuram.

**HƏRƏ** (Ərəfsə, Qazançı, Milax) – taxça, rəf. -Hərəyə samavar-istəkan, nəmnə qoyarıx. -Hərə duharda olar, ora qab-qaşıx qoyarıx.

Bu söz Qarakilsə şivələrində də eyni mənada işlənir (1, s.221).

**HƏRƏBAŞ** (Kırna) - şumlanmış sahələrin arasında qalan xam yer. -Cüt dönəndə hərəbaş qalır, əkilmir.

**HƏRKİŞDƏ** (Ordubad) – hər kəs. –Hərkişdə öz işin görsə işdər qəydasına düşəcax.

**HƏRZƏ–HƏDYAN DANIŞMAX//HƏTƏRƏN–PƏTƏRƏN DANIŞMAX** (Babək, Culfa, Naxçıvan) - çərənləmək, nalayiq danışmaq. -Sənin qabağında uşax yoxdu, hətərən–pətərən danışma.

**HƏSBƏ** (Tivi, Vənənd) - xəstəlik adı. -Bacımı görüm həsbə tutsun, qoymadı işimizi görək.

**HƏS-HÜS** (Naxçıvan) - him-cim. -Bı uşağ elə bil keydi, həs-hüs qammır.

**HƏŞTAN–PÜŞTAN** (Babək, Kəngərli) - qadınların arabir toplaşıb çölə gəzməyə gedərək təşkil etdikləri qonaqlıq.

**HƏTƏBAŞ** (Şahbuzkənd) – toyda yığılan pul. –Bizdə qaydadı da, hammı hətəbaş yığar.

**HƏVƏ** (Kükü) – xalça, palaz toxumaqda istifadə olunandişli, ağacdan hazırlanan alət. –Həvəni gəbə toxuyannar işdədər.

Həvə Ağcabədi, Bərdə, Dərbənd, Şəmkir, Tərtərdə də eyni mənada işlənir (3, s.204).

**HƏVƏDİŞİ** (Şahbuz) – qədim arpa sortu.

**HƏVİX'** (Şahbuzkənd, Şıxmahmud) – heyf. –Qazan aşdı o boyda doşabın hammısı töküldü həvix' oldu.

**HƏVİŞ** (Şahbuz) – plovun üstünə qoyulan xuruş. –Həvişi biz həməşə pencərnən eliyərix'.

**HƏVLƏKİ** (Camaldın, Ərəzin, Hacıvar) – acgözlüklə. –Elə həvləki işdi ki, suyu, elə bilginən yanırmış.

**HƏVRƏ** (Ordubad) – cır, yabanı meyvə. –Həvrə armut daş kimin olur, yeməx' olmur onu.

**HƏYLƏ** (əksər şivələrdə) – elə. –Həylə oğula can qurbandı.

**HƏYLƏNÇİX'** (əksər şivələrdə) – elə. –Həylənçix' bambılı adamnan sən nə gözdüyürsən.

**HƏZAZ** (Əylis) – dağsoğanı. -Dağdan yeməyçin çoxluca həzaz yığdım.

**HIRNAŞMAX** (Babək, Naxçıvan) – zarafatlaşmaq, ucadan gülüşmək. –Bı cavannarın işi-gücü yoxdu, yığışıplar bir yerə pütün günü hırnaşıllar.

**HİKGƏ** (Aşağı Qışlaq, Kolanı, Naxçıvan, Zeyvə)// **HƏKKƏ** (Keçili, Külüs) - hirs, inad. –Nə dedisə, yazıx kişi hikgəsinnən bilmədi neynəsin.

**HİM** I (əksər şivələrdə) – işarə. –Sən lazım olanda bir him elə mən özüm biləcəm.

**HİM** II (Naxçıvan, Şahbuz) – özül. –Əvın himin toküp qutarıplar.

**HİNDİL** (Kələki) - böyürtkən. -Hindildən yaxşı mürəbba olur.

**HOQQA** (Nehrəm) - bir kiloqram. -Hoqqa dəvri–qədimdə işlənərdi. -Yarım hoqqa yarım kilodu.

**HOL** (Naxçıvan) – fırfıra.

**HOLO** (Babək) – tikiş sapının taxtası. –Sap üsdünə dolanan taxdıya deyirix' holo.

**HOŞ** (Ləkətağ) – şum zamanı kotanın ağzına ilişən iri daş, kötük və s.

**HOV** (Babək, Şahbuz, Şərur) - əvəllər kolxoz işinə gedərkən aparılan günorta yeməyi. –Qalxozun vaxdında hovumuzu da çöldə yeyirdix'.

**HOVUR** (Biləv, Bist, Tivi) – vaxt, müddət. –Bir hovurdan sora özü başa düşəcəx'.

**HOYDU-HOYDUYA GÖTÜRMƏX'** (Naxçıvan) - ələ salmaq, oynatmaq. –Bı sözü deyən kimi oturannarın hamısını məni hoydu–hoyduya götdü.

**HOYUXMAX** (Cəhri) - təəccüblənmək, qorxmaq. –Tuneldə top atanda camahat hoyuxurdu.

Bu söz Meğri şivələrində qeyd etdiyimiz məna ilə yanaşı, həm də xəbərdar olmaq, duyuq düşmək mənasında da işlənir (3, s.209).

**HOZU** (Naxçıvan)//**HOZİKİ** (Şada) - gec başa düşən, qanmaz. –Sabir hozudu elə bil, sözü də qammır.

**HÖCƏTDƏŞMƏX'** (əksər şivələrdə) – mübahisə etmək. –Ölür da Məsmə höcətdəşməx'dən yana.

**HÖRÜX'LƏMƏX'** (Şərur) – heyvanı otlaqda uzun ip, kəndirlə bağlamaq.

Bu söz Bərdə, Qarakilsə şivələrində də işlənir (3, s.211).

**HUŞ** (əksər şivələrdə) – ağıl, yaddaş. –Məndə huş qalıb ki, heş nə yadımda qalmır.

**HUYDURUM** (Şərur) – yelbeyin. –Çox huydurum adamdı bı təzə müdür.

**HUYGİR AT** (Şahbuz) – yeriyən zaman qəflətən sərpən, hürkən at. –Kişini qoyma bına minsin, huygirdi qocanı yıxar.

**HÜLÜ** (Naxçıvan, Şahbuz, Şərur) – dənəsi asanlıqla ayrılan balaca şaftalı. –Hülüyə dənəsiçıxan da deyirix'.

**HÜLLÜYAN** (Camaldın) – novdan. –Qar ağırrığ eliyip hüllüyan qırılıp tüşüp yerə.

**HÜNÜ** (Keçili) – balaca mığmığ, xərbeçə. –Hünü küşdərdə olur, tutmağ olmur onu.

**HÜRKÜTMƏX'** (Babək, Naxçıvan) – qorxudub qaçırmaq. –Dedim, hürkütmə qoy gəlsin yaxına görəx' nə deyir.

**HÜŞDÜRƏX'** (Babək, Naxçıvan, Ordubad) – fit. –Uşaxlar da qıraxdan baxıb hüşdürəx' çalırdılar.

**HÜŞDÜRÜM//HUŞDURUM** (Naxçıvan, Siyaqut, Şəkərabad, Üstüpü) – ağılsız, yüngül adam. –Hüşdürümlüyünün ucunnan qaldı yaman günnərə.

## Xx

**XAFLİYAX** (Xanağa) – gizlincə, xəlvətcə. – İsdəmirsənsə cəməhət bilsin xafliyax eləməx' lazımdı bı işi.

**XALXAL** (Keçili, Kükü, Külüs) – isti vaxtlarda naxırın yatdığı yer. –Yayda elə naxır xalxalda qalır.

**XALVAR** (Biləv) - keçmiş çəki vahidi, 10 pud. - Geşmişdə on puta bir xalvar diyərdilər.

**XAMA** (Biçənək, Aşağı Qışlaq) – xalça toxunmaq üçün əyrilib boyanmış ip. –Xamaynan təx'cə ilmə çalarıq.

**XAMA ÇIXMAQ** (Şahbuz) – yaz əkininə başlamaq. – Birəzdən hammı xama çıxacax.

**XAM YERİN BELDARI** (Ordubad) – müftə yeyən. – Həsənə nə var, xam yerin beldarıdı, üşdə əlacağı yox, beşdə verəcağı.

**XANATDANDI** (Şərur) – yemək adı.

**XANBACI** (Unus) – baldız. -Xanbacım özü gəlib məni çağırdı.

**XAPAXAP** (Naxçıvan, Şahbuz) – qəfildən, gözlənilmədən. –Elə xapaxap bi də baxdıx oglumun işi düzəldi.

**XAPAMAX** (Cəhri, Vayxır) – yaxşı bağlamaq, qapamaq. –Qaza:n ağzını qəşəx' xapamax lazımdı ki, düyü yaxcı dəm tox'sün.

**XAPAN** (Sələsüz) - baxımsız, boş. -Kotan dünənnən xapandı.

Çəmbərək, Hamamlı, Qazax, Şuşa şivələrində də bu

sözə eyni mənada rast gəlirik (1, s.237).

**XAPAN QALMAQ** (Naxçıvan, Şada) - tək qalmaq. – Əri ölənnən sora damnarda xapan qaldı balalarıynan.

**XAPDAN** (Babək, Naxçıvan)//**XƏPDƏN//XAFDAN** (Sədərək, Şərur) – qəflətən. –Xəpdən çıxsa adamın qabağına adam qorxar.

Bu söz xafdan variantında Zəngilan şivələrində də işlənir (1, s.235).

**XAR** I (Camaldın) – iki-üç yaşında axtalanmış keçi.

**XAR** II (Şahbuz) – şanın içərisində olan hələ bala çevrilməmiş çiçək tozu.

**XARAL** (Şahbuz) – pambıqdan və ya yundan toxunan iri çuval. –Xarala nənəm həməşə qış urzasını yığırdı.

**XARRAMAX** (əksər şivələrdə) – bərkimək, qatılaşmaq. –Qəşəx', təmmiz bal gərəx' xarrıya.

**XART//XƏRT** (Şərur) – bıçaq və başqa əşyaları itiləmək üçün istifadə olunan çay daşı. –Adi daşdı xart daşı, pıçağı zadı itiliyirix' unnan.

**XARTDANMAX** (Naxçıvan) - möhkəm qaşınmaq. -Nə oturub gözümün qabağında xartdanırsan?

**XARTDAŞI** (Kəngərli, Şahbuz, Şərur) – kəsici alətləri itiləyən daş. –Xartdaşıynan baltanı-zadı itiliyir dədəm.

**XAŞAL** (Naxçıvan) – sallaq. –Bir xaşal qarın kişiydi, başına da həməşə araxcın qoyardı.

**XAŞMAR** (Nursu)//**XƏŞMƏR** (Biçənək) – arı səbətini

yarıya bölmək üçün səbətin içərisinə haça şəklində qoyulan iki çubuq.

**XATAKÜN** (Bulqan, Naxçıvan, Şıxmahmud) – fırıldaqçı, dələduz. –Qaynımın oğlu xatakün uşaxdı, salamat adam dəyir.

**XATINBARMAĞI** (Babək, Şərur) – yabanı bitki.

**XEYLAX** (əksər şivələrdə) – xeyli, çox. –Xeylax pal-paltar yığmışam, göndərəcəm kəndə uşaxlara.

**XƏBƏR ÇƏRŞƏNBƏ** (Şərur) - boz ayın ikinci çərşənbəsi. –Xəbər çərşəmbədə bəzi çiçəx'lər açar, yanı ki, yazın gəlişini xəbər verər.

**XƏÇİRDƏX'** (Nursu, Türkeş)//**XƏCİRGƏT** (Kolanı) – təndirin, ocağın üstünə qazan qoymaq üçün eninə qoyulan yastı dəmir. –Xəçirdəyi qoyarıx, qazanı qoyarıx onun üsdünə.

**XƏCONNİ** (Unus) – xörək bişirilən yer. –Heş böyünnəri xəconnidən qırağa çıxamməmişəm.

**XƏFƏ** (əksər şivələrdə) – qapalı, havası ağır olan yer.-Mən xəfə yerdə oturammıram, boğuluram.

**XƏFƏNƏX'** (Babək, Naxçıvan) – öskürək, çox öskürən adam. –Birdən baxırsan ki, xəfənəyi tutdu, ta danışammır.

**XƏFƏNG** (Bist, Vənənd) - samavarın odunu söndürmək üçün istifadə olunan qapaq. -Xəfəng simavərin utunu söndürmək üçündü.

**XƏFLƏNMƏX'** (Naxçıvan) – qorxmaq. –Həyət elədi ki, adam gecə vaxdı çıxammır, xəflənir.

**XƏX'LƏNMƏX'** (Məzrə) – şumlanmış yerin gün vurub daha da yaxşılaşması. –Yeri birəz qabaxdan şumnamax lazımdı ki, qalıb xəx'lənsin.

**XƏKAB** (əksər şivələrdə) – toxum səpiləndən sonra verilən birinci su.

**XƏLƏT** (Babək, Naxçıvan, Şahbuz, Şərur) – hədiyyə, nəmər. –Gəlinin belin kim bağlasa gərəx' ona xələt verəsən.

**XƏLİLİ** (Kəngərli, Sədərək) – tez yetişən üzüm növü. –Mövlüyümüz pütün xəlili üzümdü.

**XƏMBƏR** (Ələhi, Xurs) – qarğıdalı. -Bizzər qarğıdalı demənix, xəmbər deyərix.

**XƏMİRRƏMƏK** (Şahbuz) – taxılın yaş olması nəticəsində dəyirmanın boğazında xəmir əmələ gəlməsi. – Taxılı nəm salsan dəyirmənə xəmirriyər.

**XƏMİŞDİX'** (Daylaqlı) – sakitlik. –Hələ kin ortalıx xəmişdix'di.

**XƏRBEÇƏ** (Babək, Naxçıvan)//**XƏKBEÇƏ** (Siyaqut) – balaca ağcaqanad. –Xərbeçə lap isdilərdə ən çox xəfə yerrərdə olar.

**XƏRƏ** (Qarababa, Məzrə) – şum zamanı əkin sahəsində şumlanmamış qalan azacıq yer. –Xərə qaldısa ta oldu heşpişey, gərəx' təzdənnən oranı şumluyasan.

Bu söz xərəx' şəklində Borçalı, Cəbrayıl, Çəmbərək, Gədəbəy şivələrində də var (1, s.242).

**XƏRƏNCƏ** (Dəstə) – kələkbaz. –Xərənəcə ədam hər yerdə də başin girriyir.

**XƏRƏZƏN** (Camaldın) – qamçı. –Xərəzəni hodax işdədir, öküzdəri vırmaxdan yana.

**XƏRPİŞDƏ** (Vələver) – kərpic ev. –O vaxdı hammı xərpişdə əv tix'mişdi özüna, yəyda sərin olur o.

**XƏSİLLƏNMƏX'** (Ordubad, Şahbuz) – yetişmək. –Xərmən xəsillənəndə bıralar elə gözəl olur kin.

**XƏŞƏ** I (Biçənək, Kükü) – qəzildən toxunan enli və böyük çuval. –Xəşə də bir cür meşoxdu, əməancax yekə olur.

**XƏŞƏ** II (Culfa, Ordubad) - yoncayabənzər yabanı bitki. -Xəşəni heyvana veririk.

**XƏŞƏLLƏNMƏX'** (Naxçıvan) – rahatca dincəlmək, istirahət etmək, yayılmaq. –Əziyətnən əv-eşix' düzəltdim, indi bı gəlip xəşəllənir.

**XƏŞƏNƏX'** (Cəhri, Vayxır) – paxıl, xəbis. –Xəşənəx' adamın heş kimi gözü götürməz.

**XƏYƏTİ** (Dizə, Yaycı) - baramadan əyrilən sap. -Baramadan xəyəti çəkirəm.

**XƏYLAX** (əksər şivələrdə) – qisim, cins: qız xəylağı – qız qismi, kişi xəylağı – kişi cinsindən olan adam. –Kişi xəylağı danışan yerdə arvat gərəx' birəz dala dura.

**XIBIS** (Naxçıvan) – çoxbilmiş. -Xıbıs adamnan adama xeyir gəlməz.

**XIDIR** (əksər şivələrdə) – kiçik çillənin 10-cu günü buğda, küncüt, mütxtəlif çərəzlərin qovrulması ilə qeyd olunan bayram. –Xıdır günü papağ atallar qapıya kin, əv yiyəsi içinə qavırqa payı töx'sün.

**XIL** (Naxçıvan, Nehrəm) – çox. –Qız əvinnən bir xıl adam gəlmişdi xınıya.

**XILITGƏN//XILICCAN** (Ordubad) – qapını bağlamaq üçün dəmir. –Xılıtgəni salginən, qoy uşəx çölə çixəmməsin.

**XILLIX** (Vənənd) - yapıncı növü.

**XIM** (Maxta) – him. –Bınnarın ulu babaları əvın xımına o vaxdı güya qızıl basdırmışımış.

**XIMIR-XIMIR** (Babək) – sakit-sakit, gizli-gizli. –Anamnan qalın qızılları qoyup başının altına, xımır-xımır yeyir indi.

**XIMXIMA** (Naxçıvan) – çoxbilmiş, altdan-altdan iş görən. –Gəlinnərim yaxcıdı, ay bala, əmə bı yekə birəz xımxımadı.

**XINC** (Xələc, Şərur) – iri, böyük. -Qumnan xınc gəcin birləşməsinnən gəcxək əmələ gəlir.

**XINCILOVUZ** (Şahbuz) – yabanı bitki.

**XINCIM-XINCIM** (əksər şivələrdə) - əzik, qırıq-qırıq. –Məllim hesdəndi, qoydu əyağı:n altına delfunu xıncım-xıncım elədi.

**XIPER** (Mahmudkənd, Zeyvə) – alçaqboy adam. –Xıper adamın yarısı yerdə olar.

**XIR** (Nüsnüs) – tamam. -Xörəx' xır duzdu.

**XIRAVAR YER** (Keçili) – xırda çınqıl, qumqarışıq sarı torpaqlı yer. –Xıravar yerdə cəviz yaxcı olur.

**XIRDIXOV ETMƏK** (Culfa) – narın döymək, xırdalamaq. –Duzu xırdıxov eliyip sohra işdədirix'.

**XIRXI** (Şahbuzkənd) – balaca mişar. –Xırxı mişardan çıqqılı olur, puşqu kimin.

**XIRXIR** (Ərəzin) – iri mişar. –Xırxır da mişarın illap yekəsidi, usdalar işdədillər.

**XIRID ELƏMƏX'** (Naxçıvan, Türkeş) – gizlincə satıb yemək. –Beşüyür gədə aprıb anası:n qızılların xırıd eliyip.

**XIRMƏNGAH** (Ləkətağ) - xırman yeri. -Əvimiz o yanda xırməngahın yanındadı.

**XIRSIZ** (Şahbuz) – güclü. –Xırsız adam lazımdı ki, bına gücü çatsın.

Bu söz Ağdam, Qarakilsə, Quba, Mingəçevir, Oğuz şivələrində qeyd etdiyimiz mənada, Cəbrayıl, Cəlilabad, Zəngilan şivələrində kobud, Xanlarda çoxdanışan, səbirsiz mənalarında da qeydə alınmışdır (1, s.247).

**XIRSIZDAMAX** (Ərəzin) – zorla, döyə-döyə gətirmək. –Gəlmirdi heç, xırsızdıyıp gətirip dədəsi.

**XIS ELƏMƏX'** (Naxçıvan, Püsyan) - tüstülətmək, his buraxmaq. –Ocax xıs elədi, aləm oldu qapqara.

**XIŞDAMAX** (Daylaqlı, Püsyan) – döymək. –Oğlan bını nətər xışdadı, ürəyimnən tikan çıxdı.

**XIŞ DUZ//XIR DUZ** (əksər şivələrdə) – tam döyülməmiş duz. –Turşuya xış duz qoyanda lap qəşəx' olur.

**XITAB** (Culfa)//**XİTAB** (Ordubad) – soğan, balqabaq və pencərdən hazırlanan yemək, qutab. –Uşaxlar çox isdiyir

xıtabı.

**XITI** (Naxçıvan) – hamı tərəfindən əzilən, xor görülən adam. –Oqqədə döyüp ki, uşaxı eliyip xıtı qız.

**XIZAN** I (Qaraçuq) – uşaq. –Xızanı çoxuydu nənəmin, qəhrəman anaydı.

**XIZAN** II (Naxçıvan) – çoxlu. -Onnarın xızan mal-heyvanı var.

**XİFFƏT//XIFFAT ELƏMƏX'** (əksər şivələrdə) – sıxılmaq, darıxmaq, dərd eləmək. –Dədəsi ursetə gədənnən bı körpə o:n xiffətin eliyir.

**XİMİRTDƏX'** (Babək, Naxçıvan, Şahbuz) – qığırdaq. –Uşağın hələ sümüx'ləri bərkimir ki, ximirtdəx' olur.

**XİNG ELƏMƏX'** (Naxçıvan) – pərt etmək, başqalarının yanında alçaltmaq. –Qulu kişinin oğlu ömrü-günü dədəsini xing elədi hamının ya:nda.

**XİRİTİX'** (Şahbuz) – heyvanın topuğunda əmələ gələn xəstəlik. -Xiritix' heyvannarın əyağında olur.

**XİRNƏX'** (Çənnəb, Üstüpü) - dovşan balası. -Uşaxlar şumnan xırnəx' tutmuşdular.

**XİRNİX'** (Nursu) – çoxbilmiş, hiyləgər. –Xirnix'liyinnən başına hər cürə iş gəldi.

**XİRTDƏX'** (Naxçıvan) – boğaz. –Çöküb xirtdəyinə ee, gündə pulun isdiyir.

**XİRTİX'** (Şərur) – xırda yeyə. -Xirtix' də qəvrənin çıqqılısıdı, bir şeyi zadı hamarrıyırıx unnan.

**XİŞDƏX'** (Keçili, Şada) – üçbucaq şəklində olan əkin yeri.

**XİTAB** (Culfa, Ordubad) – qutab. –Nənəm yaxcı pencər xitabı pişirip.

**XİYAVAN** (Cəhri) - sahənin bərabər bölünüb əkilən hissəsi.

**XİZA YER** (Kırna) - əkilməmiş yer. –Yazda bırda xiza yer qalmaz, hamısın əkərix'.

**XİZƏR** (Sədərək) – böyük mişar. –Xizər ən çox usdalar işdədir.

**XLAM** (Naxçıvan) – xarab, zay, xəstə. –Bı il əx'diyimiz buğda xlamdı.

**XODƏX'//XÖDƏX'//HODAX//HODAĞ** (əksər şivələrdə) - əkin zamanı boyunduruqda oturan adam. –Hodax gərəx' öküzdərin dilini bilsin da.

**XOFLU** (Naxçıvan, Ordubad, Şərur) – qorxulu. -Ayı xoflu heyvandı. -Deyir, xayın xoflu olar.

**XOX GƏLMƏX'** (Naxçıvan) – qorxutmaq. –Bı da öz aləmində mənə xox gəlir.

**XOL** (Gənzə) – dağa çıxan yol. –Gedəndə xoldan özüvü gözdə, çox pis yoldu.

**XONSUMAX** (Zeynəddin) - yuxuya getmək. –Bi də baxax ki, otduğu yerdə xonsuyup.

**XOR** (Biləv) – budaq. -Səfər məllim sə:r məktəbə gələndə xorda qurt gördü.

**XORA** (Culfa, Ordubad, Şahbuz, Şərur) – tökülüb qalmış sünbüldən növbəti ildə öz-özünə bitən taxıl. –Xoranı biz əx'mirix' ki, elə öz-özünə olur.

**XORRAMAX** (Naxçıvan) – çox siqaret çəkmək. – Papruzu o qədən xorruyup ki, ciyarrarı noxoş olup.

**XORRUYAN AT** (Şahbuz) – müxtəlif əşyalardan qorxan, onları görəndə yeriməyən at.

**XORTUM//HORTUM** (əksər şivələrdə) – qurtum. –A bala yezit dəyirsən ki, bir xortum su ver içim.-Oqqədə tələsirəm ki, bir xortum su işməyə də vaxdım yoxdu.

**XORUM** (Biçənək, Sələsüz) – heyvanın bir pay yeməyi. –Heyvan bir dəfiyə nə boyda yeyirsə, ona xorum deyirix'.

**XORUMÇU** (Culfa, Babək, Ordubad, Şərur) – çalınmış otu bir yerə yığan adam. –Biz hazırrıyırıx xorumçu gəlip yığacax bir yerə.

**XORUMLAMAQ** (Şahbuz) – paylara bölmək, dəstələmək.

**XORUZƏX'** (Dizə, Kotam) – inaq. -Uşax xoruzəx' olub.

**XOSƏX'** (Naxçıvan) – köhnə, uçuq-sökük ev. –Bir xosəx' damıydı, onu da qardaşdarı aldılar bı yazığın əlinnən.

**XOŞACƏLİM** (Nehrəm, Vənənd) – yaxşı, qəşəng. – Fatmanın gəlini xoşacəlim qızdı.

**XOYUN** I (Aza, Vənənd) - suvarılmamış əkin sahəsi. - Sabah düzəndəki xoyunu suvarmalısız.

**XOYUN** II (Ərəzin) - sovurmaq üçün bir yerə yığılmış, döyülmüş taxıl və ya çəltik.

**XOZAN** (əksər şivələrdə) – bir neçə il dincə qoyulmuş torpaq sahəsi. –Bıralar təmmiz xozannığıydı əvvəllər.

**XUBUN** (Babək, Naxçıvan) – xeyli. –Hər dəhə dədəm yadıma tüşəndə oturup bir xubun ağlıyıram.

**XUBUNCA** (Naxçıvan, Şahbuz) – doyunca. –Durdum hersimnən bını xubunca döydüm toxdadım.

**XUDUX ELƏMƏX'** (Dəstə) – dərd çəkmək. –Xudux eləməx'dən kişinin beli pükülüp.

**XUDURU** (əksər şivələrdə) – boş yerə, nahaq yerə. -Getdix', dədəsi dedi kin, xuduru əziyət çəkib ordan bıra gəlmisiz, bizdə sizə verməli qız yoxdu.

Borçalı, Cəbrayıl, Meğri şivələrində bu sözə xudırı variantında rast gəlirik. Qazax şivələrində isə xuduru əkin sahəsinə tökülən sünbüllərdən öz-özünə bitən taxıl mənasında işlənir (1, s.253).

**XUM** (Nəzərabad, Şada) – böyük saxsı küpə. –Çaxırı əvvəllər doldurup xumnara basdırıdıx yerə ki, qəşəx' qalsın.

**XUNU QARPIZ** (Dəstə) – uzun, içi qıpqırmızı qarpız. –Gəlinə bir qəşəx' xunu qapız apardım çilldə.

**XURUŞDUĞUNU ÇƏX'MƏX'** (Biçənək) – yola getməmək, bir-birindən xoşu gəlməmək. –Gülgəzin günü cəməhətin xuruşduğun çəx'məynən geçir.

**XUYGİR** (Ordubad, Şərur) - bədxasiyyət, dəlisov at. -Bının atı xuygiriydi, satdı.

**XÜNÜX'** (Şərur) – ılıq. –Qrantının suyu xünüx' gəlir böyün.

**XÜŞGƏ** (Aşağı Qışlaq) – yaxşı yetişmədən bürüşmüş ərik. –Xüşgəni yemirix' dənəsin çıxardırıx, xıdırda qavırqıya qatmağa.

## İi

**İBNƏ** (Babək, Naxçıvan) – ifritə, aravuran. – İbnəliyinin ucunnan heş kim ona yaxın durmur.

**İCƏŞMƏX'** – (əksər şivələrdə) – mübahisə etmək, təhrik ehmək. –Mə:m onnan işim yoxdu, əmə o mənnən icəşir.

**İDARAÇI** (Şahbuzkənd) – idarə işçisi. –Savetin vaxdında yoldaşım idaraçıydı, hökmətə işdiyirdi.

**İDDƏ** (Culfa) – qadının boşanan vaxtından bir neçə ay keçən dövr. –İndi ta kimdi iddə gözdüyən, bırdan boşanır, bırdan da ərə gedir.

**İFALLI** (əksər şivələrdə) – abırlı, utancaq adam. –Elə ifallı kişidi ki, başın qaldırıp adamın üzünə də baxmaz.

**İFRİMƏX'** (Naxçıvan) – qocalmaq. –Güldənənin qəynanası təmmiz ifriyip.

**İKİÜZDÜ TİFAR** (əksər şivələrdə) – hər cərgədə iki daşı üz-üzə qoymaqla hörülən divar. –Bı tifarrar ikiüzdüdü deyin qışda bıra isdi olur.

**İLAXIR** (əksər şivələrdə) – çərşənbələrin sonuncusu, ilin Novruz bayramından əvvəl son çərşənbəsi. –İlaxır günü biz qəbir üsdə gedərix'.

**İLGƏX'** (Babək, Kəngərli, Naxçıvan, Şahbuz) - düymənin keçəcəyi sap. -Yaxasına bir ilgəx' tix' açıx qalmasın.

**İLİM-İLİM** (Naxçıvan) – birdəfəlik. –Qardaşım çıxdı getdi, o gedən də ilim-ilim itdi, ta xəbəri gəlmədi.

- Göy üzü kilim- kilim,
Yar itdi ilim- ilim.

Kəsin düşmən dilini,
Doğrayın dilim- dilim.

**İLİŞİX'** (Naxçıvan) - əlaqə, bağlılıq, asılılıq. -Onnan heş bir ilişiyim yoxdu.

**İL-MÜDAM** (Cəhri, Naxçıvan, Nəzərabad, Vayxır) – həmişə. –Bı baldızım il-müdam bizdədi, heç əvlərinə gedir ki.

**İLLAH** (Naxçıvan) - qədər. -Nə illah elədim gəlmədi.

**İLLAHIMDA** (əksər şivələrdə) – xüsusən də, əsas da. –Bizim yerrərin təbiyəti gözəldi, illahımda da mayda-zadda illap gözəl olur.

**İMSİLƏMƏX'** (Ordubad) – qoxulamaq. –İmsiliyə-imsiliyə elə tapır da heyvan balasını.

**İNAX** (əksər şivələrdə) – uşaqlarda xəstəlik. -Uşax inax olanda başından yüngülcə çərtillər.

**İNARƏ** (Ərəfsə) – taqət. –Ta Aşıx Hüseyinin inarəsi qalmamışdı ki, bına ca:p verə.

**İNCƏVARA** (Babək, Naxçıvan, Şahbuz) – yaxşı ki (modal söz). –İncəvara bajar tüşəndə özdəri əvdə olmuyuplar.
Cəbrayıl, Çəmbərək, Karvansaray, Meğri şivələrində də bu vahid işlənir (1, s.258).

**İNƏYƏMCƏYİ** (əksər şivələrdə) - dənələri iri və uzunsov üzüm növü. –İnəyəmcəyi avqusda yetişir.

**İNNƏN BELƏ** (Aza) – bundan sonra. –İnnən belə ta heş kim gəlmiyəcax.

**İNNİ-CİNNİ** (Bulqan, Naxçıvan, Şıxmahmud) – heç

kim. –Bi də çıxdım ki, mənnən başqa bir inni-cinni qalmıyıp.

**İNTƏHASI//İNTA:SI** (Babək, Naxçıvan) – amma, sadəcə. -İntəhası iki-üş sahat vaxt kifayətdi.

**İPİNİ UZATMAX** (Biçənək, Kolanı) – nəyi isə bəyənməmək, qane olmamaq. –Bizim onnara eləmədiyimiz yaxcılıx qalmıyıp, əmə bınnar iplərin uzadıllar.

**İPLƏMƏ** (Hacıvar, Naxçıvan, Sədərək, Şəkərabad) – dəli, ağılsız. –Una söz deməy olmur ki, ipləmədi.

**İRABƏTDİ** (Naxçıvan)//**İRAĞBƏTDİ** (Şahbuz) - əməlli-başlı, yaxşı. –Bir irabətdi paltar tapbadım geyinəm əynimə.

**İRAMQA** (Kəngərli, Şahbuz, Şərur) – üstünə şan yapışdırmaq üçün hazırlanmış çərçivə.

**İRASIX** (əksər şivələrdə) – qaşa sürtülən qara boya. – İrasığı sürtürdüx' həmi qaşımızı qaraldırdıx, həmi də xeyiriydi, qaşı tüx'ləndirirdi.

**İRASKİN** (Gömür) - madam ki (bağlayıcı). -İraskin, günahını boynuna aldı, mə:m onnan day işim yoxdu, amancax bir də belə qələt qırmasın.

**İRƏD** (Qıvraq, Şahtaxtı) – iz. –Səhər durup görürüx ki, irəddi tüşüp qara canavarın.

Biləsuvar, Füzuli şivələrində də irəd eyni mənada qeydə alınmışdır (1, s.258).

**İRƏFƏTƏ** (Şahbuz)//**İFİRDƏ** (Cəhri) – təndirə çörək yapmaq üçün cavan budaqlardan toxunmuş alət. –İrəfətəni təndirə çörəx' yapanda işdədərix'.

**İRƏKƏ** (Ərəzin, Ləkətağ) - lağ, kinayə. –Ma: irəkə eləməyi navaxdan öyrənmisən?

**İRƏM ATMAX** (Kırna, Qazançı, Teyvaz) – cəhd etmək, əl atmaq. –İndi də bizə irəm atır görsün bir şey örgənə bilər.

**İRƏŞMƏ** (Keçili) – keçi tükündən toxunmuş kəndir. – Atı otdamağa ötürəndə irəşməynən bağlıyarıx.

**İRƏZƏ//RƏZƏ** (Sədərək, Şərur)//**İRƏVZƏ** (Keçili) – cəftə. –Bizim qapı gün uzunu açığ olar, irəzəni yatannan-yatana vırarıx.

**İRGƏNÇİ** (Babək, Naxçıvan) – iyrənc, xoşa gəlməyən. –İrgənçi-irgənçi sözdər danışır, adamın əti tökülür.

**İRİŞBABA** (Sədərək) – üzüm növü.

**İRİŞMƏX'** I (Culfa, Ordubad) – yetişmək, çatmaq. – Sən hələ yüz il də ot otdasan ma: irişməyivə çox var.

**İRİŞMƏX'** II (əksər şivələrdə) - yersiz, şit-şit gülmək. -Nə irişirsən, az dişdərivi ağart da!

**İRTMƏX'** (Badamlı) - heyvanın quyruğu. -Cöngə irtməyini qaldırıb götürüldü.

**İSDİBULAMA** (Şərur) – təzə sagılmış süd. –Mə:m babam irəhmətdix' isdibulamanı elə həməndə çəkərdi başına çiy-çiy.

**İSLAHATDAN SALMAX** (Naxçıvan) – köhnəltmək, bir şeyi çox işlətmək. –Nəbi bizim buşqunu islahatdan salıp.

**İSLİMİ** (Badamlı) - dekorativ sənətin müxtəlif

sahələrinin bədii tərtibatında işlənən bəzək elementi.

**İŞDAR** (Sirab) - qoşqu heyvanı.

**İŞDƏX'** I (Bənəniyar) - əkin yerinin ortasında çəkilən arx. –Aralara işdəx' çəx'məx' lazımdı ki, əkin yaxcı su işsin.

**İŞDƏX'** II (Keçili, Şada) - hərəkət, tutum, əməl. -Onun işdəx'lərinnən xəbərin olsa heş belə danışmazsan.

**İŞDİX'** (Külüs) - uzun saçaqlı zərif yun. –İşdiyi yorqan-döşəyə işdədirix' ən çox.

**İŞDÜZƏLDƏNNƏR** (Şahbuz, Şərur) – pətəkdə şan düzəldən arılar.

**İŞƏ QOYMAX** (Nursu) – arını işlətmək, şirə çəkmək üçün ilk dəfə çölə buraxmaq. –Hava isdinənnən sora işə qoyurux.

**İŞGƏNƏ** (Naxçıvan, Şahbuz) – qovurmanın suyu. –Anam qavırmalığ eliyir böyün, işgənə payıvı göndərəcəm gəlsin.

**İŞGİL** I (Kəngərli, Ordubad, Şahbuz) – qapını arxadan bağlamaq üçün xüsusi taxta. –İşgili səlmasax səhər durərix ki, həyətdə töyüx-cücə qəlmiyip.

**İŞGİL** II (Saltaq) – hiylə, fırıldaq. –Tüşüp avara dosdarının işgilinə, imdi də çıxammır.

**İŞGİLLƏMƏX'** (Şada) – bağlamaq, qapının arxadan taxtasını salmaq. –Qapını işgilləməyin nə xeyri tülkü setqadan keçir gənə gəlir.

**İTCİL AT** (Badamlı, Türkeş) – itdən qorxmayan at. –

İtcil at qabağına it-zad çıxanda hürkməz.

**İTDƏŞMƏX'** (Naxçıvan, Şahbuz) - bir-biri ilə yola getməmək. -Peşəsi axşama kimi onnan bınnan itdəşməx'di.

**İTDİRSƏYİ** (əksər şivələrdə) - kiprik dibində meydana gələn irinli iltihab. -Gözümə iki-üş gündü itdirsəyi çıxıb gərəy mındarrıyam, çəkilsin.

**İTİX'** (əksər şivələrdə) – itirlimiş əşya. -İtix' pis şeydi, adamın gözü pütün günü axdarır.

**İTİLMƏX'** (əksər şivələrdə) - göz önündən çəkilmək, getmək. -İtil bırdan, kopoyoğlu, gözüm səni görməsin.

**İT QIÇI YEMƏX'** (Naxçıvan) – çox gəzmək, bir yerdə dura bilməmək. –İxdiyarın gəlini gələnnən elə bilginən it qıçı yeyip, pütün günü qonşulardadı.

**İV** (əksər şivələrdə) - saçın ayrıcı. -Başının ortasınnan bir iv ayırıb.
İv Qərbi Azərbaycan şivələrində də eyni mənada işlənir (7, s.245).

## Kk

**KAFTAR** (əksər şivələrdə) – qoca (mənfi mənada), əldən düşmüş.

**KAĞ** (Badamlı, Biçənək) – alaq otlarını təmizləmək. – Kağ eliyirix' ki, təmmiz olsun.

**KAĞAN** (Biçənək) – öküz və ya camış gönündən düzəldilərək kotanı və ya xışı boyunduruqla birləşdirən qayış halqa.

**KAĞIZI** (Biçənək) – qabığı nazik qoz. –Kağızı hasant qırılır, qabığı nəzix' olur.

**KAHA** (əksər şivələrdə) – mağara. -Ermənilər kəndə girəndə camahat baş götürüb meşələrə, kahalara qaşmışdı.

**KAHAL//KAL** (Qaraqala, Payız) – tərs, anlamaz. – Kahal uşaxdı, unnan işin olmasın.

**KAHILLIX** (Bulqan) – tənbəllik etmək. -Kahıllıx elədin iş düzəlmədi.

**KAL** I (Naxçıvan) – ağacın yeni şivləri. –Kal təzə çıxan cavan budaxlardı.

**KAL** II (əksər şivələrdə) – yarımçıq (yuxu mənasında). –Nə vax yuxudan kal dursa beləcə pütün günü korruğ eliyir.

**KAL** III (Biçənək) – başa düşməyən. -Deyiləni başa tüşmür, çox kal adamdı.

**KALA** I (Yaycı) – pambığın açılmamış qozası. –Kala hələ açılmamış pambıxdı.

**KALA** II (Naxçıvan) – yetişməmiş, qızarmamış, kal

pomidor. –Kala göy pamidordu, turşuya vırırıq.

**KALAFA** (Naxçıvan) – uçuq-sökük, köhnə yer. –Əv-eşix' yaman gündədi, elə biləsən kalafadı.

Kalafa dilimizin dialekt və şivələrində qeyd olunan məna ilə yanaşı həm də tövlə, ev tikmək üçün qazılmış yer, quyu, çökək, çuxur yer mənalarında da işlənir (1, s.266).

**KALAFAR** (Şərur) – yabanı bitki.

**KALLADAR** (Biçənək, Boyəhməd, Gömür, Keçili) – mal-qara saxlayan adam. –Babam kalladarıydı, sürüləri varıydı nəqqədən.

**KALAN** (Culfa, Şərur) – çox. –O vaxdı kalan pulu variydı əmimin, sora hammısını orda-bırda dağıtdı.

**KAMAX** (Nəhəcir) - irigözlü ələk. -Biz buğdanı həmişə kamaxnan təmizzirix'.

**KAMAŞ** (Ərəzin) – tənbəkinin bir növü. –Kamaşı köhnə kişilər doldurub qazetə çəkirdilər.

**KANARA//KƏNARƏ** (əksər şivələrdə) – uzun, ensiz xalça. –Kanaranı gəbənin qıraxlarında boş qalan yerrərə salırıx.

**KARAĞAN** (Biçənək) – içərisində xəmir yoğurmaq və ya qurud əzmək üçün saxsı qab. –Karağanı gəti xəmiri eliyim hazır qalsın gəlsin.

**KARAN//KƏRƏN** (Babək, Kəngərli) – ev tikərkən damın üstünə qoyulan tir. –Karanı damın üsdünə atallar.

**KARBIT** (Şahbuz) – böyük yun palaz. –Karbıt illap yekə palazdı.

**KARXANA** (Aşağı Qışlaq, Maxta, Yuxarı Qışlaq) – keçə düzəltmək üçün üzərinə yun sərilən davamlı parça. – Keçəni karxananın içində döyüllər.

**KARSI** I (Keçili) – cəviz növü.

**KARSI** II (Naxçıvan) – üstü örtülü bazar. Türkiyə türkcəsində bu söz çarşı formasında işlənir.

**KARVANGIRAN** (Nursu) - 1. Zöhrə ulduzu; 2. dağda əsən soyuq külək; 3. zəhərli ot (Aza). -Mal-qara karvangıran otu yeyəndə qırılır.

**KASNİ** (Bist, Tivi) - yabanı dərman bitkisi. -Doxdur xəstəliyə kasni kökünü dərman demişdi.

**KAV** (Ordubad, Şərur) – hesab. –Urusdamın öz elədiyi kav də:l, əmə bizimkin tez deyir.

**KAVRAN** (Külüs) – kotanın dəstəyindən tutan adam. – Kavranıx da biz, günümüz çöldə geçir.

**KAVRANQIRAN** (Şada) – yabanı bitki adı.

**KEÇƏATAN//KEÇƏSALAN** (Babək, Naxçıvan, Şahbuz) – keçə hazırlayan. -Qəşəmin arvadı keçəsalanıydı, ölüp çoxdannan.

**KEÇƏSİL** (Ordubad) – keçən il. -Mən keçəsil bı vaxdi Bakıdaydım.

**KEFİ ÜSDÜRÜNGÜ VIRMAX** (Babək, Şərur) - əhvalı yaxşı olmaq. –İndi mənə hesab kefin üsdürüngü vırır bax.

**KEFNƏQULU** (Bənəniyar) - kefi istədiyini edən

adam. -Elşad çox kefnəqulu adamdı.

**KEŞƏLMƏX'** (Dəstə) – yumşalmaq. -Çörəyi isdadırıx, sora keşəlir.

**KEŞLƏMƏX'** (Gümüşlü, Qıvraq) – toxum səpilib malalanandan sonra əkin sahəsindəki iri kəsəkləri əzmək. –Biz qutardıx, indi keşləməx' də qalıp sa:

**KEŞMƏX'** (əksər şivələrdə) – günahını bağışlamaq. –Bı dəfə keşdim, amma o birində mənnən incimə.

**KƏDO** (Saltaq) – balqabaq. –Kədonun mirəbbəsin də pişiririx'.

**KƏF** I (əksər şivələrdə) – yemək bişən zaman üzündə əmələ gələn köpük. –Ətin qəynəməyə başdıyanda kəfin yığmax lazımdı.

**KƏF** II (Şərur) – hiylə, kələk. –Bırdan-bıra mənə kəf gəlirsən.

**KƏF** III (Naxçıvan) – suyun qaynaması nəticəsində çaydanda əmələ gələn ərp. –Təzə su gələnnən çaydanın kəfi tərtəmiz təmizdənip.

**KƏFƏ** I (Şahbuz) – əlin içinə iynə batmasın deyə daha çox çəkməçilərin istifadə etdiyi alət. –Kəfə qoymur ələ iynə batsın.

**KƏFƏ** II (Naxçıvan) - əlin içi. –Böyün birəz qar kürəmişəm əlimin kəfəsi ağrıyır.

Kəfə eyni mənada Zəngilan şivələrində də işlənir (1, s.271).

**KƏFƏR** (Tənənəm) - suyu süzmək içün daş. -Kəfər odu

ki, suyu süzən daşdı.

**KƏFGİR** (Babək, Naxçıvan) - ətin, mürəbbənin üzərindəki köpüyü yığmaq üçün iri, deşikli qaşıq. –Ay bala, kəfgiri gət ətin kəfin yığım.

**KƏFLƏMƏ** (Maxta) – ovuca dərman qoyub atma. -Töx'dü avcına, hammısın birdən kəfləmə çəx'di başına.

**KƏHƏNGİ OLMAX** (Çeşməbasar, Zeynəddin) - bədənin bir qisminin keyiməsi. -Neçə vaxdı kəhəngi olmuşam.

**KƏHİLDƏMƏX'** (Babək, Culfa, Naxçıvan) - çətin nəfəs almaq, tövşümək. –Fatma qaldı bir qıraxda kəhildiyə-kəhildiyə, hərə getdi öz işinə.

**KƏH'LİYİ AZMAX** (Badamlı, Kükü) – mədəsi pozulmaq. -Axşam toyda o qədə yemişəm ki, kəx'liyim azıp.

**KƏKƏŞ** (Nürgüt) – lovğa, özünü öyən adam.

**KƏKƏŞDƏNMƏX'** (Ordubad) vurmaq istəmək. – Əvvəlcə bir kəkəşdəndi üsdümə, sora gördü ki, yoox o diyən adam dəyiləm.

**KƏKOTU** (əksər şivələrdə) – yabanı bitki, kəklikotu. – Kəkotu soyuxdəymənin dərmənidi.

**KƏKÜRƏ** (Badamlı, Türkeş) - bitki adı. Bu bitkiyə kəkrəotu da deyilir.

**KƏLÇƏ** (Cəhri, Nəzərabad) – camış balası. -İnəynən camışı sağdım, kəlçəynən dananı da çəkib bağladım.

**KƏLƏCOŞ//KƏLƏCİ** (Nursu, Türkeş) – suda həll edilmiş qurud qatılaraq bişirilən yemək.

**KƏLƏX'** I (Şahbuz) – mal-qara saxlamaq üçün daşdan hörülmüş tikili. –Kələyə çöldə mal-heyvanı qatırıx.

Bu söz Qarakilsə, İmişli şivələrində də eyni mənanı daşıyır (1, s.273).

**KƏLƏX'** II (Naxçıvan) – güc, quvvə, taqət. – Böyünnəri işdəməx'dən kələyim kəsilip.

**KƏLƏKEY//KƏLƏKƏ** (Daylaqlı) – ağuz südünün çürüntüsü.

**KƏLƏ–KÜLƏ** (Kələki) – çınqıl. -Kələ-külə yerdə əkin olmaz.

**KƏLƏMPUR** (Düdəngə, Zeyvə) - iri, kobud. -Bir gövdəli yekə, kələmpur kişiydi.

**KƏLƏMPUZ** (Xincab, Şahtaxtı) – qoyun ətindən hazırlanan yemək. –Kələmpuz heyvan ətinnən olar.

**KƏLƏTAN** (Biləv, Tivi) – hörümçək. -Bizzər hörümcəx' deməríx, kələtan deyərıx.

**KƏLİN QOYUN** (Culfa) – buynuzlu qoyun.

**KƏLİŞ** (Ləkətağ) - kök bağlamış soğanın yuxarı qalxan hissəsi. -Soğan kəlişi yeməli olmaz.

**KƏLLAYI** (Ordubad) – T şəklində tikilmiş bina. –Təzə məx'dəbin binası kəllayıdı.

**KƏLLƏLİX'** (Aza, Dırnıs) - qapının üst hissəsində açılan pəncərə. -Kəlləlix'də iki göz olar işıx üçün.

**KƏLLƏMANQOV** (Babək, Kəngərli) – atın başına soyuq dəyməsi nəticəsində yaranan xəstəlik. –At kəlləmanqov

olmuşdu.

**KƏLLƏ OTAX** (əksər şivələrdə) – evin yuxarısında tikilmiş otaq. –Kəllə otagı vermişəm gəlinə.

**KƏLLƏPAÇA** (əksər şivələrdə) – heyvanın baş, ayaq və qarnı ilə hazırlanan yemək. –Kəlləpaçanı sınığı-zadı olan adam yesə qəşəx'di.

**KƏLMƏÇİ** (Nəhəcir) - gönü döyüb düzəltmək üçün bürüncdən hazırlanan alət. -Kəlməçini dükana apar.

**KƏLPEYSƏR** (əksər şivələrdə) – boynu yoğun, kəl kimi. –Bı kəlpeysər oturub əvdə, arvadı göndərir çöldə işdəməyə.

**KƏMƏRBƏSDƏ** (Ordubad) – keyfiyyətli, əla növ barama.

**KƏMXORƏX'** (Badamlı, Şada) – az yeyən adam.–Kəmxorəx' adam çox kökəlməz.

**KƏNARƏ** (Şahbuz) – xalça növü, xalçaların kənarına salınan ensiz uzun xalça. -Kənarələri gəti at həyətə yuyax.

**KƏNDİRQƏYIŞ** (Ləkətağ, Teyvaz) – zirək, cəld, qıvraq adam. –Bir kəndirqəyiş kişidi, əlinnən hər iş gəlir.

**KƏNGİZ** (Nursu, Şada) - ot bitkisi, kökü yanacaq kimi istifadə edilir. -Məhəmməd gedib çöldən kəngiz gətirsin satsın.

**KƏNİŞQAB** (Daylaqlı) – taxtanın üzərində ensiz kanal açmaq üçün istifadə olunan alət. –Kənişqab dülgərdə olar.

**KƏNKAN** (Şərur) – quyu qazan. –Kərəmin babası da kənkanıydı, indi özü də.

**KƏPƏNƏX'** (əksər şivələrdə) - heyvan xəstəliyi. - Vaxdında dedim, almadın, bax heyvannarın hamısı kəpənəx'di.

**KƏPİR** (Qaraçuq, Naxçıvan) – lay-lay qopub ovulan, məsaməli daş. –Kəpir daşdan düzüplər yollara avılır pütün.

**KƏRDİ** (əksər şivələrdə) - əkilmək üçün müəyyən hissələrə bölünmüş yer, lək. –Pencərin hərəsinnən iki-üş kərdi əkirəm ki, hammısınnan əlimizin altda olsun.

**KƏRDİVAR** (Şahbuz) – lək düzəltmək üçün alət. – Kərdivarı kərdiləri düzəldəndə işdədillər.

**KƏRDİYAR** (Gömür, Nursu) – arpa və buğdanın qarışığı. –Geşmişdə çox pişirdi kərdiyar əpbəyi.

**KƏRƏĞAN//KƏRƏCAN** (Gənzə) – qurutəzən alət. – Kərəcan qurut əzməx' üçündü.

**KƏRƏ QOYUN** (əksər şivələrdə) – qısa qulaqlı qoyun. –Qulağı qıssa olanda kərə qoyun deyirix'.

**KƏRƏNEY** (Milax) – çoban mahnısı. -Bir işə əlivi atmırsan, səhərdən oturub bırda kərəney deyirsən.

**KƏRƏVƏNGİ QALMAQ** (Əlincə, Qazançı) – tərəddüd etmək, çaşmaq, duruxmaq. -Ay Məmməd lap kərəvəngi qalmışam, bilmirəm böyün şəhərə gedim ya yox?

**KƏRKİ** (Cəhri, Didivar, Vayxır) – balaca toxa. – Kərkini həyətdə əkndə işdədərix'.

**KƏRKİNMƏX'** (Vayxır) - oturub-qalxmaq, dartınmaq. –Mən çıxdım, Sona da qaldı kərkinə-kərkinə.

**KƏRMƏ** (Babək, Naxçıvan, Şahbuz, Şərur) –

yandırmaq üçün qurudulmuş peyin, təzək. –Kərməni yapırıx divara ki qurusun, qışda yandırırıx peçdə.

Bu söz Qərbi Azərbaycan, Cəbrayıl, Kəlbəcər, Qazax şivələrində də işlənməkdədir (1, s.277).

**KƏRÖYÜZ** (əksər şivələrdə) – yabanı bitki.

**KƏSALƏT** (Naxçıvan) – yorğunluq, süstlük. –Birdən elə bil kəsalət basdı məni.

**KƏSƏ** (Naxçıvan, Nehrəm) - yaxın yol, qısa yol. –Kəsə yolnan getsən qaş qaralmamış çatarsan.

**KƏSƏMƏT** (Hacıvar) – hədə-qorxu, qorxutmaq. -Balam, sə: yaman kəsəmət kəsirdi.

**KƏSƏR** (Yurdçu) – qayçı. –Nənəm qəçiyə həməşə kəsər diyərdi.

**KƏSƏRRİ** (Naxçıvan) - kəsən, iti, ötkəm söz. -Onun bir kəsərri sözü kəndə bəsdi.

**KƏSSƏX'** (əksər şivələrdə) – bərkimiş torpaq parçası. –Bizdə diyəllər ki, yağış yağanda noolar, kəssəx' dəyirsən ki, isdanasan.

**KƏTƏMƏZ//KƏLƏKEY** (Babək, Şahbuz, Şərur)-süddən hazırlanan yemək. –Kələkeyi heyvan təzə doğanda ağuzdan pişiririx'.

**KƏTƏNKÖYNƏX'** (əksər şivələrdə) – qabığı nazik olan qoz. –Kətənköynəx' cəvizi qırmağa nə var ki, əlnən bassan qırılır.

**KƏVƏR** (əksər şivələrdə) - ensiz, yeyilən, xörəyə qatılan acı göyərti. –Kəvəri ən çox pilovun üzgözünə işdədirix'.

**KƏVŞƏN** (əksər şivələrdə) – kənd ətrafında otlaq, əkin sahələri. –Kəvşəndə yer düzəltmişix', hərdən orda dincəlirix'.

**KIRIXMAX//KARIXMAX** (bütün şivələrdə) – çaşmaq, özünü itirmək. –Gördüx' gəlir üsdümə, mən də kırıxdım, bilmədim hayana gedəm.

**KIRKIRA//ƏLDAŞI** (Daylaqlı, Maxta, Nəsirvaz) - əl dəyirmanı. –Kırkırada buğda çəkərix'.

**KIRS** (Ordubad, Şahbuz) – bərkimiş qar yığını.

**KIRTI** (Şahbuz) – toxuculuq aləti.

**KISIX** (Böyükdüz, Xok, Kərki) – ləqəb. –Kısıx ayamadı, çox adamın varıdı bizdə.

**KIRTIZDAMAX** (Ərəzin, Gömür, Nursu) – bir şey toxuyarkən ipi nazildib hamarlamaq. –Kırtızdıyıp sora corap toxuyacam.

**KİFSİMƏX'** (Cəhri, Naxçıvan) – kif atmaq. –Qavırma hava isdinənə qalanda kifsiyir.

**KİLİNCAN//KİRİNCAN** (Vənənd) - yoncayabənzər ot. -Kilincan yonca kimin otdi, onun da toxumun səpillər gövərir.

**KİLKƏ** (Şahbuz, Şərur) – yun daranarkən didilib tökülən keyfiyyətsiz, xırda yun.

**KİLTİX'** (Babək, Naxçıvan) – işlədilmiş sabunun axıra qalan qalığı. –Onda vəziyyət pisiydi, camahat bir kiltix' sabın tapbırdı ki əlin yuya.

**KİN** (Şahbuz) - ki (bağlayıcı). -Yazdın kin

gəlmiyəcəx'?

**KİR** (əksər şivələrdə) – çirk. –Üsdünnən-başınnan kir yağır uşağın.

**KİRİKGƏ** (Naxçıvan) – ağacda olan yapışqan. –Kirikgə şirədi, ağaşda olar, uşax vaxdı qopardıp yeyirdix' onu.

**KİRİMƏX'** (əksər şivələrdə) – susmaq. –Dedim, ay qız, bir sən kiri gör ağbirçəx' nə deyir axı.

**KİRGİD** (Kükü) – xalça toxuyan zaman işlədilən dəmir alət.

**KİRKİTDƏMƏX'** (Sədərək, Şahbuz, Şərur) – hananın ilmələrini bərkitmək. –Başdıyanda toxumağa kirkitdəməx' lazımdı ki, ilmələr bərk olsun.

**KİROV** (Naxçıvan) - yağlı çirk. -Uşağın başı kirov olub.

**KİRS** I (Camaldın) - qar tığı. -Gedəndə kirs ağnıyıb, qalıblar altında, hamısı öldü.

**KİRS** II (Badamlı, Türkeş) - xalça toxunuşu zamanı xalçanın sahəsində əmələ gələn uzunsov və qabarıq nöqsan.

**KİŞ** (əksər şivələrdə) – balı süzülmüş boş şan. –Kişi əridip mum eliyillər.

**KİYƏR** (Nursu) - əkilməmiş xam yer. –Kiyər yeri əx'sən məhsulu bol olar.

**KOLA** (Didivar, Nursu) - buynuzsuz keçi. -Kola keçinin südü tamam çəkilib.

**KOLA KÜPƏ** (Kolanı) – qulpsuz küpə. –Kola küpəni

götürməx' çətin olur, una göra kin, qurpu olmur.

**KOM** (əksər şivələrdə) - dəstə, bağlam. -De görüm bının komuna nə verim?

**KOMALAMAX** (Oğlanqala) - bir yerə toplamaq. -O kağızları bir yerə komalıyıb kibriti çəhdi.

**KONTAY** (Türkeş) – kobud. –Elə kontay adamdı ki, heş kim isdəmir bını.

**KORABEÇƏ** (Şahbuz) – sayca az arıdan ibarət olan yeni cavan arı ailəsi. –Korabeçədə az arı olur.

**KORAFƏHİM** (əksər şivələrdə) - yaddaşı zəif. –Anam birəz korafəhimdi, heş nə yadında saxlıyammır.

**KORAMAZ//KÖRƏMƏZ** (Babək, Şahbuz, Şərur) – südlə qatığın qarışığından hazırlanan ağartı.

**KORAMIX** (Naxçıvan) – dolamaya oxşayan xəstəlik. -Dabanıma koramıx çıxıb yeriyəmirəm.

**KOR MIĞMIX** (Babək) – xərbeçə, balaca mığmığ. –Kor mığmıx çıqqılı our, yiyəndə yeri de elə göynüyür ki.

**KORŞALMAX** (Babək, Naxçıvan, Şahbuz) - kütləşmək, küt olmak. -Yaddaşım yaman korşalıb.

**KORT** (əksər şivələrdə) – kəsməyən. –Balta kortdu dorğamır.

**KORUN-KORUN YANMAQ** (Naxçıvan) - alovsuz, közərə-közərə yanmaq. -Bayaxdan korun-korun tüstülənən ocax birdən alışdı.

**KORUS** (Ayrınc, Qazançı) - əkin sahəsinin

kənarlarından başlayaraq içərisinə doğru edilən şum.

**KOSALDIQAÇ//TOPALDIQAÇ** (Babək, Culfa, Naxçıvan) - iki dəstə arasında topla oynanan uşaq oyunu.

**KOŞDAMAX** (Qıvraq) – çıxarmaq, qovmaq. –Toyux-cücəni koşda töx' eşiyə.

**KOVDAN** (Ordubad) - küt, aciz, bacarıqsız. -Abbas kovdan adamdı.

**KOZAR** (Şahbuz, Şərur) – xırmanda samanın içində qalan döyülməmiş və ya yarımçıq döyülmüş sünbül. –Kozarı ata-zada verərix'.

**KÖBƏ** (Naxçıvan, Şərur) – paltarın yaxasına, qoluna tikilən ensiz haşiyə. -Oymanın yaxasına da köbə qoy, yaddan çıxmasın.

**KÖ:LÜX'** (Şahbuz) – köçəri maldarların yaylaq və qışlaqda tikdikləri kiçik ev. –Salvartıda kö:lüyümüz varıydı, yayı gedirdix' ora əvvəllər.

**KÖMBƏ** (Dırnıs) - qalın yumru kökə. –Kömbəni ən çox Novruzda pişirərıx. İçinə əvdəki adamın sayına qəra, qırmızı düymə qoyarıx. Kimə qırmızı düymə çıxsa yanı o illərim o adam uruzulu olacax, kimə qəra çıxsa o da təmbəl olacax.

**KÖMƏŞ** (əksər şivələrdə) – bitkinin kökünün torpağın üstündəki hissəsi.

**KÖNTÖY** (Babək, Naxçıvan) – yonulmamış, kobud. –Özünnən böyüyə gərəx' köntöy cavab vermiyəsən.

**KÖSÖV** (Naxçıvan, Tumbul) - yanmış ağac parçası. –

Günün altda yanıb kösövə dönüp.

**KÖŞDÜ-KƏMƏŞDI** (Camaldın, Daylaqlı) – birdəfəlik, yerli-dibli. –Ta köşdü-kəməşdi köçüp gəliplər bizim kəndə.

**KÖŞƏ** (Babək, Şərur) – çarıq tikmək üçün gönün qırağından kəsilən şırım, qaytan. –Köşəni gönnən kəsip çarıx tikərdilər əvvəllər.

Ağdam, Füzuli, Kürdəmir, Mingəçevir, Zəngilan şivələrində də köşə eyni mənada işlənir (1, s.288).

**KÖŞMƏX'** (Kəngərli, Şahbuz, Şərur) – arıların girib-çıxması üçün arı səbətinin qabağında qoyulan kiçik qapı.

**KÖZƏNƏX'** (Kükü) – sulu yer. –Közənəx' yerdə yaşıllıx çox olar. –Yarpız ən çox közənəx' yerdə olar.

**KUBBAN//GUPPAN** (Çalxanqala) – böyük çəkic. –Kubbannan difarı-zadı uçurdallar.

**KUF** (Naxçıvan, Şahbuz) – yelləncək. –İndi ora hökmət gətirip kuf zad qoyup, uşaxlar oynuyullar.

**KUFLAN** (Babək, Şahbuz, Şərur) – yelləncək. –Deyir bəlkə qapı bına kuflandı, oturub üsdündə yellənir.

**KUFUL** (Ərəfsə) – ağıl. -Savetdən qabax biz varrıydıx, kufullarımız vardı.

**KULAMAN** (Babək, Sədərək, Şərur) – gavalı növü.

**KURİX'** (əksər şivələrdə) – bir yaşa qədər at balası. -Kurix' atın təzə doğulmuş balasıdı.

**KÜÇÜX'LƏMƏX'** (Naxçıvan) - ağacın dibindən bitən

yeni kollar. -Alça ağacı çox küçüx'lüyəndi.

**KÜFƏN** (Nehrəm) - sümüklərin görünməsi. –İşdəməx'dən yazığın küfəni çıxıp.

**KÜFLƏ//KİFLƏ** (Babək, Kəngərli, Şahbuz, Şərur) – təndirin hava yeri.

**KÜKƏ** (Ordubad) – çöçə. –Nənəm elə kükə pişirir ki, yesən diyəssan bi də yeyim.

**KÜKÜ** (əksər şivələrdə) - yumurta və göyərtinin bir yerdə qayğanaq kimi bişirilməsi. –Qəşəx' salmancıx küküsü pişirmişəm, dur gə.

**KÜLAFRƏNGİ** (Naxçıvan) – yanları açıq çardaq. –O vaxdı bəy oturardı kulafrəngidə, gəlin gələndə ona alma, qanfet atardı.

**KÜLƏCƏ** (Culfa, Ordubad) – büzməli qadın paltarı.

**KÜLƏ ÇƏRŞƏNBƏ** (Şərur) - boz ayın ikinci çərşənbəsi. –Külə yanı ki, bı hələm yarımçıxdı da, tam dəyil, ikisi də var axı dalda.

**KÜLƏ-KÜLƏ** (Ordubad, Şahbuz) – kiçik çillədən sonra insanların ev-eşikdə, həyət bacada səliqə sahman yaratması. –Külə-külədə əv-eşiyi dibdən-daşdan yığışdırırıx.

**KÜLLƏNMƏX'** (əksər şivələrdə) – veyillənmək, vaxt keçirmək. –Dedim, ay bala, bı boyda bırda külləndiyivi get bir işin də ücünnan sən tut da.

**KÜLÜS** (Şahbuz) – gilənar növü.

**KÜM** (Şahbuz) – barama.

**KÜMDAR** (Şahbuz) – barama saxlayan adam. –Bizim dədəmiz-babamız hamısı kümdar oluplar.

**KÜMXANA** (Şahbuz) – barama saxlanan yer.

**KÜNDƏGİR** (əksər şivələrdə) – çörək yapanda xəmiri kündələyən qadın. –Kündəgir kündəni tutur, biz də açırıx.

**KÜNƏ** (Bənəniyar) – yumuranın yastı tərəfi. –Yumurta döyüşəndə künəynən vırsan uduzarsan, tez qırılar unda.

**KÜPÜ SÜZMƏX'** (Naxçıvan) – şübhələnmək, duyuq düşmək. –Oğla:n küpü süzdü ki, diyəsən Həmzə bınnarı alladır.

**KÜR** (Ordubad) - nadinc, şuluqçu, şıltaq. -Çox kür uşaxdı.

**KÜRDƏŞ** (Sədərək) - sarı rəngli üzüm növü. -Kürdəş üzümnən xoşum gəlir.

**KÜRDKÜLƏŞ** (Ələhi, Nürgüt) - sürtgəc. -Kürdküləşi atama ver.

**KÜRƏX'** (Keçili) - unu kisələrə yığmaq üçün işlədilən taxta alət. –Kürəx' dəyirmanda ən çox işdənir.

**KÜRƏ QOYUN** (Culfa, Şahbuz, Şərur) – qısa və balaca qulaqlı qoyun.

**KÜRNƏŞ** (Şahbuz) – istidə bir yerə yığışıb bir-birinə sığınaraq kölgələnən qoyun sürüsü.

**KÜRSƏYƏ GƏLMƏ** (Culfa) – itlərin cütləşmə dövrü. –İtə deyillər, kürsəyə gəlib.

**KÜRSÜ** (əksər şivələrdə) – qışda təndirin üstündə qızınmaq üçün qurulmuş taxt. –O vaxdı kürsü qururdux qəşəx',

doluşurdux altına.

**KÜRSÜ PALAZI** (Şahbuz) – kürsünün üstünə salmaq üçün toxunan palaz. –Kürsü palazın toxuyurux kin, qışda atax kürsü:n üsdünə.

**KÜSPƏLƏŞMƏX'** (Payız) – topa halında bərkimək. – Yağı əridim, tortası bilmirəm niyə, qəşəx' çıxmadı, küspələşdi.

**KÜŞDƏRƏ** (Xok) – taxtanın künclərini düzəltmək üçün istifadə olunan alət. –Taxdadan olan şeylərin küşdərini düzəldillər, ona görə də küşdərə deyillər.

**KÜŞDÜYƏ ÇIXMAX** (Naxçıvan) – savaşmaq. – Uşaxlar küşdüyə çıxıp, səsdən qulax tutulur.

**KÜŞKÜRTMƏX'** (Sirab) - iti bir başqasının üstünə hürdürmək. -İti mənim üstümə küşkürdür ki, qapsın.

**KÜT** I (Şahbuz) - ələnməmiş arpa unundan it üçün bişirilən çörək. –Kütü pişirərix' ki, it bir şey tapbıyanda yesin.

**KÜT** II (əksər şivələrdə) – təndirin divarından dibinə düşüb külə bulaşmış çörək. –Çörəyin nə qədəri küt getdi bı dəhə.

**KÜT** III (əksər şivələrdə) – piş kəsən, iti olmayan. – Pıçaxların hammısı kütdü.

**KÜVƏR//KÜƏR** (Culfa, Şərur) – ikiillik dişi keçi. –İki yaşında geçidi küvər.

**KÜY-KƏLƏX'** (Naxçıvan) – fırıldaq. –Başdan-əyağa küy-kələx'di.

**KÜZ** I (Culfa, Ordubad, Şərur) – mal-qaranın

saxlandığı üstüörtülü yer.

**KÜZ** II (Tivi, Vənənd) – payız. –Küz gərəx' torpəği belliyəsan ki yaza qəşəng ola.

## Qq

**QABAX** (Naxçıvan) – balqabaq. –Qabax mirəbbəsi aşmışam, gə bir çay içəx'.

**QABAXDANGƏLMİŞDİX' ELƏMƏX'** (əksər şivələrdə) – öz günahını başqasının üzərinə qoymaq. –Orda da qabaxdangəlmişdix' elə qoy ta bir söz diyəmməsinnər.

**QABAX-QƏNŞƏR** (Babək, Culfa, Kəngərli) – üzbəüz. –Elə bir həyətdə iki qardaş qabax-qənşər əv tix'mişix'.

**QABARMAX** (Babək, Naxçıvan) – üzünə ağ olmaq, söz qaytarmaq. –Uşax elə qabardı ki, anasının üsdünə mən qaldım baxa-baxa.

**QABIRQASIQALIN** (əksər şivələrdə) – qanmaz. –Hesdəndim, Əliyə dedim ki, mən sə:n kimin qabırqasıqalın adam görməmişəm.

**QABQARMAX** (Sələsüz) – yığışdırmaq, əşyaların hazırlamaq.

**QABLAMA** (Ordubad) – ağzı qapalı mis qab, qazança. –Bınnan əzələ həmi əvdə qablama işdədərdi.

**QABLIX** (Qazançı) - iynə sancılan yastıqça. -Qablığın üsdünə iynə sancırıx.

**QACAX** (Bulqan, Naxçıvan, Tumbul) – qarğıdalının gövdəsi. –Qacax məkənin kötüyüdü, yeyilimir o.

**QAÇARAX** (əksər şivələrdə) – tələsik. –Gedirdim şəhərə elə yolda oğlum qaçarax çatdı ma: ki, bə qəyit əvı su basdı.

**QAÇARĞA** (Şahbuzkənd) – qaçqın. –Ermənsdannan qaçarğa tüşənnərdən də var bizim kətdə.

**QADAX** (Culfa, Naxçıvan) – dilin altında olan və danışmağa mane olan nazik pərdə. –İndi bilmişix' ki, bı uşağın qadağı var, una gora da qəşəx' danışammır.

**QADAXLI** I (Naxçıvan) – dilinin altında pərdə-qadağı olan adam. –Uşax qadaxlıdısa, gərəx' onu kəsdirəsən.

**QADAXLI** II (Axura,Qorçulu) – qoz.

**QAFĞAKEŞ** (Bulqan, Cəhri) - əzabkeş, əzab-əziyyətə dözümlü. –Mə:m yekə qızım qafğakeşdi, heş şikəyət eləməz.

**QAHMAR** (Babək, Culfa, Naxçıvan)//**QƏHMƏDAR** (Şahbuz) - tərəf saxlayan adam. –Hammı Fatıya qahmar çıxdı, mən qaldım ortada təx'.

**QAXET** (Naxçıvan) – arıq, cansız. –Qaxet Hüsen indi bələdiyədə işdiyir.

**QAXINC** (Kırna) – başa vurulan söz, tənə. –Oğlanın işdəməməyi də mənim başıma qaxınc olup.

**QAQA** (Şahbuz) – ağacın meyvəsi. –Bı armudun qaqası şipşirindi.

**QALABAŞMAĞI** (Biçənək) – qadın ayaqqabısı.- Həməşə arvatdar qalabaşmağı geyirdilər.

**QALAX** (Babək) – kərmə yığını. –Kərməni kəsənnən sora qalax eliyirix', yanı yığırıx üsd-üsdə.

**QALIB** (Biçənək) - arı səbəti. -Arı qalıbda yaxşı bəslənir.

**QALIN** I (Ağbulaq, Cəhri, Nəzərabad) – çörək növü. -Qalın yağlı çörəx'di, bınnan əzəl onu təndirdə yapardıx.

Qalın sacda bişirilən çörək mənasında Cəbrayıl, Qarakilsə, Zəngilan, Zərdab şivələrində də işlənir (1, s.303).

**QALIN** II (Culfa, Şahbuz, Şərur) – qaba, cod yun. – Qalın yun get-gedə lap da coddaşır.

**QALIN** III (Naxçıvan) – söz təsir etməyən. –Dədəsi oqqədə söz dedi, elə salıp qalın yerinə.

**QALLAX** (Cəhri) - lağ etmək. -Kətdə çox küçədə durup danışannara qallax eliyərlər.

**QALTAX** (Nursu, Şahbuzkənd) – yəhərin primitiv forması.

**QAMQAX//QAMQALAX** (Naxçıvan, Ordubad, Şərur) – taxta qırıntısı. –Qamqalağı da hərdən tökürüx' peçə.

**QANATMA//QAYNATMA** (Didivar, Nəzərabad) – saqqız. -Qanatma qara irəngində saqqızdı.

**QANBAĞIR** (Naxçıvan) – nəfəsi kəsilmiş, yorulmuş. – Tamara eşidən kimi qanbağır qaşdı gəldi.

**QANIX VERMƏX'** (Naxçıvan) – doyurmaq, susuzluğunu yatırmaq. –Həvix' dəyil öz suyumuz, bı sudan ha içirəm qanıx vermir.

**QANIRMAX** (Əlincə, Saltaq) - arxaya əymək, burmaq, döndərmək. –Başımı dala qanıranda boynumun damarı atdandı.

**QANQA** (Əlincə) - kələf. -Bir yumaxda uniki-unbeş qanqa olur.

**QAPAN-QAPIŞ** (Bulqan, Naxçıvan, Nəzərabad) – talan etmək, dağıtmaq. –Tükana təzə mal gəlmişdi, bir qapan-qapış tüşdü iki göz isdiyirdi tamaşa eliyə.

**QAPI** (Dırnıs) - üstüaçıq eyvan. -Nərgiz, qapıya palas sal oturax.

**QAPIBAŞI** (əksər şivələrdə) – qapı asılacaq yerdə üst tərəfdən qoyulan ağac. –Usda qapıbaşını yaxcı qoymuyup.

**QAPIKƏSDİ//QƏPİKƏSDİ** (Badamlı, Şada) – gəlinin çıxdığı qapını kəsənə verilən pul. –Qapıkəsdini verillər qapını tutan uşaxlara.

**QAPILIX** (Babək, Şahbuz, Şərur) – alaçığın qapısından asılan keçə. –Qapılığı dağda çadırımızın qapısınnan asırıx.

**QARAÇÖRƏK** (Ordubad) - qara xaşxaş. -Qaraçörəyi əpbəyin üsdünə vurallar.

**QARADABAN** (Keçili) – uğursuz. -Bı qaradaban gəldi-gəlmədi işdərimiz düz getmir.

**QARADİŞ** (Şahbuz, Şərur) – altı yaşdan yuxarı qoç. –Sürüdə bir qaradiş qoçum da var.

**QARAĞULUS** (Yengicə) - buğda növü. -Qarağulus buğda düz qalxır.

**QARAXAN** (Milax, Ləkətağ) – qara qoyun. –İrəngi qara ulanda qoyuna həylə deyirix'.

**QARAQƏYİŞ** (Babək, Şahbuz) – xışa və ya kotana qoşulan ikinci cüt öküzlər.

**QARAMA** (əksər şivələrdə) – çirk. –Üsdü-başı pütün qaramaydı, diyəsən həlbət işin hammısın bı görüp.

**QARANAXIR** (Badamlı, Keçili) – sayca çoxlu qaramaldan ibarət olan naxır. –Mirkazımın qaranaxırı varıydı o vaxdı, sayı hesabı yoxuydu.

**QARASƏRMƏ** (Sədərək) - üzüm növü. -Bı il qarasərmə çoxdu.

**QARASU ƏRİX'** (Bist, Kırna) – dənənin içərisindəki ləpəsi kiçik olan ərik.

**QARASÜRÜ** (Güney Qışlaq, Qızıl Qışlaq) – sayca çoxlu qoyun-keçidən ibarət böyük sürü. –Qarasürü də:ndə yanı kin, orda heyvan çoxdu.

**QARAYER** (əksər şivələrdə) - məzar, gor, qəbir. -Səni görüm qarayerə girəsən.

**QARAYOL** (Naxçıvan) – cəhənnəm. –Gəlir gəlsin, gəlmir də qarayola gəlsin.

**QARAYERİŞ** (Daylaqlı) – atın yavaş-yavaş yeriməsi. –Qarayeriş atnan getsən obuya gej çatarsan.

**QARÇIN** (Ordubad) – çarpayının arxasında divara vurmaq üçün ipək və ya iplikdən toxunan parça. –Köhnə vaxlarda hamı qaravatın dalına qarçın vırırdı.

**QARƏV** (Şahbuz) – evin müxəlləfatı yığılan ayrıca otaq.

**QARINALTI** (Kəngərli, Şərur) – qoyunun qarnının altından qırxılan yun. –Qarınaltı lap çıqqılı-çıqqılı, güdəx' olur.

**QARINƏNƏCECİMİ** (Maxta, Oğlanqala) - qövsi-qüzeh, göy qurşağı. -Yağış kəsən kimi qarınənə cecimi uzandı.

**QARIYAQAVIŞMAZ** (Biçənək, Badamlı) – sakit, azdanışan. –Çox qarıyaqavışmaz adamdı, heç dinip danışmır.

**QARQARA** (Aza, Bist, Ələhi) – qışda suyun üzündə olan nazik buz qatı. –Suyun üzü nəzix' donanda qarqara olur.

**QARNAX** (Qaraçuq) – qarmaq. –Qarnax balıx tutmaxdan yanadı.

**QARNEL** (əksər şivələrdə) – çox yeyən. –Koroğlu da qarneliymiş da, bir oturuma bir qoyun yeyirmiş.

**QAROUL GÖSDƏRMƏX'** (Şahbuz) – orda-burda tək-tək ilk cücərtilərin çıxması. –Elə kin, əx'diyin qaroul gösdərdi, ta onu gərəx' gözdən qoymuyasan.

**QARPAĞAN** (Ağbulaq) – sahibindən başqa heç kimi yaxına buraxmayan at. –Keçəl Həsən baxdı kin, bının üzəngisini tutammıyacax, qarpagan atdı.

**QARRAMAX** (Babək, Naxçıvan) - əl, ayaqlar suda çox qaldıqda dərinin ağarması. –Sə:rdən suynan iş görməx'dən əllərim qarrıyıp.

**QARSALAMAX** (Ordubad) - borclu çıxarmax. –Elə qarsaladı, qaldım məhətdəl, özümnən şüpüyə tüşdüm.

**QARSI** (Naxçıvan) – üstü örtülü cərgə ilə düzülmüş dükanlar. –Əvvəllər bırda qarsı varıydı, sora söx'dülər.

**QARSMAX** I (əksər şivələrdə) – parçanı içəriyə qatlayıb tikmək, qısaltmaq. –Paltarın ətəyi dəyirdi yerə birəz qarsmışam.

**QARSMAX** II (əksər şivələrdə) – üzü yanmaq (xəmir məhsulları haqqında). –Dünənki tabağa pişirdiyim çöçələrin üzü qarsdı, təzdənnən xəmir elədim.

**QART** I (Culfa, Kəngərli, Şahbuz, Şərur) – qoca (heyvan haqqında). –Qart heyva:n əti gej pişər.

**QART** II (Nüsnüs) – lovğa. -Onun oğlu yaman qart adamdı.

Bu söz eyni mənada Göyçay, Qazax, Qax, Salyan şivələrində də işlənir. Bununla yanaşı şivələrimizdə bu vahidin bərk, sərt, bülöv, çoxbilmiş mənaları da vardır (1, s.313).

**QARTIMIŞ//QARTALMIŞ** (Cəhri, Göydərə, Tivi) - ərə getməmiş. –Əvdə xalamın bir qartımış qızı da var hələ.

**QARTMAX** (Naxçıvan) – qabıq, qaysaq, çirk. –Uşağın qundax vaxdı ən çox başında olar qartmax, gərəx' yağ sürtəsən keçə.

**QAŞ** (Naxçıvan) – bir tikə, dilim (daha çox pendirə aid edilir). –Təzə pənirdən bir qaş gəti baxsın görsün nətərdi.

**QAŞAR** (Kəngərli, Şərur) – mal-qaranın açıq havada saxlandığı yer.

**QAŞBƏND//QƏŞBƏND** (Naxçıvan) – alınlıq. -Qaşbəndi annımıza bağlıyırdıx.

**QAŞIXLIX** (Daylaqlı, Sələsüz) – içərisinə qaşıq yığmaq üçün ipdən toxunmuş torba. –Qaşıxlığı əvəllər toxuyub asırdıx difardan, içinə qaşıxları-zadı yığırdıx.

**QAŞQA** (Babək, Culfa, Şahbuz, Şərur) – alnında ağ tükdən ibarət xal olan keçi.

**QAT** (Kırna) - tərəf. -Qızım o qatda yaşıyır.

**QATDAMA** (Ordubad) – qat-qat yağlı xəmirdən hazırlanan yağlı qoğal. -Kətdən uşaxlara qatdama yollamışdılar.

**QATIĞAŞI** (əksər şivələrdə) – qatıq, düyü, göyərti ilə hazırlanan soyuq yemək. –Qatığaşı da dovğa kimidi, amma onun qatığın pişirmirix', düyüynən pencəri pişirib, soyuyannan sora qatığın qatırıx.

**QATIX** (Kotam) – qovurma. –Əti qavırırıx qışa, qavırma da diyərıx' ona, qatıx da. -Ağız, xorəyin qatığın sal.

**QAT-QAT** (Culfa, Şahbuz, Şərur) – heyvanlarda mədəcik.

**QATQAT//GƏLİNDARTMAZ** (Kəngərli, Şahbuz) – heyvanın mədəsinin bir hissəsi.

**QATMALI** (Nursu, Türkeş) – dovğa. –Qatmalını doldurup bankalara qışa da saxlıyırıx.

**QAVARA//QƏVƏRƏ** (əksər şivələrdə) - bülöv, dəhrə, balta, və s. itiləmək üçün daş. -Qavaraynan balta da itildirix', dəhrə də itildırıx.

**QAVIRQA** (əksər şivələrdə) – Xıdır Nəbi bayramında (fevralın ikinci həftəsi) müxtəlif çərəzlər, buğda, kuncut və s. qovrulub qarışdırılaraq hazırlanır. –Qavırqadan təzə ərə gedən qızdara da pay göndərərix'.

**QAVIRMA DARAĞI** (əksər şivələrdə) - küpədən qovurma çıxarmaq üçün alət. –Qavırma dağıynan hasant qazmax olur qavırmanı.

**QAVIT** (əksər şivələrdə) - qovrulub dəstərdə çəkilərək un halına salınmış buğda. -Qavıtı təx' yeməy olmur, una gora da onu doşabnan ya da şərbətənən qatıp yiyərix'.

**QAVUZ** (Ləkətağ) - qabıq (dənli bitkilərdə). -Düyünün içi təmiz qavuzdu.

**QAVZAMAX** (Şahbuzkənd) – qaldırmaq. –Dedim kin, gə köməx' elə quyu:n qapağın qavzıyax.

**QAYIX//QIYIX** (Şahbuz) – böyük iynə. –Qıyıx adi iynədən yekə olur.

**QAYIM** I (Yurdçu) – qədim. –Qayım zamannarda bı kətdə adamnar varıydı ee.

**QAYIM** II (Şahbuz) – qalın, möhkəm. –Heyvan doğanda diyərix', dırnağı qayım olsun.

**QAYIŞAGİRMƏ** (Şərur) - oyun adı.

**QAYSAX** (əksər şivələrdə) – suvarmadan sonra torpağın üst qatında əmələ gələn bərkimiş nazik təbəqə. –Torpax suvarannan sohra qaysax bağlıyar.

**QAZANAĞZI** (əksər şivələrdə) – toy yeməyini bişirən aşpaza qazanın ilk dəfə ağzını açanda verilən pul. –Cəməhət hammı dedi kin, hanı bə bının dədəsi gəlsin qazanağzı versin.

**QAZANQAPAN** (Şahbuz) – tutacaq. –Qazanqapanı gətgə teşdi yapışax qoyax yerə.

**QAZAYAĞI//QƏZƏYAĞI** (Babək, Şahbuz, Şərur) – yabanı bitki (qaynadılaraq üzərinə yumurta vurulub yeyilir). –Qəzəyağı dağlardan yığıllar, qavırıb yeyirix'.

**QAZI** (Qahab, Zeynəddin) – lovğa, özündənrazı. –Bı patşah da çox qazı adamıymış, heş kimə yendirmirmiş.

**QAZMA//QƏZMƏ** (Biləv, Tivi) – külüng. -A bala, o qazmanı ordan mə: ver görüm.

**QEYMƏ** (Ordubad) – tunel. –Bizim dədə əvımız qədimnən qalmadı, altında qeymə varıymış əvvəllər.

**QEYSƏR OLMAX** (Naxçıvan) – çox üşümək, soyuqlamaq. –Yazıx balalarım indi bı soyuxda orda qeysər oldular.

**QƏC** (Şahbuz) – yeddi-səkkiz yaşlı qoca keçi.

**QƏCƏLƏ** I (Kolanı) – ala qarğa. –Qəcələ quşdu.-Oğul,qıçıma yaman çıxıp, götür tüfəyi bir qəcələ vur.

**QƏCƏLƏ** II (Naxçıvan) – balaca. –Sən bı qəcələni şuluğ eliyəndə görəsən, rəsmi əv köçür.

**QƏCƏMƏDAŞ** (Babək, Naxçıvan) – balaca daşlarla oynanan uşaq oyunu, beşdaş da deyirlər. –Qəcəmədaşa gərəx' çıqqılı, yupyumru, bir boyda daşdar yığasan.

**QƏCİR** (Ordubad) – quzğun. -Qəcir bizdən bir toyuğ aparıb.

**QƏCİRBAŞ** (Nəsirvaz, Üstüpü) – başında üçbucaq ağ əlaməti olan qoyun.

**QƏÇİKƏSMƏZ** (Xıncab) – gəlin üçün paltar tikənə verilən pul. –Gəlinin paltarın kim tix'sə gəlrəx' ona qəçikəsməz verəsən.

**QƏDDƏRƏ** (Naxçıvan) – xırda xəncər. –Bı çox

qədminən qalma qəddərədi.

**QƏDDƏMLƏMƏX'** (Naxçıvan, Şıxmahmud) - söymək, təhqir etmək. –Dedim, qızım, səni qəddəmləmir ki, söz deyir eşit gör nə deyir da.

**QƏDƏCƏR** (Naxçıvan) – təptəzə. –Sırfa qədəcərdi, qatı da açılmıyıp.

**QƏDƏMLİ** (Naxçıvan) - xoşqədəm, yüngülayaq. -Bı çox qədəmli adamdı, gələndə mənim işim düzəlir.

**QƏDİRRİ** (Vayxır) - hörmətli. -Sənin atan qədirri kişiydi.

**QƏFƏ** (Dizə) – çayxana. –Əvvəllər çayçıya qəfə diyərdix'.

Qarakilsə şivələrində də qəfə eyni mənada işlənir (1, s.321).

**QƏFXANA//QƏFƏXANA** (əksər şivələrdə) – köhnə evlərdə mətbəx və ya dəhliz rolunu oynayan hissə. –Peçi qəfxanada qurmuşux ki, hər yeri isdidə bilsin.

**QƏLBİ** (Naxçıvan, Ordubad) - hündür, uca. -Bı ağaş onnan xeylax qəlbidi.

**QƏLƏ** (Kotam) - dəfə. -Bı qələ dimmədim, amma gələn qələ pis olacey.

**QƏLƏM** (Sirab) – savad. –O vaxlar qələmi olan azıydı kətdə.

**QƏLƏMƏ** I (Sirab) – şitil, cavan ağac.

**QƏLƏMƏ** II (əksər şivələrdə) – ağac növü. –Qələmə

uzun, dümbələndüz ağaşdı.

**QƏLYAŞİRNİSİ** (Vələver) - qızın razılığı alındıqdan sonra qız evinin oğlan adamlarından aldığı hədiyyə.

**QƏMƏLTİ** (əksər şivələrdə) – mətbəx bıçağı. –Qəməltini gündəlix' hər şeyə işdədərix'.

**QƏMİŞQULAX QOYUN** (Gömür, Kolanı) – uzun və ensiz qulağı olan qoyun. –Qəmişqulax qulağının formasına göra deyirix'.

**QƏNARƏ** (əksər şivələrdə) - qəssabxanada ət asmaq üçün qarmaq.

**QƏNDİL SİNAB** (Ordubad) – alma növü.

**QƏND PAZI** (Naxçıvan) – şəkər çuğunduru. –Qənd pazını elə-belə pişirip də yeyillər.

**QƏNƏH OLMAX** (Dizə) – razılaşmaq. –Sə:n işin yoxdu, mən elə diyəcəm ki, qənəh olacax.

**QƏNƏTDƏMMƏX'** (Şahbuz) – bala arının ilk dəfə uçması. –Bınnar baladılar hələ, birəzdən qənətdənəcəx'lər.

**QƏPİ** (Nəsirvaz, Tivi) – üstüaşıq eyvan. –Qəpidə yayda oturup çay içərıx.

**QƏRƏM** (Kəngərli, Naxçıvan) – həmişə. –Sizi görüm qərəm bir yerdə olasız. -Mən qərəm avçılığnan məşğul oluram.

**QƏŞBƏNT** (Culfa, Şahbuz) – ləçək. –Qoy qəşbəntimi çalım, gəlim xəmiri kündəliyim.

**QƏTƏR** (Vənənd) – patrondaş. -Bizdə ava gedəndə qətəri belimizə bağlarıx.

**QƏTLƏ** (Culfa, Ordubad) - qapının yan tərəflərində olan ağacları möhkəm saxlamaq üçün onların üstündən vurulan taxta. -Qətlə qapının başın mökgəm saxlayır.

**QƏTTƏZƏ** (əksər şivələrdə) – təptəzə. –Qəttəzə qazanı gör nə günə salıp hələ.

**QƏVƏRƏ** (Babək, Naxçıvan) - yeyə. –Bir şeyi hamarramaxdan yana qəvərəynən yonarıx.

**QƏVİ** (Şahbuz) – qəddar. –Qaynətəsi elə qəvi kişidi ki, hammı onnan tüx' salır.

**QƏYSAFA** (Babək, Naxçıvan) - ərikdən bişirilən yemək. –Səhnə xala qəysafanı qaxdan eliyər, əmə mən həməşə diri ərix'dən eliyirəm.

**QƏZİL** (əksər şivələrdə) – keçi tükü. –Qəzil çox da qəşəx' olmur, onnan çatı da hörüllər.

**QƏZİLLƏMƏX'** (Naxçıvan) – aldatmaq. –Bitəhər Əhmədin başın qəzillədi gətdi patşahın hüzuruna.

Borçalı, Cəbrayıl, Gədəbəy, Qarakilsə, Zəngilan şivələrində də bu söz eyni mənada işlənir (1, s.324).

**QICANMAX** (Şahbuz) – vurmaq istəmək. –Elə düşman qıcanmax isdiyəndə Məlix'məmmət əmudun yendirdi bının təpəsinə.

**QIĞ ƏRİX'** (əksər şivələrdə) – balaca şirin ərik'. –Qığ ərix' cıqqılı olur, əmə şipşirin olur.

**QILBAQIL** (Naxçıvan) - dəqiq. -Demişdi gələrəm, qılbaqıl vaxtında gəlib çatdı.

**QILIĞINA GİRMƏX'** (əksər şivələrdə) – yola

gətirmək. –Dəlilər bithər qılığına girip razı saldılar Koroğlunu ki, icaza versin Həmzə qalsın Çənlibeldə.

**QILIXLI** (Naxçıvan) – xoşxasiyyət, mehriban. –Oğluma da deyirəm ki, bala, bı qız qılıxlı qızdı, hammıynan yola gedər.

**QILIMLAMAX** (Gömür) – həvəsə gətirmək. –Elə qılımladı ki məni, durdum başdadım təzdənnən işə.

**QILIŞ** I (Şahbuz) – yer hanasında arğacı bərkitmək üçün istifadə olunan taxta. –Qılış göy hanasında olmur, təx'cə yer hanasında olur.

**QILIŞ** II (Badamlı) – cütün, kotanın hissələrindən birinin adı.

**QILQAN** (Naxçıvan) – saç. –Anam da hesdəndi ma: ki, gəlsəm qılqannarıvı yolacıyam.

**QIMCANMAX** (Düdəngə) – tərpənmək, hərəkət etmək. –Məni gördü heş yerinnən qımcanmadı da.

**QIMIS** (Şəkərabad) – südlə hazırlanan dərman. –Qımısı bizdə bir arvat varıydı o düzəldərdi süddən, gözə salırdılar.

**QIMIŞMAX** (əksər şivələrdə) – gülümsünmək. –Bir yalannan qımışsa, bil ki işin düzəldi.

**QIND** (Babək, Naxçıvan, Şahbuz) – yaxın. –Elə düz durupdu əymizin qındında gözdüyür.

**QINDIN VERMƏMƏK** (Culfa, Şahbuz) – tərəfin saxlamaq. –Öldürsən də arvadının qındı verməz bizə.

**QIPIX** (Ordubad) – qorxaq. –Kazım kişi qıpıx adamdı.

**QIR** (Dəmirçi) - dəmyə. -Qır demi yerrərə deyirix'.

**QIRA** (əksər şivələrdə) – tağda yeni əmələ gələn kiçik, yetişməmiş qovun. –Hələ qıradı ee, qoy qalsın yetişsin.

Dilimizin Qazax və Qərbi Azərbaycan şivələrində də qıra sözü işlənir (1, s.328).

**QIRAXLAMAX** (Şahbuz) – xalçanın kənarlarını toxumaq. –Gəbəni qıraxlamax hasantdı, su içimi kimin bir şeydi.

**QIRAŞ YER//YAL YER** (Sələsüz) – qeyri-məhsuldar, daşlı-kəsəkli yer. –Oranın torpağı qəşəx'di, qıraş yeri azdı.

**QIRAZ** (Kotam, Vənənd) – ağacda olan xüsusi yapışqan.

**QIRBARA** (Şahbuz) – çox duzlu. –Xorəx' elədi ki, qırbara, ağıza qoymax olmur.

**QIRCEN** (Babək, Naxçıvan) – qıvrım saç. –Ursetdən gəlmişdi o vaxdı doxdurumuz, qırcenbaş bir arvadıydı.

**QIRÇI** (Culfa, Şahbuz, Şərur) – xəsis. –İmamqulu əmi elə qırçıdı ki, qəpiyi çıxsa, canı çıxar.

**QIRÇIN** I (Babək, Naxçıvan) – büzmə (paltarda). –Qırçın yupqada zadda olur.

**QIRÇIN** II (Culfa, Şərur) - mal-qara yeyəndən sonra otun qalan qırıntıları. -Qırcını yandırrıx qışda.

**QIRXBUĞUM//QIPPIĞAN** (Külüs, Şada) – yabanı bitki.

**QIRXILIX//QIRXLIX** (Culfa, Ordubad) – qayçı. -Qırxılığı gəti bura, qoyunu qırxıram.

**QIRIM** (Naxçıvan) – hərəkət, reaksiya. –Yoldaşımın qırımınnan gördüm ki, isdəmir gedəm dağa.

Bu vahid meyl, həvəs, fikir, məqsəd mənasında Ağcabədi, Cəbrayıl, Füzuli, Göyçay, Oğuz, Şamaxı şivələrində də işlənir (1, s.331).

**QIRIŞMAL** (əksər şivələrdə) - dəcəl, şuluqçu. -Ədə qırışmal, sən niyə qoymursan camahat işin görsün.

**QIRKƏŞ** (Qıvraq) – qoca kişidən dünyaya gələn uşaq, zəif uşaq.

**QIRQIRA** (Babək, Naxçıvan) – çox duzlu. –Bı ilki qavırma elədi qırqıradı.

**QIRMA KABAP** (Ərəzin) – tikə kabab. –Səməd kişinin qırma kababına heş kiminki çatammaz.

**QIRMIZI BADIMCAN** (Naxçıvan, Ordubad, Şərur) – pomidor. -Mən qırmızı badımcanı çiy-çiy yeyirəm.

**QIRTI-QIRTI** (Naxçıvan, Ordubad) – az-az, azca. –Büğdəni aldı apərdi, pulun da qırtı-qırtı gətdi heş annıyammədim ki nədi.

**QIRTIŞ** (Şahbuz) – qısa saçaqlı yun. –Qırtış yunu yuyup daramax çətindi.

**QIRTMAX//QIRTIŞDIRMAX** (Naxçıvan, Sədərək) – qənaət etmək. –Neçə illərdi balalarımızın boğazınnan qırta-qırta düzəltdiyimiz əv-eşix' də qaldı ermənilərə.

**QISDIRMAX** (əksər şivələrdə) - gizlicə vermək. -Hər

gedəndə birəz pul qısdırdı ki, apar xəşdə.

**QISILA-QISILA** (Naxçıvan) – qorxa-qorxa, çəkinərək, utanaraq. –Ge:p ayrısı:n əvində qısıla-qısıla qalınca, öz əymizdi da oturmuşux rahatca.

**QISIRƏMƏN** (Ayrınc) – qısır inəyi əmən bir yaşdan iki yaşadək dana. –Qısır inəyi əmdiyinə göra heylə deyillər ona.

**QISMIRIX** (Naxçıvan) – qısaboylu. -Görmüşəm, bir qısmırıx oğlandı.

**QITRAXLIX** (Keçili) – qıtlıq. –Onda qıtrax vaxdıydı, indi şükür hər şeyimiz boldu.

**QIVRAX** (Babək, Şahbuz, Şərur) – zəld, zirək. – Gördüm hər şey ortadadı durdum qıvrax hərəsin çəx'dim öz yerinə.

**QIY** I (Aşağı Qışlaq) – dağın aşırımı. –Qıydan keçəndə baxdım ki, canavar uluyur.

**QIY** II (Bənəniyar, Saltaq) – qaytan. -Qıy torbada olar, tumanda olar, başmaxda olar.

**QIYIX** (Babək, Şahbuz) – çuvalın ağzını tikmək üçün iynə (çuvaldız). –Qıyığnan meşoxların ağzını tikirix'.

**QIYMAZ//QIYIMSIZ** (Şahbuz) – xəsis. –Zeynab nətər qıymazdı, əlinnən darı sızmaz.

**QIZIL ƏHMƏDİ** (Boyəhməd) – alma növü. –Təzə saldığım tingə qızıl əhmədidi.

**QIZILÖZƏN** (Ordubad, Şahbuz) – heyvanın qida

borusu.

**QIZIL ÜZÜMÜ** (Heydərabad) – üzüm növü. – Sədərəyin qızıl üzümü məx'şurdu.

**QIZIRQALAMMAX** (Naxçıvan) – heyfi gəlmək, vermək istəməmək. –Mən heç həylə şeylərə qızırqalammaram.

**QİDİX'//QIDI//QIDIX** (əksər şivələrdə) – keçinin bir-iki aylıq balası. –Təzə doğulan keçidi qidix'.

**QİTMİR** (Tumbul) - xəsis. -Qitmir adamnan qaç.

**QLİX'** (Sədərək) – çörək növü. –Qliyi geşmişdə qıtlıx vaxdında, un-zad tapılmıyanda buğdaynan gilin qarışığınnan eliyirdilər.

**QODEM** (əksər şivələrdə) – göyərti adı, vəzəri. – Qodem tez xarab olur isdidən, o dəyqə ağ tüşür una.

**QODUXƏYAĞI** (Cəhri) – güclü gələn suyun qarşısını kəsmək üçün ağacdan düzəldilmiş alət.

**QODUXLAMMAX** (Vayxır, Uzunoba) – şıltaqlıq etmək, əzizlənmək. –Elə qoduxlanır, elə bil qaragöz inəyin balasıdı.

**QOLAY** (Nehrəm, Şahbuzkənd) – pis. –Bı dəfə bizim müdürün işi diyəsən qolaydı.

**QOLÇAX** (Şahbuz) – 1. arı sancmasın deyə qola geyilən dəridən tikilmiş geyim. –Qolçağı arıçılar işdədillər; 2. çörəyi təndirə yaparkən, taxıl biçərkən qola dolanan parça.

**QOLÇƏ** (Ordubad) – odun parçası. –Bir xeylax qolçə yığmişəm, atasan ocəğə.

**QOMRAL QOYUN** (Biçənək) – şabalıdı rəngli qoyun. –Bizdə qomral qoyun azdı, ən çox ağdı.

**QONAXCI** (Maxta, Naxçıvan) – qonaq aparan, evində qonaq edən şəxs. –İranda bizim qonaxcımız var, gedəndə tüşürüx' onnara.

**QONDARA** (Ordubad) – ayaqqabı. –Qondaranı kişi də giyər, arvat da.

Azərbaycan dilinin Basarkeçər, Başkeçid, Borçalı, Göyçay, İmişli, Tovuz şivələrində də bu sözə rast gəlirik (1, s.340).

**QONÇAYELƏN** (Şahbuz) – xalçaya vurulan naxış adı. –Qonçayeləni ən qəşəx' Südaba xala salır.

**QOPARA** (Ordubad) – ayrı-ayrı əkin sahələri arasında torpaqdan qoyulan işarə, təpəcik. -Biz sahədə qopara qoyarıx.

**QORQODUX** (əksər şivələrdə) – oğul-uşaq. –Gətirib qorqoduğu qoyup bıra, heş nədən başdarı çıxmır.

**QORPUS** (Biçənək) – arı pətəyinə artırılan əlavə yeşik. –Arı çox olanda qorpus lazım olur.

**QO:SƏRƏ** (Ordubad) - ağac qabığından və ya çubuqdan toxunmuş səbət. -Mən qo:sərə dolusu üzüm dərdim.

**QOŞA** (Nursu) – uzun arx, kanal. –Qoşuya su bıraxırıx ki, zəmi su işsin.

**QOŞAR** (Şərur) - qoşqu camışı. -Mən onnara qoşar vermişəm.

**QOTEMEZ** (Babək, Naxçıvan, Şahbuz) – pis, çirkin. – O qotemez canıynan heş kimi də bəyəmmir.

**QOYUNHƏNGİ** (Teyvaz) – qoyun nəğməsi. –Çoban çalar qoyunhəngini sürüyə.

**QOZA** (Culfa, Ordubad, Şərur) - neft lampasının odluğu. -Qoza yumru olur, ortası da dəlik.

**QOZA MAŞ** (Ordubad) – balaca ağ, quru lobya dənəsi. –Qoza maş da maşdı, əmə ağ irəx'də olur.

**QUBA** (Kükü) – çöl ördəyinin balası. –Qubalar dolup gölə gənə.

**QUCEME** (Şərur) - açıq, cılız. -Sən quceme bədənivinən o işi görə bilmərsən.

**QUÇUXYATAN** (Culfa) – gildən hazırlanan yastı qab. Müasir boşqab ölçüsündə olur. İçərisində yemək, meyvə qoyub süfrəyə ümumi verirlər. –Quçuxyatanı məylisdə-zadda işdədirdilər əvvəllər.

**QULAN** (Culfa, Kəngərli, Şahbuz, Şərur) – üçyaşar dişi at. –Atın dişisinə qulan deyirix'.

**QULANÇAR** (Bist, Tivi) - yeməli yabanı bitki adı. -Oğlum bağdan yığdığı qulançar dəsdəsini anasına verdi.

**QULBEÇƏ** (Naxçıvan) – köməkçi, kiminsə əlinin altında işləyən adam. –Bı qızdar hammısı Zərqələmin qulbeçələridi.

**QULLABA** (Şahbuz) – palan tikərkən istifadə olunan xüsusi iynə.

**QULLUXDAR** (Şərur) – qulluqçu. –Qulluxdar adamsan, nə işivə qalıp kim nə deyir.

**QULPLU//QULPLUCA** (Ordubad, Sədərək) – tava. – Qızı göndərdim dınqılı qulplucanı gətisin qəşəx' qavırma yumurta eliyax'.

**QUMQUMALAMAX** (Dəstə) – tumurcuqlamaq. - Ağaşdar qumqumalıyıb.

**QUNDAX** (əksər şivələrdə) – balaca, körpə uşaq. – Hələ mən qundax olanda dədəm irəhmətə gedip.

**QUNDUR** (Babək, Şərur) – balqabaq. –Qundur çox xeyirridi, çəkib suyun içəsən.

**QUNDURSUZ** (Zeynəddin) – ağılsız. -Sən nə fikirrəşib belə qundursuz hərəkət eliyirsən.

**QURREY** (Naxçıvan) – sadəlövh, ağılsız. –Tağı birəz qurreydi çoxbilmişdiyi zadı yoxdu.

**QURUM** (Naxçıvan)//**QORUM** (Babək, Culfa, Şahbuz) – his, evin tavanında əmələ gələn tor. –Əv-eşiyi tökəndə qurumu da almax lazımdı.

**QURT** (Şahbuz, Şərur) – şan qovucuqlarında hələ arı şəklini almamış pup. –Arı təzə vaxdı qurt şəklində olar, sora arıya çəvrilər.

**QURTDU** (Culfa, Kəngərli, Naxçıvan, Şahbuz) – paxıl. –Qurtdu adam artıb-ağarmaz.

**QURTQURT** (əksər şivələrdə) – su qabı, bardaq. – Qurtqurtu götü qaş bulaxdan sərin su gətgə.

**QURTYEMƏZ** (Naxçıvan, Şıxmahmud) – çirkin. – Qurtyeməz kifir, eybəcər adama deyillər bizdə.

**QURUŞQA** (Kültəpə, Qaraqala, Yuxarı Uzunoba) – su içilən qab. –Bılağın başına bir quruşqa da qoyuplar kin, keçən su işsin.

**QURUT** (əksər şivələrdə) – qurudulmuş qatıq. –Bala, bizdə də:llər ki, Allah bizi yayda ayransız, qışda qurutsuz qoymasın.

**QUŞ BORANI** (əksər şivələrdə) – yazda-mart ayında quşlar cənubdan qayıdan zaman olan küləkli, soyuq hava. –Bı vaxdı belə hava olmaz, bı yəqin quş boranıdı.

**QUŞƏPPƏYİ** (əksər şivələrdə) – yabanı bitki. –Quşəppəyini duzduyup yeyillər.

**QUŞDİLİ OXUMAX** (əksər şivələrdə) – aldatmaq, kələk gəlmək. –Fəxi fırıldağın biridi, pütün günü cəməhətə quşdili oxuyur.

**QUŞKEÇƏR** (Ərəfsə, Nəhəcir) – dikdaban ayaqqabı. –Quşkeçərnən bıralarda gəzməx' olmaz, daşdıxdı.

**QUŞQOMMAZ** (Ordubad) - tikanlı bitki. -Quşqommazda çox tikan olar.

**QUVAX** (Babək, Culfa, Naxçıvan) – başda olan kəpək. –Başımnan quvax ələnir, heş bilmirəm neyniyəm.

**QUYLAMAX** (Naxçıvan) – basdırmaq. –Dədələri öldü, qaldı ortada, aparıp quylamağa adam tapbırdılar.

Bu söz quyləmax fonetik variantında Şəki dialektində də mövcuddur (1, s.350).

**QUYULAMAX** (Xanlıqlar, Tənənəm) - gizlətmək, ört-basdır etmək. -Səni elə quyulayaram ki, heç kim izivi-tozuvu

tapammaz.

**QUZUQULAĞI** (əksər şivələrdə) – yabanı bitki.

**QUZULAMAX** (Naxçıvan) – nəmdən divarın uçub-tökülməsi. –Difarın bir tərəfi quzuluyup gəlir üsdümüzə.

**QÜLLƏ** (Babək, Naxçıvan) – bölgü zamanı hər kəsə düşən pay. –Hərə gəlip öz qülləsini aparacax.

**QÜRƏBƏ** (Vayxır) - şəkərçörəyi. -Xalam çağırdı yanına, mənə qürəbə verdi.

## Ll

**LAĞARƏX'** (Nursu) - əkin sahəsinin ortasından başlayaraq kənarlarına doğru edilən şum.

**LAĞART** (Aşağı Qışlaq) – gen. –Paltarı lağart eləmişdi, qəytərmişəm düzəltsin.

**LAX** I (Naxçıvan) – xarab. –Böyünkü yumurtanın neçəsi lax çıxdı.

**LAX** II (Naxçıvan, Ordubad) – mənasız. –Min dənə belə lax iş görsən bir şey çıxmaz.

**LAXŞƏX'** I (Naxçıvan) – köhnə, laxlayan. –Otaxdakı isdolların hammısı laxşəx'di.

**LAXŞƏX'** II (Şahbuz) – lovğa, özünü öyən. –Özünnən çox diyən adamdı laxşəx'.

**LAQQIRTI** (əksər şivələrdə) – boş, mənasız danışıq. –Oturup laqqırtı vırmaxdandısa, dur bir işin də qurpunnan sən yapış.

**LALA** (Dırnıs) – lampanın üst şəbəkəli hissəsi.

Ağdaş, Qazax şivələrində də bu sözə eyni mənada rast gəlirik (3,s.321).

**LALADİBİ** (Ordubad) – yeməli yabanı bitki adı. –Laladibi dərirəm qaduv alım.

**LALALANMAX** (Kükü) – çiçək açmaq. –Yazda bağ-bağat hammısı lalalanır.

**LALIXLAMAX** (Türkeş) – həddən artıq yetişmək. –İndi ta bosdan lalıxlıyıp.

**LALIQQA** (Naxçıvan) – yaxşı danışa bilməyən. – Lalıqqa diliynən nəm nə deyirdi, annıyammadım.

**LAM** (Biçənək, Keçili) – suyun sakit axması. –Araz ordan lap lam axır.

**LAPÇIN** (Biçənək) – evdə uşaqların geyindiyi yüngül ayaqqabı. –Lapçın qəşəx' yüngül olur, uşax onnan irahat gəzir.

Ağsu, Qafan, Lənkəran, Şamaxı şivələrində də lapçın qeyd etdiyimiz mənada işlənir (3, s.323).

**LARI** (Keçili) – döyüşkən toyuq və ya xoruz. –Bizim bir ları xoruzumuz var.

**LATAYIR** (Babək, Cilfa, Şərur) - ədəbsiz söz. – Arvatdar dava eliyəndə birbirinə min latayır deyirlər.

**LAVAŞA** I (Bist, Tivi) – yuxa şəklində qurudulmuş alça turşusu. –Lavaşanı xorəyə işdədərıx.

**LAVAŞA** II (Badamlı) – ipək hazırlanarkən baramanı tiyanda islatmaq üçün istifadə olunan əyri ağac.

**LAVAŞA** III (Vənənd) – zəncirin ucunda olan qarmaq. –Lavaşanı aparın verin dəmirçiyə düzəltsin.

**LAVAŞALAMAX** (Ordubad) – lavaşa hazırlamaq. – Anam iki put alça lavaşalayıb.

Gəncədə də lavaşalamax eyni mənada işlənir (3, s.325).

**LAYXORUMÇU** (Culfa, Ordubad, Şahbuz, Şərur) – çalınmış otu bir yerə toplayan adam. –Biz otu çalırıx, layxorumçu da gəlip yığacax bir yerə.

**LAYLAMAX** (Kükü) - çevirmək. –Otu layla, tez qurusun.

**LECAN** (Göydərə) – çox, bol. –Ağaşdar bı illəri lecan göycədi.

**LEFİRİM//LEFDİRİM** (Ordubad) – səfeh. –Əziz lefdirim adamdı, onnan nə desən çıxar.

**LEHMƏ** (Naxçıvan) – duru palçıq. –Yağış yağdı hər tərəf olur lehmə.

**LENTİ** (Dizə) – qayınarvadı. –Bı mənim lentimdi.

**LEY** (Siyaqut) – düzənlik. –Dört bir tərəfləri leydi.

**LƏBBEY GETMƏX'** (Babək, Naxçıvan) - əldən-ayaqdan getmək, narahatçılıq keçirmək. –Nə vaxdı Fatma ləbbey gedir ki, oğlum inisduta girsin.

**LƏBLƏBİ** (Vələver) – bişirilmiş çuğundur. –Pazını pişiririx' olur ləbləbi.

**LƏHLƏMƏX'** (əksər şivələrdə) – itin təngiməsi. –Yazıx it gör necə ləhliyir.

**LƏJ TÜŞMƏX'** (Şahbuz) – yola getməmək, bir-birindən xoşu gəlməmək. –O vaxdandı mənnən ləj tüşüpdü.

**LƏKƏNTİ** (Ləkətağ) – xəstəlik, xəstəliyin izi. –Hələ ləkənti mə:m bədənimnən çıxmıyıb ki.

**LƏLEYİN** (Sirab) – hər tərəfi açıq, yalnız pəncəsi örtülü ayaqqabı.

**LƏLƏDAĞ** (Naxçıvan, Tumbul) – həddindən artıq narazı olmaq. –Anam gəlinnərinin əlinnən lələdağlıdı.

**LƏLƏX' QOŞMAX** (Naxçıvan) - ələ salmaq, lağ etmək. –Gör indi hərə sənə bir lələx' qoşur ya yox.

**LƏLİX'** I (Milax) – yorğun, əldən düşmüş. –Neçə gündü ləlix' oldux ortalarda.

**LƏLİX'** II (Bist, Üstüpü) – yabanı kəvər. –Ləlix'dəğdə bitər.

**LƏLİMƏX'//LALIMAX** (Şahbuz, Şərur) – yalvarmaq. –Bir adam bir şeyi çox isdiyip yalvaranda deyillər, ləliyir.

**LƏMBƏKİ** (Sirab, Qazançı) – nəlbəki. –Ləmbəki biz zirə deyirix'.

**LƏMƏ** I (Ordubad) – rəf. –Get ləmədən qazanı gəti.

**LƏMƏ** II (Ordubad) – yaylaqda keçədən düzəldilən dəyənin bir tərəfində süd, yağ, qatıq saxlanılan yer.

**LƏMHALƏM** (əksər şivələrdə) – ağzına qədər. –İsdəkanı ləmhaləm doldurup, bir dodax yeri də qoymıyıp.

Bu söz ləmələm variantında Gədəbəy şivələrində işlənir (3, s.330).

**LƏMS OLMAX** (Şahbuz, Şərur) – süst, hərəkətsiz olmaq. –Noxoşduxdan sora uşax ləms olupdu.

**LƏM TƏRPƏTMƏX'** (Naxçıvan) – hərəkət etmək. –Yolda maşın əlinnən ləm tərpətməx' olmurdu.

**LƏNDƏHOR** (Məzrə, Unus) – bacarıqsız. –Sənin oğlun ləndəhorun biridi, əlinnən nə gəlir?

**LƏNGOV** (Camaldın, Kırna) – üçüncü suvarma. –Ləngov əkinə verdiyimiz üçüncü sudu.

**LƏNPƏ//LƏMPƏ** (Naxçıvan, Babək) – çıraq. –İndi ta şükür lənpə yandırmırıx, işığımız var.

**LƏNPƏR//LƏMPƏR** (Nursu, Yaycı) – saman yığmaq üçün ağacdan düzəldilmiş böyük şana və ya kürək. –Ləmpər saman atmaxçundu.

**LƏP** (Kotam) – sıyrım, ağac sıyrımı. –Ağacın ləpi soyulur.

**LƏPİX**' I (Şahbuz) – balaca, hamar daş.

**LƏPİX**' II (Ordubad) – köhnə ayaqqabı. –Ləpiyi niyə keçirtmisən əyağıva?

**LƏR** (Biçənək) - beçə arı. –Lər pərvazdanıb uçur.

**LƏTDİ** (Ərəzin) – xəstə. –Bı heyvan lətdi çıxıb, heç yekəlmir.

**LƏTƏNZİRİ** (Tivi) – armud növü. –Lətənziri armud dəgibdi.

**LƏVƏND** (Sirab) - əxlaqsız (söyüş mənasında). –Ləvəndə qoşulan bəlıya tüşər (atalar sözü).

**LƏVƏRƏ** (Naxçıvan) – səfeh, gic, şüursuz, qanmaz. –Bala, sən lap ləvərəsən ha, heç danışığıvı zadı bilmirsən.

Bu söz bir çox dialekt və şivələrimizdə qeyd etdiyimiz mənada işlənir. Bununla yanaşı həmin sözün gücsüz, zəif, tənbəl, yarımçıq, vaxtından qabaq doğulmuş mənaları da var (3, s.332).

**LƏVİN** (əksər şivələrdə) – forma. –Elə bil onun ləvini dönüpdü.

**LƏVİNBƏLƏVİN//LƏVÜNBƏLƏVÜN** (Ərəfsə, Tivi) – cürbəcür. –İsdolun üsdünə ləvinbələvin hər şey düzmüşdülər.

**LICINI TÖX’MƏX'** (Ordubad) – şitini çıxarmaq, zəhlə tökmək. –Get-gedə lıcını töx'dün sən.

**LIĞIRS** (Didivar) – yaxşı bişməmiş çörək. –Lığırs çörəx' qəşəx' pişmir, çiy qalır.

**LIJDAMAX** (əksər şivələrdə) – daha çox yaş qalmaq nəticəsində bir şeyin xarab olması. –Pencər qalıp suda lıjdıyıp.

**LIMBITMAX** (Babək, Culfa, Naxçıvan) – çeynəmədən udmaq, hamısını birdən yemək. –Sdolda nə varıydı hammısın lımbıtdı gənə də doymadı.

**LIRT** (Naxçıvan) – boş, zəif, dözümsüz. –Sən nətər lırt adamsan, yanınnan yel keşməmiş naxoşduyursan.

**LİCİM** (Hacıvar, Qaraçuq) – görünüş. –Liciminnən dilənçilix' **y**ağır elə onun.

**LİF** (Babək, Naxçıvan) – hamam torbası. –Lifin içinə hamam şeyləri- kisə, sabın zad yığarıx.

**LİLƏ** (Naxçıvan) – paltarlara yuduqdan sonra göy rəng verən boya. –Mən həmişə yorqan-döşəyin üzün liləliyərəm.

**LİLVAN//LİLMAR** (əksər şivələrdə) – nə isti, nə də soyuq olmayan ilıq su. –Suyu lilvan elə gətgə uşağı çimdirəx'.

Lilmar sözünün dialekt və şivələrimizdə bu məna ilə yanaşı lilli mənası da qeydə alınmışdır (3, s.334).

**LİNK** (Türkeş) – dəyirmanın daşlarını yerə endirmək üçün istifadə edilən yoğun uzun ağac.

**LOBU** (əksər şivələrdə) – lobya. -Təzə çıxanda lobu yeməli olur.

**LODURA** (Böyükdüz, Xok) – sap tağalağı.

**LOĞAZ BƏYLİ** (Şahbuz) – alma və armud növü.

**LOĞAZ ELƏMƏX'** (Nursu) – istehza etmək. –Onabına loğaz eliyə-eliyə özü də qaldı onnarın gününə.

**LOLUX** (Ərəzin) – pinti. –Lolux adamın əvində mən canasinər yiyəmmirəm.

**LOMBA//LOPBA** (Kültəpə, Payız) – parça, koma. –Ayağında lomba-lomba palçıx gətirib töküb buralara.

**LOPA** (Naxçıvan) – içərisinə duz doldurulub yumrulanmış və benzinə batırılmış, kürəyə banka salmaq üçün istifadə olunan əski. –Əvvəllər lopa qoyurdux, indi hammı pambıxnan salır bankanı.

**LOPGÖDƏN** (Şahbuz) – çoxyeyən. –Lopgödən adamın yeməyin çatdırmağa hünər lazımdı.

Kürdəmir, Göyçay, Şamaxı şivələrində eyni mənada lomgödən//lortgödən sözü də işlənir (3, s.337).

**LOPLAMAX** (Naxçıvan) – bir şeyi çox tökmək. –Kağızın üsdünə tökəndə çox loplama.

**LOR** (əksər şivələrdə) – südü çürüdüb süzməklə alınan ağartı növü. Lor həm duzlu, həm də duzsuz istifadə olunur. –Həylə bir məsəl də var, deyillər, lornan şora fərq qoymur.

**LORU** (Aşağı Qışlaq, Kolanı, Yuxarı Qışlaq) – palanın içərisinə qoymaq məqsədilə düzəldilən keçə. –Loru qoymaz kin, palan heyvanın belin yaralasın.

**LOŞ** (Sədərək, Şahbuz) – tənbəl, özünü tənbəlliyə vuran. –Loş adamdı, onnan iş görən çıxmaz.

**LÖHRƏM** (Şahbuz) – atın atıla-atıla yeriməsi.

**LÖK//LÖHLƏMƏX'** (Culfa) – 1. dəvənin balası; 2. dəvəni yerə çökdürmək.

**LÖKÜD//LÖKÜT** (Aza, Ələhi) – yaxşı bişməmiş düyü. –Löküd aşı yeməx' olmur.

**LUĞAB//LIĞAP** (əksər şivələrdə) – həlim. –Uzun düyünün luğabı az olur, luğap əsas yumuru düyüdə olur.

**LUĞAPLANMAX//LIĞAPLANMAX** (əksər şivələrdə) – qatılaşmaq. –Maş gərəx' pişəndə luğaplana, onda qəşəx' olur.

**LUMU** (Ordubad) – limon. –Ordubadın lumusu məx'şurdu.

**LUZUMNAN SALMAX** (Sələsüz) – hörmətsizlik etmək. –Bı uşaxlar məni ta luzumnan saldılar.

**LÜLEYİN** (Babək, Culfa, Naxçıvan) – mis su qabı. –Lüleyinnən suyu töx' əllərimi yuyum.

**LÜL QƏNBƏR** (Axura) – sərxoş. –Dünənnəri Fəxi lül-qənbər, yıxıla-yıxıla gəlmişdi.

**LÜMƏ DÜYÜ** (Çalxanqala) – yumru düyü. –Qatığaşı zad eliyəndə lümə düyü vırarıx ki, luğaplı olsun.

## Mm

**MAC** (Qazançı, Vənənd) – kotanın və ya xışın dəstəyi. –Bir nəfər olur ki, macı tutur.

**MACĞAL** (Culfa, Şahbuz, Şərur) – şumlama zamanı xışın, kotanın dəstəyindən tutan adam. –Macgal kotanan yer sürür.

**MAÇ ELƏMƏX'** (əksər şivələrdə) – öpmək. –Gə nənə səni bir maç eləsin.

**MAÇI** (Ordubad) – qoca. –Bir maçı arvadı da salıp yanına gətımışdi.

**MAFAL** (Cəhri) – imkan. –Özgə vaxt yeməx'də mənə mafal vermirsən.

**MAFAR** (Naxçıvan) – taqət. –Yazıx Fürzənin mafarı qalmıyıp ki, danışsın.

**MAĞAL YERİ** (Oğlanqala) – inəklərin günorta saxlandığı yer.

**MAĞIL** (Dəmirçi) – heç olmasa, yaxşı ki. –Bir otumasan da mağıl qapıdan kefimi soruş.

Zərdabda bu söz maal, Bakı, Borçalı, Dəvəçi, İsmayıllı, Zəngilanda mağıl şəklində eyni mənada işlənir (3, s.342).

**MAĞMIN** (Naxçıvan) – yazıq, fağır. –O mağmın Sonanın başına gətimədix'ləri oyun qalmadı.

**MAHI** (Ələhi, Nürgüt) – dəryaz. –Biz otu mahıynan çalarıx.

**MAHNA** (Şəkərabad) – bəhanə. –Mahnası da bı oldu

ki, mə:m xəbərim yoxuydu.

**MAJGAL//MAJQAL (**Babək, Kəngərli, Sədərək, Şahbuz**)** – cütün və ya kotanın dəstəyindən tutan adam. – Majgal gərəx' baxa kin, cız düz ola.

**MALAĞAN** (Culfa, Şərur) - dəryaz. –Malağannan otu piçillər.

**MALALAMAX** (əksər şivələrdə) – ört-basdır eləmək, üstündən keçmək. –Nə qədə ki, sən Ziboşun elədix'lərin malalıyırsan, o:n da ayağı yer alır.

**MALAVAN//MALVAN** (Nursu, Şahbuzkənd) – maldarlığı yaxşı bacaran, mal-heyvanın dilini bilən adam. – Malavan bilir kin, heyvanı harda otarmax yaxcıdı.

**MALCANNI** (Şərur) – xəsis. –Malcannının malı çıxsa canı çıxar.

**MAL HƏYƏTİ** (Babək) – mal-qaranın açıq havada saxlandığı yer. –Yayda mal-heyvanı qatarıx mal həyətinə.

**MALPAS** (Sələsüz) – tənbəl. –Malpas adam axdarar kin, qavağında işdədə.

**MANCIRIX** (Aza) – toxum səpildikdən sonra onu torpaqla örtmək üçün şumun üzərində gəzdirilən dişli mala.

**MANDA** (Şada) – yeməli yabanı ot, göyərti, xımı. – Manda qəşəx' otdu yeməyə.

**MANDAL** (Biləv) – cəftə. –Mandalı salginən.

**MANIS** (Şıxmahmud) – musiqiçi. –Böyün manıslara toyda çox çıxdı.

**MANSIRA** (Dəmirçi) – mühasirə. –O vaxdı bınnar qalmışdı bı ermənilərin mansırasında.

**MARALALMASI** (Ordubad) – yabanı bitki.

**MAR CƏVİZ** (Şahbuz) – ləpəsi acı dadan qoz. –Mar cəvizin içi acı olur, qəşəx' olmur.

**MARFAŞ//MƏRFƏŞ** (Babək) – içərisinə yorğan-döşək qoyulan əşya, məfrəş. –Marfaşa yorqan-döşəyimizi yığırdıx əvvəllər.

**MARIX//MARIĞ** (Aza, Xanlıqlar, Naxçıvan) – pusqu. –Bı dəyqə hammısı marığa yatıp görsün mən nə deyirəm.

**MARITDAMAX** (Naxçıvan) – diqqətlə baxmaq, gözünü çəkmədən baxmaq. –Nə marıtdamısan.

**MASAN** (Culfa, Şahbuz, Şərur) – xışın qol hissəsi.

**MASAN YERİ** (Dırnıs, Vənənd) – boyunduruğun ortasındakı dəlik. –Boyunduruğun ortasındakı deşiyə biz masan yeri diyərix.

**MASXOR** (Naxçıvan) – kasa. –Masxora birəz qatıx qoy ver mənə.

**MAŞ** (Ordubad) – quru lobya dənəsi. –Nənəm elə maş bozbaşı pişirirdi ki, qavırməynən.

**MAŞDALIX//MAŞDARIZ** (Kələki, Kotam) – qıf. –Maşdalıxnan lampıya nəft tökürüx'.

**MATAX** (əksər şivələrdə) – çətin tapılan, qıt. –Görən də desin ki, matax tikədi.

**MATRA** (Dəmirçi) – su qabı.

**MAVALAMAX** (Şahbuz) – ac qalmax. –Sə:rdən bırda mavalamışam.

**MAVRI** (Ərəzin, Nursu) – pişik balası. –Mavrı qalmışdı damda tüşəmmirdi, uşaxlar bir yolnan yendirdilər.

Zəngilan şivələrində bu söz səslərin yerdəyişməsi ilə marvı kimi işlədilir (3, s.346).

**MAYA** I (Şahbuz) – bir-on günlük körpə quzu. –Maya təzə doğulan quzudu.

**MAYA** II (əksər şivələrdə) – yeni doğmuş inəyin ilk südü. –İnəyin doğannan sora olan südünə maya deyirxix'.

**MAYA** III (Bulqan, Qaraçuq) – qatıq hazırlamaq üçün südə vurulan azca qatıq. –Maya qatıx çalanda qatdığımız çalasıdı.

**MAYAXOŞ** (Çərçiboğan) – meyxoş. –Mayaxoş heyvanın mirəbbəsi luğaplı olur.

**MAYAŞMAX** (Daylaqlı) – oturub qalmaq. –Dedim, ay arvad, nə mayaşmısan dur görəx' əyağa.

**MAYIF** (Kırna, Qazançı) – şikəst, kor. –Yazıx cavan getdi ermənilərin güdazına, mayıf oldu gəldi.

**MAZAX** (Naxçıvan) – zarafat. –Biri çox zərəfat eliyəndə deyirix', mazaxlaşma.

**MAZI** I (Kəngərli) – ardıc ağacının qozası.

–Ağacda var mazılar,
Könlüm səni arzular.
Əyil üzünnən opüm,
Qoy görsün tamarzılar.

**MAZI** II (Nehrəm) – ağacların yarpağında (əsas da qələmə ağacında) olan xal kimi xəstəlik. Əvvəllər qadınlar onu əzib rasıx kimi qaşlarına çəkirmişlər. –Mazını qaşımıza sürtürdüx' irasıx kimin.

**MAZOL** (Naxçıvan) – döyənək. –Təzə başmax əyağımı mazol eliyip.

**MEÇƏ** (Çənnəb, Üstüpü) – pişik balası. –Meçə dınqılı pişix'di.

**MEJMEYİN** (Camaldın) – mis qab. –Bir mejmeyin cəviz gətimişdi bizə.

**MERAT** (əksər şivələrdə) – sahibi olmayan əşya. –Gətirip meratdarın töküp bıra yiyə də durmur.

**METİ-METİ** (Cəhri, Naxçıvan, Vayxır) – addım-addım. –Uşağın ilanboğan vaxdıdı da, gərəx' meti-meti dalınca gəzəsən.

**MEV//MÖV//MÖY** (Culfa, Ordubad) – tənək. –Biz bağda mev əkmişix'.

**MEVBƏND** (Aza, Tivi) – tənək zoğlarını ağaca bağlamaq üçün şiv. –Mevbəndnən mevi çəkip baxliyərıx.

**MEVLIX** (Culfa, Ordubad) – üzümlük. –Bizdər üzüm olan yerə mevlıx deyirıx.

**MEVRƏ** (Milax) – tənək odunu. –Təneyin mevrəsin qır, yarpaxları xarab eləməsin.

**MEZƏR//MEYZƏR** (Boyəhməd) – toxum səpmək üçün işlədilən döşlük. –Səpinə gedəndə hammı mezer taxar. –Qabaxlar qızdar, arvatdar- hammı meyzər taxardı.

Bu söz mayzər//meyzər variantında Goranboy, Mingəçevir, Zaqatala, Qarakilsə, Şuşa şivələrində eyni mənada işlədilir (3, s.348).

**MƏDƏTÇİ** (Biçənək, Kükü) – xalça-palaz toxuyana kömək edən adam. –Xanımı da ma: mədətçi veriplər.

**MƏHLİM** (Aşağı Qışlaq) – məgər, bəyəm, deyəsən, görən desin ki. –Məhlim cəməhətin hammısı bizi gözdüyürmüş.

**MƏXLƏS** (Dizə) – xülasə. –Məxləs, Aşığ Hüseyin gördü ki, İreyhan xanım dirəşip.

**MƏKAVA** (Şahbuz) – çox duzlu xorək. –Sən bı məkavanı nətər yemisən mən heş bilmirəm.

**MƏKƏ** (Culfa, Naxçıvan, Ordubad) – qarğıdalı. –Bizdə hammı məkə diyər.

**MƏLƏFƏ** (əksər şivələrdə) – döşəkağı. –Mələfəni salırıx döşəyin üsdə.

**MƏLƏMƏK** (Naxçıvan) – yalvarmaq. –Neçə gün qapısında mələdim ki, qızı versin, indi də belə.

**MƏLƏYİ** (Kəngərli) – armud növü.

**MƏMƏ** (Şahbuz) – arının yuvası. –Arı məmə salsa beçə verər, bal verməz.

**MƏMƏSÜL//MƏMƏSÜR// MƏMƏÇÜR** (Ordubad) – itburnu. –Məməsur çox dərdə dərməndi.

**MƏNDƏ** (Sirab) – sovqat, pay. –Səmaya qucağında da bir məndə girdi içəri.

**MƏNGƏLƏ** (Camaldın, Dırnıs) – oraq. –Məgələynən otu piçərıx.

**MƏNTƏR** (Dəstə) – tilsim. –Dəvrişin bı məntəri öz işin gördü.

**MƏRƏÇÜYÜD//MƏRƏÇÖ:ÜZ** (Şahbuz, Şərur) – yabanı bitki. –Mərəçö:üzü tökürsən yağa, üsdünə də yumurta vurursan.

**MƏRƏNDİ** (Şərur)//**MALAĞAN** (Xok, Qazançı) – ot çalan alət. –Mərəndi də oraxdı, əmə birəz yekə oraxdı, ot piçillər unnan.

**MƏRGİZZƏMƏX'** (Axura) – əkin sahəsini mərkizlə şırımlamaq, kiçik arx çəkmək.

**MƏRKÜZ//MƏRKİZ** (Culfa, Babək, Kəngərli, Şahbuz) – dirrikdə işlədilən əkinçilik aləti. –Mərküznən çıqqılı arx qazarıx.

**MƏRMƏRİ** (Babək, Sədərək) – üzüm növü.

**MƏRMƏRİX'** (Milax) – ağac adı, qaragiləli meyvəsi olan ağac. –Mərmərix' ağacı zoğal ağacına oxşuyur.

**MƏRZ** (Biçənək) – iki əkin sahəsi arasında əkilməyən, otunu biçmək üçün saxlanılan yer. –Mərzdən pişdiyimiz ot da elə bizi xeylax ötüşdürdü.

**MƏSNƏD** (Ordubad) – keçə. –Məsnəd qışda çox issi olur.

**MƏŞQƏFƏ** (Ərəfsə) - əl yumaq üçün altında ləyəni olan qab, aftafa-ləyən. –Məşqəfəni məylisdə əl suyu verəndə işdədillər.

**MƏŞMƏŞ** (Tivi)//**MEŞMEŞİ** (Ordubad) – tut, ərik və s. yarı qurudulması, yarı qurudulmuş meyvə.

**MƏTƏRƏ** (Dəstə, Vənənd) – saxsı pendir qabı. –Mətərədə pənir yoxdu.

**MƏZƏKÜN** (Boyəhməd) – zarafatcıl. –Məzəkün adamın ya:nda adam darıxmaz.

**MƏZMƏZƏ** (Dizə) – ağızı su ilə təmizləmə, yaxalama. –Yiyənnən sora məzməzə elə.

**MƏZRƏ** (əksər şivələrdə) – nanəyəbənzər bitki. –Məzrəni qurudurux vırırıx küfdüyə.

**MIĞƏŞƏR** I (Babək, Naxçıvan) – noxud ləpəsi. –Çəx'mə-zad pişirəndə vırarıx mığəşəri.

**MIĞƏŞƏR** II (Nüsnüs) – dənəsi çıxarılıb qurudulmuş albalı. –Gilanarı dənəsin çıxardıb qurudux, odu mığəşər.

**MIĞIR** (Şərur) – ağacın balaca kökü. –Mığır ağacın kökdü.

**MIĞMIĞ** (Naxçıvan) – ağcaqanad. –Bı gecə mığmığlar qoymuyup yatam.

**MIXÇƏKƏN** (Kəngərli, Şahbuz, Şərur) – mismarı çıxarmaq üçün işlədilən ling formalı xüsusi alət. –Bir uzun mıxcaydı, usda mıxçəkənnən dartdı çıxartdı.

**MIXIL OLMAX** (Badamlı, Naxçıvan) - əl çəkməmək, heç nə etmədən şərik olmaq. –Bı qız da bırdan mıxıl olup boğazıma.

**MIXOY** (Naxçıvan) – gic, səfeh. –Bı lap mıxoydu ki.

**MIQQILDAMAQ** (əksər şivələrdə) – ah-uf etmək. – Səhərdən axşama kimi mıqqıldıyır.

**MIRÇALIX** (Nəzərabad) – saqqız kolu. –Mırçalıxdan saqqız tuturux.

**MIRIX** (Kırna, Naxçıvan) – dişi olmayan. –Qavax dişdərim tökülüp qalmışam mırıx.

**MIRTDANMAX** (əksər şivələrdə) – deyinmək, öz-özünə dodağının altında danışmaq. –Bir iş də görəndə gərəx' mırtdana-mırtdana eləmiyəsən.

**MIRT VIRMAX** (Naxçıvan) – boş-boş danışmaq. – Sənin işin yoxdu, səhərdən-axşamacan mırt vırırsan.

**MISMAX** I (Culfa) – pusmaq. –Ofcu qıraxda mısıb gözdüyürdü görsün nolur.

**MISMAX** II (Naxçıvan) – qorxudan sakit durmaq. – Çığırdım uşax qorxusunnan mısdı.

Dilimizin Tərtər. Gəncə, Qazax şivələrində də bu vahid ikinci mənada işlənir (3, s.357).

**MISMIRIĞIN SALLAMAX** (əksər şivələrdə) – qaş-qabaq tökmək. –Bir söz də diyən kimin mısmırığın sallıyır.

**MIYMIX** (Maxta) – ağcaqanad. –Mıymıxlar əhədimizi üzüp gecə.

**MIZQAN//MUZQAN** (Naxçıvan, Şərur) – qarmon. – Mizqan çalan gəlib çıxmıyıp.

**MIZ QOŞMAX** (Babək, Naxçıvan) – lağ eləmək. –Bı kişi də hər şeyə mız qoşur.

**MİCASI GÖTÜRMƏMƏX'** (əksər şivələrdə) – canına sinməmək, iyrənmək. –Toyda pişən dolmanı mə:m micasım götürmür.

**MİCİ** (Kolanı) – arı yumurtası. –Ana arı bala verməx'dən yana mici qoyur.

**MİCİLƏMƏX'** (Nursu) – yemək istəməmək, ləng hərəkət etmək. –Mənafın nə xorəx' qoysan qabağına miciliyir.

**MİÇƏTGƏN** (Biləv) – milçəkdan. –Miçətgəni qururux yayda taxda yatanda ki, milçəx' yeməsin uşəxləri.

**MİDBEYİN OLMAX** (Badamlı) – dostluq etmək, dost olmaq. –Cavannıxdan biz İrzaynan midbeyin olmuşux.

**MİLAX** (Naxçıvan, Şahbuz, Şərur) – ağaca keçirilib saxlanılan üzüm. –Üzümün birəzin yedix', qalmışın da milax asmışam. –Milax bir put birdən üzüm saxlıyır.

**MİLLƏMƏX'** (Qarxun) – atmaq. –Puşqunu nətər millədimsə düz getdi saplandı ağaca.

**MİNDOY** (Vayxır) – çiyin, boyun. –Boyu elə ucadı ki, mindoyuna adamın əli çatmır.

**MİNTƏNƏ** (Dəmirçi, Ərəzin) – toxunma yun parça. –Geşmişdə çuxa olurdu mintənədən.

**MİRQƏZƏB** (Cəhri, Didivar) – qəddar. –Mirqəzəp hersdi adama deyirix'.

**MİRZƏCANI** (Şahbuzkənd) – qardaş arvadı. –Mən mirzəcanıman yaxcı yola gedirix'.

**MİRZƏYİ** (əksər şivələrdə) – armud növü.

**MİSLEHİM** (Şahbuz) – mislə qaynaq edilmiş.

**MİSMİL** (Naxçıvan) – təmiz, səliqəli. –Havlanı elə qəşəx' tərtəmiz, mismil çalmışam özüm. –Evi həmişə tərtəmiz olar, çox mismil arvatdı.

**MİŞDOVLUX** (Biləv, Dırnıs) – suvarma zamanı artıq suyun toplandığı yer. –Mişdovluxda bir ilan gördüm.

**MİŞOV** (Qaraçuq) – kisə, torba. –Mişovlara qartop doldurup gətimişdi satmağa.

**MİTİL** (Cəhri, Naxçıvan, Vayxır) – yorğanın döşəyin əsas üzünün altında olan üz. –Mitili ən çox bezdən eliyirix'.

**MİYANPUR** (Ordubad) – içərisinə qoz qoyulmuş meyvə qurusu, alana. –Miyanpur da çərəzdi.

**MİYƏNTƏX'** (Şərur) – qabırğaları birləşdirən yumşaq ət.

**MİZ** (Naxçıvan, Şahbuzkənd) – milçək yumurtası, qurd. –İsdolun üsdündə şaqqıldaxdan milçəx'lər miz salıp.

**MODUX** (Şahbuz, Şərur) – yıxılmamaq üçün, hodağın tutması üçün boyunduruqda olan ağac hissə. –Modux hodağın yapışmasınnan yanadı.

**MOR** I (Babək, Culfa, Şahbuz, Şərur) – zəncir taxmaq üçün boyunduruğun ortasına keçirilmiş dəmir. –Öküz güc verdi, mor qırıldı.

**MOR** II (Xanəgah, Şada) – yetişməmiş, kal. –Ərix' hələ yaxşı yetişmiyip, mordu.

**MORA** (Biçənək)//**MORU** (Cəhri) – zəminin içi ilə

kotanla çəkilmiş arx. –Zəminin qəşəx' sulamması moranın qəşəx' salımmasına goradı.

**MORALAMAX** (Xanlıqlar) – yeri suvarmaq üçün hamarlamaq. –Əvvəlcə moralıyırıx, sora suvarırıx.

**MORANNAMAX** (Xanlıqlar) – yenicə yetişməyə başlamaq. –Mer-meyvə təzə-təzə yetişməyə başdıyanda deyirix', morannıyır.

**MORI//MORİ** (Culfa, Ordubad) – qapıya qıfıl vurmaq üçün halqa. –Mürsəl qapının morısın sındırıb.

**MORU** (Boyəhməd) – damdakı küləş və qamışın üstünə yayılan palçıq. –Əvin morusu tökülüb.

**MOTAL** (Şahbuz) – içərisində pendir, yağ, şor saxlanılan tükü təmizlənməmiş qoyun dərisi. –Motalın içində saxlıyanda pənir qəşəx' qalır, ona motal pəniri deyirix'.

**MOVALÇA//MAVALÇA** (Tivi) – damın üstünə suvaq daşımağa məxsus xərək.

**MÖHRƏ** (Naxçıvan) – qurudulmuş palçıq laylarından hörülmüş divar, palçıq divar. –Köhnədən qalan əvlərin hammısı möhrədəndi.

**MÖHÜB** (Naxçıvan, Şıxmahmud, Tumbul) – ehtiyac. –Qara kişi hələ indiyənə kimi bir adamın möhübün düzmüyüp. –Bir adamın möhübün düzsən, sora o da sənə kömək eliyər.

**MÖV//MÖVRƏ** (əksər şivələrdə) – tənək. –Mövün altda yer düzəltmişix' yayda otumaxdan yana.

Bu söz Cənubi Azərbaycan və Meğri şivələrində də işlənir (3, s.362).

**MÖVƏ** (Şahbuz) – meyvə. –Bağımızda hər cürə mövə var.

**MÖVLÜX'** (əksər şivələrdə) – üzüm bağı. –Təzə mövlüx' salmışam həyətin aşağısında.

**MÖVÜZ//MƏVİZ//MÖYÜZ//MEVİZ** (əksər şivələrdə) – qurudulmuş içi dənəli üzüm. –Yaxcı məviz gətiriplər Ordubatdan.

**MUĞAN** (Nursu) – qar kürəmək üçün istifadə olunan sapı ağacdan qayırılmış, üzərinə dəri çəkilmiş üçbucaq formasında kürək. –Muğanı gətgə gedəx' əvın damı:n qarın təmmizdiyəx'.

**MUXURU** (Kolanı) – alaçığın üstünü örtmək üçün düzəldilən iri keçə. –Muxurunu atdırıllar ki, salsınnar çadırın üsdünə.

**MUMKEŞ** (Keçili) – balı süzülmüş şan. –Mumkeşi əridip mum eliyillər.

**MURQUZ** (Naxçıvan) – sarısaç, göygöz adamlar haqqında daha çox mənfi mənada işlənən söz.

**MUŞ** (Kələki) – böyürtkən. –Muş dərməndi həm də.

**MUŞQURMAX** (Babək, Culfa) – daha çox körpə uşaqları oynadanda dodaqların hərəkəti ilə müəyyən səs çıxarmaq. –İndi elə bir aylığ uşağı da muşquranda gülür.

**MÜCİ** (Vənənəd) – gənə. –Qoyunnara müci daraşmışdı.

**MÜDARƏ** (Xok) – rəftar, davranış. –Müdarə adamın hərəkətdəridi.

**MÜLÇİ** (Ordubad) – mılçə (qaşa qara çəkmək üçün alət). –Qaşa rəng çəx'məx'dən yana mülçi lazımdı.

**MÜLƏS** (Kotam) – bağça. –Müləsdə yer düzəltmişix' qəşəx'.

**MÜLX'** (Kotam) – bağça. –Mülx'dəki ağaşdarın hammısı qurudu bı il.

**MÜSDƏR//NÜSDƏR** (Naxçıvan) – şikəst, hərəkətsiz. –Neçə illərdi Yetər arvad yerdə müsdərdi.

Müsdər Cəbrayıl, Meğri, Zəngilan şivələrində də qeyd etdiyimiz mənada işlənir (3, s.366).

**MÜSÜNNÜ** (Ordubad) – təcrübəli, yaşlı. –Bir müsünnü adam lazımdı, dura bı ceyillərin başində.

## Nn

**NACAX** (Şahbuz) – kiçik balta. –Nacaxnan ət doğrarıx.

**NAÇAX** (Camaldın) – xəstə. –Yaman naçax oldun bı aralar.

**NAÇAXLAMAX** (Culfa) – xəstələnmək. –Uşaxların atası böyün bərk naçaxlıyıb.

**NAÇAXLIX** (Culfa) – xəstəlik. –Onu həmişə soyux tutur naçaxlıx tapır.

**NAĞALA//NAVALA** (Yaycı) – mala vermək üçün arpa unundan hazırlanan yem. –Arpanı paralıyıb mal üçün yem düzəldillər, buna nağala deyillər.

**NAĞILLAMAX** (Dəmirçi, Naxçıvan) – nağıl etmək. –Uni anamgil nağıllayırdı.

**NAXIR ƏPBƏYİ** (Biçənək, Sələsüz) – otarılan qaramalın hər başı üçün haqq kimi verilən bir ədəd çörək. –Bizdə məsəl var deyillər kin, naxırçı qızı:n göylu naxır əpbəyi isdər.

**NAXIRƏYAĞI** (Ərəzin) – axşamçağı. –Naxırəyağı gün dönən vaxda deyirix', yanı naxır gələn vaxdı.

**NAQARRAMAX** (Babək) – paslanmaq. –Buşqu qalıp damda nəmişdix'də naqarrıyıp.

**NAQQAL** (Naxçıvan) – çoxdanışan, uzunçu. –Həsən çox naqqal adamdı.

**NAQQALLIX** (Naxçıvan) – uzunçuluq. –Naqqallıx yaxşı şey dəyil.

**NAL** (Kükü) – dirəklərin altında olan ağac.

**NALÇA** (Siyaqut) – 1. döşəkçə; 2. fırfıranın ucuna vurulan balaca mıx. –Nalçanı çək altıva otu, yer soyuxdu. –Nalça fırfıra:n ücündə olur.

Nalça qeyd etdiyimiz birinci mənada Astara, Bakı, Biləsuvar, Borçalı, Dəvəçi, Hamamlı, Lənkəran, Salyan şivələrində də işlənir (3, s.368).

**NANAY** (Ordubad) – ağızla çalınan oyun havası. –İndi mən nanay çalım siz oynayın.

**NARBƏNT** (Vələver) – qarağaca oxşar ağac. –Narbənt nadir ağaşdı.

**NASIP YOLU** (Aza) – dəmir yolu. –Əvimiz elə düz nasıp yolunun qırağindədi.

**NASRANNI** (Bulqan, Naxçıvan, Vayxır) – nanəcib. –Elə nasrannıdı ki, ölür adama əziyət versin.

**NATARAŞ** (Naxçıvan) – işi həmişə tərsinə görən, tərs adam. –Çox nataraş adamdı Vəli.

**NAVAQQIL** (Nehrəm) – körpünün altından su keçən yer. –Altda su axan yerə deyirix' navaqqıl.

**NAVDAN** (əksər şivələrdə) – novalça, damdan yağış sularının axdığı boru. –Navdan qırılıp su tökülür başımıza.

**NAZ** (Culfa) – armud növü.

**NAZBALINC** (Culfa, Şərur) – qu tükündən düzəldilmiş iri balış.

**NEYBƏT//NEYVƏT** (Babək, Naxçıvan) – eybəcər,

çirkin. –Neybət kifir adama deyirix'. –O çox neyvət adamdı, görəndə lap qorxuram.

**NƏF** (Xanəgah) – xeyir, gəlir. –Genə sənə nəf gətirirdi, əlinnən tuturdu.

Meğri şivələrində xeyir, gəlir mənasında nəfidarrıx leksik vahidi işlənməkdədir (3, s.371).

**NƏFƏSDİX'** (Keçili, Külüs) – qışda arı səbətinə hava daxil olmaq üçün düzəldilən balaca baca. –Hava çox soyux olanda nəfəsdiyi də bağlarıx.

**NƏFİSKAR** (Şahbuz) – acgöz. –Hər şeydə gözü var, nəfiskar adamdı.

**NƏĞM** (Nüsnüs) – yeraltı yol.

**NƏXUNƏ//NƏXÜNƏK** (Uzunoba) – bir şeyi pulsuz əldə etmək, sahibindən icazəsiz götürmək. –Bi dənə papruz ver nəxunə eliyim.

**NƏ:LİN** (Kotam) – başmaq. –Basabasda uşağın nə:lini itmişdi.

**NƏNƏHEL//NƏNƏHER** (Naxçıvan) – yekəpər. –Nənəm bir nənəhel arvatdı, oturanda sdola yerrəşmir.

**NƏNƏM NEHRƏ** (Kolanı) – uzun adam. –Nənəm nehrə uzundraz adama deyillər.

**NƏNNİ** (əksər şivələrdə) – beşik. –Nənniyə uşağı qoyup yırqalıyıllar.

**NƏRƏ** (Ordubad) – evin üstünə qoyulan böyük tir. –Nərəmiz sınıp.

**NƏS** (əksər şivələrdə) – uğursuz. –Böyün nəs gündü.

**NƏSİRVAZ** (Ordubad) – gilas növü. –Nəsirvaz da gilasın bir cürüdü, ən çox Ordubatda olur.

**NƏSSƏ** (Yaycı) – ayama. –Bizim kətdərdə hammının nəssəsi olur.

**NƏTƏ:R** (əksər şivələrdə) – necə?, nə cür? –Ordan bıra nətə:r qaça-qaça gəlmişəm heş bilmirəm.

**NƏVERİM** (Naxçıvan) – işə yaramayan, çox da yaxşı olmayan. –Bir nəverim paltar alıp gətimişdi.

**NƏVƏ** (Zeynəddin) – toya adam çağıran.

**NƏVƏ ÇIXARTMAX** (Zeynəddin) – toya adam çağırmaq üçün müəyyən adam seçmək. –Qızxanımın toyunda Xurşudu nəvə çıxartmışdılar, gəldi bizi də toya çağırdı.

**NƏZİX'** (Cəhri) – çörək çeşidi. –O nəzix'dən birin gəti sırfıya. –Səhər anam nəzix' pişirmişdi, çaynan yedim.

**NIX** (Babək) – təkid. –Elə inad uşaxdı ki, nıx dediyin deyir.

**NIRQIZ** (Babək, Naxçıvan, Ordubad, Sədərək) – xəsis. –Nırqız yanı qıyımsız, əlibərt adam.

**NIRT** (Kükü) – arının çiçəklikdən gətirdiyi şirə, nektar.

**NİFRİN** (əksər şivələrdə) – qarğış. –Nifrin eliyərsən, gələr özüvü tutar.

**NİMÇƏ** (Babək, Naxçıvan) – boşqab. –Xorəyi çəx' nimçəyə gəti ortuya.

**NİMDAŞ** (Şahbuz) – geyilmiş lakin çox köhnə

olmayan paltar. –Dedim, nimdaş nəyin var gəti verəx' yazıx yetim geysin.

**NİN** (Cəhri, Naxçıvan) – hin, toyuq damı. –Get ninə bax gör toyuxlar yumurtduyup.

**NİŞAN GÖSDƏRMƏX'** (Şahbuz) – tək-tək ilk barama sarımaq, ilk barama göstərmək. –Çətini nişan gösdərincəndi, ta başdıyır yavaş-yavaş hammısı barama səriməyə.

**NİŞDOV** (Ordubad) – bağı suvardıqdan sonra artıq qalan su. –Bu dəfə bağdan çoxlu nişdov çıxmışdı.

**NİŞDOVLIX** (Ordubad) – bağı suvararkən artıq suyun yığılıb qaldığı yer. –Nişdovlıxda bir ilan gördüm.

**NOR** (Türkeş) – dələmədən pendir hazırlayarkən altının suyu qaynadılır, qazanın dibinə yığılan çoküntüdən nor alınır. – Nor da bir cür ağartıdı. –Noru pənirə qatanda lap ləzzətdi olur.

**NORU** (Şada, Türkeş) – palanın hissələrindən birinin adı.

**NOVBAŞI** (Şahbuz) – axır çərşənbənin səhəri günü axar suyun üstünə getmək. –Novbaşına gedib suyun üsdünnən tullanarıx.

**NÖRƏST** (Vənənd) – tez yetişən üzüm. –Bı üzüm nörəsdi, tez yetişir.

Bu söz İrəvan şivələrində də eyni mənada işlənir (3, s.376).

**NUZUL** I (Aza, Vənənəd) – tənbəl. –Mə:m bı cıqqılı oğlum birəz nuzuldu.

**NUZUL** II (Tivi, Vələver) – inadkar tərs. –Elə nuzuldu,

ölə dediğınnan dömməz.

**NÜDRƏTƏN** (Naxçıvan, Şərur) – təsadüfən. –Mən başqa yerə gedirdim, nüdrətən onnan rasdaşdım.

**NÜNÜX'** (Naxçıvan) – aciz. –Elə nünüx'dü ki bı kişi, əlinnən bir iş gəlmir.

**NÜRSƏ** (Ordubad) – kotana qoşulmuş öküzlərin boyunduruğu üstündə oturub onları sürən adam. –Nürsə yoxdu, cüt işdəmir.

**NÜSNÜS** (Ordubad) – gilas növü.

**NÜTVƏ** (Aza) – nəsil. –O tayfanın nütvəsi kəsilib, indi yoxdu.

**NÜYƏN** (Hacıvar) – mövsüm. –Hacı, əlli manat mənə əl tut, barama nüyənində verərəm.

## Oo

**OBA** (Biçənək, Şada) – dağda köçün düşdüyü yer. –Böyün obadan gələn var idi.

**OBAŞ** (əksər şivələrdə) – səhər tezdən, dan yeri ağaranda. –Obaş bi də baxdım bıdı qonşu qapını qırır.

**OCAX** (Keçili) – tayfa, nəsil. –Bizim ocaxdan elə bir mən qalmışam, ay bala.

**OCAX BAĞLAMAX** (Şahbuz) – bir toxumdan bir neçə sünbül əmələ gəlməsi. –Sümbüllərimiz ocax bağlıyıp.

**OĞAL** (Şərur) – o yan, o tərəf. –Mən yaxınnaşanda gördüm ki, o oğaldan gəlir.

**OĞAL-BUĞAL** (Şərur) – o tərəf-bu tərəf. –Pərigilin toyuğu itmişdi, arvad oğal-buğala qaça-qaça qalmışdı.

**OĞURSAX** (Biləv) – balası ölmüş heyvan.

**OX** (Şahbuz) – hananın yan ağaclarını birləşdirən hissə. –Ox dümbələnüz ola gərəx'.

**OXLAQQIRAN AYI** (Badamlı) – payızın son ayı. –Oxlaqqıran ayı noyabıra deyirix'**.**

Oxlaqqıran//oğlaqqıran Zəngibasar, Borçalı və Qazax şivələrində baharın ilk ayı mənasında işlənir (3, s.380).

**OXLOVDAŞI** (Naxçıvan) – üstündə xəmir yaymaq üçün gildən düzəldilmiş yuxayayan. –Oxlovdaşında xəmir açıllar.

**ONQA** (Saltaq) – dik. –Bu günnərdə mənim aşığım onqa durup.

**ORAŞIN** (Tivi) – qadınların başa bağladıqları pul tikilmiş qabaqlıq.

**ORTABAB BEÇƏ** (Biçənək) – nisbətən az arıdan ibarət olan yeni arı ailəsi. –Ortabab beçədə arı az olur.

**OSAL** (Keçili) – tələsmədən iş görən. –Osal adamın dünya yansa bir bağlam otu yammaz.

Bu söz Bərdə, Cəbrayıl, Şamaxıda tənbəl, o:sallıx Oğuz və Tovuz şivələrində səhlənkarlıq, tənbəllik mənalarında işlənir (3, s.382).

**OTUXAN** (Külüs) – ot yeməyə başlayan bir-iki aylıq quzu. –Ta quzular otuxuplar.

**OTURAX İSDOLU** (əksər şivələrdə) – oturmaq üçün istifadə edilən stul. –Uşax tez ayağa durup oturax isdolunu qonağın altına itələdi.

**OTURUŞMAX** I (əksər şivələrdə) – yaşlaşmaq, yaşa dolmaq. –Oturuşannan sohra Kərəm birəz ağıllandı.

**OTURUŞMAX** II (Şahbuz) – sönmək. –Ta təndir oturuşup.

**OV//AV** (Babək, Şahbuz, Şərur) – dağ qoçu. –Bi dənə av vırmışdılar dağda.

**OVRA** (Camaldın) – xəmiri açmaq üçün onun üzərinə vurulan un. –Ovrasız aşsan yapışar xəmir.

**OVSANAT** (Babək, Culfa, Naxçıvan) – halal olmaq, qəbul olmaq. –Get şükür elə ki, bir tikə çörəyin tüşüp ovsanata.

**OVZAR** (Dəstə) – rəndələnən taxdanın tərpənməməsi üçün dəzgaha vurulan taxta parçası.

**OYMA** (əksər şivələrdə)//**OYMƏ** (Kotam) – paltar, don. –Qaynənəmə bir qəşəx' oyma almışam bayramlıx.

**OYMAX** (Culfa, Ordubad) – üskük. –Nənəm diyərdi ki, arvad əyər oymaxnan paltar tix'mirsə onnan arvat olmaz.

## Öö

**ÖDDƏX'** (əksər şivələrdə) – qorxaq. –Öddəx' adam həylə işdərin öhdəsinnən gələmməz.

**ÖDDÜŞMƏX'** (Şahtaxtı) - əleyhinə çıxmaq. –Onsuz nə desən Mirhüsen kişi onnan oddüşəcəx'.

**ÖFGƏ** (Naxçıvan, Ordubad) – ağ ciyər. –Ösgürməx'dən yazığın öfgəsi az qaldı partdasın.

**ÖGÜL** (Düylün) – qoyunlar çöldə otlayarkən onların keşiyini çəkən erkək qoyun. –Ögül eləbilginən ki, sürü:n qaravılıdi.

**ÖHD ELƏMƏX'** (Qarxun) – bəs eləmək, kifayət eləmək. –Bir qazan xorəx' eləmişdim, öhd eləmədi.

**ÖHRƏMƏ** (Naxçıvan) – tez-tələsik, qaça-qaça. –Çətinidi ki, İboşa bir iş tafşırasan, öhrəmə gedər o:n dalınca.

**ÖKÜZ ÜRƏYİ** (Şərur) – gilənar növü. –Öküz ürəyinin giləlsəri iri-iri olur.

**ÖLƏT** (Qazançı, Nursu) – zəif, gücsüz, qoca. –Ölət adamın halı nə qayırır ki, bir belə otu daşısın.

**ÖLƏZİMƏX'** (Naxçıvan) – zəifləmək, sönmək. –Baxdıx ki, çırax yavaş-yavaş öləziyir, dedix' ta durax yatax.

**ÖLÜŞGƏMƏX'** (əksər şivələrdə) – solmaq, büzüşmək. –Noxoşduxdan uşağın gözdəri ölüşgüyüp.

Bu sözün Cəlilabadda ölüşgəməy, Şəmkirdə ölüşməx', Salyan şivələrində ölüksəməg variantı işlədilir (3, s.387).

**ÖMÜRBİLLAH** (Naxçıvan)//**ÖMRƏSÜRƏ** (Milax) –

ömrünün sonuna qədər. –Mə:m dədəm ömürbillah bizim dalımızca gəzip.

**ÖRƏNNƏMİŞ** (Teyvaz) – otu otarılmış yer. –Örənnəmiş yerdə ta ot olmur, orda heyvan ac qalar.

**ÖRKMƏX'** (Aza, Dırnıs) – heyvanın qorxub qaçması. –Qoyunnar bını görən kimi örküb qaçdı.

**ÖRÜŞ** (Şahbuzkənd) – mal-qaranın daimi otlaq yeri. –Ötürürüx' örüşə otduyullar orda.

**ÖTGÜN** (Naxçıvan) – sözü keçən. –Qaynənəm elə zoddu arvadıydı ki, sözü ötgünüydü.

**ÖYCÜL AT** (Şahbuz) – həmişə atlardan qabağa düşən at. –Həsənin atı öycüldü, il-müdam qabaxda o gedər.

**ÖYƏŞ//ÖYƏC** (Babək, Kəngərli, Şahbuz, Şərur) – nəsil artırmaq qabiliyyəti olmayan üç illik erkək.

**ÖYƏYANA** (Naxçıvan) – bərk sancan balaca zəhərli həşərat.

**ÖYNƏ** (Düdəngə) – dəfə, kərə. –Gündə neçə öynə gəlir dədəsinə baş çəkir.

**ÖYSUMAT** (Aşağı Qışlaq, Yuxarı Qışlaq) – qara çörək. –Öysumat qara unnan olur, əməancax daddı olur.

**ÖZƏMƏX'** (Naxçıvan) – kəsilmiş əriştəni xəlbirin üstündə həm nazildib uzatmaq, həm də ununu təmizləmək. –Ərişdəni sərməmişdən qabax özəməx' lazımdı ki, çox unnu qalmasın.

## Pp

**PAÇA** (əksər şivələrdə) – iki ayağın arası. –Şalvarın paçası partdıyıp.

**PAXIR** (Göynük) – nöqsan, eyib. –Nə paxırı var aş de, qoy hammı bilsin.

Bu söz Salyan şivələrində də eyni mənada işlənir (3, s.391).

**PAK** (Sirab, Şərur) – qorxu, çəkinmə. –Heş kimin heş kimnən pakı yoxdu.

**PALANDUZ//PALANKEŞ** (Şahbuz) – palan düzəldən sənətkar. –İndi ta palanduz az-az olar.

**PALTARPİŞDİ** (Babək, Culfa, Şahbuz, Şərur) – toydan əvvəlki gün oğlan evinin qız evinə qıza alınan paltarları aparması. –Paltarpişdidə gəlinə nə alınıpsa hammısın gösdəririx' camahata.

Bakı dialektində bu söz paltarkesdi, Şamaxıda paltarkəsdi variantında qeydə alınmışdır (3, s.392).

**PAMƏL-YAMƏL** (Naxçıvan) – başdansovdu, tələm-tələsik. –Bir iş görəndə gərəx' paməl-yaməl eləmiyəsən.

**PAMPACA** (Culfa) – qapaz. –Heyvannar hərəsi tülkü:n başına bir pampaca saldılar.

**PAMPAX** (Sələsüz) – zəif, bacarıqsız. –Pampax adam əlinnən iş gəlmiyən adamdı.

**PAPAĞAPARAN** (Şahbuz) – gəlini gətirən dəstədə oğlan evinə birinci çatan-muştuluqçu. –Papağaparana qaynənə, qaynətə xələt verir.

**PAPAXLANMAX** (əksər şivələrdə) – boy atmaq, böyümək. –Baxdım kin, iki-üş günün içində buğda nətər papaxlanıp.

**PARAĞA** (Unus) – dağ ətəyi, dağ döşü. –Parağada hələ qar var. –Bizdərdə dağın ətəyinə, dağın döşünə parağa də:llər.

**PARAXLIX** (Kükü) – arı saxlanılan yer, arı səbətləri olan yer. –Batabatın yan-yörəsi pütün paraxlıxdı.

**PARÇ** (Naxçıvan) – qulplu su qabı. –Parç su işməx'dən yanadı.

Parç eyni mənada Zəngilan, Cənubi Azərbaycanın Zəncan şivəsində də işlənir (7, s.300).

**PASAX** (əksər şivələrdə) – çirk. –Dur get əl-əyağı:n pasağın təmizdə.

**PATCAH ARI** (Keçili, Külüs) – arı ailəsinə başçılıq edən ana arı. –Patcah arı o birilərdən yekə olur.

**PATIL** (Kırna) – içinə süd tökülən mis qab. –Patılı ən çox çobannar işdədir.

**PAYINA SU** (Babək, Ordubad, Şahbuz) – suvarma zamanı kənarlara axan artıq su. –Payına su da qırax-bucağa axan, itgiyə gedən sudu.

**PAZI** (əksər şivələrdə) – şirin çuğundur. –Bı ilki pazı bildirkinnən xeylax yaxcı olub.

**PAZIBAŞI** (Naxçıvan, Şıxmahmud) – çuğundur yarpağı. –Pazıbaşını dovğuya vırırıx.

**PENCƏR** (əksər şivələrdə) – yeyilən hər cür göyərti. –

Həyətdə hər cürə pencər əx'mişəm.

**PERİX'MƏX'** (Qıvraq) – didərgin düşmək, öz yerindən dağılmaq. –Quşdara dən töx'müşdüm yeyirdilər, maşın gəldi perix'dirdi.

**PEŞƏRƏMƏX'** (Şərur) – axtarmaq. –Sə:rdən hər yeri peşərəmişəm.

**PEŞƏRİ** (Kırna) – taxıl biçildikdən sonra tökülmüş sünbülləri toplamaq. –Piçinnən sora yerə tökülənnəri yığmaxdı peşəri.

**PEYDƏRPEY** (Saltaq) – həmişə, tez-tez. –Bı uşax peydərpey naxoşdu.

**PEYĞƏMBƏRİ** (Boyəhməd) – qarğıdalı. –Bizdə məkə də deyillər, peyğəmbəri də.

**PEYVƏS//PEYVAS** (Maxta, Naxçıvan) – peyvənd, calaq. –Göycəni peyvas eliyəndə qəşəx' olur.

**PEZİ//PEZİQULU** (Dəstə) – yekə, iri. –Həsənalı bir yekəpər kişidi, una gora cəməhət una Pezi Həsənalı deyir.

**PƏJMÜRDƏ** (Naxçıvan) – dağınıq, pərişan. –Döyüşdən gəlirsən, üsdün-başın niyə belə pəjmürdədi?

**PƏKƏHKƏN** (Kükü) – pətək. –Biz arıya pətəx' də deyərıx, pəkəhkən də deyərix'.

**PƏLƏBAŞ** (Ordubad) – ağılsız. –Gözdə gör hələ bı pələbaş nə deyəcax.

**PƏLƏQULAX QOYUN** (Sədərək, Şahbuz, Şərur) – iri, enli qulaqlı qoyun. –Pələqulax yanı qulaxları yekə.

**PƏLƏMƏPÖTÜR** (Düdəngə) – çirkin. –Qapı açılanda pələməpötür bir adamın içəri girdiyini görüb hamı susdu.

**PƏLƏMÜRDƏ** (Culfa) – iri bədənli, kök. –Pələmürdə adamın içi boş olur, gündə noxoşduyur.

Qax, Mingəçevir, Şəkidə də bu söz eyni mənada işlənir. Quba dialektində pələmürdi ulmax birləşməsinin taqətdən düşmək mənası da var. Maraqlıdır ki, Bakı, Quba dialektlərində pələmird//pələmürd sözləri çox zəif mənasında qeydə alınmışdır (3, s.398).

**PƏLƏVAR** (Qarabağlar) – talvar. –Pələvarın altda simavar salmışam.

**PƏLMƏ** (Keçili) – azca tutqun hava, bürkü. –Yayı şəhərdə pəlmə olur.

**PƏL VIRMAX** (Naxçıvan) – işi pozmaq, mane olmaq. –Gəldi işimizə pəl vırdı.

**PƏNBƏX'** (Şahbuz) – corab toxumaq üçün baş barmaqla çeçələ barmağa kələfdən sarınan ip toplusu.

**PƏNDAM OLMAX** (Naxçıvan) – çox yemək. –Ləvinbələvin xorəx'lər pişirmişdi, rəsmi pəndam oldum.

**PƏNİTDİ** (Aza, Nüsnüs) – sarılıq xəstəliyi. –Biz sarılıx xəsdəliyinə pənitdi deyirıx.

**PƏRÇİM ELƏMƏX'** (Vayxır) – bir əşyanı başqa bir şeyin içərisinə zorla yerləşdirmək. –Qazan işqaba girmirdi, zornan pərçim elədim.

**PƏRƏN-PƏRƏNƏ TÜŞMƏX'** (Babək, Naxçıvan) – dağlımaq, bir yerə yığa bilməmək. –Bi də görəm ki, toyux-cücə

nətə:r pərən-pərənə tüşüp.

**PƏRƏVAN** (Kükü) – pərdilərin başı qoyulan eyvan boyu vurulan uzun tir. –Pərəvanı qaldır haçanın üsdünə qoy.

**PƏRPƏR** (Ordubad, Şərur) – kəpənək. –Bizim baxcada çoxlu pərpər var.

**PƏRPƏRƏN//PƏRPƏRAN** (əksər şivələrdə) – yabanı bitki. –Pərpərəni qəynədip qatıxlıyarıx.

**PƏRSƏNGİ YOX** (Naxçıvan) – hövsələsiz, sözünün dalını qabağını bilməyən. –Musanın çox pərsəngi yoxdu ha, bi də baxdın söydü.

**PƏRŞUM** (Şahbuz) – səpindən əvvəl şumlanmış, səpin üçün yenidən şumlanan sahə, ikinci şum, yumşaq şum.

**PƏRTOV** (Kültəpə, Zeynəddin) – ağzının danışığını bilməyən, nə gəldi danışan adam. –Kişi birəz ağızdan pərtovdu, söyüş-zad söyür.

**PƏRVƏRİ** (Nursu) - əldə kökəldilmiş qoyun. –Gözdüyürəm oğlumgil gələndə pərvərini kəsəcəm.

**PƏSAB** (Ordubad) – çay puçalı. –Çaynik pəsabnan doludu.

**PƏSƏ-PÜSƏ** (Tumbul) - əşyalar. –Pəsə-püsəsin də yığışdırdı getdi.

**PƏSNİX'** (Əylis) – başmaq dabanının üstü, başmaq dabanına tikilən gön parçası.

**PIĞI** (Hacıvar) - ətyeyən çöl quşu adı. –Pığıdan tərlan olmaz.

**PIXMAX** (Badamlı) – çox yemək, tox olmaq. –İndicə pıxıp gəlməmisən qonaxlıxda?

**PIRSIMAX** (Naxçıvan) – pərt olmaq. –Minaya ifallıdı, bir söz də diyən kimi pırsıyır.

**PIRTDAŞIX** (Ərəfsə) – qarışıq. –İndi ferma:n işi tüşüp pırtdaşığa.

**PISIX** (Keçili) – alçaqboy adam. –Pısıx boyu çıqqılı olan adamdı.

**PISIM-PISIM** (Payız) – pusa-pusa, pıçıltı ilə. –Elə də pısım-pısım gəlip heş annamamışam.

**PITRAX** I (əksər şivələrdə) – çox bar gətirmiş, dolu. –Bı il bolluxdu, şükür, ağaşdar hammısı pıtraxdı.

**PITRAX** II (Çərçiboğan, Naxçıvan) – tikanları olan və bərk yapışan yabanı bitki. –Heyvannarın üsdü teyxa pıtraxdı.

**PİLƏ** (Ordubad) – yumşaq. –Bulağın suyu əllərimi pilə kimi eləmışdı.

**PİLTAN** (Vənənd) – yabanı bitki, uşqun.

**PİNƏ ELƏMƏX'** (Naxçıvan) – lağ eləmək. –Pinə eləmə, ay bala, öz başıva gələr.

**PİRİNƏ ŞILLAĞ ATMAX** (Ayrınc) – nəyi isə bəyənməmək, qane olmamaq. –Adam naşükür olup pirinə şıllağ atmaz.

**PİŞDÖYMƏCİ** (əksər şivələrdə) – pendir və lavaşı ovub azca su səpməklə qarışdırılıb hazırlanan yemək. –Pişdöyməci eləmişəm qəşəx'.

**PİŞMƏCƏ** (Naxçıvan) – istidən əmələ gələn yara, qızartı. –Yazıx körpə pütün pişməcə olup isdidən.

**PİŞPİŞƏ** (Tivi) – yabanı bitki. –Pişpişə arağı tafşırmışam gətirələr.

**PONÇAĞ** (Oğlanqala) – qotaz. –Poncağı qoçun boğazına bağlıyırıx.

**POPULLANMAX** (Uzunoba) – böyümək. –Nəvəm birəz popullanıp.

**POR BEÇƏ** (Biçənək, Keçili) – sayca otuz-qırx mindən artıq arıdan ibarət olan cavan arı ailəsi.

**PORTDAMAŞ//PÖRTDAMAC** (Şahbuz) – südə çörək doğrayaraq qaynatmaqla hazırlanan yemək. –Portdamaş çoban xorəyidi da, ən çox onnar eliyir.

Qarakilsə şivələrində də portdama eyni mənada işlənir (3, s.407).

**POSDAL** (Şərur) – yüngül ayaqqabı, çust. –Posdalı qoca arvatdar çox geyir.

**POZMAX** (Naxçıvan, Ordubad, Şərur) – dərib qurtarmaq. –Gedax, mevlığı pozax. –Ta bosdanı pozmuşam.

**PÖHRƏ** (Vələver) – ağacın dibindən təzə çıxan kiçik budaqlar. –Armudu budamışdım, təzdənnən pöhrəliyip.

**PÖŞƏLƏMƏX'** (Cəhri)//**PÖŞDƏMƏX'** (Naxçıvan) – toyuğun üzərinə qaynar su töküb tüklərini təmizləmək. –Qoy toyuğu pöşdüyüm kabap eliyəx'.

**PURNƏ//PÜRNƏ** (Ordubad) – yarpız. –Uşaxları dağa göndərmişəm, purnə yığmağa. –Soyux dəyən adama purnə çayı

mənfəyətdidi.

**PURUX** (Ordubad) – qatırquyruğu, yabanı bitki adı. – Dağdan purux dərdim.

**PUSTAN** (Məzrə, Nəsirvaz) – yetişib tağdan özü qopan yemiş. –Pustan qavın şirin olur.

**PUSTMAHİ** (Ordubad) – tora bənzər baş örtüyü. – Pustmahini arvatdar yayda örtür ki, o sərin olur.

**PUSUS** (Cəhri) – gildən hazırlanmış çıraq. –Qabaxda pususu palçıxdan qayırardılar.

**PUŞQAX** (Bist) – künc. –İndi qocalıp qalıp puşqaxlarda, baxan yoxdu.

Basarkeçər, Çəmbərək, Tovuz, Şuşa şivələrində də puşqax künc mənasında qeydə alınmışdır (3, s.409).

**PUŞQU** (Qaraçuq, Naxçıvan) – kiçik mişar. –Puşqunu gəti bı putaxları buda.

**PUŞTAXDA** (Külüs, Şahbuzkənd) – arı səbətinin uçuş qapısına qoyulan balaca taxta parçası.

**PÜFƏ** (Tivi) – yem. –Püfəni mala verəllər.

**PÜFƏRƏX'** (Xoşkeşin, Unus) – tələsik. –Bizim hər işimiz püfərəx'di.

**PÜX'** (əksər şivələrdə) – içi boş, xarab. –Turpun hammısı püx' çıxdı.

**PÜRÇÜX'** (Naxçıvan) – dolaşıq, qarma-qarışıq iş. – İndi isdiyir öz pürçüyün ört-bas eləsin. –İşim yaman pürçüyə tüşüb.

**PÜRSƏX'** (Naxçıvan)//**PÜSƏX'**(Babək) – soyuq havada göydə uçuşan qar dənəcikləri. –O qədər soyux olup ki, sə:rdən pürsəx' yağır.

**PÜSDƏQARIN** (Naxçıvan) – az yeyən. –Niyə belə püsdəqarın olupsan ki?

**PÜSGÜ** (Badamlı, Şada) – arıları pətəkdən uzaqlaşdırmaq üçün pətəyə tüstü verən xüsusi qurğu. –Püsgüynən tüsdü veririx' kin, arılar çəkilsin, irahat işdiyəx'.

**PÜSÜS//PUSUS** (Cəhri) – mazutla yanan gildən düzəldilmiş çıraq. –Püsüs geşmişdə olurdu.

**PÜŞ QOYMAX** (Şahbuz) – sınmış gil qabı düzəltmək. –Əngənəx' qırılıpdı gərəx' verəm püş qoyduram.

## Rr

**RAQAQQA** (Naxçıvan) – uşaqların haça çubuqdan düzəldib uclarına rezin bağlayaraq quş vurmaq üçün işlətdikləri qədim sapanda bənzər əşya. –Raqaqqa bizim vaxdımızda varıydı, indiki uşaxlar heş bilillər ki, raqaqqa nədi?

**RAMKA** (Biçənək) – üzərinə şan yapışdırmaq üçün hazırlanmış çərçivə. –Yaxcı ramka almışam.

**RASIX//İRASIX** (əksər şivələrdə) – qaşa çəkilən rəng. –Əvvəllərdə belə qələm-zad yoxuydu ki, rasıx çəkirdix' qaşımıza.

**RAYBARAY** (Əylis, Vənənd) – hərdəmxəyal, sözünün üstündə durmayan, fikrini tez-tez dəyişən. –Onun sözünə çox da inanma, o, raybaray adamdı.

Bakı dialektində də bu söz eyni mənanı bildirir (3, s.412).

**RAYINI BİLMƏX'** (Şahbuz) – məsləhətləşmək. –Qoy bir anamın da rayını biləx'.

**RƏX'DƏN** (Nürgüt, Üstüpü) – qənd torbası. –Bizdər rəx'dəni parçadan tikərıx.

**RƏVƏND** (Ordubad) – yabanı bitki.

**RİŞBABA** (Sədərək, Şahbuz) – üzüm novü.

**RÜFTƏNƏ** (Nusnus)//**RƏFƏTƏ//İRƏFƏTƏ** (Babək, Culfa, Şahbuz, Şərur)//**RİFDƏNƏ** (Vənənd) – təndirə çörək yapmaq üçün cavan budaqlardan toxunmuş və üstünə parça çəkilmiş alət. –Rüftənə əppəx' yapandı.

**RÜKƏM** (Ordubad) – zökəm. –Elə rükəm olmuşdum, hələ düzəlməmişəm.

## Ss

**SAĞANAX** (Kırna) - ələyin kənarının dairəvi taxta hissəsi. –Sağanax sındı qaldı əlimdə.

**SAĞIR MAL** (Dəmirçi, Milax) – sahibsiz qalan əşya. – Bir şeyin yiyəsi olmur ha, odu sağır mal.

**SAHABİ** (Sədərək) – üzüm növü. –Sahabi qızarıbdı.

**SAJAYAĞI//SACƏYAĞI** (Şahbuz) – üstünə sac qoymaq üçün dəmir. –Sacayağını sacın altda qoyullar.

**SAKKAT** (Ərəzin) – bədxasiyyət, tərs adam. –Əli kişi sakkat adamdı.

**SAQQABA** (Ordubad) – yay fəslində suyu sərin saxlamaq üçün qazılmış quyu. –Bizim həyətdəki saqqaba çox dərindi.

Sabirabad şivələrində də bu söz quyu mənasında işlənir (3, s.416).

**SAQQAR AT** (Şahbuz) – başı ağ zolaqlı at. –Saqqar at qardaşımındı.

**SAQQAR QOYUN** (Culfa, Şahbuz) – başında ağ tükü olan qoyun. –Familin sürüsü xəlis saqqar qoyundu.

**SAL** (Babək, Culfa, Ordubad) – qəbir üstünə qoyulan baş daşı. –Atamın qəbrinə sal qoymamişəm.

**SALAVATDAMAX** (Naxçıvan) – bir şeyi bol su ilə yumaq. –Sofudu, yuyannan sora neçə sahat da salavatdıyır suyun altda.

**SALBƏND** (Ordubad) – daş döşənmiş küçə. –İndi

pütün yollarımız salbənddi.

**SALEH** (Boyəhməd) – sakit, dinc, sözəbaxan. – Giyəvim saleh adamdı.

**SALIX** (Biləv, Daylaqlı)//**SALIĞ** (Ərəzin) – xəbər, soraq. –Aşıx Hüseyin bının salığını çoxdannan eşitmişdi.

**SALMA ÇAY** (əksər şivələrdə) – şirin çay. –Səhərin yeməyi salma çaynan pənir çörəx'di.

Basarkeçər, Cəbrayıl, Göyçay, Qax, Zəngilan şivələrində də bu sözün eyni mənası var (3, s.418).

**SALMANCA** (Naxçıvan) – yeməli yabanı bitki adı. – Salmancanı qavırıllar, üsdünə də yumurta vırıllar.

**SAMBAĞI//SİNƏBAĞI** (Nursu, Şada) – qoşqu heyvanını boyunduruğa bağlamaq üçün ip. –Cüt qoşanda öküzün boynuna qoyulan sinəçini bağlayan ipə sinəbağı deyərıx.

**SAPAX** (Ərəzin) – meyvənin saplağı. –Nətər ki, sapaxsız meyvə yoxdu, həylə də eyipsiz adam yoxdu.

**SAPILCA** (Nursu) – tava. –Sapılca qalıp ocaxda qaralıp.

**SAPQINNAMAX** (Dəmirçi) – oğurlamaq. –Şlanqı sapqınnıyıp geçip dalına, vermir.

**SAR** (Ordubad) – ağac adı. –Onnar bir sar kəsmişdlər.

**SARHA** (Nüsnüs) – sahə. –Dədəm gedip sarhıya, işdiyə.

**SARIBAŞ** (Babək, Naxçıvan) – heyva növü.

**SARIQƏYİŞ** (Babək, Culfa) – dörd cüt öküz qoşulmuş

kotanda üçüncü cüt öküzlər.

**SARISIN UDMAX** (Babək, Naxçıvan) – qorxmaq. – Doxduru görənnən bı ta sarısın udmuşdu.

**SARI YAĞ** (əksər şivələrdə) - ərinmiş qoyun yağı. – Bizdə ancax sarı yağ işdənər, tükan yağın heş kim yeməz.

**SATIL** (Sədərək) – vedrə. –Paltarrarı suya çəkib yığmışam satıla.

**SAVA** (Kükü) – vaxtı keçmiş, sona qalmış iş. –Bıilləri əkin sava oldu.

**SAVACAX** (Biçənək) - əsas kanaldan bir neçə arxa su paylanan yer. –Bir vaxdı bı savacaxda qırqın olurdu su üsdə, indi şükür suyumuz boldu.

**SAVDA** (Boyəhməd) - əlin dərisi üzərində əmələ gələn qoturluğa oxşar xəstəlik.

**SAVI//SAVIYA QALMAX** (Keçili) – qısır qalmaq. – Bıyıl bizim inəx' savıya qalıb, doğmayıb.

**SAVLAMAX** (Daylaqlı, Kükü) – kəsici alətləri itilədikdən sonra kənarlarını düzəltmək. –İtiliyənnən sora pıçağı savlamax lazımdı.

**SAVMAX** (Naxçıvan) – keçirmək, ötüşdürmək. –Hələ indi-indi naxoşduğu savmışam.

**SAVRIX MAŞINI** (Tivi) – taxıl sovuran maşın. – Savrıx maşını da bı vırhavırda dəyanıp.

**SAYA** (Keçili) – sadə, gülsüz. –Saya parça isdiyirəm yorqana üz eləməyə.

**SAYA ƏLCƏX'** (Nehrəm) – yalnız bir barmaqlığı olan əlcək. –Saya əlcəyi ən çox çıqqılı uşaxlar taxar.

**SAYBEÇƏ//SEYBEÇƏ** (əksər şivələrdə) – bir kökdən əmələ gələn çox sünbül. –Bı il buğda saybeçədi.

**SAY ELƏMƏX'** (Şərur) – görmək. –Gördüm say eləmədin, mən də keşdim getdim.

**SAYIR-BIYIR DANIŞMAX** (Kolanı, Kükü) – sayıqlamaq. –Kişi ta özün bilmir, sayır-bıyır danışır.

**SAYSEŞMƏ** (Culfa) – hörmətli, sayılıb-seçilən. –Fikrətin dədəsi kəndin sayseşmə kişilərinnəniydi.

**SAYTAL** (Şahbuz) – cins, məhsuldar heyvan. –Təzə saytal qaramal gətirmişix'.

**SAZAX** (əksər şivələrdə) – günəşli, amma çox soyuq hava. –Böyün mökgəm sazaxıydı.

**SAZDAMAX** (Nehrəm) – hazırlamaq, düzəltmək. –Maşını sazdıyıram ki, yola cıxacıyıx.

**SEFDİLİM//SEFTİRİM** (Dəstə, Naxçıvan) – səfeh. –Sefdilim adamdı da, ağlı yox, huşi yox.

**SEİS//SEYİS** (Ləkətağ) – dörd yaşdan yuxarı buruq təkə. –Keçi dört yaşdan geşdisə ta ona seis deyillər.

**SELAV** (Kolanı, Nehrəm)//**SELOV** (Ordubad) – dərə, sel yuyan yer. –Əymizin yanındəki selov o ili sel gələnnən sora oldi.

**SELİM** (Şərur) – çok dik dağ.

**SELLƏMƏ** (Dəstə) - əkin yerinin çox su ilə

suvarılması. –Hər yeri eliyip selləmə.

**SESƏ//SESON** (Dırnıs) – mişar. –Sesəynən taxda doğrillər.

**SEŞMƏ** I (Şərur) – qırma.

**SEŞMƏ** II (Naxçıvan) – dağınıq, hər şeyin ortada olması. –Bı nədi bıraların günü, seşmədi.

**SEVİD** (Nehrəm) – söyüd. –Bizim yol pütün sevid ağacıdı.

**SEYFİ** (Külüs) – qoz növü.

**SEYİN//SEHİN** (əksər şivələrdə) – tas, dərin qab. –Seyin dərin qabdı, içində qartop, soğan soy, nə isdəsən yığ.

**SƏCƏLƏ** (Ordubad) – cavan adamın qəbri üzərinə sancılan söyüd ağacı.

**SƏDDƏ** (Ordubad) – böyük çillənin sonunda xalq arasında qeyd olunan bayram. –Səddəni əzəldən böyüx' çillə çıxanda qeyd eliyərdıx.

**SƏDƏMƏ** (Naxçıvan) – zərər. –İşin olmasın, sədəməsi sənə dəyər axırı.

**SƏKMƏX'** (Türkeş) – naxışın ilk ilmələrini vurmaq. –Anam gəzməsini səkir sora biz də araları doldururux.

**SƏKİ** I (Şahbuz) – tövlədə yatmaq üçün yerdən bir az hündür sahə. –Səkidə qışda nökər-nayıp yatarmış əvvəllər.

**SƏKİ** II (əksər şivələrdə) – guya ki. –Səki gəlip ma: köməx' eliyəciydi. –Gəldilər şəklimi çəkdilər, səki kinoya verəcəx'lər.

**SƏKİL** (Şahbuz) – ayaqlarında ağ tükü olan at. –Bir səkil atdı, qaçanda qışdarın görməx' olmur.

**SƏKÜ** (Şərur) – evin qabağında ayaqqabı çıxarılan yer. –Başmağıvı səküdə çıxart gəl.

**SƏQƏRXANA** (Ordubad) – üstü örtülü çeşmə. –Uşəği göndər qəşsın səqərxanadan su gətsin.

**SƏQQƏ** (Naxçıvan) – uşaqların oyunda istifadə etdikləri yastı, balaca daş. –Səqqəni atıllar, sora birqışdı oynuyullar.

**SƏQQƏT** I (Saltaq, Teyvaz) – uçurum. –Dədəmgilin kəndinə gedən yol səqqətdi.

**SƏQQƏT** II (Çərçiboğan, Naxçıvan) – şikəst, əlil. –Fərzalı:n oğlu o vaxdı Sədərəx'də döyüşürdü, elə odu-bıdı səqqət qaldı yazıx bala.

**SƏLAMI** (Dəstə)//**ŞƏLƏLİ** (Naxçıvan) – şaftalıya oxşayan gözəl iyli meyvə. –Səlamı peyvas meyvədi da.

**SƏLƏK** (Naxçıvan) – pendir küpəsinin ağzına bağlanan heyvan dərisi. –Sələyi pənir, yağ, doşap nə olsa onun ağzına bağlıyırıx.

**SƏLƏSOVLAMAX** (Naxçıvan)//**SƏRƏSAVLAMAX** **(**Şahbuz) – hamarlamaq. –Torpağı sələsovlamışıx.

**SƏLLƏMƏ** (Naxçıvan)//**SƏLİMİ** (Ordubad) – özbaşına adam. –Elə bilginən səlləmə atdı, hara gəldi baş alır gedir.

**SƏLLƏMƏ BURAXMAQ//SELLİMİ** (Ordubad) – suyu özbaşına buraxmaq. –Əhməd suyu zəmiyə sellimi

buraxıbdı.

**SƏMƏ** (Naxçıvan) – səfeh, axmaq. –Qız elə bil səmədi, sözü də başa tüşmür.

**SƏMİZ//SƏMRİMİŞ//SEMİZ** (Culfa, Ordubad) – kök, gümrah heyvan.

**SƏNGƏH** (Ordubad) – lavaş şəkilli çörək. –Səngəh də lavaşa oxşuyur elə.

**SƏNGİMƏX'** (əksər şivələrdə) – ara vermək, azalmaq. –Diyəsən yağış birəz səngidi axı.

**SƏR** (Babək, Culfa, Şahbuz) – zənciri boyunduruqda hərəkət etməyə qoymayan dəmir hissə. –Sər qoymaz zəncir dərbəşə.

**SƏRAB** (Kotam) - əkinə verilən üçüncü su. –Sərabdan sonra ta buğdə qaraul gösdərməyə başdiyəcax.

**SƏRÇİ** (Şərur) - əkin yerinin qurtaracağında suyun başqa sahələrə keçməməsi üçün qazılmış kiçik arx. –Sərçi imkan vermir ki, su axsın o biri yerə.

**SƏRDƏN//SƏRDAN** (Vayxır) – qoyun sağlan yer. –Heyvanı sərdəndə sağıllar. –Keçən il sərdanda beş yüz sağmal qoyun sağdırdım.

**SƏRXOV** (Biçənək) – səpindən sonra sahədə görülən iş.

**SƏRKAR** (Gömür) – keçmişdə varlıların sürüsünə cavabdeh şəxs, baş çoban. –Sərkar keşmişdə varıydı, indi ta hərə öz heyvanına ancax baxır.

**SƏRLİ** (Ordubad) – kobud, qaba. –Sərli adəmnən mə:mki tutmaz.

**SƏRMƏ** (Naxçıvan) – boyunbağı. –Nənəmin bir qədimi sərməsi var.

**SƏRMÖHRƏ** (Sirab) – axırıncı möhrə, hörgü.

**SƏRNİC** (Camaldın) – süd sağmaq və qatıq çalmaq üçün iki qulplu saxsı və ya mis qab. –Sərnicdə anam qatıx çalıp.

**SƏRYANDAR** (Axura) – işsiz, bekar gəzən adam. –Beləcə səryandar dolanır illərdi.

**SƏVƏRƏ** (Bist, Qaraçuq, Şərur)//**CƏVƏRƏ** (Nursu, Tivi) – çubuqdan hörülmüş səbət və ya sini. –Səvərə yeka qabdı, nə isdəsən yığ içinə.

**SƏVİNCƏRƏX' OLMAX//SƏVİNCƏX' OLMAX** (Babək, Culfa, Naxçıvan) – sevinmək. –Eşitdim uşaxlar gələcəx', səvincəx' oldum.

**SƏY** (Maxta) – axmaq, dəli, ağılsız. –Bizdərdə çoxdanışan adama də:llər: "Heç ağlı yoxdur, səy kimin danışır".

**SƏYƏN** (Ordubad) – çini yemək qabı. –Səyən içində xorəx' yeməx'dən yanadı.

**SƏYMÜRƏ** (Xanlıqlar) – evin üstünə döşənmiş ağacın kərpiclə hörülmüş ara hissəsi.

**SƏZBARAN** (Qıvraq) – bərk yumurta.

**SIÇANCIX** (Culfa) – qoyunun dırnaqları arasında yara.

–Sıçancıx qoyunun ayağında olur.

**SINIXMAX** (Naxçıvan) – arıqlamaq. –Yazıx arvad üş-dört günün içində sınıxıp.

**SINQIN** (Cəhri) – yaralı. –Səhnənin qəlbi sınqındı, cavannıxdan əri ölüp.

**SIPA** (əksər şivələrdə) – eşşəyin balası, (eyni zamanda söyüş mənasında da işlənir). –Sıpa kimin başın salıb aşağı, adama salam da verməx' isdəmir.

**SIRFA** (Babək, Şahbuz, Şərur) – üzərinə un tökülən və ələnən parça, süfrə. –Sırfanı apar çırp gətgə aç gənə yerə.

**SIRINSIMAX** (Babək, Culfa) – köhnəlmək, qalıb qurumaq, bərkimək. –İşıx geşdi, çöçələr qaldı peşdə sırınsıdı.

**SIRTIX** (əksər şivələrdə) – üzlü, utanmaz. –Həsənəli çox sırtıx adamdı.

**SIRTILMAX** (əksər şivələrdə) – açılışmaq. –Sözü də:ndə diqqətlə qulaq as, sırtılma.

**SIZQI** (Bulqan, Tumbul) – az-az. –Bulağın gözü quruyup, bir sızqı su gəlir.

**SİBİR//SİVİR** (Daylaqlı) – üçillik buruq təkə. –Sibir üş yaşında geçidi.

**SİCİLLƏMƏ** (Naxçıvan, Vayxır) – uzun-uzadı. –Xatalı kimin mən də yubanıram bı da durup sicilləmə danşır.

**SİFDƏ** I (əksər şivələrdə) – birinci, əvvəl. –Sifdə elə bildim mənnəndi.

**SİFDƏ** II (Babək, Culfa) – al-verdə ilk satılan mal. –

Sifdə sənnən, bərəkət allahdan.

**SİFDƏMƏX'** (Naxçıvan) – sümüyün üstündəki bütün əti təmizləmək. –Ətin sifdəmişəm, sümüyün də atıp kələm supu eliyəcəm.

**SİFİRT** (Bulqan, Tumbul) – büsbütün, tamam, xalis. – Bazarda bir ət vardı, sifirt yağdı.

**SİFT** (Aza, Üstüpü) – zirzəmi. –Uşaxlar yoxdular siftdədilər. –Pütün əl-əyağımızı yığmışıx siftə.

**SİL-BATIR ELƏMƏX'** (Babək, Naxçıvan, Şərur) – yox etmək, gizlətmək. –Dədəm hesdəndi bizə ki, mən bilmənəm, nətər eliyirsiz, mən gələnəcən sil-batır eləyin o küçüyü.

**SİLƏBƏSİLƏ** (Naxçıvan) – agzına kimi dolu. – Vedrəni siləbəsilə doldurmusan töküldü üsdümə.

**SİLHMƏ//XANATDANDI** (Keçili) – qayğanaq. – Silhmə elədim kin, uşaxlar çox isdiyir.

**SİLİMSİMƏX'** (Dəstə) – çətinliyə dözmək. –Əli yaman silimsiyən adamdı.

**SİLKMƏX'** (əksər şivələrdə) – çırpmaq. –Səhər gəlin cəvizi silkəx'.

**SİLSİLƏ** (Naxçıvan, Şərur) – qızıl və ya gümüşdən qadın bəzəyi. –Fatmanın başında silsilə vardı.

**SİMSAR** (Bulqan, Cəhri, Naxçıvan) – qohum. –İrbəbə birəz bizə simsardı.

**SİNDİRMƏX'** (Naxçıvan, Nəzərabad) – həzm etmək. –

Hələ yediyimi sindirəmməmişəm. –Pilov ağır xörəhdi, onu sindirməx' çətindi.

**SİNİSAFLIX QOYMAX** (Şahbuz) – işi düzəltmək, yola vermək. –Birtəhər sinisaflıx qoydum getdi.

**SİNNİLİ** (Gömür) – yaşlı. –Sinnili yanı qoca, yaşı çox olan adam.

**SİNOV GETMƏX'//SÜLÜ GETMƏX'** (əksər şivələrdə) – can atmaq, həvəs göstərmək, bir seyi çox istəmək. –Bacım neçə vaxdı sinov gedirdi kətdə əv almaxdan yana.

**SİNSİTMƏK** (Babək, Naxçıvan, Şahbuz) - əziyyət vermək, burnundan gətirmək. –Bir iş görəndə də adamı sinsidirsən sora.

Qədim türk dillərində də sin "şiş, çətin alınan zirvə" mənasında işlənmişdir.

**SİRXİŞ** (Ordubad) – dərman bitkilərindən birinin toxumunun adı. –Xəstəyə sirxiş ver.

**SİRİM** (Badamlı) – çarıq bağı kimi istifadə olunan qaytan. –Sirim enni dəridən olur.

**SİVİŞQULUYA DƏM VERMƏX'** (Babək, Culfa)//**SİVİŞMƏX' (**Naxçıvan) - əkilmək, aradan çıxmaq. –İşi dara tüşəndə görəsən nətər sivişquluya dəm verir.

**SİYƏZƏN** (Keçili, Türkeş) – kisə. –Dünən tükannan bir siyəzən un aldım.

**SİYİDİ VIRMAX** (Naxçıvan, Şahbuz, Şərur) – üşümək. –Getdix' qız əvində siyidi vırdıx, gəldix'.

**SOFU** (əksər şivələrdə) – həddindən artıq təmizkar. –

Anam elə sofudu ki, hər şey o:n canına sinməz.

**SOLXUNCU** (Qaraçuq) – araqarışdıran. –Solxuncular qoysa bınnar yola gedəllər.

**SONQULAMAX** (Dəstə) – diqqət yetirmək, bir şeyə xırdalıqlarına qədər fikir vermək. –Oqqədə sonquladı ki, indi də ta yaş keşdi.

**SORTUX** (Camaldın, Nursu) – pencək. –Get isdolun başınnan sortuğumu gətgə.

**SOSUR** (Naxçıvan) – adama yovuşmayan, özündən başqa heç kimi istəməyən. –Fatmanın qızı sosurdu.

**SOVXA//SOXA** (əksər şivələrdə) – yiyəsiz əşya. – Külüşə denən gəlsin sovxaların aparsın.

**SOVRUX** (Şərur) – döşəkağı. –Anam yatağa sovrux çəx'di.

**SO:SÜZ//SOYSUZ** (Culfa, Ordubad, Şərur) – övladsız, sonsuz. –Tavat xala irəhmətdix' soysuzuydu, oğuldan-uşaxdan heş nəyi yoxuydu.

**SOZALMAX** (Cəhri, Naxçıvan, Şıxmahmud) – getdikcə zəifləmək. –Bı uşax günü-günnən sozalır.

**SÖKƏL** (Naxçıvan) – xəstə. –Allahverdi:n sağ vaxdı nəydi ki, sökəl vaxdı da nə olsun.

**SÖVÜNCƏL OLMAX** (Dırnıs) – sevinmək. – Gələnnəri görən kimi yaman sövüncəl oldun ha.

**SÖZALMA** (Cəhri, Ərəfsə, Kolanı) – qız evindən razılıq almaq. –Sözalmıya üç-dörd ağsaqqalımız, ağbirçəyimiz

gedəllər.

**SÖZDƏŞMƏX'** (Babək, Naxçıvan, Şahbuz) – mübahisə etmək. –Birəz sözdəşmişdix' sora barışdıx.

**SÖZƏYATIM** (Kültəpə, Qahab, Naxçıvan) – sözə baxan, deyilənlərlə razılaşan. –Uşax ki sözəyatım olmadı ha, at getsin.

**SÖZKƏSDİ** (Ağbulaq, Nursu) – toy haqqında oğlan evinin qız evi ilə məsləhətləşməsi. –Sözkəsdidə qız əvi oğlan əvinnən başdıx nə alacax onu də:r, gəlini nə vax aparacaxlar, nə vax paltarpişdi olacax onnarı danışallar.

**SUCUX** (Ordubad) – su, un, şəkər, doşab və ədviyyatlarla hazırlanan və içərisinə qoz ləpəsi qoyulan şirniyyat. –Sucuğu qabda da eliyərıx, belə uzun-uzun da.

**SUDURQA** (Kırna) – qıcolma, spazma. –Uşax gecə sudurqa keçirdip, aparıplar doxdura.

**SUİRƏNGİ** (Babək, Naxçıvan, Şahbuz) – narıncıya çalan qırmızı rəng. –Uşaxlara suirəngi yumurta boyamışam.

**SULTANİ** (Şahbuz) – alma növü.

**SULU** (əksər şivələrdə) – tamahkar. –Sulu adam yanı hər şeyə gözü tüşən adam.

**SULUX** (Didivar, Nəzərabad) – su çox olan yer. –Sulux yer olanda məhsul da bol olur.

**SULUXLAMAX** (Naxçıvan) – yaranın sulanması, şişməsi, qabarması. –Əlim yammışdı, suluxluyup.

**SULUYA** (Badamlı)//**SULİYA** (Teyvaz) – sulu yer,

suvarılan yer. –Suluya yerdə qəşəx' məhsul olur.

**SUMƏXPƏLAN** (Ordubad) – aşsüzən. –Suməxpəlannan düyü süzərıx. –Anam pilovı həmməşə sumaxpalannan süzər.

**SURX** (Ordubad) – günəşin qırmızımtıl şüaları. –Günün surxu qoymur baxam.

**SUVAR//SUVARA** (Şahbuz) – aydın, təmiz danışan adam. –Məm kimi kəkov dəyil ki, suvardı.

**SUYULMAX** (Naxçıvan, Uzunoba) – maraq göstərmək. –Gə xərməni yarı-yarıya əkəx' diyən kimi suyuldu.

**SUYUM** (Kırna) – niyyət. –Suyumun salladı işim düzəlmədi.

**SÜDBAŞI** (Biləv, Bist) – axşamdan səhərə qalan südün səthində əmələ gələn yağ. –Südbaşı ulanda üsdündə uşəxlar işmir.

**SÜDDÜ DƏSDANA** (Naxçıvan) – südlü çörək. –Süddü dəsdana:n xəmirin südnən eliyirix', su vırmırıx.

**SÜLÜ** (əksər şivələrdə) – toxumaq üçün mil. –Nənəm qoymazdı sülüynən toxuyax, deyirdi ajdığ olar.

**SÜLƏX'** (Ordubad, Naxçıvan) – sülənən, qapı-qapı gəzən, avaralanan, birtəhər baş saxlayan, hər şeyə tamah salan. –Çox süləx'olma bala, birəz gözün-könlün tox olsun.

**SÜLƏNMƏX'** (Cəhri) – çox gəzmək, boş-boş gəzmək. –Əsədin oğlu pütün günü bıralarda sülənir.

**SÜMƏX'** (Sirab) – yayda qırxılıb yuyulan yun. –Biri

var güzəm, biri də var süməx', süməx' yayda qırxılır, güzəm payızda.

**SÜMƏX'LƏMƏX'** (Saltaq) – yunu didmək. –Süməx'ləmişəm, hər şeyi hazırdı, bi dənə qalır yorqanı salmax.

**SÜMSÜX'** (Naxçıvan) – çox gəzən. –Zəx'ləm gedir mə:m sümsüx' adamnan.

**SÜMSÜMƏ** (Ələhi) – arpa unundan hazırlanmış horra kimi yemək. –Sümsümə arpa ununnan olur.

**SÜMÜRMƏK** (Şahbuzkənd) – sormaq. –O papruzu oqqədən sümürüp kin, içalatı pütün kömür kimindi indi.

**SÜNBƏ** (Türkeş) – qısa şiş.

**SÜNG ELƏMƏX'** (Dəstə) – nəyi var əlindən almaq, müflis eləmək. –Sabirin oğlannarı dədələrini süng elədilər.

**SÜRBAHAT//SÜRBƏHƏT** (Culfa, Şahbuz) – payızda əkilən buğda.

**SÜRMƏ** (Ordubad) – qapını bağlamaq üçün istifadə edilən dəmir. –Sürməni çəx', qoy qəpini küləx' vırıb aşmasın.

**SÜRÜŞÜB GETMƏX'** (əksər şivələrdə) - əkilmək, yavaşcadan getmək. –O, söhbətin dəyişdiyini görən kimin yavaşca sürüşüb getdi.

**SÜRÜTDƏMƏ** (əksər şivələrdə) – həyətdə geyilən köhnə ayaqqabı. –Bir sürütdəmə ver geyim.

**SÜTÜL** (əksər şivələrdə) – təzə yetişməyə başlayan. –Buğda hələm sütüldü.

**SÜVÜLDİMAX** (Ordubad) – bəhanə ilə aradan

çıxmaq. –Elə süvüldiyip ki, heş kim görmiyip.

**SÜYSÜN** (Kolanı) – boyun. –Oğlan bının süysününnən bir qapaz saldı.

**SÜYÜLCAX** (Ordubad) – sürüşkən yer. – Başməxlərimin altı pisdi, süyülcax yerdə züvür.

## Şş

**ŞADARA//ŞƏDƏRƏ** (Badamlı, Tivi) – iri gözlü xəlbir. –Buğdanı şadarada əfsədim, oldu tərtəmmiz.

**ŞAHAD** (Qarabağlar) – dəyirmanda taxıl üyütmək üçün verilən vergi. –Gərəx' şahadın verəsən ki, buğdavı üyüdəsən.

**ŞAHBACI** (Naxçıvan, Ordubad) – böyük baldız. –Şahbacım axşam bizi qonax çağırmışdı.

**ŞAX** (Şahbuz) – barama sarıması üçün ipəkqurdunun üstünə düzülən kol budaqları. –Qurdun üsdünə şax düzüllər kin, barama sarısın.

**ŞAXA GETMƏX'//SARIĞA GETMƏX'** (Şahbuzkənd) – barama sarımağa başlamaq. –Qəm yuxusunnan sora qurt şaxa gedir.

**ŞAKET** (Qarabağlar) – sınıq-salxaq, köhnə. –Bı ustulun çoxdannan şaketi çıxıb.

**ŞAQQAMA** (Babək, Naxçıvan) – şiddətli isti. –Günüzün o şaqqamasında biz çöldə işdiyirix'.

**ŞAQQAVAT** (Tivi) – boy-buxun, iri bədən. –Gənə bir şaqqavatı ola diyəsən ki, hə.

**ŞAQQILDAX** I (əksər şivələrdə) – çirk. –İsdolun üsdü silinməməx'dən şaqqıldax bağlıyıp.

**ŞAQQILDAX** II (Babək, Culfa, Şahbuz) – qoyunun quyruğunun altından qırxılan peyinli, çirkli yun. –Şaqqıldax yununu yuyup təmizdəməx' çətindi.

**ŞALAĞ ƏRİX'** (əksər şivələrdə) – uzunsov iri ərik. –

Şalağ ərix' yekə-yekə olur.

**ŞALLAXLAMAX** (Camaldın) – qamçılamaq.

**ŞAM** (Naxçıvan, Şahbuz) – qəbrin sonunda qazılan dar yer, məzarda şama çatmaq.

**ŞAMAMA** (Dəstə, Naxçıvan) – balaca, qəhvəyi rəngli, gözəl iyi olan və yeyilməyən qovun növü. –Şamamani əvə qoyanda gözəl iyi gəliy.

**ŞAMI** (Bulqan, Tumbul) – kartrof və yumurta ilə bişirilən yemək. –Şamını şor qartopu əzip üsdünə yumurta vırıp qızardırıx yağda.

**ŞAMPAN** (Naxçıvan) – gilas növü. –Şampan gilasın dənələri iri-iri olur.

**ŞAMPUR** (Cəhri) - ərsin. Səməni hörrəsi qarışdırmaq üçün ağzı enli, qulplu, uzun çömçəyə bənzər alət. Bu alət həm də çörəyi təndirdən qaşımaq üçün istifadə olunur.

**ŞANPUR** (Kükü)//**ŞAMPIR** (Nursu) – səbət və ya yeşikdən şanı kəsib çıxarmaq üçün dəmirdən hazırlanmış, ərsinə oxşar uzun saplı alət. –Şanpur ağzı enni dəmirdi, səbətdən şanı çıxardıllar.

**ŞAPALAX** (Şərur) – şillə. –Bir şapalax vuran kimi uşağın səsi kəsildi.

**ŞAPBAN-ŞAPBAN** (Naxçıvan) – iri-iri. –Təzə aldığım parça:n üsdündə şapban-şapban gülləri var.

**ŞAR** (Bənəniyar) – vaxt. –İlin-günün bı şarında da adamı yerinnən eliyəllər?

**ŞATIR** I (əksər şivələrdə) – başqalarının əvəzinə işləyən adam. –Görən desin ki, mən də bınnarın şatırıyam.

**ŞATIR** II (Şərur) – ev tikərkən damın üstünə qoyulan tir.

**ŞATIR** III (Bənəniyar) – çörək bişirən adam. –Zərfəgilin dədə-babadan sənəti şatırrıxdı.

**ŞAY** (Axura) – şad. –Eşitdim gələssiz oqqədə şay oldum ki.

**ŞELLƏNMƏX'** (Cəhri) – yeyib-içib yatmaq, istirahət etmək. –Cəməhət əvdə şellənəndə mən yer belliyiridim.

**ŞENNİ** (Naxçıvan) – güllü-çiçəkli, bəzəkli.

**ŞENNİX'** (Keçili) – adam çox olan yer. –İndi oralar şennix'di.

**ŞENNİX'Lİ** (Naxçıvan) – şən, əyləncəli. –Kərəmin qızı:n toyu qəşəx' şennix'li geşdi.

**ŞERAMAT** (Dəstə, Vənənd) – cəld, tez. –Mən də şeramat gəldim ki, görən nə var.

**ŞEROVA SALMAQ** (Ordubad) – dalına keçmək, verməmək. –Bizim süzgəci həyləcə saldı şerova, vermədi.

**ŞEŞƏRİ** (Kırna) – yazlıq arpa.

**ŞEYTAN ƏYAĞI** (Cəhri) – velosiped. –Uşax nə vaxdı şeytan əyağı isdiyir.

**ŞƏFDƏLİ ƏRİX'** (Şahbuz) – dənəsindən çətin ayrılan ərik. –Şəfdəli ərix' mirəbbiyə yaxcı dəyil, dənəsin çıxartmağ olmur.

**ŞƏHLƏMƏK** (Dəstə) – yükləmək. –Atı şəhləyin, çıxax gedax.

**ŞƏHRƏ** (Nəzərabad) – heyvanın qabırğasının üzərindəki yağ. –Şəhrə ətin qabırqasında olur.

**ŞƏHRƏLİ** (əksər şivələrdə) – yağlı. –Ədə, Kazıma denən, qəşəx' şəhrəli ət versin.

**ŞƏKƏRİ** (Babək) – armud növü. –Şəkəri armıt bal kimin olur.

**ŞƏQQAVƏTDİ//ŞƏQQƏVƏTDİ** (əksər şivələrdə) – yaraşıqlı, boy-buxunlu. –Matanın bi şəqqəvətdi kürəkəni var.

**ŞƏLPƏ-ŞÜLPƏ** (Xəlilli, Naxçıvan) – şey-şüy, əşyalar. –Şəlpə-şülpəvi də yığışdır rədd ol, gözüm səni görməsin.

**ŞƏLTƏ** (Naxçıvan) – qadınlarda olan balağı əvəz edən alt tuman.

**ŞƏNG** (Bənəniyar) – yüngülvarı yük. –Bizzər atın üsdünə qoyulan yüngül yükə şəng deyərıx.

**ŞƏMBƏLLƏ** I (Sədərək) – qara küncüt. –Çöçənin üsdünə şəmbəllə səpbişəm, qəşəx' görüksün.

**ŞƏMBƏLLƏ** II (Kırna, Nüsnüs, Şəkərabad) – dərman və yem bitkisi. –Şəmbəlləni yazda əkillər, heyvana da yaxcıdı, həmi də dərmandı.

**ŞƏPBƏXEYİR** (Naxçıvan) – səs-küy, şadyanalıq. – Xeyir ola, ay Həsən, nə şəpbəxeyirdi?

**ŞƏPBƏRƏ//ŞƏPPƏRƏ** (Babək) – yarasa. –Şəpbərə gecəquşuna deyillər bizdə.

**ŞƏPƏ** (Dirnıs, Tivi) – ləpə, dalğa. –Şəpə az qala məni basmışdı.

**ŞƏPİX'** (Milax) - ətin üzərindəki yeyilməyən hissə. –Yuyanda gərəx' ətin şəpiyin təmmizdiyəsən.

**ŞƏRÇİL** (Daylaqlı) – şər atan. –Tofiq dayı şərçil kişidi, hammı qorxur onnan.

**ŞƏRXATA** (Naxçıvan) – təhlükəli adam, şər atan. –Elə şərxata uşaxdı ki.

**ŞƏRİM** (Zeynəddin) – abır-həya. –Adamın gərəx' bir şərimi ola da.

**ŞƏRİT** (əksər şivələrdə) – paltar sərilən ip. –Yağış yağır, dur şəritdən paltarrarı yığ.

**ŞƏST** (əksər şivələrdə) – qəddi-qamət. –Şəstinə yaraşdırmırsan bını əlində aparasan?

**ŞƏSTNƏN** (Hacıvar) – qorxmadan, açıq bir şəkildə, cəsarətlə. –Uşaxlardan biri şəstənən çıxdı Aşıx Hüseyinin qabağna ki, mən gedərəm.

**ŞƏTƏ** (əksər şivələrdə) – alaq otunu kökündən kəsmək üçün düzəldilmiş dəmir alət. –Şətəynən bı otdarı təmizdiyərix'.

**ŞƏTƏLİ İŞDƏMƏX'** (Yaycı) – bacarmaq, gücü çatmaq. –Keçəl Həmzə gördü ki, bırda şətəli işdəmiyəcəx'.

**ŞƏTƏL QATMAX** (Ərəzin) – mane olmaq, pozmaq. –Bı hardan çıxdı axı, gəldi işimizə şətəl qatdı.

**ŞƏTƏRƏ** (Ordubad)//**ŞATƏRƏ** (Şərur) – yabanı bitki. –Şətərənin ərağın da çəkirix', dərməndi.

**ŞIDIRQI** (Culfa, Naxçıvan) – şiddətli, qızğın. –Elə toyun şıdırqı yerində, bi də baxax ki, uşax yoxdu.

**ŞIXGİL** (Camaldın) – xəlbir. –Şıxgil də bir cürə ələx'di.

**ŞINQILI** (Kələki) – yüngül, bambılı. –Şınqılı belə düşüx' adama deyərıx bizdə.

**ŞIPPILDAX** (Babək, Naxçıvan) – dava-dalaş. –Bi də baxdım Havagildə şıppıldax tüşdü.

**ŞIPPIR** (Şahbuz) – yabanı bitki. –Şıppır bizdə çox olar.

**ŞIPPIR QAVIRMASI** (Batabat, Biçənək, Kükü) – yemək növü. –Şıppırı yağ-soğannan qavırıb, üsdünə yumurta vırıllar.

**ŞIRIM** (Kolanı) – zəmidə olan kiçik su arxı. –Su şırımnan gedir əkinə.

**ŞIRRAN** (Kolanı, Naxçıvan)//**ŞORRATAN** (Cəhri) – novdan. –Yağış elə əliyiridi kin, şırran suyu tutmurdu.

**ŞIRTI** (əksər şivələrdə) – həyasız, abırsız. –Hələm mən belənçi şırtı arvat görməmişdim.

**ŞİBİLİT** (Biçənək) – boğazlı ayaqqabı. –Babam həməşə şibilit giyərdi.

**ŞİFKƏ** (Bulqan, Şıxmahmud) – yun çubuğu. –Şifkə gərəx' dümbələndüz ağaşdan ola.

**ŞİKARİ PAPAX** (Vələver) – hündür dəri papaq.

**ŞİL** (əksər şivələrdə) - əlləri iflic olmuş adam. –Neçə illərdi Nəcəf kişi şildi.

**ŞİLƏ** (Kırna, Saltaq) – qırmızı rəngli çit parça. –Baydax o vaxdı qırmızı şilədən olardı.

**ŞİLXOR** (Şahbuz) – atın iki yaşdan iki yaş yarıma qədər olan balası. –Şilxor at balasına deyillər.

**ŞİLİM-ŞƏHRƏ** (Naxçıvan, Vayxır) – qızarmış, açılmış yara. –Zəhra dünənnəri yıxılıp, dizdəri elədi ki, şilim-şəhrə.

**ŞİLLƏKƏN** (Culfa, Türkeş) – bənd. –Şilləkəni qoyullar suyun qabağına kin, birdən gəlməsin.

**ŞİMİŞ** (Düylün) – söyüd ağacının cavan zoğu. –Şimişnən narın süpürgəni bağlayarıx.

**ŞİNEYVAZ** (Nəhəcir) – qışa saxlanılan qovun növü. –Şineyvaz bir cür qavındı, saxlıyıllar qışa onu.

**ŞİNQRIĞ** (Unus) – səs. –Elə bilginən qurbağa gölünə daş atdın, birinin də şinqrığı çıxmadı.

**ŞİR** (Əylis) – rəng. –Şiri dulaba çəkillər.

**ŞİRBİT** (Kələki) – yüngül gön ayaqqabı. –Şirbiti qocalar geyirdilər.

**ŞİRÇİ** (Şahbuz, Şərur) – rəngsaz. –Hər adamnan şirçi olmaz.

**ŞİRƏXANA** (Culfa) – üzüm əzilən yer. –Üzümü yığannan sora şirəxanada əzillər, doşab eləməx'dən yana.

**ŞİRƏKİ** (Camaldın) – yundan toxunmuş nazik adyal. –Şirəkini gətgə örtəx' dədəvin üsdünə, bırda yuxluyup.

**ŞİRİN BULAMAC** (Nüsnüs) – yemək növü.

**ŞİRİNNİX'** (Keçili, Külüs) – oğlan evinin həyətində gəlinin başına tökülən meyvə və ya şirniyyat. –Bəy oturar taxda ordan gəli:n başına şirinnix' atar, oğul-uşax da yığar onu.

**ŞİRMAHI** (Qarabağlar) – plastik. –Şirmahı qabları mən çox işdətmərəm, zərəldi.

**ŞİRNİ** (Aşağı Qışlaq, Kolanı) – bal. –Bal da diyərix', əməancax şirni də deyirix'.

**ŞİRNİX'LƏNDİRMƏX'** (Kırna) – həvəsə gətirmək, həvəsləndirmək. –Məni şirnix'ləndirdi, yoldan çıxartdı.

**ŞİRRƏMƏX'** (Əylis) – rəngləmək. –Gə mənim otağımı şirrə.

**ŞİRRİ** (Naxçıvan) – emal olunmuş. –Südü mən həməşə şirri qazanda saxlıyaram.

**ŞİŞƏX'** (Kükü) – ikiyaşar dişi qoyun. –Qaynətəm bir şişəx' gətitip bizə pay.

**ŞİTƏNGİ** (Naxçıvan) – şuluqçu, sözə baxmayan. –Əmoğlum şitəngidi birəz, ona gora dədəsi dəyqədə alımın verir.

**ŞİTƏNMƏK** (əksər şivələrdə) – şuluq salmaq, dəcəllik etmək. –Uşağa çox üz vermə, onda şitənər.

**ŞİV** (əksər şivələrdə) – balaca budaq. –Şivlərin hammısın budadım töx'düm yerə.

**ŞİVƏN** (əksər şivələrdə) – qışqırıqla ağlama. –Bını eşitcək bir şivən düşdü ki, gəl görəsən.

**ŞİVİT//ŞİVRİT** (Babək) – şüyüd. –Həyətdə iki kərdi

şivit əx'mişəm.

**ŞOBA** (Püsyan) – zökəm. –Bı dəyqə kətdə hammı şobadı.

**ŞOQQAX** (Culfa, Ordubad) – arıq heyvan. –Bı heyvənin illəp şoqqağı çıxıpdı.

**ŞOMU** (əksər şivələrdə) – yabanı bitki.

**ŞOR** (əksər şivələrdə) – çürüdülmüş qatığı süzməklə alınan ağartı məhsulu. –Şoru səhər-səhər salma çaynan içirəm mən.

**ŞORA ÇEŞMƏ** (Daylaqlı) – suyu azalan kəhriz. –Ora şora çeşmədi.

**ŞORƏKƏT** (əksər şivələrdə) – şoran yer, şoran torpaq. –Bıralar şorəkət yerrərdi.

**ŞORAQƏCƏLƏ** (Üstüpü) – sağsağan. –Bizim evdə şoraqəcələ yuvası var.

**ŞORAVA** (Keçili) – duzlu su, şərov. –Şorava qəyirip töx'düm pənirə.

**ŞORAYİ** (Naxçıvan) – duzlanmış gön.

**ŞORRAMAX** (Siyaqut) – birdən axıb tökülmək. –Uşağın bırnınnan qan şorradı.

**ŞORSU//ŞƏROV//ŞORVA** (Dəstə, Düylün) – işgənə, qovurmanın suyu. –Şorsuya əpbəx' doğruyup yiyərıx.

**ŞORUN ÇIXARTMAX** (Naxçıvan) – ləzzətin qaçırmaq, şit eləmək. –Sən lap şorun çıxartdın ha.

**ŞOTDAMAX** (Naxçıvan) – iri-iri tikmək. –Paltarın

ətəyin şotdamışam.

**ŞOTUR** (Xanlıqlar, Tənənəm) – dırnaqda əmələ gələn xəstəlik adı. –Mənim ayax barmaxlarım şoturdu.

**ŞOVRƏ** (Kərimqulu Dizə) – piti. –Qəşəx' çölməx'də şovrə qoymuşam.

**ŞOVUL-ŞOVULBAXMAX** (Saltaq) – maddım-maddım baxmaq.

**ŞÖRÜMƏX'** (Naxçıvan) – vermək. –Bı işdən yana mən onnara bir ətək pul şörümüşəm.

**ŞULDUM** (Nürgüt) – fərasətsiz, fərsiz. –Bı uşax çox şuldumdu, axırı nolacax bilmirəm.

**ŞULFƏ//ŞULFA** (Ordubad) – dəri qaşımaq üçün alət.

**ŞUMURAN** (Dırnıs) – şəlalə. –Parağaçayda bir yerdə şumuran var.

**ŞUR** (Dəstə, Naxçıvan) – səs-küy, gurultu, dava dalaş. –Bi də baxdıx məylisə şur tüşdü.

**ŞÜDDELƏMƏX'** (Dəstə) – çox danışmaq. –İndi şüddeliyəcax, başım gedəcax.

**ŞÜLÜZÜMMƏ** (Naxçıvan) – baiskar. –Yazıx arvat zirətov isdədi pişirrəmmədim, şülüzümmə oldum.

**ŞÜMAL** (Culfa, Ordubad) – düz, hamar. –Yeri şümal düzəltmişəm.

**ŞÜMŞƏ QOYMAX** (Nehrəm) – hamarlamaq. –Şümşə qoymax Seyidin işidi.

**ŞÜMŞÜRÜX'//ŞÜMŞÜRÜD** (Ərəfsə, Xanlıqlar,

Nəzərabad) – ildırım. –Axşamnandı şümşürüd oynuyur, deyirsən bə indicə tüşəcəx'.

**ŞÜRƏ** (Naxçıvan) – talan.

**ŞÜŞDƏMƏX'** (Şahbuz) – sovrulmuş taxılı bir yerə yığmaq. –Savırannan sohra şüşdəməx' lazımdı.

**ŞÜŞƏ** (Qazançı) – xırmanda topa şəklində bir yerə yığılmış, bir yerə toplanmış taxıl. –Şüşəni şadaraynan əliyirix', sora da xəlbirnən qəyidib torpağın çıxardırıx.

**ŞÜŞƏLƏMƏX'** (Culfa, Ordubad) – xırmanda döyülmüş taxılı topa şəklində bir yerə yığmaq.

**ŞÜVƏRƏX'** (Cəhri) – nazik, uzun, boylu-buxunlu. –Təzə məllim bir şüvərəx' oğlandı.

## Tt

**TA** (əksər şivələrdə) – daha. –Ta mə:m sa: sözüm yoxdu.

**TABAX** (Naxçıvan, Ordubad) – xonça. –Böyün bizdən qız evinə tabax gedəcəx'.

**TABIRĞA** (Şahbuz) – başqa yerdən köçüb gəlmiş adam. –Mirəzizin tayfası tabırğadı da, soradan köçüplər bıra.

**TABUN** (Dizə, Qarxun) – tayfa, nəsil, soykök. –Bizim tabun elə dəvri-qədimnən bırda yaşıyıp.

**TAĞ** (Aza) – taxça. –Köhnədən əvlərdə olardı tağ.

**TAĞALAX** (Kırna, Nursu) – cəhrənin bir hissəsi.

**TAĞAR** (Məzrə) – ölçü vahidi. –Mə:m əməx' günümə ildə dört-beş tağar dən tüşür.

**TAĞARA** (Ordubad) – yekə, şişman.

**TAĞARAQARIN** (Ordubad) – yekəqarın. –Onnarın içindən tağaraqarın bir adam məni çağırdı.

**TAXDA** (Çeşməbasar, Zeynəddin) - əkin sahəsində zolaq, əkin sahəsinin bərabər hissələri. –Bir taxda yer belləmişix' soğan əhməyə.

**TAXDASIZ** (Naxçıvan) – yüngül. –Mamed kimi taxdasız adam olmaz ha.

**TAQQULBAB** (Ordubad) – qapının toxmağı. –Taqqulbab köhnə qəpilərdə ən çox olardı.

**TALAŞA//TİLİŞGƏ** (Bənəniyar, Xok, Milax) – taxta qırıntısı. –Taxdanı kəsip, talaşa yayılıp aləmə.

**TALVAR** (Naxçıvan) – üzüm tənəklərinin birləşərək əmələ gətirdiyi yaşıllıq. –Yayda talvarın altda qəşəx' simavar salırıx.

**TAMACA** (Dırnıs) – haşiyələrin birləşdiyi yerə vurulmuş taxta parçası. –Usda tamaciyə elə naxışdar vırmışdı ki, adamın ağlı gedirdi.

**TAMARZI** (əksər şivələrdə) – bir şeyə həsrət qalan. – Dədələrimiz də deyip, kəs tamarzıdan, ver dadanmışa.

**TAMTIRA** (Kələki) – vəzəri. –Şəhərdə qodem deyillər, əmə biz tamtıra diyərıx.

**TAPAN** (Şahbuz) – torpağı yumşaltmaq üçün istifadə edilən alət. –Tapan da belə iridişdi dımrıxdı.

**TAPANNAMAX** (əksər şivələrdə) – toxum səpilmiş sahəni tapan ilə malalamaq. –Toxumun səpbişix', tapannamışıx, hazırdı.

**TAPARAN//TƏPƏRƏ** (Türkeş) – gildən düzəldilmiş zibil qabı. –Zibili yığ taparana, apar at.

**TAPI** (Naxçıvan) – təndirdə bişirilən yağsız çörək. – Birəz xəmirdən qalmışdı, töx'düm tapı elədim.

**TAPILAMAX** (Keçili, Külüs) – otu kiçik taya şəklində toplamaq. –Mən otu tapıladım.

**TAPILÇI** (Keçili) – çalınmış otu bir yerə yığan adam. –Mən çalıram, Qəmbər də tapılçıdı, yığır bir yerə.

**TAPQIR//TAFQIR//TƏNG** (Şərur) – yəhəri saxlamaq üçün atın döşünün altından keçirilən enli qayış. –Tapqır qoymur yəhər dərbəşə.

**TAR** (Babək, Culfa, Şahbuz) – toyuqların üstündə yatdığı ağac. –Tar nində olar.

**TARABUDUX** (Ordubad) – xörək adı. –Qonaxlar üçün yaxşı tarabudux bişirdim.

**TARAQQA** (əksər şivələrdə) – içərisinə barıt qoyulmuş, daha çox Novruz bayramında istifadə olunan partlayan fişəng. –Uşaxlar taraqqa partdatdılar, dik atılıdım.

**TAVAZASI** (Nehrəm) – quruluşu, forması. –Bizim kətdəki xeyir-şər əvinin tavazası yaxcıdı, genişdi.

**TAVLAMAX** I (Şahbuz) – ipi möhkəm əyirmək. –İpi tavlıyıb sora toxuyasan gərəx'.

**TAVLAMAX** II (əksər şivələrdə) – aldatmaq, yoldan çıxarmaq. –Nətər başımı tavladısa, mən də uydum una.

**TAVLAMAX** III (əksər şivələrdə) - əti, soğanı və s. yağda qovurmaq. –Suyun töx'məmişdən gərək soğanı bir yağda tavlıyasan, yoxsa xorəx' yağsov olar.

**TAVLANMAX** (Oğlanqala) – dolanmaq. –Ordan bir də tavlandı gəldi, bir də geşdi Arazın o tayına.

**TAYBEÇƏ** (Babək, Şahbuz, Şərur) – bir kökdən əmələ gələn bir gövdə.

**TAYƏLLİ** (Şahbuz) – su içmək üçün qulplu mis qab. –Tayəlli də elə quruşqadı.

**TAYFA-TABIN** (Xoşkeşin)//**TAYFA-TOLUX** (Naxçıvan) – qohum-əqrəba. –Bunun başında çox tayfa-tabın olur.

**TAYKEŞ** (əksər şivələrdə) – tayı düz olmayan. –Bi də baxam ki, Fatma:n corapları taykeşdi.

**TECİRƏ** (Kükü) – tuncdan qayrılmış vanna.

**TEĞƏN** (Naxçıvan) – qatıq və ya süd saxlamaq üçün dəri tuluq. –Bizim üş teğən qatığımız varıydı, israhayın anam nehrədə çalxadı.

**TEHRANİ** (Ordubad) – tut növü. –Tehrani tut yeməli olur, çox daddıdı.

**TELMƏX'** (Naxçıvan, Şahbuz) – saçaq. –Məkə telməyi böyrəx'lərə dərmandı.

**TER** (Şahbuz) – ağzını bağlamaq üçün ilməkləri olan iri xurcun. –Veşdərimizi doldurmuşux terrərə.

**TEŞİ** (Şahbuz)//**ƏYRİC** (Daylaqlı) - əldə ip əyirmək üçün xüsusi alət.

**TEYXA//TEY** (Naxçıvan) – tamam, bütün. –Üsdünü-başını eləmişdi teyxa zığ.

**TEYİN** (Cəhri) – qədər. –Dünənə teyin Əhmədin oğlu bıralarda sülənirdi.

**TƏBÇƏX'** (Culfa) – belin tiyəsinin üst tərəfində ayaq qoymaq üçün xüsusi taxtadan çıxıntı.

**TƏBƏNƏ** (Kəngərli, Sədərək) – çuvalın ağzını tikmək üçün iynə. –Təbənə çuvaldız kimi yekə iynədi.

**TƏBƏRRİK** (əksər şivələrdə) - əziz, gec və çətinliklə əldə olunan. –Diloşun balaları təbərrikdi.

Qədim türklərdə də tab ünsürü "şöhrətli, şanlı"

mənasında işlənmişdir.

**TƏBƏRZƏ** (Culfa) - ərik növü.

**TƏFÇİMƏX'** (Ləkətağ) – tələsik, başdansovdu tikmək. –Elə ordaca təfçidi atdı üsdümə.

**TƏFİL-TƏSLİM** (Ordubad, Culfa) – boyük çillənin öz yerini kiçik çilləyə verməsi. –Təfil-təslimnən sora ta hava yavaş-yavaş başdıyır sınmağa.

**TƏFRİHLİ** (Ordubad) – gülməli. –Belə təfrihli söz danışırsan e.

**TƏH** (Vənənd) – döngə. –Bı təhdə üç əv var.

**TƏHNƏ** (Culfa, Şərur) – daşdan ovulmuş böyük qab.

**TƏHRİNNƏN** (Naxçıvan, Şahbuz) – deyəsən, belə görünür ki. –Təhrinnən Nağı isdiyirmiş Yüsübnən qahım ola.

**TƏKALTI** (Ərəzin, Kolanı) – yəhərin altından atın belinə qoyulan uzun və enli keçə. –Təkaltını tərkimizə adam alanda qoyarıx.

**TƏKCƏ-TANACA** (Dəmirçi) – yalqız, tək. –Girdim gördüm təkcə-tanaca oturub otaxda.

**TƏKƏ** (Keçili) – nəsil artırmaq üçün saxlanılan erkək keçi. –Təkə geçinin erkəyidi.

**TƏKƏMSEYRƏX'** (əksər şivələrdə) – az-az, seyrək. –Ağaşdar təkəmseyrəx' çiçəx'liyip.

**TƏQƏLLİ** (Ərəzin) – cavab, izah, məna. –Mətoşun dedix'lərinin təqəllisin mən qanmadım.

**TƏLBƏ** (Maxta) – tərəzinin gözü.

**TƏLİD** (Tivi) – kömək. –Çar hökümətinin türməsinnən ollar özgəsinin təlidiynən qazıb çıxıblar.

**TƏLİFÇİ** (Şahbuzkənd) – toya adam dəvət edən şəxs. –Geşmişdə təlifçi varıydı, gəlirdi hammını bir-bir çağırırıdı, indi ta telfun var da.

**TƏLİX'Cİ** (Sələsüz, Türkeş) – anası ölmüş quzunu başqa qoyuna öyrədən adam.

**TƏLİS** (Babək, Naxçıvan) – çuval, kisə. –Bir təlis cəviz pay gəlip kətdən.

**TƏMƏNNƏŞMƏX'** (Saltaq) – görüşmək. –Çoxdanıydı Musaynan təmənnəşmirdix'.

**TƏNDİRƏSƏR//TƏNDİRBAŞI** (əksər şivələrdə) – içərisində təndir qoyulmuş bina. Keçmişdə bura həm də mətbəx rolu oynayırdı. –Təndirəsərimiz indi ta işdətmirix' təmmiz uçup-tökülüp.

**TƏNƏVİ//TƏNƏBİ** (Naxçıvan) – böyük otaq, qonaq otağı. –Tənəbimiz əlli nəfərriy məylisi tutar.

**TƏNG** I (Dəstə) – döngə, dalan. –Tapdıxgillər o biri təngdə qalıllar.

**TƏNG** II (Ordubad) – qoşqu heyvanlarının altına bağlanan kəndir. –Atın təngini çəx'.

**TƏNG** III (Ordubad) – bərəçinin bərəni sürdüyü zaman durduğu yer. –Təng gəminin lap qurtaracağında olur.

**TƏNGOV** (Babək, Kəngərli, Şahbuz) – qovurmanın suyu. –Təngov qavırma eliyəndə qalan ətin suyudu.

**TƏNİGƏ** (Ordubad) – alaçığın yan tərəflərini örtmək üçün qamışdan toxunmuş hasar.

**TƏNİKAR** (Saltaq) – xörək duzu. –Tənikarı bişmişə tökərix'.

**TƏNİKƏ** (Ordubad) – qənd qabı. –Tənikəni gətgə doldurginən qər-qənfetnən.

**TƏNTİX'** (Naxçıvan) – səbirsiz. –Mən təntiyəm, həfsələm çatmaz gözdəməyə.

**TƏNTİMƏX'** (Naxçıvan) – səbri tükənmək. –Birdən elə təntidim ki.

**TƏNZİF** (əksər şivələrdə) – nazik ağ parça. –Anam pəncəriyə tənzif tutmuşdu ki, içəri milçəx' girməsin.

**TƏNZİL** (Bənəniyar) – sələm. –Qalan buğdanı sənə verirəm tənzilə.

**TƏPCƏX'** (Badamlı, Şada) – belin tiyəsinin üst tərəfində ayaq qoymaq üçün çıxıntı. –Təpcəx' lapatqanı yerə vırmax üçündü.

**TƏPƏR** (Babək, Culfa, Naxçıvan) – güc, dözüm. – Adamın gərəx' təpəri ola.

**TƏPƏRƏ//TAPARAN** (Nursu) – gildən düzəldilmiş zibil qabı. –Təpərə əvvəllər olurdu, indi hammısı şirmahıdandı.

**TƏPƏSİ ÜSDƏ** (əksər şivələrdə) – canla-başla, qaçaraq. –Kərəmi nə vax işim tüşüp çağırmışam, həmməşə təpəsi üsdə gəlip.

**TƏPİX'CİL AT** (Biçənək) – sahibindən başqa heç kəsi

minməyə qoymayan at. –Təpix'cil at yiyəsinnən sıvayım heş kimi yanına bıraxmaz.

**TƏPİLMƏX'** (Bənəniyar) – soxulmaq. –Adam gərəx' bildi-bilmədi hər yerə təpilmiyə, onda başı da salamat olar.

**TƏPİMƏX'** (Babək, Culfa, Naxçıvan, Şahbuz) – bir az qurumaq. –Xəlçə yuyanda qoyurux bı daşın üsdə, birəz təpiyənnən sora səririx'.

**TƏPİNMƏX'** (Çeşməbasar, Zeynəddin) – hirslənmək. –Uşağa arada bir təpinməsən oxumaz ki.

**TƏRABDUX** (Ordubad) – pərpərəndən bişirilən yemək. –Tərabduxu yaydə pişirərıx.

**TƏRƏX'** (əksər şivələrdə) - əsasən qış aylarında un, doşab və su ilə hazırlanan şirin yemək. –Gülbacım qəşəx' tərəx' çalıp, dur gedəx' yiyəx'.

**TƏRƏKƏMƏ** (Culfa, Şərur) – yayda yaylağa, qışda qışlağa köçən əhali. –Mənafgil dədə-babadan tərəkəmədilər.

**TƏRHALVA//TƏRHAVLA** (Naxçıvan) – halvanın bir növü. –Nənəm qəşəx' tərhavla çalardı.

**TƏRLƏ ETMƏX'** (Qıvraq) – həzm etmək. –Hələm dünənnən yediyimi tərlə eləməmişəm.

**TƏRRİX'//TƏRRİG** (Ağbulaq, Tənənəm) – yəhərin altından atın belinə qoyulan keçə. –Tərriyi qoyullar ki, atın beli yağır olmasın.

**TƏRSƏMƏRSƏP** (Naxçıvan) – tərs. –Harda tərsəmərsəp iş var sənnən çıxar.

**TƏRSUVAND** (Ordubad) – tərs-düz. –Papışı tərsuvand toximişəm.

**TƏSDƏMƏX'** (Naxçıvan) – peyin salmaq, peyin ifraz etmək (atlarda). –Minmişdim ata gedirdim, birdən at təsdədi.

**TƏSKULLAH** (Vənənd) – araqçın, baş örtüsü. –Təskullahı bizdər qoymarıx.

**TƏŞƏRRƏNMƏX'** (Biçənək) – yola getməmək, bir-birindən xoşu gəlməmək. –Odu-bıdı mənnən təşərrənip.

**TƏTİRİ KƏSİLMƏX'** (Naxçıvan) – qoxusu kəsilmək, yox olmaq, itmək. –Bala, görüm bı ermənilərin tətiri yer üzünnən bidəhənnix' kəsilsin.

**TƏVƏRƏ** (Bənəniyar, Kırna) – dəyirman daşını oxla birləşdirən dəmir hissə. –Təvərə qırılıp, qalmışıx məhətdəl.–Təvərə dəyirma:n daşı:n içinə keçir, o olmasa daş hərrənməz.

**TƏZƏX'** (əksər şivələrdə) – peyin. –Mal təzəyin yapıllar tifara, sora da kəsillər olur kərmə, yandırıllar qışda.

**TƏZMƏX'** (Aza, Biləv) – hürkmək, hürküb qaçmaq. –Qoyunnar bı gecə təzib yataxdan çıxmışdılar.

**TIĞ** (Nehrəm) – yük, üst-üstə yığılmış əşyalar. –Əvdə hər şey tığ vırılıp, bir axdardığıvı tapammırsan.

**TIĞILLANMAX** (Şahbuzkənd) – sovrulmuş taxılı təpə şəklində yığmaq. –Axırda buğda tığıllanır bir yerə.

**TIXLAMA** (Şərur) – qatığın içinə çorək doğramaqla hazırlanan yemək. –Tıxlamanı çox isdiyirəm mən.

**TIXMAQ** (Ərəzin) – tez-tez yemək, çox yemək. –

Gələnnən tıxır, qarnı doydu, gözü doymadı.

**TIXMER** (Nursu, Siyaqut, Yurdçu) – alçaqboy adam. –Boyu çıqqılı olan adama tıxmer deyillər.

**TILF** (Kotam, Şəkərabad) – Çayın dibində qalan tullantı. –Bıra tılf töx'sən, bidə baxassan ki, gilif tutulup.

**TINCIXMAX** (Naxçıvan) – ürəyi darıxmaq, sıxılmaq, boğulmaq. –İçəri elə isdiydi ki, tıncıxdım.

**TINIX** (Ərəzin, Payız) – tıntın, burnunda danışan. –Bırnında danışdığına gora hammı ona tınıx Həsən deyirdi.

**TIR** (Culfa, Naxçıvan) – tərs, inadkar. –Niyar arvat elə tırdı, nırx dediyin deyir.

**TIRXƏŞ** (Qaraçuq) – gücsüz, zəif. –İsa elə doğulanda tırxəşiydi.

**TIRIMPA ELƏMƏX'** (Ərəzin) – mal dəyişdirmək.

**TIRRAX** (Culfa, Ordubad) – arıq heyvan. –Tırrax heyva:n qavirməsinnən nə olacax?

**TIZIXMAX** (Gömür) – hürküb qaçmaq. –Heyvan tızıxdı, ipinnən açılıb bıdıha götrüldü.

**TİFDİX'** I (Saltaq) – heyvanda qarının üst tüklü hissəsi.

**TİFDİX'** II (Naxçıvan) – paltar və ya parçanın didilməsi, üzərində müəyyən müddət işləndikdən sonra əmələ gələn düyün. –Paltar ki tifdix'ləndi, ta onu at getsin.

**TİQƏ** (Vənənd) – arakəsmə. –Şüşəliyi tiqə eləmişəm ki, uşəxlər də urda yatsınnar.

**TİLİŞDİRMƏ** (Naxçıvan) – badalaq. –Keçəndə dosdu tilişdirmə verip, yıxılıp, uşağın qıçı çıxıp.

**TİLİŞKƏ** (Şərur) – doğranan ağacdan çıxan uzun, nazik hissələr. –Odun doğruyanda gözümə tilişkə sıçradı.

**TİLİT** (Vayxır) – bütün. –Uşağ elə gəlmişdi, tilit qanın içində.

**TİN** (Nüsnüs) - kömürün dəmi. –Dünən məni tin vurmuşdu, başım yaman ağrıyırdı.

**TİNG** (Naxçıvan)//**TİNGƏ** (Kolanı, Tivi) – ağacın kiçik vaxtı, çubuq. –Təzə tingələr salmışam həyətə, hammısı da peyvəsdi.

**TİNYƏT** (Dəstə) – xasiyyət. –Gəlinimin tinyəti yaxcıdı.

**TİRƏ** I (Şahbuz) – iki ləkin arasında düzəldilən torpaq topası. –Tirənin üsdə durup kağ eliyirəm.

**TİRƏ** II (Biçənək) – arının səbətə çəkdiyi şan.

**TİRƏ** III (əksər şivələrdə) – tayfa, nəsil. –Dədəmgilin tirəsinnən bircə əmim qalıp.

**TİRKEŞ** (Saltaq) – çəltik əkmək üçün kvadrat şəklində hazırlanmış sahə, yer.

**TİSBİRRİX'//TİSBİRÇİLİX'** (Didivar, Naxçıvan) – çətinlik, əziyyət. –O vaxdı vəziyyət pisiydi, hammı nə tisbirçiliynən dolanırdı.

**TİYƏ** I (Dırnıs) – kotanın ağzı.

**TİYƏ** II (Ləkətağ) – tikili (paltar). –İndi bazar-tükanda

tiyə paltar çoxdu.

**TİYƏNÇƏ** (Camaldın) – tava. –Tiyənçəni at qazın üsdə xorəx' eliyəx'.

**TOXAÇ** (Kotam) – yun çırpan çubuq. –Toxaçım qırılıpdı.

**TOXDAMAX** (əksər şivələrdə) – sakitləşmək, özünü ələ almaq. –Axşama dönəndə yağış birəz toxdadı.

**TOXLULUX** (Əylis) – çobana zəhmətyhaqqı olaraq verilən qoyun-keçi. –Toxlulux da çobanın elə bilginən ki, mayışıdı.

**TOXMAX** (Culfa, Naxçıvan) – ağacdan qayrılmış ətdöyən alət. –Toxmağnan əti döyürüx', daş kifdəsi pişiririx', isdiyən də maşında çəkir, əmə unun dadını vermir.

**TOXMƏRƏX'** (Qaraçuq) – gödək adam. –Toxmərəyin yarısı yerdə olur.

**TOXMİŞƏMS** (Kotam) – qaysının bir növü. –Gələndə toxmişəms qaysı al.

**TOXUCU** (Badamlı, Biçənək) – işçi arıların gətirdiyi çiçək tozundan bal hazırlayan arı. –Toxucu bal hazırrıyan arıdı.

**TOQQAŞ** (Culfa, Kəngərli) – yun çubuğu. –Toqqaş gərəx' şümal çubuxdan ola.

**TOLAĞAYİ** (Saltaq) - əyri qıç adam. –Qız da bir tolağayi qızdı.

**TOLAMAZDI//TOLAZDIRMA** (Culfa, Şərur)// **TOLAMAZ** (Şahbuz) – ağacdan meyvə salmaq üçün istifadə

olunan çubuq. –Göndərdim qızı tolamazı gətirsin, o ücdəkiləri də vırax tüşsün.

**TOLAZDAMAX** (Naxçıvan) – var gücü ilə atmaq, tullamaq. –Anam hesdəndi, götdü sürətdəməni tolazdadı üsdümə.

**TOMPA//TOMPAL** (Şahbuz) – baramaçılıqda içərisində iki qurd olan kobud, yaraşıqsız barama.

**TOPBAŞ** (Ordubad) - əla növ buğda.

**TOPUXLUX** (Vələver) – pəncəsiz uzun yun corab, boğazlıq. –Vələvirdə topuxlux yunnan toxunur.

**TOPUR** (Tivi) – alaq etmək üçün istifadə edilən alət. – Topurnan alax dərəllər.

**TORALMAX** I (əksər şivələrdə) – havanın qaralması. –Baxdım, hava toralır, dedim ta vədədi dur gedəx'.

**TORALMAX** II (Naxçıvan, Şıxmahmud) – kökəlmək. –Gədə elə bil azca toralıp, şükür.

**TORANTÜŞƏN** (Sələsüz) – axşamçağı, hava qaralanda. –Torantüşən qaş qaralan vaxdına deyirix'.

**TORPAX SUYU** (Camaldın) - əkinə verilən birinci su. –Birimci dəhə suvardığımıza deyirix' torpax suyu.

**TORTA** (Naxçıvan) – kərə yağını əridən zaman dibində qalan çöküntü. –Tortanı atmanam mən, tökürəm çöçə eliyirəm.

**TO: VERMƏX'** (Dəstə) – hədələmək, məcbur etmək. – Ona to: verirdilər ki, bildix'lərin desin.

**TOY** (Şahbuzkənd) – nağara. –Babası bına toy almışdı kin, getsin örgənsin.

**TOYBABASI** (Şahbuzkənd) – toya başçılıq edən adam. –Sabir əmi həməşə toybabası olar.

**TOYÇU** (Naxçıvan, Şərur) – toyda musiqi çalan, çalğıçı. –Get toyçuları apar oturt, qoy çalsınnar.

**TOY TOXLUSU** (Şahbuz) – oğlan evindən qız evinə aparılan bəzədilmiş erkək qoyun. –Toy toxlusun göndərərix' qız əvinə pay. Naxçıvanda bu söz məcazi mənada heç bir iş görmədən boş-bekar ortada gəzən adam haqqında da deyilir. –Nə toy toxlusu kimi gəzirsən, sən də bir işin ucunnan tut da.

**TÖLƏNMƏX'** (Əylis) – tükünü tökmək. –Bizim toyux tölənipdi.

**TÖRƏ** (Payız) – qısaboylu, gödək. –Törə adam deyillər firkat olar, hiləli olar.

**TÖRƏLİ** (Badamlı, Cəhri, Ərəfsə) – yaxşı, layiqli. –Diloş da bir törəli adam tapbadı qahım ola.

**TÖRRƏX'** (Oğlanqala) – qorxaq. –Gəl qabağa, bı qədər törrəx' olma.

**TÖSMƏRƏX'//TÖRƏ** (Babək, Şahbuz, Şərur) – alçaqboy adam. –Dayım irəhmətdix' bir tösmərəx' kişiydi.

**TÖZƏRƏYİN GÖTÜRMƏX'** (Naxçıvan) – hirslənmək, danlamaq, qorxutmaq. –İreyhan xanım baxdı ki, bı sayır-bayır danışır, bının tözərəyin bir götürdü ki, ta bının səsi çıxmadı.

**TREMEŞ** (Uzunoba) – üzü üstə. –Kişi axşamnan

tremeş uzanıp qalıp yerdə, halı yoxdu dərbəşə.

**TULANBAR** (Naxçıvan) – keçmiş hamamlarda su qızdırılan yer. İndi isə çox tüstü olan yer mənasında işlənir. – Girdim içəri ki, papruzdan içəri tulambardı, göz-gözü görmür.

**TULANBARÇI** (Naxçıvan, Ordubad) – hamamın ocaqçısı. –A bala, ged o tulanbarçını çağır gəlsin.

**TULAZDIRMA** (Ordubad) – selbə. –Tulazdırma bərk ağaşdan olar.

**TULUX** I (əksər şivələrdə) – içində yağ, maye saxlamaq, nehrə çalxamaq üçün qoyun və ya keçi dərisindən hazırlanan qab.

**TULUX** II (Vayxır) – bir tuluq tutan qədər maye olçü vahidi.

**TUMANAGİRƏN** (Dəstə) – bayram şənliklərində atılan fişəngin bir növü. –Uşaxlar bayramda çoxlu tumanagirən almışdılar. –Tumanagirəni bayrəmda, iləxirdə uşəxlar atıllar.

**TUPARAN** (Kükü) – arı səbətinin arxa tərəfinə qoyulan taxta.

**TUPULQU** (Biləv) – qırmızımtıl qabığı olan yabanı ağac növü.

**TURATAN** (Ordubad) – hörümçək. –Tur atığınnan yana turatan deyrıx una.

**TURŞAX** (Bulqan, Tumbul) – turşməzə, turştəhər. – Üzgöz birəz turşaxdı.

**TURŞƏ** (Aza, Bist) – nar. –Turşə yeməli meyvədi.

**TURŞİNİX'//TURŞİNNİ** (Çənnəb, Biləv) – quzuqulağı. –Qardaşım dağdan çoxlu turşinix' yığmışdı.

**TUTACAX//TUTQAŞ** (əksər şivələrdə) – isti əşyaları götürmək üçün bir-birinə bağlı parçalar. –Tutqaş tüşdü odun üsdə qarsdı.

**TUTMA** I (Badamlı) – torpağa basdırılmış qovun. –Tutmanı basdırıllar yerə ki, yaxcı qalsın. –Tutma qavın çox şirin olur.

**TUTMA** II (Milax) – duza qoyulmuş tərəvəz, turşu.

**TUTMA** III (əksər şivələrdə) – dəlilik. –İrbahamın tutması tutanda üzün görmə.

**TÜX' SALMAX** (Naxçıvan) – qormaq. –Elə zabtalı kişidi ki, dədəm, uşaxlar hammısı onnan tüx' salır.

**TÜKÜSDANNIX ETMƏX'** (Bənəniyar) – avamlıq etmək. –Bınnan əzəl cəməhət tüküsdannıx eliyirdi, indi ta gözdəri açılıp.

**TÜLÜ** (Naxçıvan) – oğru. –Tülü oğruya deyillər.

**TÜNƏKƏ** (Tivi) – nazik. –Qazan elə bir tünəkədi, dəyməmiş əzilir.

**TÜNGƏ** (Şahbuz, Şərur) – dəmir neft qabı. –Tüngənin içinə nəfit doldururux.

**TÜNNÜX'** (Ləkətağ) – adamın çox olması. –Dünnənərimki toy tünnüx'üydü.

**TÜTYƏ** (əksər şivələrdə) – 1. nadir tapılan, əldə edilməsi mümkün olmayan; 2. çox oynanmış fırfıra.

## Uu

**UCALANMAX** (Dırnıs) – inkişaf etmək. –Axır illəri gör Nəxcivan nəqədən ucalanıp.

**UCUBILIX** (Dəstə, Tivi) – azman, kələntər nağıl qəhrəmanı. –Ucubılıx çox nəhəng adam olup, özü də üç yüz il yaşıyıp.

**UÇUX** (əksər şivələrdə) – dodaqda əmələ gələn yara. –Uçuğun dərmanı saxsıdı, gərəx' qaşıyasan, qoyasan üsdünə.

**UĞURSAQ** (Kırna) – sağılmayan inək.

**UĞURUNA ÇIXMAX** (Nursu) – rastlaşmaq. –İrənə uğuruma çıxanda işdərim yaxcı gedir.

**ULAX** (Ordubad, Şərur) – qoşqu heyvanı. –Yer şumnamağ üçün kotana dört dənə ulax qoşardıx.

**ULUM** (Nehrəm) – çayın dayaz yeri. –Tülkü Arazın ulumunnan keşdi.

**UMAC** (əksər şivələrdə) – xaşıl. –Bizim arvatdar yaxşı umac eliyir.

**UMSUX** (əksər şivələrdə) – bir şeyi göstərib verməmək, tamarzı qoymaq. –Ceyran xala sə:rdən havla çalırdı, məni umsuğ elədi.

**UMSUXLAMAX** (Şada) – həvəsə gətirmək. –Canı yammış, məni nətər umsuxladı.

**UNNUCA** (Şərur) – yabanı bitki.

**UNNUX** (Cəhri, Badamlı) – iri taxta yeşik. –Buğda yığırıx içinə, ona görə unnux deyirix'.

**URCAH OLMAX** (Çeşməbasar, Naxçıvan)//**URCAH GƏLMƏK** (Saltaq) – rast gəlmək. –Gündə deyirəm, balam sənə urcah olan günə daş tüşsün.

**URFA** (Camaldın) – lavaşı açarkən üzərinə səpilən un. –Urfanı əpbəx' yapanda üsdünə səipix' ki, yapışmasın axlova.

**URUB** (əksər şivələrdə) – 1. meyvədən hazırlanmış turşu; 2. tomat. –Gəl o xorəyə birəz urub vır.

**URUĞ-TURUĞ** (Çənnəb) – tayfa, nəsil. –Baş-pütün uruğ-turuğun yığacəx bıra indi.

**URUM** (Kolanı) – qohum. –Bir ton urumumuz var İranda.

**URUS BADIMCANI** (Püsyan) – pomidor. –Bı il bosdanda yaxşı urus badımcanı var.

**URVAT** (Naxçıvan) – hörmət, xətir. –O qədə fırıldağ elədi, özünü xəlis urvatdan saldı.

**URVATDAMAX** (Sələsüz) - əzizləmək. –Təzə gəlindi da, gərəx' birəz urvatdıyasan.

**URZA** (Yuxarı Uzunoba) – ruzi. –Bı nəvəm elə urzalı uşaxdı ki, o olannan biz korrux çəx'məmişix'.

**USDUPKARRIQ** (Naxçıvan) – ehtiyatla davranmaq. –Ay bala, bir usdupkarrığın olsun da dağdan yenməmisən ki.

**USTUPLU** (Ordubad) – yavaş, ehtiyatla. –Ustuplu gəl, uşəx yatıpdı.

**UŞQUN** (əksər şivələrdə) – yabanı bitki. –Uşqun xeyirridi, qabığın soyup yeyirix'.

**UŞQUNMAX** (Püsyan) – ağrıdan ürəyi getmək, dözə bilməmək. –Kəküş tüşdü qıçıma, rəsmi uşqundum ha.

**UVAND** (Ordubad) – parçanın üz tərəfi. –Bəzi parça:n tərsiynən uvandını seşməx' olmur.

**UYMAX** (Teyvaz) – qoşulmaq, təsir altına düşmək. –Hacı uyup Fikrətin balalarına gənə, allahına bənlədix' eləmir.

**UZUNBOĞAZ** (Ləkətağ) – armud növü. –O armudun boğazı uzun olur, una gora həylə deyillər.

**UZUNHOQQA** (Axura) – çox uzun, ucaboylu. –Burda uzunhoqqa adamnar çox olup.

**UZUN SU** (Nehrəm) – Araz çayı. –Səhər uzun suya balığa gedəciyix'.

## Üü

**ÜÇƏM** I (Qazançı, Teyvaz) – aşıqla oynanılan qumar. –Üçəm oynanılardı qabaxlar.

**ÜÇƏM** II (Naxçıvan, Ordubad) – 1. bir dəfəyə üç bala doğmuş qoyun, keçi; 2. üç cərgə. –Bizim qalxozun qoyunnarının çoxu üçəm qoyunnardı. –Qatırı üçəm yüklə.

**ÜÇƏYAX** (Naxçıvan) – üstündə xəmir yayılan taxta. –Üçəyax çörəx' bişirməyə gərəx'di.

**ÜFÜRDƏ** (Yaycı) – çörək yapan əllik. –Üfürdəneynən çörəx' yapanda adamın əli yammaz.

**ÜLÜŞ** (Dırnıs) – içərisinə halva qoyulmuş lavaş dürməyi. –Məylisdə ülüş düzəldarıx ki, gələnnərə verəx.

**ÜLÜŞGƏMƏX'** (Dəstə) – solmaq. –Güllərə su verməmişıx, ülüşgüyüp.

**ÜN** (Kolanı) – səs. –Bir vaxdı Kazımın ünü tüşmüdü kəndə.

**ÜRGƏ** (Biçənək) – üşyaşar erkək at. –Ürgəni gətdim bağladım Vəli:n qapısına.

**ÜRKÜTMƏX'//ÖRKÜTMƏX'** (Ordubad) – qorxudub qaçırmaq. –Mənafı ürkütdün, ta bir də bıyızdara gəlmiyəcax.

**ÜRÜŞÜL//RÜŞÜL** (əksər şivələrdə) – heyvanın çiy haram iliyi ilə qarışdırılaraq yumrulanmış süd qurusu. –Ürüşülü çiməndə arvatdar üzünə sürtür, kir çıxardır o.

**ÜSDƏLİX'//ÜSTƏLİX'** (Axura, Düdəngə) – yük, dəvəyə yüklənən yük. –Üsdəlix' dəvənin üsdünə qoyulan yükə

deyilir.

**ÜSGÜ ÇƏRŞƏNBƏ** (Şahbuz) – boz ayın ikinci çərşənbəsi. –Üsgü çərşəmbədən gərəx' buğda qoyasan kin, ilaxıra qədər göyərsin.

**ÜSGÜX'** (Payız) – arı şanının qovuqcuğu, şandakı gözcük.

**ÜSRƏT** (Qıvraq) – çətinlik. –Mən balalarımı min bir üsrətnən yekəltmişəm.

**ÜŞƏMƏX'//ÜŞƏLƏMƏX'** (Şahbuz) – sarımaq. –İpləri üşəmişəm yığmışam yanbayan.

**ÜŞƏNMƏX'** (Biçənək) – qorxmaq. –Gecə vaxdı mən üşənirəm eşiyə çıxmağa.

**ÜŞKÜRƏX'** (Cəhri, Vayxır) – fit. –Deyillər arvat əvdə üşkürəx' çalsa əvin bərəkəti qaçır.

**ÜŞTRİNCİ TUTMAX** (Teyvaz) – oynamaq, rəqs etmək.

**ÜTMƏX'** (Naxçıvan) – saymamaq. –Mən heş kimi ütmürəm.

**ÜTÜX'** (Babək, Naxçıvan) - əlindən hər iş gələn, qoçaq. –Mənsura ütüx' arvatdı, əlinnən inni-cinni qutarmaz.

**ÜYÜŞMƏX'** (Ordubad) – meyvənin qurumağa başlayanda yavaş-yavaş büzüşməsi. –Alçanı sərmişdim həyətə, üyüşüp ta.

**ÜZBƏSURAT** (Keçili) – üzüzə, üzünə. –Üzbəsurat gələndə sözdərim mar saxlamışam, deyəcəm, hər kişdə

eşidəcəx'.

**ÜZDƏMƏX'** (Yaycı) – seçib yaxşılarını götürmək. – Gələn kimi cəvizi üzdədi.

**ÜZDÜ** (əksər şivələrdə) – yağlı. –Kətdən qəşəx' üzdü pənir göndəriplər.

**ÜZƏX'** (Nüsnüs) – çarıqda bağ keçirilən ilgək.

**ÜZGÜNTÜ//ÜZGÜNÇÜ** (Babək, Naxçıvan) – zəhlə tökən, əl çəkməyən. –O çox üzgüntü adamdı, çətini ilişincəndi, ta əl çəx'məz.

**ÜZÜX'MƏX'** (Naxçıvan) – gəlmək. –Nə vaxdandı xatalı kimin İrza da bıralara üzüx'mür.

**ÜZÜQOYLU//ÜZÜQUYLU** (əksər şivələrdə) – üzü üstə. –Yazıx ilişdi daşa, üzüqoylu getdi yerə.

**ÜZÜLÜŞMƏK** (Naxçıvan) – haqq-hesabı qurtarmaq. – Danqa Mamednən üzülüşdüx' ta.

# Vv

**VAHOLANKİ** (Maxta) – amma, ancaq, lakin. –Mən də gələciydim, vaholanki uşaxlar imkan vermədi.

**VAXD ELƏMƏX'** (Qarabağlar) – az qalmaq. –Hersimnən vaxd eliyirdi ki, ürəyim partdasın.

**VARO:UT** (Naxçıvan) – fikrən ölçüb-biçmə, fikirləşmə, götür-qoy etmə. –Mən çox varo:ut elədim, amma bir yerə çıxammadım.

**VAYINA OTURMAX** (Naxçıvan) – yas saxlamaq, yasında oturub ağlamaq. –Sə:n kimi adamın vayına oturum, sən heç olmasan bınnan yaxşıdı.

**VAYQANNI** (Oğlanqala) – həmişə pis xəbərlər verən adam, xeyirsöyləməz. –Vayqannı bədağız adamdı.

**VAZ** (Milax) – keyfiyyətli ipək. –Bu ipəx' vazdı.

**VEYRAN** (Nəsirvaz) – kiçik su arxının ana arxdan ayrıldığı yer. –Durup veyranın yanında səni gözdüyür.

**VƏDƏ YELİ** (Keçili, Külüs) – vaxtında əsən külək. Xalq arasında daha çox fevralın sonunda, ikinci çərşənbədə əsərək qarları əridən isti küləyə deyilir.

**VƏĞƏM** (Boyəhməd, Kırna) – həddindən artıq yetşmiş, biçilmək vaxtı keçmiş (taxıl). –Taxılımız beləcə vəğəm oldu.

**VƏHMƏLİ** (əksər şivələrdə) – hər şeydən qorxan. –Qız elə bilginən ki, vəhməlidi, hər şeyə çığırır.

**VƏL//GƏM** (Naxçıvan, Şahbuz) – enli taxtadan altına

şiş uclu daş və ya dəmir parçası vurulan və xırmanda taxıl döymək üçün istifadə edilən alət. –Öküzü vəl qoşurux.

**VƏLÇİ** (Culfa, Şahbuz) – vəl sürən adam. –Vəlçi xərmən döyəndə vəli sürən adamdı.

**VƏLƏDEZNA ARI** (Biçənək, Kolanı) – beçələyən zaman yerini səhv salan arı.

**VƏLİVƏS** (Nəzərabad, Sirab) – vəsiyyət. –Vəlivəsimi indidən eləmişəm balalarıma.

**VƏLLİX'** (Daylaqlı) – vələ qoşulan cavan öküz, dana.

**VƏNƏNDİ** (Ordubad) – qoz növü.

**VƏR** (Yaycı) – qazılmış torpaq xətti.

**VƏRBƏVƏR** (Naxçıvan, Şahbuz) – get-gedə, tədricən. –Məmiş kişi vərbəvər setqanı çəkir qoyur bizim tərəfə.

**VƏRDƏNƏ** (əksər şivələrdə) – yoğun oxlov. –Vərdənə də axlovdu, əmə yoğun olur.

**VƏRDİC//VƏRDİŞ** (Tivi) – evin damına qoyulan tir. –Vərdic dam üsdə olur.

**VƏRAĞASIN BÜX'MƏX'** (Biçənək) – qurtarmaq, son qoymaq, bir daha həmin məsələyə qayıtmamaq. –Kərəm ta əvlənməyin vərağasın pükər bınnan sora.

**VƏRƏMUM** (Babək, Culfa)//**BƏRƏMUM** (Sədərək, Şahbuz) – arı mumu. –Vərəmum dərmandı.

**VƏRƏNGALAN//VARANGALAN** (Babək, Şahbuz, Şərur) – xalça toxuyan zaman ərişi tənzimləyən ağac.

**VƏRƏVÜRD ELƏMƏ** (Biçənək) – diqqətlə baxmaq,

nəzər salmaq. –Əvvəl girən kimin bir vərəvürd elədi, sohra otdu.

**VƏRƏZƏN** (Şərur) – üzüm qurudulan yer. –Vərəzəndə mev səririx'.

**VƏRYAN** (Culfa, Ordubad, Şahbuz) – tarlanın ayrı-ayrı hissələrini suvarmaq üçün əkin sahəsinin baş tərəfindəki arxdan ayrılan su. –Bıralara suyun gəlməyinnən yana vəryanı çöndərməx' lazımdı.

**VƏRYANA VERMƏX'** (Mahmudkənd) – güdaza vermək, satmaq. –Həmən dəyqə məni vəryana verdin.

**VƏZİRALI** (Qahab) – gavalı növü.

**VƏZM** (Daylaqlı) – nəbz. –Hersimnən vəzmim nə:m neçə vırıdı.

**VƏZNƏ** (Payız) – geymənin (çuxanın) döşündəki gözlərə taxılan sümük və ya gümüş qapaqlı taxta çubuqlar.

**VIRDIVIŞIL** (Ordubad) – səliqəsiz geyinən. –Bir göyçəx' gəlindi, əmə vırdıvışıldi.

**VIRDIVIZAN** (Şərur) – qarışıqlıq. –Xapdan bir vırdıvızan tüşdü ki, gəl görəsən.

**VIRQINNAMAX** (Teyvaz) – oğurlamaq. –Lapatqa:n birin vırqınnamışam, hələ Şəmi dimmir.

**VIRNIXMAX** I (Naxçıvan) –daim hərəkətdə olmaq. –Sə:rdən vırnıxıram, ama hələm bir iş görəmməmişəm.

**VIRNIXMAX** II - bir şey demək istəyib deyə bilməmək. –Gö:rəm mökgəm vırnıxırsan, de görüm nə

diyəssən.

**VIZQAN** (Çərçiboğan) – kamança. –Yoladaşım ge:p şəhərdə vızqanın məx'dəbin oxuyup gəlip.

**VİDVİDƏ** (Tumaslı) – bir yerdə dura bilməyən. –Uşağ elə bilginən belə vidvidədi, bir havır dayammır.

**VİRDİNİ SALMAX** (Naxçıvan, Ordubad) – meylin salmaq. –İndi də Hünər virdini salıp papruza.

## Yy

**YADIRQAMAX** (əksər şivələrdə) – yaddan çıxarmaq, unutmaq. –Uşax nəvaxdı bizi görmür, yadırqıyıpdı.

**YAĞDAN** (Qaraçuq) – lampanın neft tökülən hissəsi. –Yağdan deşildi, qalmışıx qarandırıxda.

**YAĞIR** (Culfa, Şahbuz, Şərur) – yəhərin sürtməsi nəticəsində atın belində əmələ gələn yara. –Tərrix' qoymuyanda yəhər sürtür, yağır eliyir. –O qədə cappısan ki, atın beli əməlli-başdı yağır olub.

**YAĞLICA** (Keçili) – gəvənə bənzər yabanı bitki. –Bizim yerrərdə gəvənə yağlıca deyillər.

**YAĞLIQARA** (Babək, Naxçıvan) – qanaxmanı dayandıran türkəçarə dərman. –Bir yağlıqara eliyib yarasına basdılar, qanı o sahatcana kəsdi.

**YAĞSOV** (Naxçıvan) – yağlı, yağı yaxşı təmizlənməmiş. –Qabları sürtməsən yağsov olar.

**YAXINKEŞ** (Şahbuzkənd) – dərin boşqab. –Yaxınkeşdə xorəx' yeyillər.

**YAIL GEÇİ** (Daylaqlı) – üzündə qırmızı tük olan keçi. –Sürüdə bir yaıl geçim mar.

**YALAX** (Türkeş) – hananın yan ağaclarının basdırılıdğı yer. –Yalax göy hanasında olur.

**YALANQUŞDAN** (Naxçıvan) – yalandan. –Sə:nki elə yalanquşdan söz verməx' olsun.

**YALINQAT** (Ərəzin) – nazik, yüngül. –Əynində bir

yalınqat köynəx' varıydı.

**YALQUZAX** (əksər şivələrdə) – qurd. –Gecə vaxdı getmə, yalquzağa rast gələrsən.

**YALLATMAX** (Naxçıvan) – aldatmaq. –Kişini yalannan yallatmışam ki, qız qonşudadı.

**YALLIBAŞI** (Şərur) – yallı oyununa başçılıq edən adam. –Uşaxları durquz bir yallı tutsunnar, yallıbaşı da özüm olacam.

**YALVAR-YAPIŞ ELƏMƏX'** (əksər şivələrdə) – yalvarmaq. –Nəqədə yalvar-yapış elədix' olmadı, bizi saya salmadılar.

**YAMAŞ//QAÇAX//YALAX** (Biçənək, Külüs, Şada) – dağların döşündə əkin üçün düzəldilmiş yer. –Yamaş yerdə yaxcı məhsul olmaz.

**YANBIZ** (Cəhri) – yan, yançaq. –Başın hakkı yanbızına elə bir dəyənəy ilişdirdim ki.

**YANÇI** (Culfa, Şahbuz, Şərur) – köməkçi, xalça, palaz toxuyana kömək edən adam. –Minoş da bibimin yançısıdı.

**YANDAMI** (Naxçıvan) – anbar kimi istifadə edilən, artıq əşyaların, qış azuqəsinin yığıldığı tikili. –İsdiyirix' əvin böyründə bir yandamı tikəx', əlimiz-avcımız nəyimiz var yığax ora.

**YANIXLI** (Vayxır) – acıqlı. –Ay bala, biz elə bı ermənilərin əlinnən illərdi yanıxlıyıx da.

**YANIMLI** (əksər şivələrdə) – can yandıran, qayğıkeş. –Yanımlı adama can qurbandı, vay odu beyvecinə irasd olasan.

**YANQU** (Naxçıvan, Oğlanqala) – 1. susuz; 2. nəyə isə tamarzı qalan. –Suyumu dəyişəndə yanqu oluram.

**YANNAMAX** (Alışar) – yanına getmək, öz işini həll etmək üçün birinə yaxınlaşmaq. –Yetim Hüsen bəyaxdan yannıyıp kişini nəm nə deyir.

**YANNIX//YAN AĞACI//ANNA** (Şahbuz) – hananın yan ağacları. –Yannığı ağaşdan özümüz kəsip düzəldirix'.

**YANPERTİ//YANPÖRTÜ** (əksər şivələrdə) - əyri, yanı üstə. –Belim ağrıyannan ta yanperti gedirəm.

**YANŞAX** (Naxçıvan, Şahbuz) – çoxdanışan. –Bəsdi yaxşı, yanşaxlıx eləmə.

**YAPAĞI** (Babək, Culfa, Şahbuz) – yazda qırxılan yun. –Yapağını yazın axırrarında qırxırıx.

**YAPBA** (Babək, Culfa, Naxçıvan) – təzək. –Kət qızları axşama kimi peyin daşıyır, yapba yapıllar.

**YAPIŞIXLI** (Naxçıvan) – mehriban, tez ünsiyyət quran. –Çox xoşagəlim yapışıxlı bir qızdı.

**YAPRIXMAX** (əksər şivələrdə) – yapışmaq, yastılanmaq. –Döşəyin yunu təmmiz yaprıxıp.

**YARANMAX** (Naxçıvan) – yaltaqlanmaq. –Nubar təzə müdürə yaranır ki, bəlkəm bir iş verə bına.

**YARDARRIĞINA** (Ağbulaq, Biçənək) – ortaq, şərikli. –Yeri verdim yardarrığına əx'sin.

**YARXALAMAQ//YAYXALAMAQ** (Şahbuzkənd) – su ilə təmizləmək. –Götü o teşti apar axburda yayxala gətgə.

**YARIMAX** (Naxçıvan) – arzusuna çatmaq, razı qalmaq. –Yarımadıx isdisinə, kor oldux tüsdüsünə (Atalar sözü).

**YARIMKÖÇƏRİ** (Babək, Culfa)//**YAYLAXCI** (Babək) – yayda yaylağa, qışda qışlağa köçən əhali.

**YARIMMƏNSİL** (Cəhri, Naxçıvan, Şıxmahmud) – yarımçıq (daha çox xəstə insana aid edilir). –O illəri Tavatın bir böyrəyin götdülər, oldu yarımmənsil, qaldı orda.

**YARIMYEYLAX** (əksər şivələrdə) – yarımçıq, başa çatmamış iş. –Bı qız nə iş görsə yarımyeylax görər.

**YARKAN** (Biləv)//**YELAN** (Dizə)//**TUT SIRFASI** (Naxçıvan) – tut çırpmaq üçün ağacın altına tutulan müxtəlif parçalardan hazırlanmış örtük. –Nənəm irəhmətdix' çadırdan yelan tikərdi belə səlqəli.

**YASSAR** (Oğlanqala) – pis, bacarıqsız. –Sən çox yassar adamsan.

**YASTAN** (Biçənək, Kolanı) – dağın ətəyi.

**YAŞDAŞ** (əksər şivələrdə) – eyni yaşda olan, yaşıd. –Biz Turabnan yaşdaşıx, birimci sınıfa da bir getmişix'.

**YAŞMAX** (əksər şivələrdə) – qapı və ya pəncərə çərçivəsinin yanlarına vurulan ensiz taxta. –Qapı:n qoyup usda, bi dənə yaşmaxların vırmax qalır.

**YAŞMAX VIRMAX** (Nehrəm) – üz gizlətmə, bir şeylə örtmə. –Bınnan əzələ arvatdar hammısı yaşmax vırardı.

**YATIR** (Ağbulaq) – var-dövlət. –Babalarınnan onnara yatır qalmışdı.

**YAVA** I (Şahbuzkənd) – pis. –Yava iş gərəx' görüp baisgarrığ eləmiyəsən.

**YAVA** II (Çərçiboğan) – kəsərsiz, sözü keçməyən. – Dedim, ay Sartel, sən əvvəldən ağzıvı yava örgətmisən.

**YAVIX** (Biləv, Tivi) – yaxın. –Əvləri uzax dəyil yavıxdı.

**YAVIMAX** (Naxçıvan) – uyğunlaşmaq, öyrəşmək, yaxınlaşmaq. –Tutu təzə gələndə heç adama yavımırdı.

**YAVINCI** (Culfa, Şahbuz) – möhtac. –Səni görüm yavıncı qalasan.

**YAYXANMAX** (Babək, Culfa, Naxçıvan) – sərilib oturmaq. –Elə də yayxana-yayxana oturmuşdu ki.

**YAZABUĞA** (Sələsüz, Türkeş) – buğa həddinə çatmış erkək sığır.

**YAZI** (Kolanı, Şahbuzkənd) – çöl, səhra, düzənlik. – Davarı apar yazıya.

**YAZ QODUĞU** (Naxçıvan) - ərköyün, dəymədüşər. – Elə də əzilirdi ki, elə bil yaz qoduğudu.

**YEDDİARXADÖNƏN** (əksər şivələrdə) – nəsil, tayfa, soy-kök. –Soltanın yeddiarxadönəni bı kətdə yaşıyıp.

**YEDDİLƏVİN** (Tivi) – xonça. –Yeddiləvini təzə gəlinə düzəldarıx. Bu söz yeddi cürə şirni mənasını verir. Oğlan evi qız evinə şirni apararkən, orada şirninin müxtəlif növləri olur. Buna görə şirninin növünün çoxluğunu göstərmək məqsədilə ona yeddiləvin adı verilmişdir (4, s.235).

**YEKƏXANA** (Naxçıvan, Şərur) – lovğa. –Vəli özün çox yekəxana aparır.

**YELƏN** (Naxçıvan) – kiçik palaz. –Yeləni atıp oturarıx palqunda.

**YELƏNNƏMƏX'** (Cəhri) – hirslənmək. –Elə əvi yıxılımış bir söz deməmiş yelənniyir.

**YELİNSAV** (Sələsüz) – mal-qaranın yelinində əmələ gələn xəstəlik. –Yelinsav mal xəsdəliyidi.

**YELKAN** (Ləkətağ) – külək tutan sərin yer. –Balqunumuz qəşəx' yelkandı, yay uzunu günümüzü urda savarıx.

**YELLİ** (Culfa, Naxçıvan) - əsəbi, hirsli. –Bir adam hersdənəndə diyərix' ki, hələ yellidi, dindirmə.

**YELPƏNƏX'** (Bənəniyar) – xiyar. –Yelpənəx' indi ta savıhasavışdı.

**YEMÇİLƏR** (Şahbuz) – ananın şan qovucuqlarına qoyduğu sürfələrə qida paylayan, qulluq edən arılar. –Ana yumurtanı qoyur, əməancax yemçilər yumurtalara qulluğ eliyir.

**YEMLİX'** I (Babək, Kəngərli, Şahbuz) – sünbülləmiş, yem üçün yararlı olan zəmi.

**YEMLİX'** II//**YELMİX'** (Naxçıvan, Şahbuz, Şərur) – yabanı bitki. –Yemliyi duzduyup yeyillər.

**YENDİRMƏX'** (Ləkətağ, Naxçıvan, Türkeş) – özünə sığışdırmamaq, saymamaq, hörmət qoymamaq, bəyənməmək. –Sənəmin qızı çox özünnən müşdəbehdi, yendirib adama salam da vermir.

**YESİR** (Naxçıvan, Şıxmahmud) – yorğun. –Ta mən bı toy başdıyannan yesir oldum. –Bı neçə gündü mənim yesirim çıxıbdı.

**YEY** (Biləv) – yaxşı. –Sənnən yey olmasın Məhı də yaxcı adamdı.

**YEYİN** (əksər şivələrdə) – cəld. –Yeyin-yeyin gəldim nəfəsim tıncıxdı.

**YIĞAN** (Kolanı) – xırmandakı taxılı və ya samanı bir yerə toplamaq üçün taxtadan düzəldilmiş alət. –Yığannan taxılı, samanı yığırıx bir yerə.

**YIĞCAM** (Dəmirçi) – qənaət etməyi bacaran. –Gərəx' yığcam olasan ki, əv-eşix' ola biləsən.

**YODUĞ** (Naxçıvan) – uşaqları söyərkən işlədilən söz (qoduq mənasında). Bu söz "Divani-lüğət it türk"də də eyni mənada verilmişdir.

**YOLAĞA** (Maxta) - əsas yol, qayda-qanun. –Yolun, yolağasın öyrənəy, onnan sora.

**YOLMALAMAX** (Vayxır) – yolmaq, bərk yolmaq. – Onu elə yolmaladılar ki, ömür billah yadınnan çıxmaz.

**YOLOTU** (Ərəfsə) – yabanı bitki.

**YOLPA** (Biçənək, Oğlanqala) – qoyun kəsiləndən sonra dəridən yolunan yun. –Qoyunun dərisinnən əlimiznən yolurux yolpanı.

**YOSUNNU** (əksər şivələrdə) – bənzər. –Bı anası yosunnu harda qaldı gəlib çıxmadı.

**YÖNNƏŞMƏX'** (Şəkərabad) – razılaşmaq. –Biz bı Mısdafaynan yönnəşəmmirix' da.

**YÖNNÜ** (Cəhri) – layiqli, keyfiyyətli, qiymətli. –Hər kişdə isdiyər ki, alanda yönnü şey alsın.

**YUXA** (əksər şivələrdə) – nazik, davamsız. –Mə:m ürəyim yuxadı.

**YÜX'** (əksər şivələrdə) – üst-üstə yığılmış yorğan döşək. –Yüx'dən bir döşəx' çıxart, açax qonağın altına.

**YÜX'TÖKƏN AT** (Badamlı) – yükünü tökməyə çalışan at. –Yüx'tökən atı gərəx' çox yüx'ləmiyəsən.

# Zz

**ZAĞ//ZAĞLAMAX** (Didivar, Xəlilli) – düzəltmək. –Üzü qışa gedirix', özüvü bir yaxşı zağla ki, noxoşduyub eləmiyəsən.

**ZAĞA** (Ordubad, Şərur) – mağara. –Dağların arasında bir zağa var, dəvri-qədimnən.

**ZAĞAR** (Badamlı) – alçaq boylu adam. –Hüsen kişi zağardı, həmi də ibnədi.

**ZAHMAN** (Şahbuz) – iki əkin sahəsi arasında əkilməyən, otunu biçmək üçün saxlanılan yer. –Zahmannan pişdiyimiz ot da elə bizi xeylax ötüşdürdü.

**ZARINCI** (Naxçıvan) – yataq xəstəsi. –Bəşir oqədən camahata zulum verdi, indi özü də qalıp zarıncı.

**ZAYILDAMAX** (Hacıvar) – boş-boş danışmaq. –Biri boş danışanda deyirix', nə zayıldıyırsan.

**ZELAF** I (Bulqan, Naxçıvan) – üzlü, sırtıq. –Ta Qasım qapılarda zelaflaşıp.

**ZELAF** II (Cəhri)//**ZİLAN** (Naxçıvan) – hər tərəfi sürtülmüş aşıq. –Zelafnan uşaxlar oyun oynuyullar. –Aşığın sürtülmüşünə bizdərdə zilan aşıx diyəllər.

**ZERZƏMİ** (Naxçıvan) – evin altında yer, anbar. –Atalar deyir ki, zerzəmidə oturup balaxana yuxusu görür.

**ZƏDƏN-ZƏDƏN** (Aza, Bist) – gildir-gildir. –O yazıx qundax elə ağlıyır, gözünnən zədən-zədən su gəlir.

**ZƏHƏNDƏ** (Naxçıvan) – zəhlə aparan, çox danışan. –

Zəhəndənin biridi, adamı bezdirir.

**ZƏQQƏTÖV** (Düdəngə)//**ZƏQQƏTOV** (Naxçıvan) – çox turş, tumturş. –Göycə elədi ki, zəqqətov.

**ZƏLİL-ZİRDƏST** (Qabıllı) – kor, şikəst. –Ma: nətər od qoydusa dedim, səni zəlil-zirdəst qalasan, bala.

**ZƏLLƏ** (Sələsüz) – xəsis. –Zəllə adamın malı qıymatdı olar.

**ZƏNCİRƏ** (Ordubad) – arxalığın ətəyinə tikilən bəzəkli gümüşü haşiyə. –Qəbaxlarda zəncirəli ərxalıx geyərdilər.

**ZƏNƏX'** (əksər şivələrdə) – zəhlətökən. –Çox zənəx'lix' eliyən adamı gərəx' yaxın qoymuyasan.

**ZƏRDƏ** (Kələki) – kök. –Zərdə yerkökküdü.

**ZƏRZİBA** (Badamlı) – bər-bəzək. –Üsdündə oqqədə zərziba var ki, adamın gözü qamaşır.

**ZƏRZİBONSKİ** (Naxçıvan) – həddindən artıq çox bəzəkli. –Ay qız, hardan tapbısan belə zərzibonski parçanı.

**ZƏYƏRƏX'** (Nüsnüs) – qara küncüt.

**ZƏVZƏX'** (əksər şivələrdə) – çoxdanışan. –Zəvzəx' adam çox danışar, əmə boş danışar.

**ZƏYƏRƏX'** (Oğlanqala) – kətan yağı. –Bir əz zəyərəx'gətgə xəmirə qatax.

**ZIĞ** (Babək, Culfa, Naxçıvan, Ordubad)//**ZIĞ-ZIMIRIX** (Babək) – palçıq. –Gecəki yağışdan sora həyət baş-pütün zığdı. –Uşağın üst-başı zığ-zımırıx içindəydi.

**ZIXCAMAX//ZIXCALAMAX** (Babək, Naxçıvan) – sıxışdırmaq, əzmək. –Əriyi zıxcamısan hörrə eləmisən.

**ZIQQILDAMAX** (Gülşənabad) - əziyyətlə danışmaq, əziyyət çəkmək. –Bitəhər zıqqıdlıdya-zıqqıldıya başa saldı haram arğıyır.

**ZILDIRRAMAQ** (Naxçıvan) – yaranın irinləməsi. –Dizimdəki yara zıldırrıyıp gedip.

**ZINQIROV** (Payız, Sirab) – zəng. –Zınqırovu bağlıyırıx heyvanın boğazına.

**ZIPLAMAX** (Naxçıvan) – ağzına qədər doldurmaq. –Yerdə nə qədə qalıb hamısın zıplayın qutarsın getsin. –Əvdə nə varıydı zıplıyıp sumkuya yerdən üzməx' olmur.

**ZIRAN** (Ayrınc) – oyunda axırıncı adam. –Zıran gərəx' güjdü oyunçudan ola.

**ZIRIMPA** (Naxçıvan) – uzun-uzadı, dayanmadan ağlamaq. –Gənə başladı zırımpanı.

**ZIRRAMA** (əksər şivələrdə) – ağlısız, başa düşməyən. –Nə qədə bı zırrama bırdadı onnan istifadə elə.

**ZIRRAMAX** (Tivi) – atmaq. –Dədəm hesdənən kimi tənikəni zırrıyırdı bizə.

**ZİLƏF** (Şahbuz)//**ZELAF** (Babək, Naxçıvan) – sözə baxmayan, sırtıq. –Zelaf admnan zəx'ləm gedər, xatalı kimin həməşə qabağıma çıxar.

**ZİNƏ** (Babək, Naxçıvan) – suyun lap az-az gəlməsi. –Zinəynən iş görməx' olmur ki.

**ZİNG** (Babək, Şərur) – insan və heyvanda bazı və baldır sümüyü, bu sümükdən hazırlanan yemək. –Qəşəx' zing qoymuşam, obaşdannan yiyəx'.

**ZİNGİRTƏ** (Naxçıvan) – azca, bir parça ət, üzüm və s. –Ürəyim üzüm isdiyir, bir zingirtə qır gəti mənə.

**ZİR** (əksər şivələrdə) – nəlbəki. –Bizdə nəlbəlki dimərix', hammı zir deyir.

**ZİRƏTOV** (əksər şivələrdə) – çəkilmiş düyü və şəkərlə hazırlanan şirin yemək. Bu yemək daha çox zahı qadınlar üçün hazırlanır. –Böyün də zirətov pişir, bir dişimizi dəyişəx'.

**ZİVİŞƏ-ZİVİŞƏ** (Naxçıvan, Tumbul) – sürüşə-sürüşə. –Hər yer buzdu, bir tisbirçiliynən zivişə-zivişə gəlmişəm.

**ZODDU** (Şada) – kiməsə arxalanaraq başqalarını saymayan, özbaşınalıq edən adam. –Zoddu adamın axırı heş yaxcı olmaz. –Çox zoddu-zoddu danışır, diyəsən dalı bərtti.

**ZOĞALLAMAX** (Culfa, Şahbuz) – açıq danışmaq, sözü birbaşa demək.

**ZOĞAL OXUMAX** (Naxçıvan) – lazımsız, boş sözlər danışmaq. –Mənə zoğal oxuma, sözü:n canın de.

**ZOQQULDAMAX** (Babək, Naxçıvan, Şahbuz) – bərk ağrımaq. –Barmağımın yarası irinniyip, zoqqulduyur.

**ZOQQUM** (əksər şivələrdə) – zəhər. –Zoqqum zəhrimara diyəllər bizdərdə.

**ZOPA//ZOLA** (Danyeri, Kırna) – ağacdan meyvə salmaq üçün çubuq. –Əlimiz yetmiyən yerrdəki meyvəni də zopaynan salırıx.

**ZUFA OTU** (Ordubad) – yabanı bitki.

**ZÜLÜ GETMƏX'** (Kolanı, Naxçıvan) – can atmaq, bir şeyi çox istəmək. –Nə vaxdı zülü gedirəm kin, Samaya ma: gəbə toxumağ örgətsin.

**ZÜRCƏX'** (Qaraçuq) – sürüşkən. –Pillələr zürcəyidi, əyağım getdi, dəydim yerə.

**ZÜRYƏT** (Aşağı Qışlaq, Kolanı) – övlad. –Nağı Ursetdən gəldi bırda əvləndi, əməancax züryəti də olmadı.

**ZÜV GETMƏX'** (əksər şivələrdə) – sürüşmək. –Ziv getdim yıxıldım, qıçım neçə aydı bağlıdı.

**ZÜYÜLDƏMƏX'** (Naxçıvan) – yavaşca getmək, əkilmək. –Lotu dimməz-söyləməz züyüldüyüb minbərdən tüşür yerə.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan dilinin dialektoloji lüğəti. I cild. Ankara: Kılıçaslan Matbaacılık, 1999, 661 s.
2. Azərbaycan dilinin dialektoloji lüğəti. II cild. Ankara: TDV Yayın Matbaacılık, 2003, 653 s.
3. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Şərq-Qərb, 2007, 568 s.
4. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1962, 326 s.
5. Azərbaycan dilinin Dərbənd dialekti. Bakı, Elm, 2009, 448 s.
6. Bayramov A. Bayramova A. Ağbaba şivəsi sözlüyü. Bakı, "AM965" MMC-nin mətbəəsi, 2014, 280 s.
7. Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı, Elm və təhsil, 2011, 440 s.
8. Behbudov S. Azərbaycan dili şivələrinin omonimlər lüğəti. Bakı: Nurlan, 2003, 206 s.
9. Əhmədov M. Naxçıvan şivələrinin lüğəti. Bakı, Atilla, 2001, 167 s.
10. Ələkbərli Ə.Y. Qərbi Azərbaycanın dialektoloji lüğəti, I kitab, İrəvan Çuxuru. Bakı: "Ağrıdağ", 2009, 192 s.
11. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı, Elm, 2003, 579 s.
12. Əliyeva N.Y. Azərbaycan dilinin Şahbuz şivələri. Bakı, Elm və təhsil, 2012, 192 s.
13. İraq-türkman ləhcəsi. Bakı, Elm, 2004, 422 səh.
14. Quliyev Ə.A. Nahçıvan ağızları söz varlığı. Ankara, BRC basım, 2010, 96 s.
15. Məmmədli M. Azərbaycan dilinin Təbriz dialekti. Bakı: 2007, 240 s.
16. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq-Qərb, 2008, 416 s.
17. Şirəliyev M. Bakı dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1949, 250 s.

**ƏBÜLFƏZ QULİYEV**
**NURAY ƏLİYEVA**

# NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNİN LÜĞƏTİ

Yığılmağa verilmiş 04.05.2017.
Çapa imzalanmış 08.05.2017.
Formatı 60X90 1/16. “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 18.5 ç.v.
Sifariş № 380. Tiraj 100 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1